# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# OTUZ BEŞİNCİ KİTAB

## FEVRAL 2009 - APREL 2009

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 396 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – Məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına, Küveyt, Yunanıstan və İran İslam Respublikasına rəsmi və işgüzar səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqları, həmçinin ölkəmizə rəsmi səfərə gələn Ukrayna prezidenti və onun başçılıq etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüşlərə və danışıqlara dair materiallar dərc olunmuşdur. Bütün görüş və danışıqlarda Azərbaycan prezidenti Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, dünya dövlətlərini Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Kitabda regionların sosial inkişaf proqramının həyata keçirilməsi ilə əlaqədar Bərdə, Yevlax və Mingəçevir şəhərinə səfəri zamanı bölgənin sosial-iqtisadi və mədəni cəhətdən inkişafına həsr olunmuş çıxış və tövsiyələri yer almışdır.

Bu cilddə, həmçinin Bakıya səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, YUNESCO-nun Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzində «Muğam aləmi» Beynəlxalq festivalının, həmçinin Müasir İncəsənət Muzeyinin açılışındakı çıxış və nitqləri verilmişdir.

**İSBN 978-9952-8100-7-3**

$$Я\ \frac{0801000000}{М - 651(07) - 2016}$$

**ББК - 32**

© Azərnəşr, 2016

**İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ**

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Milli bayramınız – İslam inqilabı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və mehriban qonşuluq münasibətləri mövcuddur. Əminəm ki, belə bir təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz bundan sonra da xalqlarımızın mənafelərini əks etdirərək rifahımıza xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2009-cu il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam inqilabı günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz dost və qonşu ölkələrimiz arasındakı münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, qarşılıqlı dəstəyə və etibara əsaslanan münasibətlərimizin, faydalı əməkdaşlığımızın zəngin ənənələrini müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2009-cu il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ
## ZATİ-ALİLƏRİ
## CƏNAB VALDAS ADAMKUSA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Litva dövlətinin bərpası günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Litva münasibətləri bu gün özünün dinamik inkişaf dövrünü yaşayır. Daim genişlənən ikitərəfli əlaqələrimiz, bir çox sahələrdə, xüsusən enerji təhlükəsizliyi məsələlərində fəal əməkdaşlığımız məmnunluq doğurur.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olan işbirliyimizin möhkəmləndirilməsi və dərinləşdirilməsi yolunda atdığımız addımları və qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2009-cu il*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Küveyt arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da əlaqələrimizi bütün sahələrdə genişləndirəcək, beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızı müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 fevral 2009-cu il*

## BRUNEY DARÜSSALAMIN SULTANI
## ƏLAHƏZRƏT HACI HƏSSƏN AL BOLKİAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bruney Darüssalam arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 fevral 2009-cu il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Estoniya münasibətləri hazırda yeni mərhələyə qədəm qoymuşdur. Əminəm ki, bu yaxınlarda ölkəmizə səfəriniz, keçirdiyimiz görüşlər, apardığımız fikir mübadiləsi, imzaladığımız Birgə Bəyannamə dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsinə mühüm töhfə verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 fevral 2009-cu il*

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Əli Babacanı qəbul etmişdir.*

*Əli Babacan Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev ötən ay Davosda Baş nazir Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırlatdı.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ

*10 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveytə rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportundan Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Küveyt Dövlətinə rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Küveytin dövlət bayraqları ilə bəzədilmiş Əl-Küveyt Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah, Küveyt vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah, Milli Məclisin sədri Casim Məhəmməd əl-Xərafi, Baş nazir şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.Milli geyimli uşaqlar Azərbaycan prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Azərbaycanın və Küveytin dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Küveyt Dövlətinin rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha təqdim edildi.*

*Sonra dövlət başçıları arasında qısa protokol söhbəti oldu.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHIN GÖRÜŞÜ

*Əl-Küveyt*

*10 fevral 2009-cu il*

*Küveyt paytaxtının «Bəyan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın görüşü olmuşdur.*

*Görüşdə iki ölkə arasında münasibətlərin inkişaf etdiyi, siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycanla Küveyt arasında iqtisadiyyat, ticarət, turizm, investisiya sahələrində əlaqələrin inkişaf etdirilməsindən söhbət açıldı.*

*Dövlət başçıları beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

* * *

*Görüş başa çatdıqdan sonra Azərbaycan prezidentinin və Küveyt Dövləti əmirinin yüksək dövlət ordenləri ilə qarşılıqlı təltif edilməsi mərasimi oldu.*

*Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan «Mübarək əl-Kəbir» ordenini təqdim etdi.*

*Prezident İlham Əliyev əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha Azərbaycanın ali mükafatını – «Heydər Əliyev» ordenini təqdim etdi.*

*Mərasimdə Küveytin vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər, Azərbaycan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 fevral 2009-cu il*

*Ali dövlət mükafatlarının təqdim edilməsindən sonra «Bəyan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlığa dair Birgə komissiyanın yaradılması haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Küveyt tərəfindən Baş nazirin müavini və Xarici İşlər naziri Məhəmməd Sabah əl-Səlim əs-Sabah, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Küveyt tərəfindən Maliyyə naziri Mustafa Casim əl-Şimali, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfindən Vergilər naziri Fazil Məmmədov, Küveyt tərəfindən Maliyyə naziri Mustafa Casim əl-Şimali, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət sazişini Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Küveyt tərəfindən Ticarət və Sənaye naziri və Milli Məclis işləri üzrə Dövlət naziri Əhməd Yaqub Bağır əl-Abdullah, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Küveyt tərəfindən Ticarət və Sənaye naziri və Milli Məclis işləri üzrə Dövlət naziri Əhməd Yaqub Bağır əl-Abdullah imzaladılar.*

## KÜVEYT TİCARƏT VƏ SƏNAYE PALATASI İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Bəyan» sarayında Küveyt Ticarət və Sənaye Palatası İdarə Heyətinin sədri Əli Məhəmməd Sünayən əl-Ğənim ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndiyi məmnunluqla vurğulandı. Bildirildi ki, qarşılıqlı iqtisadi-ticarət əlaqələri mövcud potensiala cavab vermir və bu əlaqələrin genişləndirilməsi üçün konkret tədbirlərin görülməsi zəruridir.*

*Söhbət zamanı qarşılıqlı investisiyaların qoyulması, birgə müəssisələrin yaradılması və digər konkret istiqamətlərdə işlərin görülməsinin vacibliyi vurğulandı və əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu.*

## KÜVEYT MİLLİ MƏCLİSİNİN SƏDRİ CASİM MƏHƏMMƏD ƏL-XƏRAFİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Bəyan» sarayında Küveyt Milli Məclisinin sədri Casim Məhəmməd əl-Xərafi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanla Küveyt arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu, Azərbaycan prezidentinin Küveyt Dövlətinə rəsmi səfərinin qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyi vurğulandı. Parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunulan görüşdə bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından yaxşı perspektivlərin mövcudluğu bildirildi, münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Bəyan» sarayında Küveyt Dövlətinin Baş naziri şeyx Nasir əl-Məhəmməd əl-Əhməd əs-Sabah ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafı vurğulandı, iqtisadi əlaqələrin genişlənməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

*Azərbaycan prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfərinin əhəmiyyətinin xüsusi vurğulandığı görüşdə ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*10 fevral 2009-cu il*

*Fevralın 10-da «Bəyan» sarayında Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

### Səfər başa çatdı

*Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Küveytin dövlət bayraqları ilə bəzədilmiş Əl-Küveyt Beynəlxalq Hava Limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın və Küveytin dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyevi Küveyt Dövlətinin əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah və ölkənin digər rəsmi şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏR İŞÇİLƏRİNİN İŞTİRAKI İLƏ İCLAS

*Prezident sarayı*

*11 fevral 2009-cu il*

*Fevralın 11-də Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə Qoşunlarının komandanı – Respublika Müdafiə nazirinin müavini, general-leytenant Rail Rzayevin qətli ilə əlaqədar prezident İlham Əliyevin yanında hüquq mühafizə orqanlarının rəhbər işçilərinin iştirakı ilə iclas keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən bu qanlı cinayəti qətiyyətlə pisləyirəm və Rail Rzayevin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah ona rəhmət eləsin!

Hüquq mühafizə orqanlarından tələb edirəm ki, bu dəhşətli qətl hadisəsini törədənlər və onun sifarişçiləri cinayət məsuliyyətinə cəlb olunsunlar. Bilirəm ki, indi operativ istintaq qrupları yaradılmışdır, işlər gedir, ilkin məlumatlar var. Azərbaycan dövlətinin imkanları çox böyükdür və dövlətçiliyimizə qarşı, dinc əhaliyə qarşı edilən hər bir cinayətkar əməllərə görə onu törədənlər cavab verməlidirlər və cavab verirlər. Azərbaycan dövləti özünü müdafiə etməyə qadirdir. Xalqımız keçən əsrin 90-cı illərinin əvvəllərində də terror aktlarına məruz qalmışdır, günahsız insanlar qətlə yetirilmişdir. Ancaq bütün qanlı hadisələrin üstü açılmış, cinayətkarlar cəzalarını almışlar. Müxtəlif dövrlərdə Azərbaycanda daxili siyasi vəziyyətin gərginləşdirilməsi üçün cəhdlər göstərilir. Ancaq Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilir ki, bütün hallarda hüquq mühafizə orqanları bu cinayətlərin qarşısının alınması, cinayətkar dəstələrin zərərsizləşdirilməsi və məhv edilməsi üçün lazımi tədbirləri görür. Ümid edirəm ki, bu dəhşətli hadisəni törədənlər də cinayət məsuliyyətinə cəlb olunacaqlar.

## XIRDALAN DAİRƏSİNDƏ TUNEL TİPLİ YOLÖTÜRÜCÜNÜN AÇILIŞI

*12 fevral 2009-cu il*

*Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun 11-ci kilometrində – Xırdalan dairəsində tunel tipli yolötürücünün açılışı olmuşdur.*

*Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun yenidən qurulmasına ötən ilin mayında başlanılmışdır. Nəqliyyat Nazirliyinin sifarişi ilə görülən inşaat işlərini «Akkord» şirkətlər qrupu həyata keçirir. Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyə dəstəyi ilə reallaşdırılan bu layihə çərçivəsində yolun 16–134-cü kilometrinə beton örtük döşənməlidir.*

*Beynəlxalq əhəmiyyətli bu yolda yük maşınlarının hərəkətinin intensivliyi nəzərə alınmaqla, qalın beton örtüyün döşənməsi yolun davamlılığını artırır. Magistral boyu 21 körpü və yolötürücü, 10 qovşaq, 15 mal-qara keçidi, 112 boru keçidi, 5 xidmət məntəqəsi olacaqdır. Yenidənqurma işləri üç növbədə aparılır.*

*Avqust ayının 22-də avtomagistralın bir hissəsi olan Bakı–Sumqayıt yolu bütünlüklə tamamlanaraq istifadəyə verilmişdir. Yolun bu hissəsinin açılış mərasimində prezident İlham Əliyev iştirak etmişdir.*

*Yolötürücüdə üzərində* «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə inşa olunmuşdur. İyul 2008 – fevral 2009» *sözləri yazılmış lövhə vurulmuşdur.*

*Dövlətimizin başçısı yolötürücünün açılışını bildirən rəmzi qırmızı lenti kəsdi, bu münasibətlə yol inşaatçılarını təbrik etdi.*

## BAKI–QUBA–RUSİYA DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN 16-cı KİLOMETRİNDƏ YOLÖTÜRÜCÜNÜN AÇILIŞI

*12 fevral 2009-cu il*

*Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil yolunun 16-cı kilometrində körpü tipli yolötürücü istismara verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yolötürücünün tikintisini əks etdirən fotoşəkillərə və sxemə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, yolötürücünün tikintisinə «Akkord» şirkətlər qrupu ötən ilin iyulunda başlamışdı. Tikintidə ən son texnologiya tətbiq edilmiş, daha çox yerli xammala üstünlük verilmişdir.*

*Yolötürücü Xırdalan şəhərindən Sumqayıt və Bakı istiqamətinə gedən avtomobillərin əsas magistralla müxtəlif səviyyəli kəsişməsini təmin edir. Üçaşırımlı yolötürücünün hündürlüyü 5 metr, eni 18 metr, yanaşma yollarla birlikdə uzunluğu 1500 metrdir. 6 hərəkət zolaqlı yolötürücünün aşırım hissəsi yığma dəmir-beton tirlərdən ibarətdir. Bu tirlər «Akkord»un Zığ beton məmulatları zavodunda istehsal olunmuşdur.*

*Yolötürücünün kənarında paslanmayan materialdan məhəccərlər qoyulmuşdur. Bu, hərəkətin təhlükəsizliyini təmin etməklə yanaşı, yola əlavə yaraşıq verir. Ərazidə abadlıq işləri aparılmış, yaşıllıq salınmış, çoxlu ağac və gül kolları əkilmişdir.*

*Prezident İlham Əliyev yolötürücünün açılışını bildirən rəmzi lenti kəsdi, inşaatçıları təbrik etdi, onların işini yüksək qiymətləndirdi.*

## BAKIDA BEYNƏLXALQ AVTOVAĞZAL KOMPLEKSİNİN AÇILIŞI

*12 fevral 2009-cu il*

*Bakıda Beynəlxalq avtovağzal kompleksi istifadəyə verilmişdir. Fevralın 12-də Azərbaycan prezidenti İlham Əliyev Beynəlxalq avtovağzal kompleksinin açılış mərasimində iştirak etmişdir.*

*Bakı–Sumqayıt yolunun kənarında tikilmiş avtovağzalın yerləşdiyi əraziyə gələn dövlətimizin başçısını burada nəqliyyatçılar və inşaatçılar alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev müasir standartlara cavab verən kompleksin rəmzi açılışını bildirən lenti kəsdi və inzibati binada bu nəqliyyat obyektinin tikintisindən, indiki vəziyyətindən bəhs edən filmə baxdı.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin xarici ölkələrə səfərlərindən, prezident İlham Əliyevin ölkəmizin yol infrastrukturunun, nəqliyyat sektorunun inkişafına göstərdiyi diqqət və qayğıdan, nəqliyyat obyektlərinin açılışlarında iştirakından bəhs edən fotoşəkillərdən ibarət guşələr yaradılmışdır.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, 2004-cü ilin mayında təməli qoyulmuş kompleksin sifarişçisi Nəqliyyat nazirliyi, baş podratçı isə «Bakı XXI əsr» şirkətidir. Dünyada avtovağzallar sistemində ən böyüklərindən biri olan bu kompleks yerli və beynəlxalq marşrutlarda sərnişin daşınmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Kompleksin təməli qoyularkən 360 min kubmetr torpaq işləri görülmüş, yaxınlıqdakı yamacın möhkəmləndirilməsi üçün çoxsaylı dirəklər vurulmuşdur. Tikintidə 110 min kubmetrdən çox dəmir-betondan istifadə olunmuş, inşaat prosesinə 100-dən çox texnika, 600 işçi cəlb edilmişdi. Fəhlələrin böyük əksəriyyəti, mütəxəssislərin isə hamısı yerli vətəndaşlardır.*

*Kompleksin şüşə-metal konstruksiya sistemində 1600 ton metal və 24 min kvadratmetr şüşə lövhələrdən istifadə edilmişdir. Daxili bəzək işlərinə 70 min kvadratmetrdən çox üzlük mərmər, 55 min kvadratmetr alüminium üzlük material sərf olunmuşdur. Kompleksdə istifadə olunan materiallar və quraşdırılan avadanlıq Almaniya, İtaliya, Yaponiya, Koreya Respublikası, İsveçrə, Fransa, Ukrayna, Türkiyə, İran, Çin, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan və digər ölkələrə məxsus şirkətlərin istehsalıdır.*

*21,4 hektar sahəni əhatə edən kompleksdə gün ərzində 18-20 min sərnişinə xidmət etmək, 800–950 avtobusu qəbul edib yola salmaq mümkündür. Kompleksə 700 yerlik avtomobil dayanacağı, dörd mərtəbənin hər birində yerləşən ticarət mərkəzi, minik platforması, habelə sərnişin avtobuslarının dayanması üçün meydançalar, ana və uşaq otağı, poçt, teleqraf, bank, rəsmi şəxslər üçün xüsusi xidmət otağı, gözləmə salonları, kafe və yeməkxanalar, saxlama kameraları, oyun zalı, tibb məntəqəsi, beşmərtəbəli 93 yerlik dörddulduzlu mehmanxana daxildir. İstifadəyə veriləndən sonra burada 4 mindən çox vətəndaş çalışacaqdır. Kompleksdə 14 eskalator, 10 lift, müasir havalandırma, videomüşahidə, siqnalizasiya, işıqlandırma sistemləri quraşdırılmışdır. Bu sistemlər kompyuterlə bir məntəqədən idarə olunur.*

*Kompleksə daxil olan texniki servis mərkəzi və yanacaqdoldurma stansiyası 24 saat xidmət göstərəcək. Asma şüşə tavan, şüşə keçid, şüşə örtüklü zallar və digər konstruksiyalar ölkəmizdə ilk dəfə burada tətbiq olunmuşdur. Qış mövsümündə platformaya çıxan körpülərin buz bağlamasının qarşısını almaq üçün qızdırıcı sistem yaradılmışdır. 35 kilovoltluq yardımçı stansiya və 5 ədəd transformator kompleksi elektrik enerjisi ilə fasiləsiz təchiz edəcəkdir.*

*Prezident İlham Əliyev avtobusların elektron formada tərtib olunan hərəkət cədvəli, şəhərlərarası və beynəlxalq sərnişin avtobuslarına biletlərin satış qiyməti cədvəli ilə tanış oldu,*

*əməliyyat zalına baxdı. Burada avtovağzalın ilk sərnişin bileti dövlətimizin başçısına təqdim edildi.*

*Azərbaycan prezidenti kompleksin eyvanından ətrafda aparılan abadlıq işlərini seyr etdi, ana və uşaq, həkim-müayinə otaqlarına baxdı, «Komfort-İnn» oteli ilə tanış oldu.*

*Dövlətimizin başçısına saxlama kameralarından istifadə qaydaları barədə də məlumat verildi. Bildirildi ki, burada sərnişinlər yüklərini 7 gün saxlaya bilər və qaydalar barədə onlara növbətçilər vaxtaşırı təlimatlar verəcəklər.*

*Prezident İlham Əliyev 800 dükandan ibarət ticarət mərkəzi, 500 yerlik yeməkxana ilə tanış oldu, ərzaq mağazasındakı malların keyfiyyəti və qiyməti ilə maraqlandı, yeraltı avtomobil dayanacağına baxdı.*

*Tikinti işlərinin keyfiyyətlə görüldüyünü, müasir standartlara cavab verdiyini bildirən dövlətimizin başçısı nəqliyyatçıları təbrik etdi, Azərbaycanda vətəndaşların rahatlığının təminatı məqsədi ilə bütün yol infrastrukturunun müasirləşdirildiyini və yeni obyektlərin istifadəyə verildiyini bildirdi.*

*Prezident İlham Əliyevə xatirə olaraq Bakı Beynəlxalq avtovağzal kompleksinin maketi təqdim olundu.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Buffalo şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2009-cu il*

## XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN VİDA MƏRASİMİ

*14 fevral 2009-cu il*

*Fevralın 14-də ölkəmizin ictimaiyyəti müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, görkəmli şair, dramaturq və ədəbiyyatşünası, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq şairi Bəxtiyar Mahmud oğlu Vahabzadəni son mənzilə yola salmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev poeziyamızın görkəmli simalarından biri olan Bəxtiyar Vahabzadə ilə vidalaşma mərasimində iştirak etmək üçün Bakı Dövlət Universitetinin binasına gəlmişdir.*

*Mərhumun cənazəsi Bakı Dövlət Universitetinin akt salonunun matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulmuşdu. Postamentin ətrafına Azərbaycan prezidenti İlham Əliyevin adından, habelə dövlət və hökumət təşkilatları, Yazıçılar Birliyi, müxtəlif kollektivlər adından əklillər, mərhumun orden və medalları düzülmüşdü.*

*Dövlətimizin başçısı şairin ailə üzvləri ilə görüşüb onlara dərin hüznlə başsağlığı verdi.*

## «ROSSİYA» TELEKANALINDA «FORMULA VLASTİ» PROQRAMININ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ HƏSR EDİLMİŞ BURAXILIŞI

*14 fevral 2009-cu il*

*Fevralın 14-də «Rossiya» telekanalında «Formula vlasti» («Hakimiyyət formulu») proqramının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr edilmiş növbəti buraxılışı efirə getmişdir. Azərbaycan dövlətinin başçısı dünyanın bir sıra ölkələrinin tamaşaçılarında böyük maraq doğuran bu proqram çərçivəsində «Formula vlasti» verilişinin müəllifi və aparıcısı, tanınmış jurnalist, Rusiyanın İTAR-TASS Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmanın suallarına cavab vermişdir.*

*Veriliş AzTV telekanalı ilə də göstərilmişdir. Əvvəlcə «Formula vlasti» proqramı layihəsinin rəhbəri, İTAR-TASS-ın Baş direktoru* ***V i t a l i   İ q n a t e n k o*** *çıxış etmişdir. O, proqramı Azərbaycan tamaşaçılarına təqdim edərək demişdir:*

– Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev haqqında filmi təqdim etmək mənim üçün böyük şərəfdir. Dünən Rusiya televiziyasında təqdim edilmiş həmin filmə milyonlarla tamaşaçı baxmışdır. Bu gün həmin film sizə təqdim ediləcəkdir. Demək istəyirəm ki, bu cür film yaratmaq – öz ölkəsinin, xalqının tarixində rolu hələ kifayət qədər işıqlandırılmamış insan haqqında söhbət açmaq istəyənlər üçün böyük məsuliyyət deməkdir. Rus ədəbiyyatı klassikinin sözləri ilə desək, böyük olanın böyüklüyü ona uzaqdan baxanda görünür. Biz ölkənin, cəmiyyətin lideri haqqında xoş sözlər deməyi və ya onun inkişaf dinamikasına müasirlərinin dövründə baxmağı həmişə unuduruq.

İlham Heydər oğlu bizim müasirimizdir. O çox istedadlı, əməksevər Azərbaycan xalqını layiq olduğu uğurlara, zirvələrə doğru aparır. Biz bu insanın obrazına ikinci dəfə müraciət edirik, bu, Rusiyanın televiziya ustalarının onun haqqında yaratdığı ikinci filmdir. Biz belə filmi birinci dəfə 5 il əvvəl yaratmışdıq. O vaxt İlham Heydər oğlu ölkənin rəhbəri vəzifəsinə yenicə gəlmişdi və hələ hər şey irəlidə idi. Hələ aydın olmayan məqamlar, qarşıda duran planlar çox idi. Unudulmaz atası Heydər Əliyevin başladıqlarını tamamlamaq üçün çox işlər görmək lazım idi. Ona görə də birinci film bu böyük taleyin bir növ müqəddiməsi idi.

İndi biz Azərbaycan prezidentinin obrazına ikinci dəfə müraciət etmişik. Çünki bu 5 ildə təkcə çox sürətlə inkişaf etmiş şəxsiyyəti deyil, həm də bu 5 ildə eyni dərəcədə sürətlə inkişaf etmiş olan ölkəni gördük. İlham Heydər oğlunun taleyini 5 ildə çox işlər görmüş Azərbaycan xalqının taleyindən ayıra bilmədik. Ona görə də belə bir filmin yaradılması bizim üçün Azərbaycan cəmiyyətinin inkişaf dinamikasını göstərmək imkanıdır. Biz bu cür obrazların bütöv bir qalereyasını yaratmışıq və çox mühümdür ki, İlham Heydər oğlu bu liderlərin böyük insan taleləri qalereyasında ən görkəmli yerlərdən birini tutur.

**– Cənab Prezident, Sizinlə görüşmək imkanı yaratdığınız üçün çox sağ olun. Cəmi bir neçə ay əvvəl Siz ikinci prezident seçkilərində çox inamlı qələbə qazandınız. İkinci andiçmə mərasimindəki nitqinizdə görülmüş işlərə çox dəqiq yekun vurdunuz. Fikrimcə Siz öz qarşınızda, ölkə qarşısında növbəti beşillik üçün vəzifələr qoymusunuz. Yaxın illərdə ən prioritet məsələlər hansılardır?**

– Bizim inkişaf konsepsiyamızı yığcam ifadə etsək, bu, modernləşmə xətti, Azərbaycanda həyat meyarlarının dünyada mövcud olan ən yüksək standartlara çatdırılması xəttidir. Bu məqsədlərə nail olmağın təməli isə Azərbaycan tarixinin, ənənələrinin möhkəm kökləridir. Başqa sözlə desək, biz milli dəyərlər əsasında müasir dövlət qururuq.

**– 5 il əvvəl Siz birinci andiçmə mərasimindəki nitqinizdə Heydər Əliyevin xəttinin davam etdirilməsinin, ilk növbədə, sosial və iqtisadi islahatların davam etdirilməsi, cəmiyyətdə sabitliyin qorunub saxlanması sahəsində davam etdirilməsinin zəruriliyini demişdiniz. Necə bilirsiniz, bu illər ərzində cəmiyyətdə sabitliyin nəinki qorunub saxlanması, həm də möhkəmlənməsi üçün prezident İlham Əliyev hansı siyasi vasitələrdən istifadə etməli olmuşdur?**

– Son 15 ildə Azərbaycanın sabit dövlət olmasının əsas səbəbi iqtidarın xalqa yaxınlığı, gördüyümüz işlərin xalq tərəfindən dəstəklənməsidir. Bir də ki, insanlar yaxşılığa doğru dəyişiklikləri gündəlik həyatda görürlər. Başlıca məsələ budur.

Son 5 ildə biz Heydər Əliyevin siyasi xəttini davam etdirərkən, təbii ki, operativ həll edilməli olan məsələlərlə də üzləşmişik. Azərbaycanın uğurlu inkişafı, əlbəttə ki, iqtidarın bu məsələləri nə dərəcədə səmərəli həll etməsindən, zamanın çağırışlarına, bəzən təhriklərə, bəzən sabitliyi pozmaq cəhdlərinə necə müqavimət göstərməsindən asılı idi. Mən tam əminəm ki, əgər biz Heydər Əliyevdən sonra təməli onun tərəfindən qoyulmuş xətti qoruyub saxlaya və möhkəmləndirə bilməsəydik, bu gün Azərbaycanı çox ağır günlər gözləyərdi.

**M ü ə l l i f  m ə t n i:** *Ölkədə yoxsulluğun səviyyəsi 49 faizdən 13,2 faizə düşmüşdür. Son 5 ildə ölkədə ümumi daxili məhsulun həcmi 2,6 dəfə artmış və adambaşına 4,5 min dollara bərabər olmuşdur. Hərbi xərclər və müdafiə xərcləri təqribən 10 dəfə artaraq, 1 milyard 300 milyon dollara çatmışdır.*

**– Azərbaycan bu illər ərzində sübut etmişdir ki, o, neftə arxayın olub oturmur. Əlbəttə, neft milli sərvətdir. Digər tərəfdən, neft ehtiyatları gec-tez tükənir, belədə respublika iqtisadiyyatının əsas istiqamətləri hansılardır?**

– Çox böyük həcmdə neft-qaz ehtiyatlarına malik olan ölkə üçün həmin resursların səmərəli idarə edilməsi, ixracın şaxələndirilməsi və enerji təhlükəsizliyinin təmin edilməsi, təbii ki, əsas məsələlərdən biridir. Buna görə də biz bu məsələyə çox böyük diqqət yetirmişik və nəzərdə tutduqlarımızın hamısına

nail olmuşuq. Lakin bununla yanaşı, neft amilindən asılılığın azaldılması da prioritet vəzifələrdən biri idi.

**– Mən doğma Bakı şəhərində gəzərkən həmişə Azərbaycan sakinlərinin müxtəlif dillərdə danışmasından sevinmişəm. Lakin son vaxtlar məni heyrətləndirən odur ki, Bakı küçələrində Azərbaycan və ənənəvi rus dilləri ilə yanaşı, ingilis, yapon, italyan, Çin dillərini eşidirəm. Mən bunu onunla əlaqələndirirəm ki, Azərbaycan dünyanın investisiya baxımından cəlbedici bir məkanıdır. Siz ölkənizin bu cür investisiya cəlbediciliyinin səbəbini nədə görürsünüz?**

– Hesab edirəm ki, artıq həyata keçirilmiş investisiya layihələri, xüsusən iqtisadi sahədəki layihələr bugünkü mərhələdə dünya ictimai rəyində Azərbaycan haqqında çox etibarlı tərəfdaş təsəvvürü yaratmışdır. Azərbaycanın Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasının həyata keçirildiyi illər ərzində elə bir hal olmayıb ki, biz öz öhdəliklərimizi yerinə yetirməyək.

**Müəllif mətni:** *2004-cü ildən bəri Azərbaycana təqribən 40 milyard dollar sərmayə qoyulmuşdur. Əhalinin banklardakı əmanətlərinin məbləği 80 faiz artmışdır. 1200 məktəb, onlarca yeni xəstəxana, 19 olimpiya idman kompleksi tikilmiş, min kilometrlərlə magistral şəhərlərarası, şəhərdaxili və rayondaxili yollar istifadəyə verilmişdir.*

**–Mən Xəzər regionunun inkişafı mövzusuna toxunmaq istərdim. Bu, dinc mövzudur. Digər tərəfdən, hər bir dənizdə olduğu kimi, bunun da müəyyən «sualtı qayaları» var. Sizin fikrinizcə, Xəzər hövzəsinin inkişafının əsas prinsipləri nədən ibarətdir?**

– Xəzər hövzəsi ölkələri arasında çox səmərəli ikitərəfli münasibətlər vardır. Biz həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirik. Əlbəttə, Xəzər sülh zonası, təhlükəsizlik zonası olmalıdır. Xəzərin enerji ehtiyatları elədir ki, Xəzəryanı ölkələrin hər birinin bunlardan səmərəli istifadə etməsinə imkan verir.

**– Sizin Rusiya ilə, Moskva ilə bağlı olduğunuz illəri xatırlatmaq istərdim. Siz orada oxumusunuz, yaşamısınız. Sırf insani baxımdan bir sual vermək istəyirəm: Moskva ilə Sizi bağlayan nədir? Bunlar yəqin ki, həmişəlik yaddaşınızda qalmışdır.**

– Əlbəttə, o illər həmişəlik yaddaşıma həkk olunmuşdur. Yaxşı illər – gənclik illəri, təhsil illəri idi. Mən Moskvaya oxumağa getmişdim. İndi də Moskvaya gedəndə bütün bunlar sanki gözlərim önündə canlanır. Bu mənim həyatımda və güman edirəm ki, ikitərəfli Rusiya–Azərbaycan münasibətlərində də mühüm elementdir. Ona görə ki, daha yaxşı qarşılıqlı əlaqə saxlamaq üçün, daha yaxşı əməkdaşlıq etmək üçün bir-birini daha yaxşı başa düşmək lazımdır.

**– Sizin fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prinsipləri nədən ibarətdir?**

– Bu gün bizə belə gəlir ki, münaqişənin həllini tapmaq imkanı vardır. Bu ümid danışıqlar prosesinin özünə, müzakirələrin nəyin ətrafında getməsinə əsaslanır. Bu həm də bu yaxınlarda Ermənistanla Azərbaycan arasında imzalanmış Birgə Bəyannaməyə əsaslanır, orada bu prinsiplər öz əksini tapmışdır. Bu prinsiplərin hamısı münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini nəzərdə tutur. İndi Ermənistanın yeni rəhbəri var. Ermənistanın bu məsələyə daha konstruktiv və realist mövqedən yanaşacağına müəyyən ümidlər var. Müəyyən siqnallar var. Buna görə də biz həmin ümidlərin nə dərəcədə əsaslı olduğunu yəqin etməli və irəliləyişin nə dərəcədə real olacağını görməliyik.

**– Siz tamamilə haqlı olaraq başqa ölkələrlə əlaqələri, Azərbaycan xalqı üçün kifayət qədər ənənəvi olan tolerantlığı xatırlatdınız. Prezident kimi, şəxsən Siz irsən gələn bu tolerantlığın daha da inkişaf etdirilməsi üçün nə edirsiniz?**

– Azərbaycanın çoxəsrlik tarixində burada müxtəlif xalqların nümayəndələri yaşamışdır. Azərbaycan indi də çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Biz bunu çox yüksək qiymətləndiririk. Mən tam əminəm ki, ölkəmizin, dövlətimizin

uğurlu inkişafı məhz bu formatda mümkündür. Azərbaycanda milliyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquqları eyni dərəcədə qorunur. Bu məsələdə dövlət siyasəti də çox həssas aparılır. Bu istiqamətdə hər hansı planlar, direktivlər qəbul etmək, göstərişlər vermək, şüarlar söyləmək olmaz.

**– Həyat özü diktə edir.**

– Tamamilə doğrudur. Həyat özü diktə edir və bir də ki, prosesləri bacarıqla istiqamətləndirmək lazımdır. Bizim ölkəmizdə isə milli ədavətə zəmin yaratmaq üçün göstərilən bütün cəhdlərin qarşısı çox sərt şəkildə alınır.

**M ü ə l l I f m ə t n i:** Müstəqillik illərində Azərbaycanda rus məktəblərinin heç biri bağlanmamışdır. Rus dilində çıxan qəzet və jurnalların sayı sovet hakimiyyəti illərindəkindən çoxdur.

**– Azərbaycan dünyəvi dövlətdir. Sirr deyil ki, qonşularınızda – həm İranda, həm də müəyyən dərəcədə Türkiyədə islam amili getdikcə daha çox rol oynayır. Sizin fikrinizcə, dünyəvi və qeyri-dünyəvi dövlət arasında hüdud nədən ibarətdir? Sizin gözləyə biləcəyiniz tarazlıq haradadır?**

– Biz Azərbaycanın dünyəvi dövlət olmasını yüksək qiymətləndiririk, bu nailiyyətimizi çox qayğı ilə qoruyuruq. Mən tam əminəm ki, bizim uğurlarımızın rəhni məhz bundadır. Dini təzahürlər baxımından narahatlıq doğura biləcək amillərə gəldikdə isə, Azərbaycanda bu cür amillər yoxdur. İslam dini bizim mənlik şüurumuzun, tariximizin bir hissəsidir. Biz dinimizə dərin hörmət bəsləyirik. Bununla bərabər, Azərbaycanda bütün başqa dinlər də sərbəst fəaliyyət göstərir. Bizdə rus pravoslav kilsəsi də var, sinaqoq da. Bu yaxınlarda katolik kilsəsi də tikilmişdir, hərçənd, Azərbaycanda katoliklərin sayı o qədər də çox deyil. Lakin bu da tarixi ədalətin bərpası deməkdir.

**– Sizə bəlkə də ən mürəkkəb bir sualım var: Sizin fikrinizcə, bu 5 ildə nəyə nail ola bilməmisiniz?**

– Nail ola bilmədiyimiz yeganə məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Deyərdim

ki, ölkəmizin inkişafında, bu ən mühüm məsələ müstəsna olmaqla, bütün başqa sahələrdə nəzərdə tutduqlarımızın hamısına nail olmuşuq. 5 il əvvəl verdiyimiz bütün vədlər yerinə yetirilmişdir. Bu vədlərin çoxu daha böyük həcmdə, xeylisi isə vaxtından da əvvəl yerinə yetirilmişdir.

**– Siz «müstəqillik» kimi çox mühüm sözü işlətdiniz. Heydər Əliyev bu sözü daim işlədirdi. Zənnimcə, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə Heydər Əliyevin verdiyi töhfəni heç nə ilə müqayisə etmək olmaz. Siz bu məsələyə daimi diqqət yetirirsiniz. Ölkənin müdafiə potensialının gələcək inkişafını necə təsəvvür edirsiniz?**

– Biz qısa müddətdə silahlı qüvvələrin nəinki çox güclü maddi-texniki bazasını yaratmağa nail olmuşuq, həm də ordunun döyüş qabiliyyətini, peşəkarlığını yüksəltmişik. Keçən il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 90 illiyinə həsr edilmiş hərbi parad da, ümumən, xalq qarşısında hesabatımız idi ki, nə işlər görülmüşdür, bu vəsaitlər necə sərf edilmişdir, bu gün nəyimiz var. İndi Azərbaycan Ordusu istənilən məsələləri həll etməyə, işğal olunmuş ərazilərin azad edilməsi vəzifəsini yerinə yetirməyə qadir olan çox güclü strukturdur. Biz qısa müddətdə Azərbaycanda əvvəllər heç vaxt mövcud olmamış hərbi sənaye kompleksi yaratmışıq. Bundan sonra da, dediyim kimi, torpaqlarımız azad edilənə qədər bu məsələlərə böyük diqqət yetirəcəyik.

**– İlham Heydər oğlu, bizim bugünkü söhbətimizdə təbii ki, bir neçə dəfə Heydər Əliyevi xatırladıq. Başqa cür ola da bilməzdi, çünki onun çox böyük siyasi irsi var. Siz təkcə onun işinin davamçısı deyil, həm də oğlusunuz. Bu baxımdan, bir siyasətçi və insan kimi, Heydər Əliyevin hansı keyfiyyətlərini Siz özünüzdə möhkəmlətmək istərdiniz?**

– Mən Heydər Əliyevin oğlu olmağımı özüm üçün böyük xoşbəxtlik sayıram. Böyük insanın oğlu olmaq, habelə mühüm qərarlar qəbul edilən anlarda onun yanında olmaq böyük xoşbəxtlikdir. Bu gün onun işi yaşayır, siyasəti yaşayır və mən

əminəm ki, Azərbaycan onun istədiyi kimi inkişaf edir. Əlbəttə ki, mən həmişə ona oxşamağa çalışmışam. Çünki siyasətçi keyfiyyətləri ilə yanaşı, o, həyatda hamıya nümunə ola biləcək adam idi. Səni maraqlandıran bir suala cavab almadan ondan aralanmaq mümkün deyildi.

**– Yeri gəlmişkən, bunu hamı qeyd etmişdir.**

– Bəli. Sizə deməliyəm ki, prezidentliyimin ilk illərində elə məqamlar olmuşdur ki, mən fikirləşirdim: bu vəziyyətdə Heydər Əliyev nə edərdi? Lakin təəssüf ki, bunu bilmək imkanım yox idi. Amma düşünürəm ki, o, son 5 ildə görülmüş işlərin hamısını bəyənərdi, özünün əsəri olan Azərbaycanı bugünkü səviyyədə görsəydi şad olardı.

**– Siz dediniz ki, ailə azərbaycanlılar üçün həqiqətən ənənəvi və çox yüksək dəyərdir. Bununla əlaqədar mən, belə deyək, geniş beynəlxalq ictimaiyyəti maraqlandıran bir mövzuya toxunmaya bilmərəm. Bir sıra beynəlxalq jurnalların, media vasitələrinin apardığı sorğunun nəticələrinə görə, Sizin həyat yoldaşınız Mehriban xanım dünyadakı birinci ledilər arasında ən gözəli, ən gözəllərindən biri hesab edilmişdir. Amma məsələ bundadır ki, o çox böyük ictimai fəaliyyətlə məşğuldur. O, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiridir. Azərbaycanlı kişinin, ailə başçısının xanımının bu dərəcədə məşğulluğu ənənə ilə nə dərəcədə uyğun gəlir? Yəni demək istəyirəm ki, Mehriban xanım evdə Sizə xörək hazırlamağa da vaxt tapırmı?**

– Bizim ailə də istisna deyil. Azərbaycanda ailələrin tam əksəriyyətində ailə dəyərləri, ailə üzvləri arasında münasibətlər məhz bu cür ənənəvi qarşılıqlı hörmət, məhəbbət və əmin-amanlıq formalarına əsaslanır. Mən çox xoşbəxtəm ki, belə ailəm var. Şəxsi həyatımdan çox razıyam. Yəqin ki, bundan artığını arzu etmək çətin olardı. Mehribana gəldikdə isə, dediyiniz kimi, o həqiqətən sosial proqramların həyata keçirilməsi, mədəni irsimizin qorunması sahəsində çox mühüm vəzifəni yerinə yetirir. İncəsənət, mədəniyyət, xeyriyyəçilik

fəaliyyəti. O, bütün bunlarla məşğul olmağa və ilk növbədə, ərini sevən qadın, mehriban ana və indi artıq gənc nənə kimi qalmağa vaxt tapır. Ona görə də mən bu təbriklərə görə sizə təşəkkür etmək, indi bizə baxanların hamısına ailə xoşbəxtliyi arzulamaq istəyirəm. Dünyada bundan yüksək heç nə ola bilməz.

**– Mən bizim proqramda qəhrəmanlarımızın hamısına verdiyimiz sualı sonda Sizə də verməyə bilmərəm, çünki bu proqram «Hakimiyyət formulu» adlanır. Sizin üçün bu hakimiyyət deyilən şeyin dadı necədir?**

– Bilirsinizmi, mən...

**– Siz elə dərindən köks ötürdünüz ki, daha cavab verməyə bilərsiniz. Elə bircə bu köksötürmə kifayətdir ki,..**

– Mənə gəldikdə, deyərdim ki, bu gün hakimiyyəti 5 il əvvəlkindən fərqli başa düşürəm. O vaxt mənim üçün hakimiyyət, ilk növbədə böyük məsuliyyət yükü idi.

**– Çağırış idi.**

– Bəli, həm atamın xatirəsi qarşısında, həm ölkə qarşısında, həm də xalq qarşısında məsuliyyət idi. Başa düşürdüm ki, Azərbaycanın gələcəyi mənim görəcəyim işlərdən asılı olacaqdır. Bu gün deyə bilərəm ki, bu məsuliyyət hissi məni heç vaxt tərk etməsə də, hər halda, buraya başqa hisslər də əlavə olunur. İndi mən hakimiyyəti ölkə üçün daha yaxşı işlər görmək imkanı kimi qəbul edirəm. Bu gün mənim üçün hakimiyyət Azərbaycan vətəndaşlarından ötrü xeyirxah işlər görmək imkanıdır.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANA DÖVLƏT SƏFƏRİ

*15 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Yunanıstana dövlət səfərinə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportundan Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

***

*Fevralın 15-də Azərbaycan prezidenti İlham Əliyev Yunanıstana dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Yunanıstanın dövlət bayraqları ilə bəzədilmiş Afina Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti hava limanından «Grande Bretagne» mehmanxanasında onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## PREZİDENT SARAYI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA

*Afina*

*16 fevral 2009-cu il*

*Yunanıstan Prezidentinin sarayı önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısında Azərbaycanın və Yunanıstanın dövlət bayraqları asılmış, Azərbaycan prezidentinin şərəfinə milli qvardiyaçılardan ibarət Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Yunanıstan prezidenti Karolos Papulyas qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidentinə raport verdi.*

*Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Yunanıstanın rəsmi şəxsləri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Yunanıstan prezidenti Karolos Papulyasa təqdim olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Afina*

*16 fevral 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Yunanıstan prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu səfərin qarşılıqlı əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulandı.*

*İki ölkə arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliklərini bildirən dövlət başçıları ikitərəfli, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

# AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*16 fevral 2009-cu il*

*Təkbətək görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Yunanıstan prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Qarşılıqlı əlaqələrin genişlənməsindən danışan prezident Karolos Papulyas Azərbaycan prezidentinin Türkiyə–Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirakının əhəmiyyətini vurğuladı, indiki səfərin də ikitərəfli əlaqələrin genişlənməsinə təkan verəcəyini bildirdi.*

*Yunanıstanın dövlət başçısı dedi ki, iki ölkə arasında energetika sahəsində əlaqələr yaxşı inkişaf edir. Bunun regional əməkdaşlıq baxımından da əhəmiyyətli olduğunu vurğulayan Yunanıstan prezidenti qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.*

*İkitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirən prezident İlham Əliyev dedi ki, səfər zamanı imzalanacaq sənədlər siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrin daha da genişlənməsi üçün yaxşı hüquqi əsas yaradacaqdır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın fəal iştirakını xatırladan dövlətimizin başçısı bu baxımdan Yunanıstan ilə də enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı.*

*Türkiyə–Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirakını və həmin tədbiri məmnunluqla xatırladan prezident İlham Əliyev qeyd etdi ki, həmin qaz xəttinin açılması Azərbaycan–Yunanıstan əlaqələri, eyni zamanda, regional enerji əməkdaşlığı üçün yeni bir mərhələnin başlanğıcı olmuşdur.*

*Azərbaycan prezidenti ümidvar olduğunu bildirdi ki, iki ölkənin qarşılıqlı əlaqələri bundan sonra da genişlənəcəkdir.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 fevral 2009-cu il*

*Geniş tərkibdə görüşdən sonra prezidentlər İlham Əliyevin və Karolos Papulyasın iştirakı ilə Azərbaycan–Yunanıstan sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında konvensiyanı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Yunanıstanın İqtisadiyyat və Maliyyə nazirinin müavini Adtonis Bezas imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında sazişi «Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov və Yunanıstanın Nəqliyyat və Kommunikasiya nazirinin müavini Mixail Bekiris imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında İnformasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və Yunanıstanın Nəqliyyat və Kommunikasiya nazirinin müavini Mixail Bekiris imzaladılar.*

*Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikasının İnkişaf Nazirliyi arasında bərpa olunan Enerji ehtiyatları və enerji səmərəliliyi sahəsində anlaşma memorandumunu Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Yunanıstanın İnkişaf naziri Kostis Hatzidakis imzaladılar.*

# AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*16 fevral 2009-cu il*

*Sənədlərin imzalanma mərasimindən sonra Yunanıstanın və Azərbaycanın dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Yunanıstan prezidenti Karolos Papulyasın bəyanatı

Xanımlar və cənablar!

Azərbaycan prezidentini və onun nümayəndə heyətini burada, Prezident sarayında qarşılamaq böyük şərəfdir. Danışıqlar zamanı biz əsasən, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi imkanlarına böyük diqqət yetirdik. Ölkələrimiz arasında prioritet sayılan enerji, sərmayələr, ticarət, mədəniyyət sahələrində əməkdaşlıq əlaqələrin inkişafı üçün böyük potensiala malik olan məsələlərdir.

Cənab İlham Əliyev ilə mən Avropanın qonşuluq siyasəti çərçivəsində Azərbaycanın Avropa İttifaqı əlaqələrini müzakirə etdik.

İnanırıq ki, Azərbaycan prezidentinin səfəri və yeni imzalanmış sənədlər iki ölkə arasında əlaqələrin inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Məni Azərbaycana səfərə dəvət etdiyinə görə prezident İlham Əliyevə təşəkkür edirəm və bu dəvəti məmnunluqla qəbul edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər Azərbaycan prezidentinin Yunanıstana ilk dövlət səfəridir və biz Azərbaycanda buna çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaq və Yunanıstan–Azərbaycan ikitərəfli münasibətlərinin gələcək inkişafına çox müsbət təsir göstərəcəkdir.

Biz bu gün sizinlə çox geniş fikir mübadiləsi apardıq və ikitərəfli, regional məsələləri təhlil etdik. Azərbaycanın böyük enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün son illər böyük işlər görülüb və indiki mərhələdə Yunanıstan ilə Azərbaycan arasında əlaqələrin bu sahədə inkişafına mühüm təsiri olacaqdır.

Enerji təhlükəsizliyi məsələləri bu gün dünyanın gündəliyində birinci yerdə dayanır və Azərbaycan öz tərəfindən Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu oynamağa hazırdır. Bir ildən çoxdur ki, Azərbaycan qazı Yunanıstan bazarına və beləliklə, Avropa İttifaqının bazarına daxil olur. Gələcəkdə bu əməkdaşlığın daha böyük həcmdə aparılması üçün çox yaxşı imkanlar var. Sabah keçiriləcək birgə biznes-forum, əminəm ki, biznes aləmini bir-birinə daha da yaxınlaşdıracaqdır.

Görüş zamanı mən cənab Prezidentə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə Azərbaycanın mövqeyini təqdim etdim. Bildirdim ki, uzun illər ərzində Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır. Münaqişələrin həlli üçün ərazi bütövlüyü prinsipi əsas

tutulmalıdır və əminəm ki, belə olsa və Ermənistan beynəlxalq hüquq normalarına riayət etsə, tezliklə bu münaqişə öz həllini tapa bilər.

Cənab Prezident, mənim dəvətimi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm və səbirsizliklə Sizi Azərbaycanda gözləyirəm.

Bir daha qonaqpərvərliyə və göstərdiyiniz çox səmimi münasibətə görə Sizə minnətdarlığımı bildirirəm.

# YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT PARTİYASININ SƏDRİ İLƏ GÖRÜŞ

*16 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Grande Bretagne» mehmanxanasında Yunanıstan parlamentində əsas müxalifət partiyası olan Ümumyunanıstan Sosialist Hərəkatının sədri Georgios Papandreu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Yunanıstan münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*16 fevral 2009-cu il*

*Fevralın 16-da Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə qəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

### Yunanıstan prezidenti Karolos Papulyasın nitqi

Zati-aliləri!

Sizi və xanımınızı Afinada salamlamaqdan olduqca məmnunuq. Əminəm ki, bu səfər Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Xalqlarımız arasında əlaqələr Prometeyin ölkənizdən odu gətirməsinə həsr olunmuş əfsanənin vaxtlarına təsadüf edir. Siciliyalı Deodor və Strabon xalqlarımızı bir-birinə bağlayan mədəni tellərə də istinad edirdilər.

Bizans dövründə təmaslarımız və mübadilələr dayanmadan davam etmişdir. Sizin regionun cənubuna səfərlərindən sonra Herakl bu yerlərdə özünə istirahət üçün sakit məskən tapmışdır. Yeni tarixdə Azərbaycan Qara dəniz sahilində yaşayan yunanlara çətin anlarda öz qapılarını açmışdır. Bu gün yunanların Bakıda kiçik, lakin tarixi icmasının olması ölkələrimiz arasında önəmli əlaqələri əks etdirir.

Cənab Prezident!

Bilirəm ki, Siz yunan sivilizasiyasına çox yaxşı bələdsiniz və mən yunan dili və ədəbiyyatını sevdiyinə görə Azərbaycan

xalqına minnətdarlığımı bildirmək istəyirəm. Bakıda Yunan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyət göstərməsi, eləcə də Azərbaycan tələbələrinin dilimizin öyrənilməsinə olan marağı çox əhəmiyyətlidir. Yunanıstan bu səyləri həmişə dəstəkləyəcək və Mərkəzin işinin təkmilləşdirilməsinə yönəlmiş hər bir təşəbbüsə maddi yardım göstərəcəkdir.

Siyasi səviyyədəki münasibətlərimiz daim inkişaf edir. Buna sübut nazirlər və digər hökumət rəsmiləri səviyyəsində qarşılıqlı səfərlərdir.

Xüsusi əhəmiyyət kəsb edən enerji sahəsində, Yunanıstan Azərbaycanı Türkiyə və Yunanıstan vasitəsilə İtaliya ilə birləşdirəcək təbii qaz boru kəmərinin çəkilməsi sahəsində ölkələrimiz arasında əməkdaşlığı səmimiyyətlə arzulayır.

Biz, həmçinin arzu edirik ki, ikitərəfli iqtisadi və ticari əlaqələr genişlənsin. İnanıram ki, səfəriniz zamanı iş adamlarımızın görüşləri bu istiqamətə töhfə verəcəkdir.

Cənab Prezident!

Bilirsiniz ki, Qafqaz regionu Yunanıstan üçün çox vacibdir. Biz tarixi dostluq və əməkdaşlıq telləri ilə bağlıyıq. Biz demokratiyanın möhkəmləndirilməsində, qanunun aliliyinin təşviq olunmasında, insan hüquqlarına hörmət bəslənməsində və bütöv regionun əziyyət çəkdiyi münaqişələrin sülh yolu ilə həllində maraqlıyıq.

Yunanıstan ATƏT-də sədrlik edir və təşkilatın fundamental tələblərinə cavab vermək məqsədi ilə bütün səyləri göstərir. Sədrlik edən tərəf kimi, Yunanıstan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışır, münaqişənin həllində münasib format sayılan Minsk qrupunun yardımı ilə məsələnin dinc yolla çözülməsinə yönəlmiş qərarların qəbul olunmasını məqbul hesab edir. Problemin həlli Qafqaz regionunda, habelə dünyada sülh və sabitlik üçün həlledici əhəmiyyətə malikdir. Yunanıstan Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığını dəstəkləyir və Aİ-yə daha da yaxınlaşmaqda Azərbaycana yardım göstərmək üçün öz təcrübəsini bölüşməyə hazırdır.

Biz «Qara dəniz işbirliyi» çərçivəsində Avropa İttifaqının təşviq etdiyi hər bir regional siyasəti dəstəkləyirik və inanırıq ki, Şərq tərəfdaşlığı region ölkələrini Avropaya daha da yaxınlaşdıraraq, onlara əlavə fayda gətirəcəkdir.

Ölkəmiz «Sülh naminə tərəfdaşlıq» proqramına öz dəstəyini verərək, Azərbaycanın Avroatlantik xəttinə yardım edəcəkdir.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Yunanıstan torpağında mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəridir. İnanıram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər əlaqələrimizin inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir. Aramızdakı siyasi dialoq yüksək səviyyədədir.

Eyni zamanda, düşünürəm ki, bundan sonra bizim münasibətlərimiz daha sürətlə inkişaf edəcəkdir. Mən Yunanıstanla Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Yunanıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq aləmdə uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlarda, o cümlədən Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı və NATO-nun fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. Son illərdə irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, xüsusən Böyük İpək Yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması, eləcə də, Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz bəhrəsini verməkdədir.

Yunanıstanın ötən ilin noyabrında Bakı şəhərində keçirilən Enerji sammitində təmsil olunması və sammit çərçivəsində imzalanmış bəyannaməyə qoşulması ikitərəfli və regional əməkdaşlıq üçün yaxşı imkanlar açır.

Ölkələrimiz arasında turizm, gəmiqayırma, alternativ enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivləri vardır. Lakin iqtisadi münasibətlərimizin bugünkü göstəriciləri ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi daha da artmalıdır.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmiş və iqtisadi baxımdan regionun lider dövlətinə çevrilmişdir. Son 5 ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Ölkəmizdə xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır, biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Son 5 ildə ölkə iqtisadiyyatına 47 milyard dollar həcmində sərmayə qoyulmuşdur. Fürsətdən istifadə edərək, Yunanıstanın iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət edirəm.

## «VARDİNOYANNİS GROUP»UN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ «MOTOR OİL HELLAS»IN PREZİDENTİ İLƏ GÖRÜŞ

*16 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Grande Bretagne» mehmanxanasında «Vardinoyannis Group»un idarə heyətinin sədri və «Motor Oil Hellas»ın prezidenti Vardis Vardinoyannis ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Yunanıstan arasında energetika sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olundu.*

## YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİS İLƏ GÖRÜŞ

*17 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstan Respublikası Baş nazirinin iqamətgahında hökumət başçısı Kostas Karamanlis ilə görüşmüşdür.*

*Görüşdə iki ölkə arasında əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu, iqtisadi sahədə, xüsusilə də enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulandı. Azərbaycan prezidentinin Yunanıstana dövlət səfərinin qarşılıqlı əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Bildirildi ki, Azərbaycan–Yunanıstan biznes-forumu konkret sahələrdə işgüzar əlaqələrin yaranmasına kömək edəcəkdir. İki ölkə arasında imzalanmış sənədlərin iqtisadi və digər sahələrdə əməkdaşlıq üçün hüquqi baza yaratdığı vurğulandı.*

*Görüşdə qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİSİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Afina*

*17 fevral 2009-cu il*

*Fevralın 17-də Afinada Azərbaycan prezidentinin və Yunanıstanın Baş nazirinin birgə mətbuat konfransı olmuşdur.*

*Azərbaycan prezidenti və Yunanıstanın Baş naziri əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Yunanıstanın Baş naziri Kostas Karamanlisin bəyanatı

Bu gün mən böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidentini, əziz dostumu Afinada salamlayıram.

Sonuncu dəfə biz 2007-ci ildə görüş keçirmişik. Həmin görüş Türkiyə–Yunanıstan–İtaliya qaz boru kəmərinin Türkiyə–Yunanıstan hissəsinin açılışına həsr olunmuşdu. Həmin vaxtdan etibarən əməkdaşlığımız üçün yeni imkanlar yaranmışdır.

Azərbaycan Qafqazın çox mühüm ölkəsidir və Yunanıstanın bu ölkə ilə siyasi, iqtisadi və mədəni əlaqələri vardır. Biz həmin regionda təhlükəsizlik və sabitlik sahəsində də birgə səylərimizi göstəririk. Xüsusən də Yunanıstan hazırda ATƏT-də sədrlik edir.

Yunanıstan Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək əzmindədir. Dünən biz mühüm sazişlər imzaladıq və

bunların əsasında ikitərəfli münasibətlərimiz daha da inkişaf edəcəkdir. Bu gün keçiriləcək Yunanıstan–Azərbaycan biznes-forumunda mən cənab Prezidentlə birgə iştirak edəcəyəm. Tədbir çərçivəsində iqtisadi sahədə münasibətlərimizi müzakirə edəcəyik.

Danışıqlarımız zamanı boru kəməri və enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik. Yunanıstan birbaşa Azərbaycanda hasil edilən, oradan nəql olunan təbii qazın idxalçısıdır. Prezident Əliyev də xüsusi vurğuladı ki, bu əməkdaşlıq bizə daha yeni imkanlar açır.

Bir daha Sizi salamlayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Təşəkkür edirəm, cənab Baş nazir!

Mənim Yunanıstana dövlət səfərim başa çatır və deyə bilərəm ki, səfərin nəticələri çox uğurlu olmuşdur. Səfər zamanı həm ikitərəfli sənədlərin imzalanması, həm də aparılan danışıqlar nəticəsində Yunanıstanla Azərbaycan bir-birinə daha da yaxın olmuşdur. Bizim aramızda çox yüksək siyasi dialoq aparılır. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və şübhə yoxdur ki, bu səfər əlaqələri daha da möhkəmləndirəcəkdir.

İqtisadi, mədəni sahələrdə böyük planlarımız var. Bu gün keçiriləcək müştərək forum biznes strukturlarına da imkan verəcək ki, bu gözəl siyasi əlaqələrin olmasından onlar da faydalansınlar. Çünki biznes strukturları, adətən, siyasi cəhətdən məqbul olan yerlərə getməyə daha çox üstünlük verirlər.

Yunanıstan–Azərbaycan münasibətləri isə bu gün tərəfdaşlıq xarakteri daşıyır və biz çox istəyirik ki, bu münasibətlərimizi daha da yüksək pilləyə qaldıraq. Bu gün biz bölgədə yaranmış vəziyyət, xüsusilə mövcud olan təhlükələr haqqında da fikir mübadiləsi apardıq.

Mən cənab Baş nazirə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini

bildirdim. Söylədim ki, bu münaqişə yalnız ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında həllini tapmalı, beynəlxalq hüquq normalarına əsaslanmalıdır.

Əlbəttə ki, bizim münasibətlərimizin hərtərəfli inkişafı üçün enerji sahəsində əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Cənab Baş nazirin qeyd etdiyi kimi, bu sahədə artıq çox gözəl nəticələr vardır. Yunanıstan Avropa İttifaqının üzvü olan ilk ölkədir ki, Azərbaycan qazı bu ölkəyə nəql edilir. Bir ildən bir az çox müddət ərzində biz bunu edirik. Çox istəyirik ki, gələcəkdə ikitərəfli əsasda Yunanıstanla Azərbaycan arasında qaz sahəsində əməkdaşlıqda daha da böyük nailiyyətlərə çataq. Bunu etmək üçün imkanlar var. Azərbaycanın zəngin qaz ehtiyatları, mövcud olan boru kəmərləri və Azərbaycan qazına Avropada, o cümlədən Yunanıstanda olan tələbat, həmçinin tranzit məsələlərinin tezliklə həll olunması, əminəm ki, bu sahədə uzunmüddətli və qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsində müsbət rol oynayacaqdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində öz rolunu oynamağa davam edəcəkdir. Avropada enerji təhlükəsizliyi məsələlərinin həlli üçün Yunanıstan–Azərbaycan əlaqələrinin çox böyük əhəmiyyəti var.

Mənə və nümayəndə heyətinə göstərilən gözəl münasibətə, böyük qonaqpərvərliyə görə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu fürsətdən istifadə edərək, Baş naziri Azərbaycana dəvət etmək istəyirəm ki, biz münasibətlərimizi bundan sonra da uğurla irəliyə aparaq.

Təşəkkür edirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və Yunanıstanın Baş naziri Kostas Karamanlis birgə mətbuat konfransında jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Mənim sualım cənab Prezidentə və cənab Baş nazirədir. Bildiyimiz kimi, iki ölkə arasında enerji sahəsində yaxşı əməkdaşlıq var. Bəs qeyri-enerji sektorunda əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

**K o s t a s K a r a m a n l i s:** Hesab edirəm ki, münasibətlərimizin xüsusiyyəti ondan ibarətdir ki, biz hər bir sektorda əməkdaşlıq edəcəyik. Prezident Əliyev və mən bəyan etdik ki, iqtisadi sahədə münasibətlərimiz yaxşı səviyyədədir və bir çox sahələr var ki, orada da əməkdaşlıq aparıla bilər. Təbii ki, enerji əsas sahələrdən biridir. Lakin biz bununla məhdudlaşmalı deyilik. İqtisadi əməkdaşlıq üçün digər sektorlar da var. Hazırda biz lazımi hüquqi çərçivəni yaratmışıq və keçiriləcək biznes-forum çərçivəsində iqtisadi münasibətlərimiz üçün daha geniş imkanlar açılacaqdır.

**İ l h a m Ə l i y e v:** Bu səfər çərçivəsində əməkdaşlığın bütün aspektləri müzakirə edildi və şübhəsiz ki, qeyri-enerji sektorunun inkişafı üçün lazımi tədbirlər görülməlidir.

Bildiyiniz kimi, qeyri-neft sektorunun inkişafı Azərbaycanda son illər ərzində prioritet vəzifədir, bu sahəyə çox böyük investisiyalar yatırılır. Biz daha böyük sayda yunan şirkətlərini Azərbaycanda görmək istəyirik, investorlar kimi, servis şirkətləri, yəni podratçılar kimi görmək istəyirik. Müxtəlif sahələrdə yaranmış imkanlarımız bütün yunan şirkətlərinə də açıqdır.

Bu məsələnin daha dərindən təhlili üçün, əlbəttə ki, müvafiq tədbirlər görülməlidir. Biznes-forumun keçirilməsi biznes aləmini bir-birinə daha da yaxınlaşdıracaqdır. Onu da demək istəyirəm ki, artıq Azərbaycan şirkətləri də xarici ölkələrə sərmayələrin qoyulmasına başlamışlar. Son 2 il ərzində xaricə bir neçə milyard dollar həcmində Azərbaycan sərmayələri

qoyulmuşdur. Əlbəttə ki, Yunanıstanla bu sahədə işləmək bizim üçün də çox vacib olacaqdır.

Ona görə də hesab edirəm ki, biz enerji və qeyri-enerji sektorlarını bir-birindən ayırmamalıyıq. Onların birgə fəaliyyəti, yaxud da ki, bir yerdə olan layihələr daha da böyük uğurlara gətirib çıxarır.

**– Azərbaycan qazının alınması ilə bağlı danışıqlarda hər hansı bir dəyişiklik varmı? İkincisi, Yunanıstan bir çox səylər göstərir ki, cənubdan da qaz alsın.**

**K o s t a s  K a r a m a n l i s:** Hazırda Yunanıstan ilə Azərbaycan arasında gedən bu danışıqlar bizim siyasətimizə heç bir vəchlə dəyişiklik gətirmir. Azərbaycandan təbii qazın ikitərəfli və yaxud çoxtərəfli əsaslarla alınması, bunun mövcud olan boru kəməri ilə həyata keçirilməsi də həmişə bizim prioritetimiz və siyasətimizin mərkəzində olubdur. Biz – prezident Əliyev və mən bu məsələni, Türkiyə–Yunanıstan–İtaliya boru kəməri məsələsindəki irəliləyişi müzakirə etdik. Hesab edirəm ki, bu, birgə Avropa məqsədlərimizin ayrılmaz hissəsidir. Cənubi Avropa dəhlizi yaradılsın və bu dəhliz Xəzər dənizindən başlasın. Ona görə də biz tələbatlara cavab vermək istəyirik. Avropa İttifaqının maraqlarına əsasən qaz tələbatına cavab vermək istəyirik.

Türkiyə ilə münasibətlərimizə gəldikdə, biz çox yaxşı işləyirik ki, əsas layihələr irəlilədilsin və enerji resursları Avropaya çatdırılsın.

**– Mənim sualım cənab Prezidentə və Baş nazirədir. Hər iki ölkə qarşılıqlı tranzit imkanlarını necə dəyərləndirir? Çünki ölkələrimiz strateji mövqeyə və böyük iqtisadi potensiala malikdir.**

**K o s t a s  K a r a m a n l i s:** Yunanıstan artıq bir sıra sazişlər imzalayaraq Cənubi Avropa regionunda bir enerji qovşağına çevrilmişdir. Hesab edirik ki, bu bizim marağımızdadır və region dövlətlərinin, misal üçün Azərbaycanın da marağındadır, ümumiyyətlə, bütün Avropa İttifaqının marağındadır. Biz buna nail olmaq istəyirik.

**İ l h a m  Ə l i y e v:** Bu gün, əlbəttə ki, iki ölkənin tranzit imkanları da müzakirə olundu. Bu sahədə əməkdaşlıq üçün çox yaxşı imkanlar vardır. Azərbaycan həm enerji resurslarının hasilatçısı, həm də tranzit ölkə kimi, öz funksiyalarını yerinə yetirməyi davam etdirmək əzmindədir. Yunanıstanla Azərbaycan arasında enerji sahəsində olan əməkdaşlıq çərçivələri bu iki məsələni özündə ehtiva edir. Biz qaz sahəsində Yunanıstanla çoxtərəfli və ikitərəfli əsasda əməkdaşlıq etmək fikrindəyik. Bunu reallaşdırmaq üçün artıq ciddi ikitərəfli danışıqlar gedir.

Çoxtərəfli və ikitərəfli formatların fərqi ondan ibarətdir ki, mənim fikrimə görə, ikitərəfli əsasda biz daha da qısa müddət ərzində qaz anlaşmasına nail ola bilərik. Hər halda, bu iki formatı paralel şəkildə apararaq, həm ikitərəfli münasibətlərdə, həm də digər tərəfdaşlarımızla münasibətlərimizdə elə etməliyik ki, hasilatçı ölkələrin, tranzit ölkələrin və istehlakçıların birgə fəaliyyəti təşkil olunsun və onların müştərək maraqları qorunsun. Əgər hər bir layihə üçün, xüsusilə enerji layihəsi üçün 3 önəmli komponenti komanda şəklində bir araya gətirə bilsək, öz istəyimizə tezliklə nail olacağıq.

## AZƏRBAYCAN–YUNANISTAN BİZNES-FORUMU

*Afina*

*17 fevral 2009-cu il*

*Fevralın 17-də Afinada «İşgüzar əməkdaşlığın imkanları» mövzusunda Azərbaycan–Yunanıstan biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidentinin beynəlxalq aləmdəki nüfuzundan, Azərbaycan–Yunanıstan əməkdaşlığının inkişafından narahatlıqlarını gizlədə bilməyən Afinadakı bir qrup erməni forumun keçirildiyi binanın qarşısında ucuz şou yaratdılar. Lakin 5–10 ermənininin bu hərəkəti, təbii ki, küçədən keçən insanların diqqətini cəlb etmədi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Yunanıstan prezidenti Karolos Papulyas, ölkənin Baş naziri Kostas Karamanlis biznes-forumun açılışında iştirak etmişlər.*

*Azərbaycanda İnvestisiyaların İxracı və Təşviqi Fondunun və Afina Ticarət və Sənaye Palatasının birgə təşkil etdiyi görüşü palatanın prezidenti Konstantinos Mixalos açaraq dedi ki, biznes-forumda Yunanıstanın 100-dək, Azərbaycanın isə 20-yə yaxın şirkəti təmsil olunmuşdur. Əminik ki, forum iki ölkə arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir.*

*Forumun açılışında dövlət başçıları çıxış etdilər.*

## Yunanıstan prezidenti Karolos Papulyasın çıxışı

Cənab Azərbaycan Respublikasının Prezidenti!

Cənab Baş nazir!

Xanımlar və cənablar, nazirlər, hörmətli Afina Sənaye və Ticarət Palatasının prezidenti!

Əziz dostlar!

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi, onun xanımını və Azərbaycan nümayəndə heyətini Yunanıstanda salamlamaqdan olduqca məmnunam. Bu uğurlu səfər çərçivəsində bir çox sazişlər imzalanmışdır. Hesab edirəm ki, bunlar ölkələrimiz arasında münasibətlərin gələcəkdə daha dinamik inkişafına imkan yaradacaqdır. Bildirirəm ki, bu sazişlər iqtisadi, siyasi və mədəni sahədə əməkdaşlığımızı daha da artıracaqdır. Azərbaycandan gəlmiş işgüzar dairələrin burada olmasının xüsusi əhəmiyyəti vardır.

Cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün bizim əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır. Çünki hazırda dünyada böhran var və ölkələrimizin iqtisadi əməkdaşlıq perspektivləri olduqca böyükdür.

Mən Sizin Yunanıstana səfəriniz çərçivəsində yunan şirkətlərinə edilmiş dəvətdən çox şad oldum. Hesab edirəm ki, Azərbaycanla enerji sektorunda apardığımız əməkdaşlıq digər sahələrdə də əlaqələrə zəmin yaradacaq. Bunun böyük perspektivləri var. Biz çox istəyirik ki, əməkdaşlığımız genişlənsin. Yunanıstan tərəfi texnologiyalar sahəsində, turizmdə və digər sahələrdə əməkdaşlığımıza bir çox yeniliklər gətirə bilər. Bizim elmi potensialımız və bu sahədə təcrübəmiz var.

Siz məni səfəriniz çərçivəsində Azərbaycana dəvət etdiniz. Mən bu dəvəti qəbul etməkdən çox məmnun oldum.

Təşəkkür edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli cənab Baş nazir!
Xanımlar və cənablar!

İlk növbədə, Yunanıstana dövlət səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilmiş səmimi qonaqpərvərliyə görə cənab Prezidentə və cənab Baş nazirə minnətdarlığımı bildirmək istəyirəm. Səfər çox uğurlu olmuşdur. Bu forum səfərimin rəsmi proqramında nəzərdə tutulmuş sonuncu tədbirdir. Əminəm ki, ölkələrimizin işgüzar dairələri arasında görüş Azərbaycan–Yunanıstan əlaqələrini gücləndirəcək, səfərin nəticələri yaxın vaxtlarda hiss olunacaqdır. İmzaladığımız sazişlər və bir çox məsələlər ətrafında apardığımız danışıqlar ölkələrimiz arasında anlaşmanı daha da möhkəmləndirəcəkdir.

Yunanıstan ilə Azərbaycan arasında yüksək səviyyəli siyasi münasibətlər var. Mənim ölkənizə səfərim bu əlaqələri birmənalı şəkildə gücləndirəcəkdir. Biz ölkələrimiz arasında daha sıx iqtisadi əlaqələrin olmasına çalışırıq. Qarşılıqlı ticarət dövriyyəsinin artırılması üçün çox işlər görməliyik və bu ticarətin strukturu üzərində çalışmalıyıq. Bu sahədə enerji komponenti əsas yer tutur. Təbii ki, bu, müsbət haldır. İqtisadiyyatlarımızın qeyri-enerji sektorunda biznes qurmaq, birgə layihələrdə iştirak etmək, qarşılıqlı sərmayə imkanlarını araşdırmaq üçün böyük imkanlar vardır. Zənnimcə, Yunanıstan ilə Azərbaycan arasındakı güclü ikitərəfli əlaqələri nəzərə alaraq, işgüzar dairələr bu fürsətdən istifadə edəcək, birbaşa təmaslar quracaqlar.

Ümidvarıq ki, hazırkı biznes-forumun keçirilməsi nəticəsində yeni müqavilələr yaranacaq, yeni təmaslar və əlaqələr qurulacaqdır. Bu da ikitərəfli əlaqələrimizdə yeni istiqamətlərin müəyyən edilməsinə kömək göstərəcəkdir. Biz yunan tərəfdaşlarımıza maksimum münasib şəraitin yaradılması üçün əlimizdən gələni edəcəyik.

Müstəqil dövlət kimi, Azərbaycan nisbətən gəncdir. Müstəqillik tariximiz 17 ildən bir az artıqdır. Biz öz taleyimizi və atacağımız addımları özümüz həll edirik. Bu müddət ərzində biz böyük tarixi keçid yolunu keçmişik. Azərbaycan 1991-ci ildə müstəqilliyini qazananda özəl sektorda ÜDM-in həcmi sıfır faiz idi. Hər şey dövlətə məxsus idi. İndi isə ÜDM-in 85 faizi özəl sektorumuz tərəfindən təmin edilir. Biz çox ciddi iqtisadi islahatlar, olduqca liberal iqtisadi siyasət, açıq qapı siyasəti həyata keçiririk. Bu siyasət birbaşa xarici sərmayələrə təkan verir. Fərəh hissi ilə bildirirəm ki, Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş SSRİ ölkələri arasında birinci yeri tutur. Dünyanın müxtəlif yerlərindən geniş tərəfdaşlar şəbəkəsinə malikik. Sərmayələr təkcə enerji sektoruna yatırılmır. Hazırda Azərbaycanda şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi ilə qeyri-enerji sektorunda da daha çox imkanlar açılır. Azərbaycan özünü təmin edən ölkədir, təbii sərvətləri var. Lakin biz təbii sərvətləri insan kapitalına çeviririk. Səhiyyədə və humanitar sahələrdə, sosial problemlərin həllində bir çox işlər görülmüşdür.

İqtisadi siyasətimiz Dünya Bankının diqqətini cəlb etmişdir və Azərbaycan bankın «Doing Business–2008» hesabatında dünyanın bir nömrəli islahatçı ölkəsi elan olunmuşdur. Son 5 ildə iqtisadiyyatımız dünyada ən böyük sürətlə inkişaf etmiş, həmin dövrdə Azərbaycanın ÜDM-i 2,6 dəfə artmışdır. Sənaye istehsalı, demək olar ki, eyni səviyyədə artmış, büdcə gəlirləri 12 dəfə çoxalmışdır. Bir çox infrastruktur və sosial proqramlar həyata keçirilmək üzrədir. Coğrafi mövqeyimizdən yararlanaraq, nəqliyyat infrastrukturuna çox sərmayə yatırmış, nəqliyyat qovşağına çevrilmək üçün bir çox işlər görmüşük. Hazırda Azərbaycan vasitəsilə Avropanı Asiya ilə birləşdirəcək dəmir yolu xətti üzərində çalışırıq. Ümid edirik ki, bir neçə ildən sonra bu yol istismara veriləcəkdir.

Hazırda enerji məsələlərinin əhəmiyyəti – xüsusən də, Avropa üçün get-gedə artır. 1991-ci ildə Azərbaycan müstəqilliyini əldə edəndə keçmiş SSRİ-də ən ağır iqtisadi vəziyyət bizdə idi, sənaye

istehsalı, neft və qaz hasilatı sürətlə azalırdı. Biz hər şeyi sıfırdan başlamalı idik. Sovet İttifaqının aqressiv enerji siyasəti nəticəsində ətraf mühitə çox böyük ziyan dəymişdi. Son illər ölkədə neft hasilatını 5 dəfədən çox artıra bildik. Hazırda hasilatın gündəlik həcmi təxminən 1 milyon bareldir. Bu səviyyə ölkə iqtisadiyyatı və daxildə sərmayə yatırımları üçün kifayətdir. 2007-ci ilə qədər biz təbii qazı idxal edirdik, son 2 ildə qaz ixrac edən ölkəyə çevrildik. Bu gün ixrac əməliyyatlarımız bir neçə ölkəni əhatə edir.

Azərbaycan qazı artıq Avropa İttifaqının bazarına daxil olur. Dünən və bu gün apardığımız müzakirələrin mövzularından biri də bu əməkdaşlığın ikitərəfli və çoxtərəfli səviyyədə genişləndirilməsi ilə bağlı idi. Biz nəqletmə imkanlarımızı mümkün qədər geniş şəkildə şaxələndirməliyik. İndi karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql edən 7 neft və qaz boru kəmərimiz var, yalnız bir nəql marşrutundan asılı deyilik. İstərdik ki, istehlakçılarımız arasında daha çox ölkə olsun. Bu sahədə Azərbaycan Yunanıstanla artıq yaxşı əməkdaşlıq edir. Əminəm ki, səfərdən sonra görüləcək işlər uzunmüddətli, qarşılıqlı surətdə faydalı və hər iki tərəfin maraqlarına cavab verəcək razılaşmanın əldə olunması ilə nəticələnəcəkdir. Enerji təhlükəsizliyi xarici təchizatdan asılı olan istehlakçılar üçün vacibdir. Enerjidaşıyıcıların nəqli yollarının şaxələndirilməsi isə hasilatçılar və istehlakçılar üçün əhəmiyyətlidir. İstehlakçılar bir mənbədən asılı olmaq istəmirlər, hasilatçılar da bir marşrutdan. Belə olmasa, mövqelərimiz zəifləyə bilər.

Bir daha demək istəyirəm ki, ölkələrimiz arasında çox yüksək səviyyəli münasibətlər vardır. Əlaqələrə müxtəlif komponentlərin əlavə edilməsi məqsədi ilə mümkün olan bütün işləri görməliyik. Son 2 gündə apardığım müzakirələrdən çox razıyam. Biz qeyri-neft sahəsində mümkün olan işləri həyata keçirmək üzərində də düşünməliyik. Azərbaycandakı biznes imkanları öyrənilməlidir: hansı baxımdan biz cəlbedici ola bilərik? Qaydalar hansılardır? Vergilər və sərmayə mühiti necədir? Əməkdaşlığın gələcək sahələri hansılardır? Əminəm

bunlar biznes-forumda müzakirə olunacaq. Yunanıstan–Azərbaycan birgə iqtisadi komissiyasının aparıcı rolu və əlaqələndirməsi ilə bu sahədə yaxşı nəticələr əldə edə bilərik.

Səfərimin nəticələrini yekunlaşdıraraq, bir daha bildirmək istəyirəm ki, mən bu nəticələrdən çox razıyam, hüquqi bazamızı genişləndirdik. Regional vəziyyət və bizi narahat edən məsələlərlə bağlı fikirlərimizi açıq şəkildə bildirdik. Planlaşdırdığımız işlərə nail olmaq üçün Cənubi Qafqaz regionunda sabitlik olmalıdır. Sabitlik və təhlükəsizlik hər bir inkişaf üçün ən vacib ilkin şərtdir. Ölkədə sabitlik olmayanda nə sərmayələr, nə irəliləyiş, nə də ki, etimad olur. Eyni sözləri regiona da aid etmək olar. Əgər regional təhlükəsizlik 100 faiz təmin olunmursa, onda daha çox risklər və potensial təhlükələr yaranır.

Əfsuslar olsun ki, Azərbaycan mövcud və potensial təhlükələrin olduğu regionda yerləşir. Onlardan biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Dağlıq Qarabağ münaqişəsi təxminən 20 ildir davam edir. Ermənistanın silahlı qüvvələri ərazimizin 20 faizini zəbt edib və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıbdır. Bunun nəticəsində 1 milyon soydaşımız öz doğma torpaqlarından qovularaq, qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində hər şeyi dağıdıblar. 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş torpaqlarında yoxlama apararaq öz hesabatında aydın şəkildə bildirmişdir ki, hər şey – bütün binalar, məktəblər, səhiyyə ocaqları, zavodlar, məscidlər, qəbiristanlıqlar yerlə yeksan edilibdir. Bunlar Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzün nəticələridir. Beynəlxalq hüquq normaları kobud şəkildə pozulmuşdur. BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi var. Lakin onlar yerinə yetirilməyibdir. ATƏT, digər beynəlxalq təşkilatlar da işğala son qoymağa çağıran qərarlar qəbul etmişlər. Biz torpaqlarımızın azad olunmasını

tələb edirik. Heç bir başqa, qeyri-adi tələbimiz yoxdur. Yəni beynəlxalq hüququn normaları və prinsiplərinə əməl edilməli, erməni işğalçı qüvvələri torpaqlarımızdan çıxarılmalı, qaçqın və məcburi köçkünlərimiz yurdlarına qayıtmalıdır. Bunları ona görə deyirəm ki, münaqişə regional təhlükəsizliyə təhlükə mənbəyidir, planlarımıza mənfi təsir göstərə bilər. Mürəkkəb regional vəziyyətə baxmayaraq, indiyə qədər biz enerji layihələrimizin hamısını həyata keçirə bildik. Lakin gələcəkdə Azərbaycandan və ya digər ölkələrdən başlayan və bizim ərazimizdən keçən uzunmüddətli sabit enerji dəhlizinə nail olmaq üçün bütün regional münaqişələr həll olunmalıdır. Buna aparan yeganə yol beynəlxalq hüquq normalarına hörmətlə yanaşmadır.

Görürəm ki, ölkələrimizin biznes icmaları bir-biri ilə işləməyə hazırdırlar. Yunanıstan prezidenti və Baş nazirinin bir tərəfdən, Azərbaycan prezidentinin digər tərəfdən bu tədbirdə iştirakı işlərin nə dərəcədə əhəmiyyətli olmasını göstərir. Biz enerji, təhlükəsizlik, müxtəlif məsələlər sahəsində, hətta biznes dairələri arasında təmas olmasa belə, uğurla əməkdaşlıq edə bilərik. Lakin bu təmasların olması iqtisadiyyatımız və ölkələrimizin gələcəyi üçün vacibdir.

Mən çox səmimi qonaqpərvərliyə görə bizi qəbul edən tərəfə bir daha təşəkkürümü bildirir, Yunanıstana və yunan xalqına uğurlar və rifah arzulayıram.

Çox sağ olun.

# YUNANISTAN PARLAMENTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ «ŞƏRƏF» MEDALININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*17 fevral 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 17-də Afinada Yunanıstan parlamentində olmuşdur.*

*Yunanıstan parlamentinin – Deputatlar Palatasının sədri Dimitris Siufas Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

**Dimitris Siufas**: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Sizi və parlament üzvlərini bütün deputatlar adından Yunanıstan parlamentinin binasında salamlamaqdan məmnunluq duyuram.

Cənab Prezident, bu bizim artıq üçüncü görüşümüzdür. Birinci görüşümüz 2007-ci il avqustun 2-də olmuşdu. Həmin vaxt mən ölkənizdə səfərdə idim. Səfərim zamanı tərəfinizdən qəbul edilmək şərəfinə nail oldum. İkinci görüşümüz 2007-ci ilin noyabr ayında baş tutdu. Görüş Evros rayonunda yerləşən sərhəd məntəqəsində keçirildi. Həmin tədbir Azərbaycan qazının Türkiyədən Yunanıstana çatdırılması münasibətilə təşkil olunmuşdu. Təbii ki, bu hadisə nəinki Yunanıstan və Türkiyə üçün, o cümlədən Azərbaycan və İtaliya üçün də önəmli idi. Həmin vaxt Azərbaycan qazının Yunanıstan vasitəsilə İtaliyaya və digər Avropa ölkələrinə çatdırılması üçün şərait yarandı.

Cənab Prezident, Bakıda söylədiyimiz fikirlərimizi bir daha xatırlatmaq istəyirəm ki, dördtərəfli, yəni Azərbaycan, Türkiyə, Yunanıstan və İtaliya arasında sazişin imzalanması vacibdir. Çünki bu saziş əsasında Azərbaycan qazı Türkiyə və Yunanıstan ərazisindən tranzit olaraq İtaliyaya və Avropaya

çatdırılacaqdır. Bu sazişlə Xəzər dənizində hasil olunan təbii qaz ilk dəfə Avropaya daxil olur.

Cənab Prezident, Sizi Yunanıstan parlamentində bir daha salamlayıram. Burada ölkələrimizin səfirləri də iştirak edirlər. İcazə verin, Yunanıstan parlamenti sədrinin müavininin və Yunanıstan–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədrinin iştirakı ilə keçirilən bu görüşdə ölkəmizə dövlət səfəriniz münasibətilə Sizə Yunanıstan parlamentinin qızıl medalını – «Şərəf» medalını təqdim edim. Medalın üzərində yunan demokratiyasının banisi Peristoklun portreti əks olunmuşdur.

Cənab Prezident, digər bir rəmzi hədiyyəmiz də var. Bu, eramızdan əvvəl VI əsrə aid piyalənin dəqiq surətidir. Onun üzərində həyatın mənbəyi sayılan günəş təsvir olunmuşdur.

**İlham Əliyev:** Hörmətli cənab sədr!

Yüksək mükafata görə sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin qeyd etdiyiniz kimi, bu səfər bizim ikitərəfli münasibətlərin tarixində Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəridir. Əminəm ki, səfərin nəticələri də çox yaxşı olacaq və iki ölkə arasında münasibətlər yeni pilləyə qalxacaqdır.

Yunanıstan Avropa İttifaqının birinci ölkəsidir ki, bu ölkəyə Azərbaycan qazı daxil olubdur. Hələ ki, məhdud həcmdədir, ancaq mən ümid edirəm ki, yaxın zamanlarda həcm baxımından daha da böyük müqavilə imzalana bilər. Hesab edirəm ki, bu, Yunanıstanın, eyni zamanda, Azərbaycanın və Avropanın marağındadır ki, ölkələrimiz arasında ikitərəfli əsasda enerji sahəsində müqavilə tezliklə imzalansın. Bu sahədə əməkdaşlıq öz müsbət təsirini bütün digər sahələrə də göstərəcəkdir. Siyasi, iqtisadi, mədəniyyət sahəsindəki əməkdaşlığın da çox gözəl perspektivləri, çox gözəl gələcəyi vardır.

Mənə verilən yüksək mükafata görə sizə bir daha təşəkkürümü bildirirəm və yeni-yeni uğurlar arzulayıram.

## Səfər başa çatdı

*Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstan Respublikasına dövlət səfəri başa çatmışdır.*

*Azərbaycanın və Yunanıstanın dövlət bayraqları ilə bəzədilmiş Afina Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Yunanıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «BAKI– İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI–2009» MƏDƏNİYYƏT İLİNİN TƏNTƏNƏLİ AÇILIŞI

*Heydər Əliyev sarayi*

*18 fevral 2009-cu il*

Fevralın 18-də Heydər Əliyev sarayında «Bakı – İslam mədəniyyətinin paytaxtı–2009» Mədəniyyət ilinin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

«İslam mədəniyyətinin paytaxtları» proqramı barədə qətnamə İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin 2001-ci ilin axırlarında Qətərin paytaxtı Dohada keçirilmiş III konfransında qəbul edilmişdir. 2004-cü il dekabrın 15–17-də Əlcəzairdə keçirilmiş IV konfransda 2005–2014-cü illər üçün nəzərdə tutulmuş «İslam mədəniyyətinin paytaxtları» proqramı təsdiqlənmişdir. Bu proqrama əsasən, hər hansı şəhərin islam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, islam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən mədəniyyət qurumlarına malik olmalıdır. Azərbaycanın paytaxtı öz qədimliyi və müasirliyi ilə bütün bu qayda və prinsiplərə cavab verir. Bakı həm də dini, milli və etnik tolerantlıq mərkəzi kimi dünyada tanınır. 2007-ci il noyabrın 21–23-də Liviyanın paytaxtı

Tripolidə keçirilmiş V İslam Konfransında qəbul olunmuş qətnaməyə əsasən, Bakı şəhəri 2009-cu il üçün «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdir. İslam ölkələrinin mədəniyyət nazirlərinin növbəti, VI konfransının Bakıda keçirilməsi qərara alınmışdır.

Bakıda 2 gün davam edəcək tədbirdə Avropa və islam ölkələrinin mədəniyyət nazirləri, onların müavinləri, İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, İslam Konfransı Təşkilatı Baş katibinin müavini Atta əl-Mənnan, dövlət qurumlarının, diplomatik nümayəndəliklərin rəhbərləri, xarici qonaqlar, ziyalılar və digər şəxslər iştirak edirdilər.

Salona toplaşanlar dövlətimizin başçısı İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və qonaqları hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Bakıda, Azərbaycanda çox əlamətdar bir gündür. Biz «Bakı – islam mədəniyyətinin paytaxtı–2009» Mədəniyyət ilinin açılışı münasibətilə yığışmışıq. Bu, Bakı şəhəri üçün böyük şərəfdir. Şübhə etmirəm ki, bu gözəl tədbir, açılış mərasimi və bundan sonrakı tədbirlər uğurlu keçəcək və islam dünyasının, islam mədəniyyətinin birləşməsi, bir-birinə daha da yaxın olması üçün müsbət rolunu oynayacaqdır.

Mən bu qərarın qəbul edilməsində rolu olan bütün insanları burada salamlayıram, onlara dərin minnətdarlığımı bildirmək istəyirəm. Bakının islam mədəniyyətinin paytaxtı elan olunması İslam Konfransı Təşkilatının mədəniyyət nazirlərinin toplantısında baş verdi. Bu işdə həm İslam Konfransı Təşkilatının, həm də İSESKO təşkilatının çox böyük rolu olmuşdur. Mən bu gün İSESKO-nun Baş direktoru cənab əl-Tüveycrinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Bu

qərarın qəbul edilməsində onun çox böyük rolu olmuşdur. Cənab əl-Tüveycri Azərbaycanın böyük dostudur və onun fəaliyyəti sayəsində İSESKO ilə Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir. Biz müxtəlif proqramlar həyata keçiririk. Azərbaycan ilə İSESKO arasında əlaqələr yeni yüksək pilləyə qalxır. Bu çox böyük əhəmiyyətə malik bir məsələdir.

Azərbaycan müstəqil ölkə kimi, nisbətən gəncdir, cəmi 17 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Biz bu illər ərzində çalışmışıq və çalışırıq ki, islam ölkələrinin həmrəyliyi, birliyi üçün öz töhfəmizi verək. Bu məqsədlə Azərbaycanda çoxsaylı tədbirlər keçirilibdir. Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində çox fəal rol oynayır. Son illər ərzində Azərbaycanda çoxsaylı tədbirlər keçirilmişdir: Xarici işlər nazirlərinin toplantısı, mədəniyyət və turizm nazirlərinin toplantısı. Növbəti illərdə daha da çox tədbirlər keçiriləcəkdir. Biz öz siyasətimizlə və praktik işlərimizlə islam aləminin bir-birinə daha yaxın və möhkəm olmasına çalışırıq. Buna böyük ehtiyac var. Biz bir-birimizi dəstəkləməliyik, həm siyasi sahədə, həm də iqtisadi sahədə daha da sıx əməkdaşlıq etməliyik. Biz öz iqtisadi potensialımızı bir-birimizin xidmətinə təqdim etməliyik, islam ölkələri arasında daha çox qarşılıqlı ticarət aparılmalıdır.

Şübhəsiz ki, siyasi müstəvidə, beynəlxalq təşkilatlarda, Birləşmiş Millətlər Təşkilatında islam ölkələrinin birliyi, həmrəyliyi çox böyük əhəmiyyət daşıyır. Birgə təşəbbüslərimiz çox uğurlu olur. Bu təşəbbüslər bir məqsəd güdür: dünyada sülh bərqərar olunsun, təhlükəsizlik təmin olunsun, əmin-amanlıq olsun, dünyada müharibələr olmasın və sivilizasiyalar arasında aparılan dialoq möhkəm olsun və uğurlu nəticələr versin. Bəzi hallarda sivilizasiyalararası dialoq haqqında çox danışılır, ancaq daha da çox işlər görülməlidir. Azərbaycanın bu işlərdə rolu getdikcə artmaqdadır.

Bayaq qeyd etdiyim kimi, bizim ölkəmizdə İslam Konfransı Təşkilatı xətti ilə, İSESKO xətti ilə çoxsaylı tədbirlər keçirilir. Bəzən bu tədbirlər birgə keçirilir. Bu da çox önəmlidir. Yəni Avropa ilə islam dünyası arasında münasibətlərin

möhkəmlənməsi bizim maraqlarımıza cavab verir. Çünki əlaqələr nə qədər çox olsa, nə qədər çox qarşılıqlı anlaşma olsa, uğurlar da bir o qədər çox olacaqdır.

İslam qardaşlıq dinidir, tolerantlıq, dözümlülük dinidir. İslam dünyasının çox zəngin tarixi, zəngin mədəniyyəti vardır.

Azərbaycan qədim tarixə və mədəniyyətə malik ölkədir. Baxmayaraq ki, biz müstəqil ölkə kimi, cəmi 17 ildir yaşayırıq, Azərbaycanın çox böyük mədəni irsi var. Əsrlər boyu insanlar Azərbaycanda yaşayıb-yaratmışlar. Bizim tarixi abidələrimiz, ədəbiyyatımız, musiqimiz, incəsənətimiz, doğma Azərbaycan dilimiz bunun sübutudur. Bu möhkəm əsaslar üzərində biz müasir dövlət qururuq. Dövlət quruculuğu fəaliyyətimiz buna yönəlmişdir ki, möhkəm tarixi, mənəvi əsaslar üzərində müasir dövlət quraq, dövlətçiliyi, müstəqilliyi möhkəmləndirək, əbədi, dönməz edək və beləliklə, Azərbaycanın hərtərəfli inkişafına nail olaq. Bu işlərdə bizim böyük uğurlarımız var. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan tam şəkildə müstəqil ölkədir, öz müstəqilliyini qoruyub saxlaya, daha da möhkəmləndirə bilmişdir. Bütün imkanlarımız səfərbər olunubdur. Azərbaycanın bölgədəki rolunun artması, dünyadakı mövqelərinin möhkəmləndirilməsi, Azərbaycanın çox etibarlı tərəfdaşa çevrilməsi işləri – bunlar uğurla davam etdirilir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır. Bizim həm siyasi addımlarımız, həm də regional müstəvidə atdığımız addımlar, irəli sürülmüş təşəbbüslər dostluğa, əməkdaşlığa yönəldilibdir. Biz istəyirik ki, bölgədə sülh olsun, təhlükəsizlik olsun.

Azərbaycan son 5 ildə dünyada analoqu olmayan sürətlə inkişaf edibdir. İqtisadiyyatımız son 5 ildə dünyada ən sürətlə artan iqtisadiyyat olubdur. Köklü iqtisadi və siyasi islahatlar Azərbaycanı daha da gücləndiribdir.

Əlbəttə ki, hər bir ölkənin hərtərəfli inkişafı üçün ilk növbədə mənəvi əsaslar olmalıdır. Onlar da bizdə var. Hər bir ölkənin hərtərəfli inkişafı həm də mədəniyyət sahəsində inkişafı ehtiva edir. Bu sahəyə çox böyük diqqət göstərilir. Baxmayaraq

ki, Azərbaycan bir neçə il bundan əvvəl, demək olar ki, ən çətin iqtisadi sınaqlardan çıxa bilmişdir.

Bizim müstəqil iqtisadi inkişafımızın tarixi o qədər də qədim deyildir. Amma baxmayaraq ki, bu gün dünyada maliyyə böhranı geniş vüsət alıb və ən inkişaf etmiş ölkələr bu böhrandan əziyyət çəkir və xərclər proqramlarına düzəlişlər edirlər, Azərbaycanda humanitar sahəyə, mədəniyyətə ayrılan xərclər azalmır. Bundan sonra da mədəni irsimizin qorunması üçün nə qədər lazımdırsa, o qədər vəsait ayrılacaqdır. Demək olar ki, bütün tarixi abidələr bərpa edilir, yeni mədəniyyət ocaqları yaradılır, teatrlar, muzeylər bərpa olunur və ən müasir, gözəl səviyyədə yeniləri tikilir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Əlbəttə, dünya miqyaslı böhran zamanı iqtisadi sıxıntılar, problemlər qaçılmazdır. Hər bir ölkə bu və ya digər dərəcədə bu problemlərlə üzləşir. Ancaq bu o demək deyil ki, bu problemlər bizə elə təsir etməlidir ki, əsas istiqamətlərə bir az biganə qalaq. Əksinə, hesab edirəm ki, hər bir böhrandan çıxmaq üçün güclü iradə, düşünülmüş siyasət olmalıdır. Biz bu gün bunu Azərbaycanda görürük.

Aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən səslənən bəyanatlar da bir daha bunu göstərir. Bu bəyanatlar ondan ibarətdir ki, Azərbaycan dünya iqtisadi böhranına ən çox hazır olan ölkələrdən biridir. Bu hazırlıq göydən düşmür, son illər ərzində aparılan ardıcıl siyasət nəticəsində mümkün olubdur. Şübhə etmirəm ki, Azərbaycan dünyanı bürümüş çox ciddi, ağır iqtisadi və maliyyə böhranından şərəflə, üzüağ çıxacaqdır.

Bir daha demək istəyirəm ki, biz hətta bu müddət ərzində də mədəniyyətə ayrılan vəsaiti azaltmamalıyıq, öz diqqətimizi ondan əsirgəməməliyik. Azərbaycanın zəngin mədəni irsinin qorunması üçün və zənginləşdirilməsi üçün öz əməli işlərimizi bundan sonra da davam etdirməliyik.

Bakının çox gözəl memarlıq abidələri var. Əminəm ki, şəhərimizin qonaqları bu abidələrlə tanış olacaqlar. Bu abidələr Azərbaycan dövləti tərəfindən lazımi səviyyədə qorunur və bundan sonra da qorunacaqdır. Digər bölgələrimizdə də

çoxsaylı tarixi və dini abidələr mövcuddur və onlar da dövlət tərəfindən qorunurlar.

Lakin Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal edilmiş torpaqlarda biz tarixi irsimizi qoruya bilmirik. Çünki torpaqlarımız erməni işğalı altındadır. Ermənistanın təcavüz və etnik təmizləmə siyasəti nəticəsində ərazimizin 20 faizi işğal altına düşüb və bir milyondan artıq soydaşımız qaçqın-köçkün vəziyyətində yaşayır. Orada bütün tarixi abidələrimiz ermənilər tərəfindən dağıdılıb, muzeylərimiz talan edilib, dini məbədlərimiz, məscidlərimiz yerlə yeksan edilibdir. Bunu beynəlxalq müşahidəçilər də vurğulayırlar. 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyasının Dağlıq Qarabağa və işğal olunmuş digər ərazilərə səfəri zamanı hazırlanan məruzədə göstərilib ki, Ermənistan tərəfindən hər şey dağıdılıbdır. Budur erməni vandalizminin nəticələri, təcavüzkar işğalçı siyasətin nəticəsi. Şübhə yox ki, torpaqlarımız işğal altından çıxandan sonra biz bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün şəhərləri yenidən bərpa edəcəyik, binaları tikəcəyik. Ancaq bunu etmək üçün münaqişəyə son qoyulmalıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bitməlidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və bizim vətəndaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar.

Keçən ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə əlaqədar qətnamə qəbul edilərkən bizə səs verən bütün ölkələri, islam ölkələrini bu yüksək kürsüdən bir daha salamlayıram, onlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm – baxmayaraq ki, bu münaqişə ilə bilavasitə məşğul olan böyük dövlətlər qətnamənin qəbul olunmasına problemlər yaratmaq istəyiblər və əleyhinə səs veriblər, bu qətnamə böyük səs çoxluğu ilə qəbul edilibdir. 39 ölkə qətnaməyə səs verib və onların içində əksəriyyəti müsəlman ölkələridir. Bax, budur real islam həmrəyliyinin nəticələri. Budur bizim müştərək siyasətimizin uğurları. Azərbaycan da öz tərəfindən bütün islam ölkələrinin maraqlarının qorunması üçün

töhfəsini verməyə hazırdır və bundan sonra da siyasətində bu prinsipləri rəhbər tutacaqdır.

Əziz dostlar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Bütün islam dünyasına sülh, əmin-amanlıq arzulayıram. Bütün müsəlman bacı-qardaşlarımıza xoşbəxtlik və tərəqqi arzulayıram.

Sağ olun.

## «BAKI–İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI – 2009» MƏDƏNİYYƏT İLİNİN EMBLEMİNİN TƏQDİMATI MƏRASİMİ

*18 fevral 2009-cu il*

*İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Heydər Əliyev sarayinda keçirilən təntənəli açılış mərasimində «Bakı–İslam mədəniyyətinin paytaxtı–2009» Mədəniyyət ilinin emblemini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etmişdir.*

*Prezident İlham Əliyev Bakının islam mədəniyyətinin paytaxtı elan olunmasında həm İslam Konfransı Təşkilatının, həm də İSESKO-nun çox böyük rolu olduğunu vurğulayaraq demişdir ki, İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Azərbaycanın böyük dostudur və onun fəaliyyəti hesabına İSESKO ilə Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir. Biz müxtəlif proqramlar həyata keçiririk. İSESKO-nun xətti ilə Azərbaycanda çoxsaylı tədbirlər keçirilir. Beləliklə, Azərbaycan ilə İSESKO arasında əlaqələr yeni yüksək pilləyə qalxıbdır.*

*İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, İslam Konfransı Təşkilatının Baş katibinin müavini Atta əl-Mənnan Baxit mərasimdə çıxış etmişlər. Onlar qədim tarixi, zəngin mədəniyyəti olan Azərbaycanda prezident İlham Əliyevin rəhbərliyi altında görülən işlərdən söz açmış, tarixi abidələrin bərpası və digər mühüm işlərdə Heydər Əliyev Fondunun və onun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın fəaliyyətini yüksək qiymətləndirmişlər.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Əbdüləziz bin Osman əl-Tüveycri prezident İlham Əliyevə Bakının islam mədəniyyətinin paytaxtı elan edilməsinə həsr olunmuş tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirdi, dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndələrin bu tədbirdə iştirakını məmnunluqla qeyd etdi. O, Azərbaycan xalqının dünya mədəniyyətinə və dünya sivilizasiyasına böyük töhfələr verdiyini, prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafına xüsusi qayğısını vurğuladı.*

*Qonaq Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramli səfiri Mehriban Əliyevanın rəhbərliyi altında bu sahədə böyük işlərin görüldüyünü də bildirdi.*

*Əbdüləziz bin Osman əl-Tüveycri sözügedən tədbirin Azərbaycanda keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı Bakının islam mədəniyyətinin paytaxtı seçilməsi işində göstərdiyi dəstəyə görə İSESKO-nun Baş direktoruna minnətdarlıq etdi, bu hadisənin Azərbaycan üçün əhəmiyyətini vurğuladı. Bildirdi ki, Bakının islam mədəniyyətinin paytaxtı seçilməsi dünya ölkələrinin, o cümlədən islam dövlətlərinin Azərbaycanda gedən inkişaf prosesləri barədə daha geniş məlumat əldə etməsinə imkan verəcəkdir.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİ, AZƏRBAYCAN–İRAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ MƏNUÇEHR MUTTƏKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İran İslam Respublikasının Xarici İşlər naziri, Azərbaycan–İran Hökumətlərarası Komissiyasının həmsədri Mənuçehr Muttəkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Mənuçehr Muttəki İran prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə əlaqələrimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. İranın Xarici İşlər nazirinin ölkəmizə bu səfərinin əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş nəqliyyat qəzası nəticəsində çox-saylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Slovakiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2009-cu il*

## GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ FRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Gürcüstan parlamenti sədrinin müavini Fridon Toduanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı parlamentlərarası əlaqələrin genişlənməsində bu səfərin əhəmiyyətini vurğuladı və ümidvar olduğunu bildirdi ki, iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək baxımından səfər səmərəli olacaqdır.*

*Fridon Todua vaxtilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə görüşdüyünü xatırlatdı və bundan böyük şərəf duyduğunu dedi. O, parlamentlərarası əlaqələrin genişlənməsinin vacibliyini vurğuladı və bu səfərin əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.*

## «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN (2004–2008-ci İLLƏR) İCRASININ YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANS*

*Gülüstan sarayı*

*23 fevral 2009-cu il*

*Fevralın 23-də «Gülüstan» sarayında «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın (2004–2008-ci illər) icrasının yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə foyedə açılmış və ötən 5 il ərzində bölgələrdə istifadəyə verilmiş, yerli şirkətlərə məxsus müəssisələrdə istehsal edilən müxtəlif növ məhsullardan ibarət*

---

* Бакыда «Азярбайъан Республикасы реэионларынын социал-игтисади инкишафы Дювлят Програмы»нын (2004–2008-ъи илляр) иърасынын йекунларына щяср олунмуш конфрансда чыхыш етдиляр. Игтисади Инкишаф назири Шащин Мустафайев, Загатала Район Иъра Щакимиййятинин башчысы Асиф Ясэяров, Аьъабяди Район Иъра Щакимиййятинин башчысы Шащин Мяммядов, Сабирабад Район Иъра Накимиййятинин башчысы Щейдяр Аббасов, Гусар Район Иъра Щакимиййятинин башчысы Шаир Алхасов, Ъялилабад Район Иъра Щакимиййятинин башчысы Язиз Язизов, «Билясувар АЧРО» сцд емалы заводунун директору Тащир Садыгов вя с.

*sərgi ilə tanış oldu, Heydər Əliyev Fondunun, Rabitə və İnformasiya Texnologiyaları, Mədəniyyət və Turizm, Gənclər və İdman, Nəqliyyat nazirliklərinin, «Azərenerji», «Azəriqaz», «Azərsu» səhmdar cəmiyyətlərinin və digər qurumların stendlərinə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Abşeron iqtisadi rayonunda sənaye və aqrar-sənaye kompleksi əsas iqtisadi potensialı təşkil edir. Ötən 5 ildə iqtisadi rayonda ümumi məhsul istehsalının həcmi 2 milyard 885 milyon manatdan çox olmuş, 1565 yeni müəssisə yaradılmışdır. Bu müddətdə 49 min 386 yeni iş yeri yaradılmış, 16 yeni məktəb binası, 11 səhiyyə ocağı istifadəyə verilmişdir.*

*Dağlıq Şirvan iqtisadi rayonunda kənd təsərrüfatı, xalq sənətkarlığı, sənaye və turizm əsas yer tutur. Bu sahələrin hər birinin inkişafına xüsusi diqqət yetirilmişdir. Ümumi məhsul istehsalı 1 milyard 14,8 milyon manatlıqdan çox olan bu iqtisadi rayonda 350 yeni istehsal müəssisəsi yaradılmış, 21 min 332 yeni iş yeri açılmışdır.*

*Şəki–Zaqatala iqtisadi rayonunda əsas diqqət ixrac qabiliyyətli məhsulların istehsalına yönəldilmişdir. Bu rayonda əsas sahələr kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi, turizmdir. Ötən 5 ildə ümumi məhsul istehsalının həcmi 2 milyard 52,1 milyon manatdan çox olmuş, 879 yeni müəssisə istifadəyə verilmiş, 40 min 509 yeni iş yeri yaradılmışdır.*

*Quba–Xaçmaz iqtisadi rayonu da ölkənin sosial-iqtisadi inkişafına layiqli töhfə vermişdir. Bu iqtisadi rayonda da yeni istehsal sahələri yaradılmış, iş yerləri açılmış, iqtisadi inkişaf sürətlənmişdir. İqtisadi rayon üzrə 2 milyard 787,9 milyon manatlıqdan çox məhsul istehsal olunmuş, 43 min 736 yeni iş yeri açılmış, 644 yeni müəssisə yaradılmışdır.*

*Gəncə–Qazax iqtisadi rayonu üzrə əsas iqtisadi göstəricilər kənd təsərrüfatı, xalq sənətkarlığı, sənaye, turizm və digər sahələrlə bağlıdır. İqtisadi rayon üzrə ümumi məhsul istehsalının həcmi 5 milyard 49 milyon manatdan çox olmuş, 1458 yeni müəssisə yaradılmış, 96 min 977 yeni iş yeri açılmışdır.*

*Lənkəran iqtisadi rayonunda əsas istehsal sahələrini aqrar-sənaye kompleksi, turizm təşkil etmişdir. İqtisadi rayon üzrə 2 milyard 458,4 milyon manatlıqdan çox məhsul istehsal olunmuş, 1082 müəssisə açılmış, 71 min 644 yeni iş yeri yaradılmışdır.*

*Naxçıvan Muxtar Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində mühüm işlər görülmüş, sənaye, kənd təsərrüfatı, xalq sənətkarlığı və digər sahələrdə yüksək nəticələr əldə edilmişdir. Ötən dövrdə ümumi məhsul istehsalının həcmi 2 milyard 639,7 milyon manatdan çox olmuş, 1236 yeni müəssisə yaradılmış, 37 min 73 yeni iş yeri açılmışdır.*

*Yuxarı Qarabağ iqtisadi rayonunda ümumi məhsul istehsalında kənd təsərrüfatı, sənaye və turizm sektorları üstünlük təşkil etmiş, 834,2 milyon manatlıqdan çox məhsul istehsal olunmuşdur. Rayonda 555 yeni müəssisə, 17 min 241 yeni iş yeri yaradılmışdır.*

*Aran iqtisadi rayonu da Dövlət Proqramının həyata keçirilməsində uğurlar qazanmışdır. Bu iqtisadi rayona daxil olan bölgələrdə iqtisadiyyatın əsas sahələrini kənd təsərrüfatı, sənaye, o cümlədən neft və qaz, tikinti materialları istehsalı təşkil etmişdir. Bu rayonda ümumi məhsul istehsalının həcmi 8 milyard 878 milyon manat olmuş, 2982 yeni müəssisə yaradılmış, 169 min 628 yeni iş yeri açılmışdır.*

*Dövlət başçısına neft və energetika, tikinti və tikinti materialları, yüngül sənaye, qida, turizm, səhiyyə, kənd təsərrüfatı, elektrotexnika, kompyuter texnikası, rabitə, məişət avadanlığı, şərabçılıq sektorlarında yeni yaradılmış müəssisələrin məhsulları barədə ətraflı məlumat verildi. Bildirildi ki, bu məhsullar həm daxili bazara çıxarılır, həm də ixrac edilir.*

*Prezident İlham Əliyev sərgidəki eksponatları yüksək qiymətləndirərək, keyfiyyətli məhsul istehsalını artırmağın, xarici bazarda, xüsusilə də Avropa bazarında möhkəmlənməyin vacibliyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, gələcəkdə*

*ölkəmizdə sahibkarlığın, özəl sektorun inkişafına diqqət və qayğı daha da artırılacaqdır.*

*Sonra konfrans başlandı.*

*Konfransda ölkənin müxtəlif regionlarından 600-dək iş adamı, beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanda təmsil olunan nümayəndələri, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları iştirak edirdilər.*

*Dövlətimizin başçısı konfransı giriş nitqi ilə açdı.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Beş il əvvəl «Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı Dövlət Proqramı» təsdiq edilmişdir. 2004-cü ilin fevral ayında proqramın icrası başlanmışdır. Bu gün böyük məmnunluq hissi ilə deyə bilərəm ki, proqram vaxtından əvvəl və daha da böyük həcmdə icra olundu. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı məsələləri diqqət mərkəzində dayanırdı. Bu gün də belədir. 5 il ərzində keçdiyimiz yol bu gün deməyə əsas verir ki, bölgələrin bir sıra problemləri öz həllini tapmışdır. 2004-cü ildə qeyri-neft sektorunun inkişafına nail olmaq əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Yəni, bölgələrdə müasir güclü infrastruktur, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin. Hər bir ölkənin inkişafı üçün bu çox böyük əhəmiyyət kəsb edir. Təbii resurslarla zəngin olan ölkələrdə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət kəsb edir. Çünki əks təqdirdə iqtisadiyyat dayanıqlı olmayacaq və biz bu uğurları ancaq qısa müddət ərzində yaşaya bilərik. Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan sürətlə inkişaf etsin, iqtisadiyyatımız neft-qaz amilindən asılı olmasın və insanların yaxşı yaşaması üçün bütün şərait yaradılsın. Demək olar ki, proqramın əsas məqsədləri bunlardan ibarət olmuşdur və bütün bu işlər bir-biri ilə sıx bağlıdır. Regionların inkişafı bir tərəfdən, güclü infrastrukturun yaradılmasına, iş yerlərinin

açılmasına xidmət göstərir, bir növ miqrasiya meyillərinin qarşısını alır. Digər tərəfdən, müasir, yeni infrastrukturun yaradılması yeni müəssisələrin yaradılmasına xidmət göstərir. Azərbaycan dövləti son 5 ildə bölgələrə çox böyük sərmayə qoymuş, özəl sektorun inkişafı üçün böyük həcmdə güzəştli şərtlərlə kreditlər ayırmış, sahibkarlığın inkişafına böyük dəstək vermişdir. Həm mənəvi, həm siyasi, həm də maddi dəstək. Bu amillər birləşəndə, əlbəttə ki, uğura nail olmaq mümkündür və Azərbaycanın son 5 il ərzində keçdiyi yol bunun əyani sübutudur.

Təkcə bir neçə statistik rəqəmə fikir vermək kifayətdir ki, biz proqramın nə dərəcədə böyük əhəmiyyəti olduğunu görək. Son 5 ildə Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır, adambaşına düşən gəlir 5500 dollara çatmışdır. Azərbaycanda sənaye istehsalı 2,5 dəfə artmışdır və sənayeləşmə prosesi çox geniş vüsət almışdır. Nəticədə 766 min yeni iş yeri açılmışdır ki, onlardan da 547 mini daimi iş yeridir. Bunun nəticəsində yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, 49 faizdən 13,2 faizə düşmüşdür. Azərbaycanda aparılan uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində büdcə xərclərimiz 12 dəfədən çox artmışdır. İndi valyuta ehtiyatlarımız 18 milyard dollardan çoxdur. Bu statistik rəqəmlər onu göstərir ki, son 5 ildə biz həqiqətən uğurlu yol keçmişik. Bu nəticələri təkcə rəqəmlərdə yox, abadlaşan şəhərlərdə, kəndlərdə, çəkilən yollarda, tikilən infrastruktur obyektlərində görürük. Bizim məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir ki, bütün meyarlar dünyanın ən qabaqcıl, inkişaf etmiş ölkələrinin səviyyəsinə çatsın. Bu istiqamətdə hələ çox iş görməliyik. Ancaq 5 ildə həm regionların sosial-iqtisadi inkişaf proqramının, həm də digər proqramların icrası deməyə əsas verir ki, biz bu məqsədə çatacağıq.

2004-cü ildə proqram qəbul olunanda ona hər şeyi daxil etmək mümkün deyildi. Həyat bizim planlarımıza öz dəyişikliklərini etdi və son 5 il ərzində 2004-cü ildə proqramda nəzərdə tutulmayan bir sıra məsələləri həll etdik. Özü də qısa

müddət ərzində və istənilən sahədə. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, konkret proqramla təmin olunmasın. Hər bir proqramın konkret icra mexanizmləri, konkret maliyyə bazası və bütün texniki imkanlar var. Bu gün Azərbaycanda istənilən tikinti layihəsi daxili resurslar hesabına icra oluna bilər. Əgər əvvəlki illərdə Azərbaycanda çox böyük tikinti-quraşdırma layihələrinin icrası üçün daha çox xarici firmalara üz tuturduqsa, bu gün yerli şirkətlər öz peşəkarlığını nümayiş etdirirlər. Bu da imkan verir ki, işlərin tam əksəriyyəti Azərbaycan şirkətləri tərəfindən icra olunsun, büdcədən xərclənən vəsait Azərbaycanda qalsın və öz şirkətlərimiz, öz vətəndaşlarımız bundan bəhrələnsinlər.

Yəni əgər dövlət xətti ilə milyardlarla ölçülən investisiyalar olmasaydı, şübhəsiz ki, indi Azərbaycan şirkətlərinin bu qədər imkanları olmazdı. Onlar bu imkanları daha çox dövlət tərəfindən verilən sifarişlər hesabına əldə ediblər. Bu onların maliyyə imkanlarını genişləndirib və bu da öz növbəsində, həmin şirkətlərin artıq Azərbaycan iqtisadiyyatının real sektoruna investisiyalar qoymasına gətirib çıxarıbdır.

İlk növbədə siyasi iradə ortaya qoyulub, digər tərəfdən də konkret proqramlar icra olunub, maliyyə sektorunda nizam-intizam möhkəmlənib. Əlbəttə ki, neft-qaz sahəsində görülən işlər maddi imkanlarımızı genişləndirib və biz bu imkanlardan çox səmərəli istifadə etdik. Həm investisiyalar qoyuldu, həm də özəl sektorun inkişafına çox gözəl şərait yaradıldı, böyük həcmdə kreditlər verildi. Elə etməliyik ki, böhranın ola biləcək mənfi təsirini maksimum dərəcədə azaldaq və mən şübhə etmirəm ki, buna nail olacağıq.

İndi Azərbaycan iqtisadiyyatının inkişaf potensialı çox böyükdür. Bunlar, əlbəttə ki, növbəti illərdə iqtisadiyyatımızın daha da şaxələndirilməsinə gətirib çıxaracaqdır. Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, neft-qaz amilindən asılılıq daha da aşağı düşəcəkdir. Bizim bütün işlərimiz, proqramlarımız, tədbirlərimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasına yönəldilməlidir və yoxsulluğun

səviyyəsinin aşağı düşməsinin dinamikası bunu çox aydın göstərir.

O da həqiqətdir ki – dünya tarixindən bunu yaxşı bilirik – neft və qazla zəngin olan ölkələrdə bir çox hallarda təbəqələşmə prosesi gedir, varlılar daha da varlanır, kasıblar daha da müflisləşir. O da reallıqdır ki, neft-qaz sənayesi çoxlu iş yerlərinin yaradılmasına xidmət etmir. Yəni bu sahədə iş yerlərinin açılması kütləvi xarakter daşımır. Bəzi ölkələrdə nə qədər çox neft-qaz hasil olunursa, insanlar bir o qədər çox kasıblaşırlar. Ancaq Azərbaycanda bunun tam əksini görürük. Bu da bizim üçün böyük bir sınaq, imtahan idi ki, bu böyük maliyyə imkanlarından necə istifadə edəcəyik, onları hansı istiqamətə yönəldəcəyik. Çünki müxtəlif fikirlər var idi və bəzi hallarda indi də biz bunu eşidirik ki, bu vəsaitdən belə istifadə edilməliydi, yaxud da ki, başqa cür istifadə olunmalıydı. Azərbaycanın təcrübəsi və apardığımız siyasət onu göstərir ki, biz maliyyə imkanlarımızdan ən düzgün şəkildə istifadə etdik. Maliyyə resursları investisiyalara, iqtisadiyyatın real sektoruna, energetika, qazlaşdırma, nəqliyyat, səhiyyə və təhsilə, humanitar sahəyə qoyuldu.

Ən önəmlisi odur ki, neftdən əldə olunan gəlirlər ədalətli bölünür, xalqımız və bütün dünya bilir ki, Azərbaycanın nə qədər valyuta ehtiyatları var, neft fondunun gəlirləri nə qədərdir, xərcləri nə qədərdir, gəlirlər necə xərclənir, necə istifadə olunur. Yəni şəffaflıq tam şəkildə təmin olunubdur. Bu da neft-qazla zəngin olan ölkələrdə xüsusi diqqətə layiq olan bir məqamdır. Azərbaycan şəffaflıq təşəbbüsünə qoşulmuş ölkələrin öndə gedənlərindən biridir. 2007-ci ildə Birləşmiş Millətlər Təşkilatı şəffaflıq sahəsində əldə edilmiş uğurlarla əlaqədar Azərbaycan Dövlət Neft Fondunu xüsusi mükafatla təltif edibdir. Bu şəffaflıq ilk növbədə Azərbaycan dövlətinə, xalqına lazımdır. İqtisadiyyatın hər bir sahəsində maksimum dərəcədə şəffaflıq olmalıdır ki, imkanlarımızdan səmərəli istifadə edək.

Böyük iqtisadi imkanlarımız var. Elə etməliyik ki, onlardan 100 faiz səmərəli şəkildə istifadə olunsun. Mən deyəndə ki, biz öz imkanlarımızdan istifadə edib Azərbaycanda bütün meyarları dünyanın ən qabaqcıl səviyyəsinə gətirib çıxarmalıyıq – o cümlədən bunu nəzərdə tuturam. Çünki biz bilirik ki, inkişaf etmiş ölkələr nəyin hesabına bu inkişafa nail olublar. Onlar heç də neft-qaz hesabına buna nail olmayıblar. İnkişaf etmiş ölkələr bu uğurlara iqtisadiyyatın səmərəliliyi, şəffaflıq, demokratik əsaslar, köklü islahatlar, texnoloji tərəqqi və təhsil sayəsində nail olublar. Biz də onlardan yaxşı nümunələri götürüb, ölkəmizi daha da sürətlə inkişaf etdirməliyik.

Qarşıda duran vəzifələrdən biri ondan ibarətdir ki, bazar iqtisadiyyatı şəraitində sosial məsələlərin həlli unudulmamalıdır, əksinə, onlar diqqət mərkəzində olmalıdır. Çünki bazar iqtisadiyyatı prinsipləri bizim üçün nisbətən yenidir. 17 il əvvəl Azərbaycan iqtisadiyyatında özəl sektorun payı sıfır səviyyəsində idi. İndi bu, 85 faizdir. Yəni biz elə sistemdə yaşamışdıq ki, ölkədə heç vaxt bazar iqtisadiyyatı prinsipləri tətbiq edilmirdi. Bizim üçün bu, yenilik idi. Ancaq qısa müddətdə biz buna nail olduq. İqtisadiyyatımızın tam əksəriyyəti bazar münasibətləri əsaslarında qurulubdur və səmərəli də işləyir.

Sosial məsələlərin həlli, sosial proqramlar, ünvanlı sosial yardım, sosial infrastrukturun yaradılması məsələləri də bizim üçün ən prioritet məsələlər idi və bu istiqamətdə son 5 il ərzində böyük nəticələr əldə edilmişdir. Son 5 ildə minimum əməkhaqqı 8,3 dəfə, minimum pensiya təxminən 4 dəfə artıbdır. Azərbaycanda sosial infrastrukturun yeniləşməsinə və yaradılmasına böyük vəsait qoyulubdur. Son 5 ildə 1600 məktəb tikilib, müasir səviyyədə, hamısı da kompyuterlərlə təmin edilib. Müxtəlif bölgələrimizdə yüzlərlə tibb ocağı tikilibdir. Onlardan 8-i ölkəmizin müxtəlif bölgələrində yerləşən və ən yüksək dünya standartlarına cavab verən müalicə-diaqnostika mərkəzləridir. Növbəti 8 müalicə-diaqnostika mərkəzinin tikintisi bu gün davam edir.

İdman qurğuları, olimpiya-idman kompleksləri – son 5 ildə 10-dan çox olimpiya idman kompleksi tikilibdir. Bunlar Azərbaycan vətəndaşlarına xidmət edir. Bölgələrimizdə ən qabaqcıl ölkələrdəkindən geri qalmayan müasir sosial infrastruktur yaradılıbdır, muzeylər, teatrlar, mədəniyyət ocaqları təmir olunubdur. Bütün bunları sadalamaq üçün bəlkə də bir gün danışmaq lazımdır. Yəni gördüyümüz işlər təkcə bir sahəyə yönəlməyib, bütün sahələri əhatə edir.

Hesab edirəm ki, biz 5 il ərzində tarixi nailiyyətə çatdıq – çadır şəhərciklərinin ləğvinə nail olduq. Mən 2003-cü ildə demişdim ki, bir dənə də çadır şəhərciyi qalmayacaqdır. İndi biri də yoxdur. Əvəzində yeni qəsəbələr, yeni infrastruktur yaradılıbdır.

Biz cəmi 5 il ərzində nəqliyyat sektorunda problemlərin böyük bir hissəsini həll etmişik. 4 aeroport – Naxçıvan, Gəncə, Zaqatala və Lənkəran aeroportları tikilibdir. Bəlkə də Lənkəran Bakıdan o qədər də uzaqda deyil və indi o qədər sərnişin axını da yoxdur. Eyni zamanda, Zaqatala aeroportu, bəziləri deyə bilər ki, bu, prioritet deyildir. Ancaq mən hesab edirəm ki, bu prioritetdir. Çünki bu, bizim strateji maraqlarımıza xidmət göstərir. Bu gün bunlar var və gələcəkdə Azərbaycana daha da yüksək dərəcədə xidmət göstərəcəkdir.

Bu gün biz öz tanker donanmamızı, demək olar ki, maksimum dərəcədə təmin etmişik və Xəzərdə yükdaşımalar artır. Yükdaşımalar artdıqca, dəmir yolu daha da çox işləyir, daha da çox iş yerləri yaradılır. Avtomobil yollarının tikintisi geniş vüsət alıbdır, hər bir istiqamətə yollar çəkilir. Həm magistral, həm şəhərlərarası yollar, həm də ən ucqar kəndlərə müasir yollar çəkilir. Yol çəkilən kimi, dərhal o bölgədə canlanma müşahidə olunur. Bəzi hallarda rayonlarda olarkən mənə müraciət edirdilər ki, bəlkə bizim kənddə tibb mərkəzi lazım deyil, amma yol çəkilərsə, onda rayon mərkəzinə rahatlıqla gedə bilərik.

Bu işlərdə biz bir məqsədi güdürdük ki, Azərbaycanın hərtərəfli infrastruktur potensialı yaradılsın və insanlara yaxşı

xidmət göstərilsin. Bazar iqtisadiyyatı, sosial məsələlərin həlli, güclü infrastruktur layihələrinin icra olunması, sahibkarlıqla məşğul olanlara dövlət dəstəyi, kənd təsərrüfatının inkişafı – bu işlərə böyük həcmdə vəsaitlər qoyulubdur. Biz «Aqrolizinq» Səhmdar Cəmiyyətini yaradanda mən vəzifə qoymuşdum ki, qısa müddətdə dövlət vəsaiti hesabına gözəl texnikalar alınsın, fermerlərə icarəyə verilsin. Onlar da o texnikadan istifadə edib kənd təsərrüfatı ilə məşğul olsunlar, pul qazansınlar, ölkəyə məhsul versinlər. Amma sonra gördük ki, bu bizim istəyimizə tam şəkildə gətirib çıxarmır. Nə etdik? Güzəştli şərtlərlə, qiymətin cəmi 25 faizi ilə fermerlərə gübrə verməyə başladıq. Sonra da yanacaq və toxumlar. Meliorasiya məsələlərinə böyük diqqət göstərildi və suvarılan torpaqların sahəsi artırıldı. Nəticədə bir il ərzində biz 300–400 min ton artıq taxıl istehsal etdik. Biz deyəndə, mən fermerləri nəzərdə tuturam, çünki Azərbaycanda kənd təsərrüfatı tamamilə özəl prinsiplər əsasında işləyir.

Beləliklə, ərzaq təhlükəsizliyimizi təmin edirik. Çünki indi ərzaq təhlükəsizliyi məsələləri artıq müzakirə mövzusudur. Gələcəkdə buna daha da böyük diqqət göstəriləcəkdir.

O ölkələrdə ki, enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi və nəqliyyat təhlükəsizliyi təmin olunmayıb, onlar böyük problemlərlə üzləşirlər. Artıq görürük ki, bəzi ölkələr öz hesabına yaşaya bilmir. Ya kredit almaq üçün beynəlxalq maliyyə qurumlarına, yaxud da başqa-başqa dövlətlərə üz tuturlar. Bu da aydındır ki, kim pul verirsə, o da musiqini sifariş edir. Biz artıq bunun ilkin təzahürlərini görürük və istisna olunmur ki, bu, gələcəkdə daha da böyük dərəcədə baş versin.

Ola bilər ki, ölkələr istər-istəməz öz müstəqil siyasətinə müəyyən məhdudiyyətlər qoysun. Azərbaycan isə tam şəkildə özünü təmin edən ölkədir. Onu da deyə bilərəm ki, bizə də kreditlərin verilməsi üçün başqa ölkələrdən müraciətlər daxil olur.

Təhlükəsizlik eyni zamanda, ərzaq təhlükəsizliyidir. Bu gün buraya gəlməmişdən əvvəl mən aşağıda – sərgidə

Azərbaycanda son illər ərzində yaradılmış sənaye müəssisələrinin məhsulları ilə növbəti dəfə tanış oldum. Gördüm ki, biz tam şəkildə özümüzü təmin edirik. Bu gün biz özümüzü ərzaq məhsulları ilə maksimum dərəcədə təmin etmişik. Azərbaycanda yaradılan çox gözəl, müasir emal müəssisələri həm bizim tələbatımızı ödəyir, həm də ki, onların gözəl ixrac potensialı vardır.

Gələcəkdə kənd təsərrüfatının inkişafına yeni proqramlar əlavə ediləcək və biz bu sahəyə maksimum dərəcədə diqqət göstərməliyik. Bu həm təhlükəsizlik məsələsidir, həm iqtisadi, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin yarısı kənd təsərrüfatı bölgələrində yaşayır.

Son 5 il ərzində o qədər çox işlər görülüb ki, onların hamısını sadalamaq üçün çox vaxt lazımdır. Ancaq bir neçə məqam üzərində dayanmaq istəyirəm. Elektroenergetika sahəsi – buna çox böyük diqqət verilmişdir. Bu sahə iqtisadiyyatın əsasıdır. Son 5 ildə Azərbaycanda 9 elektrik stansiyası tikilmişdir. Onların ümumi istehsal gücü 1000 meqavatdan çoxdur. Bu stansiyalar ölkəmizin müxtəlif bölgələrində tikilibdir. Bu sahəyə də biz öz prinsipimizi gətirdik. Bu, itkilərin azalmasına kömək edir. Hər bir bölgədə güclü energetika potensialı yaradılmalıdır. Bu il əlavə 2 stansiya istismara veriləcəkdir. Onların ümumi istehsal gücü təxminən 600 meqavat olacaqdır. Daha 2 stansiyanın tikintisi gedir və onların da istehsal gücü 1000 meqavata yaxın olacaqdır. Yəni görülən işlər nəticəsində Azərbaycanda energetika sistemində 3 min meqavata yaxın əlavə güc yaradılacaqdır. Onu da demək istəyirəm ki, bütün dövrlərdə Azərbaycanda yaradılmış elektrik stansiyalarının maksimum gücü 4500 meqavat olubdur. Növbəti illərdə biz bərpa olunan enerji növlərinin inkişafı ilə məşğul olacağıq. Artıq göstəriş verilib ki, biz öz su mənbələrimizdən, çaylarımızdan maksimum dərəcədə istifadə etməliyik. Günəş, külək enerjisi ilə məşğul olacağıq.

5 ildə qazlaşdırma prosesi çox sürətlə getdi. 5 il bundan əvvəl qazlaşdırma 60-62 faiz idi, bu gün 85 faizdir. Qarşıya vəzifə

qoyulub ki, bunu 93-95 faizə qaldıraq. Son 5 ildə 8 rayona qaz verilibdir. Naxçıvan Muxtar Respublikası 13 il fasilədən sonra təbii qazla təmin olunur və bu gün Naxçıvan tamamilə qazlaşdırılmışdır. Vaxtilə qazın verilməsi dayandırılmış rayonların qaz təchizatı bərpa edilmişdir. Ağcabədi, İmişli, Beyləqan, Ağdam rayonunun Quzanlı qəsəbəsi, Füzuli rayonunun Horadiz şəhərinə qaz verilmişdir. Tarixdə heç vaxt qaz almayan Yardımlı və Lerikə də qaz xətləri çəkilmişdir. Bunun nə demək olduğunu bu işlərdə təcrübəsi olan insanlar bilirlər. Çünki dağ rayonlarına qaz xətti çəkmək həm texniki cəhətdən çox böyük problemdir, həm də böyük vəsait tələb edir. Yəqin ki, ona görə də vaxtilə o rayonlara qaz xətti çəkilməmişdir. Onu da biz etdik. Bu gün elə rayon yoxdur ki, ora təbii qaz verilməsin. Bu həm insanlara rahatlıq verir, həm də yeni müəssisələrin yaradılmasına xidmət edir. Əgər elektrik enerjisi və qaz olmasa, heç bir yeni müəssisə yaradıla bilməz.

Bir sözlə, mən sözümün sonunda bir daha demək istəyirəm ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsi və uğurla icrası bizim böyük uğurumuzdur, böyük nailiyyətimizdir. Deyə bilərəm ki, bu, tarixi bir nailiyyətdir. Növbəti 5 il ərzində biz bu istiqamətdə siyasətimizi artıq bu gözəl əsas üzərində davam etdirəcəyik. Bütün iqtisadi, maliyyə böhranlarına baxmayaraq, biz öz siyasətimizi davam etdirəcəyik. Azərbaycanın hərtərəfli inkişafı üçün, ölkəmizin zənginləşməsi üçün, insanların rahat yaşaması üçün öz səylərimizi davam etdirəcəyik.

## YEKUN NİTQİ

Son illər ərzində hər ilin fevral ayında biz regional inkişaf proqramının yekunları ilə bağlı yığışırdıq, müzakirə edirdik və hər il proqrama yeni əlavələr olunurdu. Mən son 5 ildə bölgələrə gedərkən, vəziyyətlə yerlərdə tanış olarkən, proqramla əlaqədar lazım olan əlavə tədbirlərin görülməsi haqqında müvafiq göstərişlər vermişdim. Rayonların inkişafına dair çoxsaylı əlavə sərəncamlar imzalanmış, əlavə vəsait ayrılmışdır. Yəni proqram bir istiqamət idi və əlbəttə ki, biz keçən illər ərzində proqrama əlavələr etməklə onu daha da zənginləşdirdik. Beləliklə, qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün daha da yaxşı şərait yaradılmışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla başa çatdı və növbəti illər üçün yeni proqram da hazırlanıbdır. Növbəti beşillik dövr başlayır, qarşıdakı 5 il ərzində çox işlər görülməlidir. Əvvəlki illərdə görülməmiş işlər, yaxud yarımçıq qalan işlər başa çatmalıdır. Azərbaycanın uğurlu gələcək inkişafını təmin etmək üçün böyük investisiyalar qoyulmalıdır, infrastruktur layihələri davam etdirilməlidir və yeniləri başlanmalıdır. İnvestisiya layihələri də çox böyükdür, çox genişdir və bu ilin investisiya proqramı da bir neçə milyard dollar təşkil edir. Bu proqramın icrası nəticəsində təkcə 2009-cu ildə hər bir sahədə böyük işlər görüləcəkdir. Hesab edirəm ki, növbəti 5 ildə infrastruktur layihələrinin hamısını başa çatdırmalıyıq. Buna imkan var və biz bunu etməliyik.

Növbəti beşillik proqram hazırlanarkən bölgələrdən çoxsaylı təkliflər gəldi. Mən göstəriş vermişdim ki, rayonlardan gələn təkliflər təhlil edilsin və məhz onların əsasında biz regional Dövlət Proqramının ikinci versiyasını qəbul edək. Çünki bölgələrdə yaşayan insanlar daha yaxşı bilirlər ki, hansı məsələ həll olunmalıdır. Hesab edirəm ki, növbəti 5 ildə bölgələrimizdə və bütövlükdə ölkəmizdə bu vaxta qədər həllini tapmamış məsələlər həll olunmalıdır. Proqram da məhz bu istiqamətə yönəldilibdir. Növbəti proqram yəqin ki, yaxın zamanlarda

təsdiqlənəcəkdir. Proqramın üzərində uzun müddətdir ki, iş gedir. Orada hər bir məsələnin həlli üçün həm icra mexanizmləri, vaxt müəyyən olunub və həm də maddi resurslar hər il qəbul edilən büdcədə göstəriləcəkdir.

Birinci proqramın icrası nəticəsində biz gördük ki, əgər siyasi iradə və düşünülmüş siyasət varsa, hər bir məsələ öz həllini tapa bilər. Bu gün səslənən çıxışlarda və nümayiş etdirilən sərgidə biz işlərimizin əyani nəticələrini görürük. Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artıbdır. Bəzən məsələni dərindən bilməyən, yaxud işimizə kölgə salmaq istəyən mənbələrdən belə bir fikir gəlir ki, guya buna ancaq neft amilinə görə nail olmuşuq. Bu gün icra hakimiyyəti başçılarının çıxışlarında səslənən rəqəmlər bu yanlış tezisi alt-üst edir. Əksər rayonlarda 2 dəfə, 2,5 dəfə, 2,8 dəfə iqtisadi artım var. Bölgələrimizdə neft hasilatı yoxdur, orada artım məhz qeyri-neft sektorunun hesabınadır. Bu artım aparılan islahatlar, ayrılan vəsait, verilən kreditlər, sahibkarlığın geniş vüsət alması nəticəsində baş veribdir.

Əlbəttə ki, neft-qaz amili bu gün və gələcəkdə ölkəmizin inkişafı üçün öz müsbət rolunu oynayacaqdır. Lakin bizim başlıca vəzifəmiz ondan ibarətdir ki, qeyri-neft sektorunu inkişaf etdirək. Mən giriş sözümdə son illər ərzində neft-qaz sahəsində əldə edilmiş nəhəng nailiyyətlər haqqında heç nə demədim. Çünki bugünkü konfransın mövzusu deyildir. Bunlar çox böyük, nəhəng layihələrdir ki, Azərbaycan onların həyata keçirilməsinə nail olubdur. Tarixi əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər neft-qaz layihələri, zəngin neft-qaz yataqlarımızın işlənilməsi və hasilatın artırılması, Azərbaycanın dünya miqyasında, Avropa qitəsində enerji təhlükəsizliyi baxımından mühüm ölkəyə çevrilməsi – bütün bunlar reallıqlardır. Ancaq bizim önəmli uğurlarımız məhz qeyri-neft sektorunda baş veribdir.

Növbəti illər ərzində içməli su təchizatı, meliorasiya, suvarma məsələlərinə daha böyük diqqət göstərilməlidir. Növbəti 5 ildə bu problemləri tamamilə həll etməliyik. Bunu

etmək üçün böyük işlər başlanmışdır. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi uğurla davam edir. Bunu da mən çox tarixi və önəmli hadisə kimi qəbul edirəm. Neft kəmərinin fəaliyyəti hesabına əldə edilmiş gəlirlər su kəmərinin tikilməsi üçün yönəldilibdir. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi birbaşa Azərbaycan Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilir.

Samur–Abşeron kanalının tikintisinin də çox böyük əhəmiyyəti var. Taxtakörpü su anbarı tamamilə su təhlükəsizliyi məsələlərimizi təmin edəcəkdir. Bu da çox önəmlidir. Azərbaycanın su mənbələrinin böyük əksəriyyəti ölkəmizin hüdudlarının kənarında formalaşır, biz su təhlükəsizliyi məsələlərinə çox ciddi yanaşmalıyıq. Ekologiya nazirliyi xətti ilə bölgələrdə – Kür, Araz çayları boyunca yerləşən kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması və 100 minlərlə insanın içməli su ilə təmin edilməsi məsələləri də öz həllini tapır. Birinci mərhələdə bölgələrdə yaşayan 400 min insan, hansılar ki birbaşa çaydan, kanaldan götürdükləri suyu dədə-baba qaydaları ilə təmizləyərək istifadə edirlər, onlar artıq təmiz içməli su ilə təmin olunacaqlar. Ümumi proqram isə 800 min əhalini əhatə edir və göstəriş verilibdir ki, bütün su mənbələrimiz, çaylarımız olan yerlərdə müasir təmizləyici qurğular quraşdırılsın. Növbəti illərdə biz bu layihəni daha da geniş şəkildə həyata keçirəcəyik. Artıq bu barədə müvafiq göstərişlər də verilibdir.

Növbəti 5 ildə meliorasiya, suvarma sahəsinə böyük vəsaitlər, sərmayələr qoyulacaqdır. Suvarılan sahələrin artırılması ilə kənd təsərrüfatının səmərəli inkişaf etdirilməsi çox böyük əhəmiyyət kəsb edən məsələdir. Ümumiyyətlə, növbəti 5 ildə ekoloji məsələlərin həllinə çox böyük diqqət göstərilməlidir. Bir müddət əvvəl Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün böyük ekoloji proqram qəbul edildi. Xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması, neftlə çirklənmiş ərazilərin təmizlənməsi, rekultivasiyası, ağacların əkilməsi üçün lazımi göstərişlər verilibdir. Növbəti illərdə bu məsələyə çox böyük diqqət göstəriləcəkdir.

100 ildən çoxdur ki, Rusiya imperiyası və Sovet İttifaqı zamanlarında da, müstəqillik illərində də Azərbaycanda neft çıxarılır. Əfsuslar olsun ki, ekoloji məsələlərə diqqət göstərilməyib, «ekologiya» termini Sovet İttifaqı zamanında çox az işlənilib. İndi isə biz əsrlər boyu çirklənmiş torpaqları təmizləməliyik. Ekologiya Nazirliyi, Dövlət Neft Şirkəti və digər qurumlar bu işlərlə məşğul olur. Ən acınacaqlı yerlərdən biri olan Bibiheybət buxtasının ətrafında artıq parklar salınır, ağaclar əkilir, çirklənmiş gölməçələr təmizlənir. Bu, çox böyük vəsait tələb edir və biz o vəsaiti birbaşa insanların sağlamlığına, ekoloji vəziyyətin yaxşılaşmasına yönəldilən vəsaitdən ayırırıq.

Həllini gözləyən işlərimiz də çoxdur. Belə görünə bilər ki, ekoloji məsələlər sosial-iqtisadi inkişafla birbaşa əlaqəsi olmayan məsələlərdir. Ancaq belə deyil. Bu məsələlər hər bir ölkə üçün çox əhəmiyyətlidir və təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə ekoloji məsələlərin həllinə çox böyük diqqət göstərilir. Azərbaycan da istisna olmamalıdır.

Sahibkarlığın inkişafı son 5 ildə geniş vüsət almışdır. Bu gün Azərbaycan sahibkarları nəinki daxili bazarı təmin edirlər, görülmüş işlər nəticəsində çox yaxşı ixrac potensialı da yaradılıbdır. Məhsullarımız dünya standartlarına cavab verir, beynəlxalq sertifikatlar alır. Həm yeyinti sənayesində, həm tikinti sənayesində. Emal müəssisələrinin fəaliyyəti genişlənir, Azərbaycanda bölgənin ən böyük emal müəssisələri yaradılır. Məsələn, Biləsuvar süd emalı zavodu bu gün südlə nəinki Azərbaycanı, bütün bölgəni təmin edəcəkdir. Yaxud İmişlidə tikilmiş şəkər zavodu ölkənin tələbatını tam şəkildə ödəyir. Hər zaman şəkər ölkəmizə xaricdən gətirilib. Bu gün isə həm daxili tələbat ödənilir, həm də ixrac edilir.

Bu il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən veriləcək kreditlərin həcmi artırılacaqdır. Son dövrdə hər il 100 milyon dollar səviyyəsində vəsait ayrılırdı. Bu il daha da çox həcmdə ayrılacaqdır. Çünki əvvəlki illərdə verilən kreditlər qayıtmağa başlayıbdır. Yəni sahibkarlar əksər hallarda kreditlərdən

səmərəli istifadə ediblər və o kreditlər qayıdır, qayıtdıqca yenidən iqtisadiyyatın inkişafı üçün kreditlər şəklində güzəştli şərtlərlə sahibkarlara veriləcəklər.

Son illər ərzində bu sahədə çox böyük irəliləyiş əldə edilib, qanunsuz müdaxilələrin sayı azalıb – halbuki, tamamilə aradan qaldırılmalıdır – sahibkarlıqla məşğul olmaq üçün prosedur qaydaları tamamilə sadələşdirilibdir. «Bir pəncərə» prinsipinin tətbiqi bu sahədə, demək olar ki, böyük dönüşə səbəb oldu. Yerli icra orqanlarının fəaliyyəti çox vacibdir. Çünki məqsədimiz bölgələrdə sahibkarlığı inkişaf etdirməkdir və deyə bilərəm ki, dövlət tərəfindən və prezident tərəfindən sahibkarlığın inkişafına çox böyük dəstək var. Bir sözlə, növbəti 5 il ərzində bu vaxta qədər həllini tapmamış məsələlər, onların tam əksəriyyəti bütünlüklə həllini tapmalıdır.

Mən 5 il əvvəl qəbul olunmuş proqramın əsas məqsədləri haqqında öz fikirlərimi söylədim. O məqsədlərin hamısına biz çatmışıq, proqramı artıqlamasilə yerinə yetirmişik. Növbəti 5 il üçün proqramın icrası nəticəsində ölkə qarşısında duran əsas vəzifələr icra olunacaq və ondan sonra əlbəttə ki, yeni məsələlər ortaya çıxacaqdır. Həyat yerində durmur, öz axarı ilə gedir və biz prosesləri qabaqlamalıyıq. Biz gələcəyə baxmalıyıq. Həm bugünkü problemlərin həlli üçün çalışmalıyıq, həm də öz siyasətimizlə, qəbul edilmiş proqramlarla ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməliyik. On ildən sonra, əlli ildən sonra elə olmalıdır ki, Azərbaycan daim çiçəklənsin, xalq yaxşı yaşasın.

Artıq ölkəmiz çox etibarlı tərəfdaş kimi tanınır. Daxildə hökm sürən sabitlik, xalqla iqtidar arasında olan birlik və daxili proseslərin müsbət istiqamətdə inkişafı Azərbaycanın beynəlxalq mövqelərini möhkəmlədibdir. Beynəlxalq mövqelər Azərbaycan üçün yeni şəraitin yaradılmasına gətirib çıxarır. Çünki imkanlarımız artır, təsir dairələrimiz genişlənir. Azərbaycan xarici əməkdaşlığa həmişə hazır olan ölkədir və bu istiqamətdə həm xarici investisiyaların cəlb edilməsi üçün, həm də regional əməkdaşlıq məsələlərində bizim təşəbbüskar

olmağımız – bütün bunlar ölkə haqqında kifayət qədər dolğun təəssürat yaratdı. Məqsədimiz odur ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, möhkəmlənsin, zəngin, inkişaf etmiş ölkəyə çevrilsin, yoxsulluq tamamilə aradan qaldırılsın və ölkəmizin uzunmüddətli inkişafı təmin olunsun. Bu vaxta qədər verilən bütün qərarlar düzgün olmuşdur.

İndiyədək verilən bütün vədlər öz yerini tapmışdır. 2003-cü ildə prezident seçkiləri ərəfəsində verilən bütün vədlər həyatda öz əksini tapdı. Elə bir məsələ yoxdur ki, həll olunmasın. Bunun da çox böyük əhəmiyyəti var. Azərbaycan xalqı yaxşı bilir ki, nə demişiksə, onu edəcəyik. Xalqımızın, dövlətimizin hərtərəfli inkişafı və müstəqilliyin möhkəmlənməsi üçün səylərimizi əsirgəmirik və əsirgəməyəcəyik. Azərbaycan müstəqil ölkədir, müstəqil siyasət aparır. Bu siyasətin mənbəyi də xalqdır. Mən sizə və Azərbaycan xalqına növbəti 5 il ərzində səmərəli fəaliyyət arzulayıram. Əminəm ki, nəzərdə tutulmuş bütün vəzifələr uğurla icra ediləcəkdir və ölkəmizin hərtərəfli inkişafı təmin olunacaqdır.

Sağ olun.

**QANA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON EVANS ATTA MİLLSƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qana arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafeləri naminə dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 fevral 2009-cu il*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Bolqarıstan münasibətlərinin hazırkı səviyyəsi, əlaqələrimizin əhatə dairəsinin gündən-günə genişlənməsi məmnunluq doğurur. Əminəm ki, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə sıx əməkdaşlığımızı, regional qurumlar və transmilli layihələr çərçivəsində birgə səylərimizi bundan sonra da səmərəli şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Bolqarıstan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 fevral 2009-cu il*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HOSPİTALININ YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ

*24 fevral 2009-cu il*

*Fevralın 24-də Bakının Nərimanov rayonunda, Daxili İşlər Nazirliyinin general-leytenant Arif Heydərov adına Respublika Hospitalının yeni binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi.*

*Hospitalın kollektivi prezident İlham Əliyevi hərarətlə qarşıladı. Dövlətimizin başçısına gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev hospitalın açılışını bildirən lenti kəsdi.*

*Hospitalın bünövrəsi 2007-ci il martın 19-da prezident İlham Əliyev tərəfindən qoyulmuşdu. Altımərtəbəli 3 korpusdan ibarət 320 çarpayılıq çoxprofilli hospitalın ümumi sahəsi 21 min kvadratmetrdir.*

*Hospitalın qəbul şöbəsində və təcili yardım bölməsində xəstələrə ilkin tibbi yardım göstərilməsi üçün hər cür şərait yaradılmışdır. Kompyuter tomoqrafiyası, nüvə-maqnit rezonansı, rəqəmsal rentgen və ultrasəs müayinəsi otaqlarındakı avadanlıqlar da daxil olmaqla, bütün tibbi avadanlıqlar xaricdən gətirilmişdir.*

*Hospitalda müxtəlif profilli 5 cərrahiyyə otağı olan əməliyyat bloku, reanimasiya, intensiv terapiya, reabilitasiya və fizioterapiya, kardiologiya, nevrologiya, travmatologiya, uronefrologiya, oftalmologiya, otolorinqologiya, stomatologiya, funksional diaqnostika, radiologiya, hidroterapiya, endokrinologiya şöbələri, dəqiq analizlərin aparılması üçün ən*

*müasir avadanlıqla təchiz olunmuş kliniki diaqnostika laboratoriyası fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı hospitalın tikintisinə və hazırkı vəziyyətinə dair filmə baxdı.*

*Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda daxili işlər orqanlarının və səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirdikləri tədbirləri əks etdirən fotoguşə yaradılmışdır.*

*Azərbaycan prezidenti hospitalın binası ilə yaxından tanış oldu, anesteziologiya-əməliyyat, travmatologiya, reabilitasiya və reanimasiya şöbələrinə, kliniki diaqnostika laboratoriyasına baxdı.*

*Sonra tibb ocağının kollektivi ilə görüşən prezident İlham Əliyev yeni binanın istifadəyə verilməsi münasibətilə onlara təbriklərini çatdırdı:*

– Hospitalın açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl şərait yaradılıb, avadanlıqlar quraşdırılıbdır. Burada dünyanın ən yüksək standartları tətbiq olunubdur. Təxminən 2 il bundan əvvəl biz bu gözəl binanın təməlini qoyduq və bu gün açılışında iştirak edirik. Əlbəttə ki, burada yüksək səviyyəli tibb xidməti, xəstələrə böyük qayğı göstərilməlidir. Həm diaqnostika üçün, həm də müalicə üçün, əməliyyatların aparılması üçün bütün imkanlar var. Sizə burada yaxşı işləməyi arzulayıram, xəstələrə yaxşı baxın.

*Hospitalın əməkdaşı, tibb xidməti kapitanı Hüsniyə Kazımova kollektivin adından təşəkkür edərək dedi:*

– Hörmətli cənab Prezident, bu möhtəşəm, bütün səhiyyə tələblərinə cavab verən, ən müasir tibb avadanlıqları ilə təchiz edilmiş hospitalı istifadəmizə verdiyinizə, göstərdiyiniz yüksək diqqət və qayğıya görə həkimlərimiz, bütün tibb işçilərimiz adından Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk.

Cənab Prezident, bu nəcib və xeyirxah işləriniz biz tibb işçilərini daha da vicdanla işləməyə ruhlandırır, xalqımıza layiqli xidmət etməyi qarşımıza əsas vəzifə kimi qoyur.

Bütün kollektivimiz adından Sizi əmin edirik ki, bu gün verdiyiniz tapşırıqları tam məsuliyyətlə yerinə yetirəcək, vəzifəmizin icrasında bizə göstərdiyiniz böyük diqqət və qayğınıza layiqli işimizlə cavab verəcəyik.

*Daxili İşlər Nazirliyinin veteranı Bəylər Hüseynov da ürək sözlərini söylədi:*

– Cənab Prezident, mən 30 minlik veteranlar və onların ailə üzvləri adından Sizi ürəkdən salamlayıram. Sizə cansağlığı, uzun ömür, xalqımızın gələcəyi naminə gördüyünüz böyük işlərdə uğurlar arzulayıram.

Sizin diqqətiniz və qayğınız sayəsində tikilib istifadəyə verilən bu gözəl tibb ocağı biz veteranlara, daxili işlər orqanlarının bütün şəxsi heyətinə çox böyük və dəyərli hədiyyə, bizə olan diqqətinizin parlaq təzahürüdür.

Cənab Prezident, biz çox şadıq ki, Siz ulu öndərimiz Heydər Əliyevin ideyalarını həyata keçirməklə yanaşı, onları XXI əsrin tələblərinə uyğun olaraq daha da inkişaf etdirir və təkmilləşdirirsiniz. Bu bizi çox sevindirir.

**İlham Əliyev:** Təşəkkür edirəm. Bütün veteranlara mənim salamlarımı çatdırın. Onlar möhkəm olsunlar, xəstələnməsinlər. Amma işdir, xəstələnsələr, artıq müalicə üçün gözəl şərait var. Bu hospital doğrudan da dünyanın ən yüksək standartlarına cavab verir. Dünyanın ən inkişaf etmiş ölkələrində mövcud olan xəstəxanalardan heç nə ilə fərqlənmir. Bəlkə də onları qabaqlayır. Burada ən müasir avadanlıq quraşdırılıb və bina da çox gözəl, zövqlə tikilibdir. Həm xarici görünüşü gözəldir, həm də daxili dizaynı. Şübhə etmirəm ki, burada işləmək də çox xoş olacaqdır.

Bir daha sizi təbrik edirəm və uğurlar arzulayıram.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN «TƏHLÜKƏSİZ ŞƏHƏR» AVTOMATLAŞDIRILMIŞ İDARƏETMƏ MƏRKƏZİNİN AÇILIŞI

*24 fevral 2009-cu il*

*Bakıda Daxili İşlər Nazirliyinin «Təhlükəsiz şəhər» Avtomatlaşdırılmış İdarəetmə Mərkəzi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Ramil Usubov Mərkəzin açılışa hazır olması barədə raport verdi.*

*Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın girişində ulu öndər Heydər Əliyevin* «Polis peşəsi ağır peşədir, o bir tərəfdən, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən, bilik, dərrakə, elm, təhsil, təcrübə tələb edir» *müdrik kəlamı yazılmış xüsusi lövhə vurulmuşdur.*

*Dövlətimizin başçısı Mərkəzin operativ müşahidə zalında videogörüntüləri izlədi.*

*«Təhlükəsiz şəhər» sistemi prezident İlham Əliyevin 2004-cü il iyunun 30-da təsdiq etdiyi «Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı» çərçivəsində həyata keçirilən layihələrdən biridir. Sistemin məqsədi insan və vətəndaş hüquq və azadlıqlarını, əhalinin təhlükəsizliyini, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini hüquqazidd əməllərdən qorumaqdır. Təyinatı isə paytaxtda hüquq qaydasına riayət edilməsinə nəzarətin müasir informasiya-kommunikasiya texnologiyaları, o cümlədən videomüşahidə vasitəsilə həyata keçirilməsi, fasiləsiz şəkildə canlı izlənilməsi, qanunazidd hallara, fövqəladə vəziyyətlərə çevik reaksiya verməkdir.*

*Prezidentin tapşırığına əsasən, Bakı şəhərində bütövlükdə 4 minədək kameranın quraşdırılması planlaşdırılır. İlkin mərhələdə paytaxtda Türkiyənin «Ekin» şirkəti 555 videokamera quraşdırmışdır. Kameralar əsasən yol kəsişmələrində və əhalinin sıx olduğu ərazilərdə yerləşdirilmişdir. Ərazidə şübhəli əşya qeydə alınarkən idarəetmə mərkəzinə həyəcan siqnalı ötürülür. Axtarışda olan avtomobillərin müəyyən edilməsində xüsusi rol oynayan bu sistem dövlət nömrə nişanlarını avtomatik qeydə alır. Sistem baş vermiş yol-nəqliyyat hadisələrini də qeydə alır və yol-patrul xidmətlərinə məlumat ötürür.*

*İşıqforun qırmızı işığında keçən və digər yol hərəkəti qaydalarını pozan avtomobillər avtomatik müəyyənləşdirilir, yollarda yaranmış tıxacların təhlilini aparır, avtomobillərin ümumi sayını müəyyən edir və sürətini ölçür. Beynəlxalq təcrübəyə əsasən, gələcəkdə respublikanın əsas avtomobil magistrallarında – Rusiya, Gürcüstan və İran istiqamətindəki yollarda videomonitorinqin aparılması nəzərdə tutulur. «Təhlükəsiz şəhər» sisteminin yaradılmasında dünyanın aparıcı şirkətlərinin avadanlıqlarından istifadə olunmuşdur. Kameralar Yaponiyanın «Sanyo», videodivar Belçikanın «Barko», serverlər və şəbəkə avadanlığı isə ABŞ-ın «Sisko» və «HP» şirkətlərinin istehsalıdır. «Təhlükəsiz şəhər» sistemi layihəsinin icrasına 10 milyon manat vəsait ayrılmışdır. Quraşdırılmış videokameralardan 200-ü mərkəzdən idarə olunmaqla 360 dərəcə horizontal, 180 dərəcə vertikal dönür. Bütün kameralar videogörüntüləri optik şəkildə 36 dəfə, rəqəmli olaraq 16 dəfə yaxınlaşdıra bilir. Operativ müşahidə mərkəzində 24 ekrandan ibarət və hərəsi 80 düym ölçüdə olan videodivar quraşdırılmışdır. Hər bir ekran videogörüntüləri 1, 4, 6, 8, 9, 12 hissəyə bölür. Bu bölünmələr avtomatik qaydada aparıla bilər.*

*Mərkəzdə texniki təminat qrupu ilə birlikdə 50-yə yaxın işçi çalışır və hər gün 36 operatordan 12 nəfəri növbəyə çıxacaqdır. İşçilər informasiya və kommunikasiya üzrə ali təhsil almış və bir ildən çox iş təcrübəsi olan şəxslərdir.*

*Prezidentə məlumat verildi ki, qeydə alınan görüntülər bu Mərkəzdən əlavə, nazirliyin inzibati binasında yerləşən qərargahda, Baş Mühafizə İdarəsində, Bakı Şəhər Baş Polis İdarəsində, paytaxtın bütün dövlət yol polisi qurumlarında və rayon polis idarələrində də müşahidə olunur. Görüntülər 30 gün sistemin yaddaşında saxlanılır. Zərurət yarandıqda isə daha uzun müddətə arxivləşdirilir.*

*Prezident İlham Əliyev ikinci mərtəbədə ümummilli liderimizin və dövlətimizin başçısının fəaliyyətini əks etdirən fotoguşəyə, idarəetmə mərkəzinin konfrans salonuna baxdı, «102 qərargahı», «102 operativ otağı» ilə tanış oldu.*

*Mərkəzin qeydə aldığı qanun pozuntuları və vətəndaşlara qarşı törədilən digər hüquqazidd əməllər barədə dərhal Daxili İşlər Nazirliyinin «102» xidmətinə məlumat verilir və bu məlumat yerli polis orqanlarına ötürülür. Təyinatı isə vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə çevik reaksiya verilməsindən, əməkdaşların qanunla müəyyən edilmiş vəzifələrini daha səmərəli yerinə yetirmələrinin təşkilindən, cinayət və hadisələr barədə daxil olmuş məlumatlar üzrə ərazi polis orqanlarında görülən işlərə mərkəzləşdirilmiş nəzarətin gücləndirilməsindən ibarətdir.*

*Xidmət sistemi Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazilərində növbə çəkən polisin post-patrul və yol-patrul avtomobillərinin yerini təyin etməyə, ən yaxında olan heyəti təxirəsalınmadan hadisə yerinə göndərməyə, onların hərəkət marşrutunu fasiləsiz izləməyə imkan verir. İlkin mərhələdə sistem Abşeron yarımadasını əhatə edir. Cari ildə onun genişləndirilərək respublikanın bütün ərazisini əhatə etməsi planlaşdırılır. «102» xidməti sistemi Almaniyanın «Siemens» şirkəti tərəfindən quraşdırılmışdır. Ümumi dəyəri 3,5 milyon avrodur.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, avtomatlaşdırılmış idarəetmə mərkəzinin ölkəmizin paytaxtında təhlükəsizliyin etibarlı şəkildə təmin olunmasına və kriminogen vəziyyətə nəzarətin daha səmərəli həyata keçirilməsinə imkan yaradacağını bildirdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

«Türk Hava Yolları» şirkətinə məxsus sərnişin təyyarəsinin Amsterdam şəhərinin beynəlxalq hava limanında qəzaya uğraması və insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 fevral 2009-cu il*

## XOCALI SOYQIRIMI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2009-cu il*

*17 il əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində törədilmiş Xatın, Liditsa, Soqmi, Babi Yar, Salaspils, Oradur faciələri ilə bir sırada duran Xocalı soyqırımı baş vermişdir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə yeksan etmişlər.*

*Bu qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki həmin gecə baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. «Böyük Ermənistan» dövləti yaratmaq kimi xəstə xülyanın əsiri olmuş erməni millətçilərinin xalqımıza qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoydu. Bu faciə zamanı 1275 dinc sakin əsir götürüldü, onlardan 155 nəfərinin taleyi hələ də məlum deyildir.*

*Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədi.*

*Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə ilk dəfə hüquqi-siyasi qiymət verildi. Ulu öndər bununla bağlı demişdir:* «Xocalı soyqırımı XX əsrin ən böyük insan faciələrindən

biridir. Xocalıda misli görünməmiş qəddarlıqla törədilmiş bu insan qırğınının Yer kürəsinin hər hansı bir guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı və humanizm ideallarına sədaqət nümayiş etdirən bütün insanların bu faciəyə öz qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır».

*Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Azərbaycan paytaxtının minlərlə sakini Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, digər dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Fransanın «Total» şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti İv Lui Darrikarreri qəbul etmişdir.*

*Dövlətimizin başçısı Xəzər dənizinin Azərbaycan sektorundakı «Abşeron» yatağı blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti və Total Exploration and Production Abşeron B.İ.V.İ şirkəti arasında imzalanmış sazişin əhəmiyyətini vurğuladı. Ölkəmizin «Total» şirkəti ilə əməkdaşlığına toxunan prezident İlham Əliyev işbirliyinin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

*İv Lui Darrikarrer imzalanmış sazişin önəmini vurğuladı. O, Azərbaycanla əməkdaşlığın uğurla həyata keçirilməsi üçün geniş imkanların olduğunu dedi və işbirliyinin daha da inkişaf edəcəyinə əminliyini söylədi.*

# RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının açılmasının humanitar sahədə əməkdaşlığın, ümumən iki ölkə arasındakı münasibətlərin genişlənməsində əhəmiyyəti vurğulandı. Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin qarşılıqlı əlaqələrin genişlənməsinə töhfə verdiyi bildirildi.*

*Görüşdə ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## KİKBOKSİNQ TƏŞKİLATLARI DÜNYA ASSOSİASİYASININ PREZİDENTİ ENNİO FALSONİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Kikboksinq Təşkilatları Dünya Assosiasiyasının prezidenti Ennio Falsonini qəbul etmişdir.*

*Ennio Falsoni Azərbaycanda idmanın inkişafı üçün hər cür şəraitin yaradıldığını vurğuladı. Ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzundan danışan qonaq bir sıra mötəbər beynəlxalq yarışların keçirilməsi üçün Azərbaycanda əlverişli imkanın olduğunu söylədi.*

*Prezident İlham Əliyev Azərbaycanda idmanın bütün növlərinə dövlət tərəfindən yüksək diqqət göstərildiyini, gənclərin fiziki sağlamlığı üçün ölkəmizin hər yerində lazımi idman infrastrukturunun yaradıldığını bildirdi. Dövlətimizin başçısı Kikboksinq Təşkilatları Dünya Assosiasiyası ilə Azərbaycanın müvafiq idman qurumlarının əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu vurğuladı.*

## BAKIDA M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FİLİALININ RƏSMİ AÇILIŞI

*27 fevral 2009-cu il*

*Fevralın 27-də Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının rəsmi açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*MDU-nun filialının açılışında RF Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinin başçılıq etdiyi Rusiya nümayəndə heyəti də iştirak edirdi.*

*Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə sərəncam Azərbaycan prezidenti İlham Əliyev tərəfindən 2008-ci il yanvarın 15-də imzalanmışdır. Hazırda filialda 3 fakültə – filologiya, kimya və tətbiqi riyaziyyat fakültələri fəaliyyət göstərir. Burada tədris prosesi MDU-nun proqramları əsasında qurulmuşdur. Məşğələlər əsasən, dünyada ən nüfuzlu ali məktəblərdən biri olan bu universitetin professor-müəllim heyəti tərəfindən aparılır.*

*Prezident İlham Əliyevi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru akademik Viktor Sadovniçi və MDU-nun Bakı filialının rektoru professor Nərgiz Paşayeva qarşıladılar.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkinlə salamlaşdı.*

**İlham Əliyev**: MDU-nun filialının rəsmi açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, ölkəmizin həyatında həqiqətən böyük hadisədir. Mən çox şadam ki, bu

bina yaxşı təmir edilmişdir və indi bütün müasir tələblərə cavab verir. Başlıcası odur ki, burada təhsil MDU standartları səviyyəsində olacaqdır. Biz çox şadıq ki, MDU-nun professorları, müəllimləri buraya gəlir, məşğələlər aparırlar. Bu, hər cəhətdən çox yaxşı hadisədir: həm təhsil baxımından, həm də ölkələrimiz arasında iqtisadi münasibətlər baxımından. Mən çox şadam ki, Azərbaycanda daha bir ali məktəb yaranmışdır və ümid edirəm ki, o aparıcı ali məktəblərdən birinə çevriləcəkdir.

Biz istəyirdik ki, bu proses tezliklə başlansın. Ona görə də mövcud binadan istifadə etdik. Lakin bu binanın indiki və əvvəlki vəziyyəti tamamilə fərqlidir. Gələcəkdə isə yəqin ki, ayrıca korpusun tikilməsi barədə fikirləşmək lazımdır.

Bu gün bu mühüm hadisədə bizimlə bərabər Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Yevgenyeviç Narışkin, MDU-nun rektoru Viktor Antonoviç Sadovniçi, Təhsil naziri, Energetika naziri, digər qonaqlarımız da iştirak edirlər. Bu da həm Rusiyanın, həm Azərbaycanın rəhbərliyi tərəfindən MDU-nun Bakıdakı filialının fəaliyyətə başlamasına göstərilən münasibətin və diqqətin yaxşı əlamətidir.

**Sergey Narışkin** *(Rusiya Prezidenti Administrasiyasının rəhbəri):* Xoş sözlərə görə çox sağ olun. Mən də öz tərəfimdən Sizə Rusiya Federasiyasının Prezidenti Dmitri Anatolyeviç Medvedevin səmimi salamlarını çatdırmaq istəyirəm. Bu gün biz İlham Heydər oğlu ilə birlikdə Moskva Dövlət Universitetinin filialının təntənəli açılışını keçiririk. Bu həm Azərbaycan, həm də Rusiya Federasiyası üçün həqiqətən əlamətdar hadisədir. Deyə bilərəm ki, bu, MDB üçün də mühüm və əlamətdar hadisədir, xüsusən də ona görə ki, 2009-cu il MDB-də «Gənclər İli» elan edilmişdir. MDU-nun filialının açılışının da «Gənclər İli»nə müəyyən mənada dəxli var.

İlham Heydər oğlu, dəstəyinizə, daimi qayğınıza görə Sizə ən dərin təşəkkürümü bildirməliyəm. Fikrimcə, bu dəstək, bu qayğı universitetin filialının yaradılmasında və açılmasında həlledici rol oynamışdır.

Çox yaxşı haldır ki, bu universitetdə filologiya tədris edilir, rus dili də Azərbaycan rəhbərliyinin uzaqgörən siyasətinin bir elementidir. Əlbəttə, burada ənənəvi olaraq güclü sayılan elmi fənlər – kimya və riyaziyyat tədris edilir. Bu sahələrdə Rusiya və Azərbaycan alimləri və müəllimləri həmişə elmin və təhsilin ən qabaqcıl sıralarında olmuşlar və indi də belədir. Deyə bilərəm ki, Moskva Dövlət Universitetinin Bakıda filialının yaradılması iki ölkə arasında strateji tərəfdaşlıqda növbəti körpüdür.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm. Tələbələrə yaxşı qiymətlər, müəllimlərə isə ağıllı, diqqətli və gözəl tələbələr arzulayıram.

**Viktor Sadovniçi** (*M.V.Lomonosov adına MDU-nun rektoru*): İlham Heydər oğlu, mən bu gənclər adından, Moskva Universiteti adından Sizə təşəkkür etmək istəyirəm. Siz ilk dəfə bu ideyanı irəli sürəndə mən güman etmirdim ki, bu qədər qısa müddətdə belə bir bina tapmaq və tədris prosesini bu cür təşkil etmək olar. Bu, gənclərin naminə, Sizin ölkənizin naminə, elmin gələcəyinin naminə möcüzədir.

Moskva Universiteti Sizin səylərinizi, təhsil naminə hünərinizi yüksək qiymətləndirir, ən yaxşı professorları məmnuniyyətlə buraya gəlir, gəlmək istəyirlər. Artıq buraya gəlmək və burada dərs demək istəyənlər növbəyə düzülmüşlər. Çox sağ olun, İlham Heydər oğlu! Bu bizim münasibətlərimizin tarixində böyük hadisədir. Bu hadisə xalqlarımızın tarixinə Sizin adınızla daxil olacaqdır.

**Nərgiz Paşayeva** (*MDU-nun Bakı filialının rektoru*): Hörmətli cənab Prezident!

Əziz dostlar!

Hörmətli Viktor Antonoviç!

Mən bizi bu cür dəstəklədiyinə görə Prezident başda olmaqla, dövlətimizə təşəkkür edirəm. Filialın yaradılması ideyası nisbətən yaxın vaxtlarda meydana gəlmişdir. Lakin şəxsən Prezidentimizin dəstəyi sayəsində bu ideya gerçəkliyə çevrilmişdir. Buna görə Sizə təşəkkür edirik. Filialın rəhbərliyi

adından, onun bütün kollektivi adından prezident Dmitri Medvedev başda olmaqla, Rusiya Federasiyasının rəhbərliyinə, bu böyük işdə iştirakı olmuş insanların hamısına təşəkkür etmək istəyirəm. Əziz həmkarlar, bizim filialın qəlbi sizin sayənizdə döyünməyə başlamışdır. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v**: Bu improvizə edilmiş mitinqin sonunda Rusiya Təhsil nazirinin rolunu da qeyd etmək və bu filialın yaranma tarixini bir qədər yada salmaq istəyirəm. Vaxtilə Azərbaycanda bir sıra ölkələrin müxtəlif tədris müəssisələrinin çoxlu filialı yaradılmışdı. Açığını deyək ki, onlar müasir təhsilin tələblərinə cavab vermirdi. Həmin filialların bir qismi özləri fəaliyyətini dayandırmışdır. Biz bu məsələni müzakirə edəndə belə bir ideya yarandı ki, nə üçün aparıcı Rusiya universitetinin filialını yaratmayaq, gəlin diqqəti bu məsələ üzərində cəmləşdirək. Biz əməkdaşlıq etmək istəyirik. Biz istəyirik ki, tələbələrimiz keyfiyyətli təhsil alsınlar və Rusiyanın ən aparıcı ali məktəbi də MDU-dur. Bu ideya söhbət prosesində yaranmışdı. Mən çox şadam ki, siz bu təklifi çox operativ şəkildə Rusiya rəhbərliyinə çatdırdınız və operativ şəkildə qərar qəbul olundu. Açığını deyim ki, Rusiya Federasiyasının rəhbərliyi ilə mənim, demək olar, bütün görüşlərimdə bu mövzu müzakirə edilirdi. Bu məsələ ölkələrimiz arasında münasibətlərin və bütün başqa sahələrdə əməkdaşlıq üçün əsas olan humanitar sahədə əməkdaşlığın səviyyəsinin daha bir göstəricisi oldu. Ünsiyyət səviyyəsində, təmaslar səviyyəsində fəal irəliləyiş olmasa, bu, başqa sahələrdə əməkdaşlığı da müəyyən dərəcədə ləngidəcəkdir. Mən ədalət naminə bu cür tarixi arayış vermək istəyirdim.

İkinci tarixi arayış, yəqin ki, çoxlarına məlumdur. Demək istəyirəm ki, MDU ilə məni bağlayan təkcə prezident ilə Azərbaycanda fəaliyyət göstərən ali məktəbin münasibətləri deyildir. Nisbətən yaxın vaxtlarda mən MDU-nun Fəxri doktoru adına layiq görülmüşəm və Viktor Antonoviç mənə bu adın verilməsi haqqında diplomu Moskvada təntənəli şəraitdə təqdim etmişdir. Ona görə mən həm də bu səbəbdən çalışacağam ki,

universitet həmişə bizim dövlətin dəstəyini hiss etsin və burada təhsil səviyyəsinin eynilə Moskvadakı kimi olması üçün nə lazımdırsa edilsin.

Sizi bir daha təbrik edirəm. Tələbələrə, müəllimlərə böyük uğurlar və fəal iş arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev və Rusiya nümayəndə heyətinin üzvləri filialın auditoriyaları ilə, linqafon kabineti, elektron kitabxanası, oxu və kompyuter zalları ilə tanış oldular, tədris müəssisəsinin foyesində təşkil edilmiş fotosərgiyə baxdılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin bir-birinə xatirə hədiyyələri bağışladılar.*

*Sergey Narışkin MDU-nun Bakı filialının rektoru Nərgiz Paşayevaya «Roszarubejsentr»in «Dostluq işinə töhfəsinə görə» Fəxri nişanının vəsiqəsini təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏRDƏ RAYONUNA SƏFƏRİ

*2 mart 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev 2009-cu ildə regionlara ilk səfərini cəbhə bölgəsində yerləşən Bərdə rayonuna etmişdir.*

*2004–2008-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı ölkəmizin bütün bölgələrinin, o cümlədən Bərdə rayonunun inkişafında mühüm rol oynamışdır.*

*Azərbaycanın bu qədim şəhərinə gələn dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

### Müalicə-Diaqnostika Mərkəzinin açılışı

*Martın 2-də Bərdə şəhərində Müalicə-Diaqnostika Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Mərkəzin kollektivi, səhiyyə işçiləri böyük hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*2006-cı ilin martında prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulmuş, müasir memarlıq görkəmi ilə diqqəti cəlb edən bu səhiyyə ocağı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmişdir. Tikintidə yerli materiallarla yanaşı, Almaniya, İspaniya, Polşa, Türkiyə və digər ölkələrdən gətirilmiş inşaat materiallarından istifadə olunmuşdur.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda səhiyyənin inkişafı sahəsində gördükləri işləri əks etdirən fotoguşə yaradılmışdır. Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev məlumat verdi ki, 260 nəfərin çalışacağı bu tibb ocağında qəbul, şüa diaqnostikası, hemodializ, anesteziologiya, reanimasiya, konsultativ diaqnostik poliklinika şöbələri, əməliyyat bloku vardır. Hemodializ şöbəsi prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına alınmışdır. Bundan əlavə, Mərkəzdə 150 yerlik konfrans salonu, əczaxana fəaliyyət göstərir. Konfrans salonunda quraşdırılmış monitorun köməyi ilə 4 cərrahiyyə otağında aparılan əməliyyatları birbaşa izləmək mümkün olacaqdır. Buradakı avadanlıqlar Almaniya, Yaponiya və digər inkişaf etmiş ölkələrdən gətirilmişdir. Mərkəzdə tibbi xidmət və müalicə tam pulsuz aparılır. Bütün xərcləri Dövlət Neft Şirkəti ödəyir.*

*Mərkəzin ayrıca yardımçı stansiyası, qazanxanası, 500 ton tutumu olan su anbarı da vardır. Binada müasir standartlara cavab verən mərkəzləşdirilmiş istilik və havalandırma sistemləri, habelə ABŞ-ın «OTİS» firmasının istehsalı olan 3 ədəd sürətli lift quraşdırılmışdır. Xəstələrin qidalanmalarına da xüsusi diqqət yetirilir. İki yeməkxanada eyni vaxtda 54 nəfərin qidalanması mümkündür.*

*Binanın həyətində 6000 kvadratmetr sahədə yaşıllaşdırma işləri aparılmış, müxtəlif ağac və gül kolları əkilmişdir.*

*Yeni səhiyyə ocağı Bərdə ilə yanaşı, Ağcabədi, Tərtər, Yevlax, Goranboy, Beyləqan, Ağdam və digər rayonların əhalisinə də xidmət edəcəkdir.*

*Prezident İlham Əliyev ayrı-ayrı mərtəbələrdə yerləşən şöbələri, palataları gəzdi, yeməkxanaya, şüa diaqnostikası şöbəsindəki kompyuter tomoqrafiyası və rentgen otağında rəqəmsal müayinə aparatlarına baxdı.*

*Dövlət başçısı reanimasiya şöbəsi, intensiv terapiya palatası ilə də tanış oldu.*

*Anesteziologiya və reanimasiya şöbələri, əməliyyat otaqları ilə tanışlıq zamanı bildirildi ki, burada quraşdırılmış müasir*

*avadanlıqlar mürəkkəb əməliyyatların aparılmasına imkan verir.*

**İ l h a m  Ə l i y e v**: Sizi bu gözəl Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl binadır, həm xarici gözəlliyi ilə fərqlənir, həm də ki, burada ən yüksək tibbi xidmət göstərilməlidir. Əminəm ki, bu Mərkəz həm Bərdə sakinlərinə, həm də qonşu rayonlarda yaşayan insanlara ən yüksək səviyyədə xidmət göstərəcəkdir. Burada ən müasir avadanlıq quraşdırılıb, bunlar dünyanın ən qabaqcıl firmalarının məhsullarıdır. İndi əsas vəzifə ondan ibarətdir ki, burada işləyən kadrlar o avadanlıqla işləyə bilsinlər. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

**Z e y n ə b  Ə l i y e v a** (*əməkdar həkim*): Möhtərəm Prezident, qədim Bərdəyə xoş gəlmisiniz! Rayonumuzun bütün əhalisi sevinc içərisindədir. Sizin Bərdəyə hər səfəriniz rayonumuza yeni bir həyat gətirir. Bu gün də baharın başlanğıcında gəlmisiniz. Böyük qürur hissi ilə bildirmək istəyirəm ki, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə heç vaxt öz diqqət və qayğısını Bərdədən əsirgəməmişdir. İkinci rəhbərliyi dövründə isə yenə də qayğı və diqqətini bizdən əsirgəməmişdir. Özümü çox xoşbəxt hiss edirəm ki, ümummilli liderimiz özü mənə «Əməkdar həkim» fəxri adını vermişdir. Mən bununla fəxr edirəm, böyük qürur hissi keçirirəm.

Möhtərəm Prezident, həmişə sağlamlığın keşiyində durduğunuz üçün, camaatın qayğısına qaldığınıza görə Sizə ürəkdən təşəkkür edirik. Mehriban xanımın da burada olmasından istifadə edərək demək istəyirəm: Mehriban xanım, muğama yeni nəfəs verdiyinizə görə, mədəniyyətimizin inkişafına, səhiyyəyə, təhsilə göstərdiyiniz misilsiz xidmətlərə görə Qarabağ camaatının dərin minnətdarlığını sizə yetirirəm.

**İ l h a m  Ə l i y e v:** Mən bu xoş sözlərinizə görə sizə minnətdaram və demək istəyirəm ki, Qarabağ torpağında yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm.

Bərdədə olmaq, sizinlə görüşmək mənim üçün həmişə xoş olubdur. Hər dəfə Bərdədə olanda hansısa yeni bir müəssisənin, obyektin açılışında biz bərabər oluruq. Bir neçə il əvvəl burada Olimpiya İdman Kompleksi tikilmişdir. Sonra bu xəstəxananın təməli qoyulmuşdu. Bərdədə həm sosial infrastrukturun, həm də sənaye infrastrukturunun yaradılması prosesi çox sürətlə gedir.

Bərdə Azərbaycanın qədim şəhəridir, qədim torpağıdır və mən çox istəyirəm ki, burada bütün sahələrdə işlər yaxşı getsin. İnsanlar daha da yaxşı yaşasınlar, ən müasir infrastruktur obyektləri tikilsin, insanlara xidmət göstərən bütün müəssisələr yüksək səviyyədə olsun. Bu gözəl Müalicə-Diaqnostika Mərkəzi dünyanın ən yüksək standartlarına cavab verir. Dünyanın ən qabaqcıl tibb müəssisələrində quraşdırılmış avandanlıqlar burada da var. Bəlkə burada daha da müasir avadanlıqlar quraşdırılıb, çünki bu, yeni bir səhiyyə müəssisəsi, yeni bir diaqnostika mərkəzidir. Bu quruculuq, inkişaf işləri Azərbaycanın hər bir bölgəsində gedir və daha da sürətlə getməlidir.

Sizin də qeyd etdiyiniz kimi, dünyanı bürümüş iqtisadi və maliyyə böhranı Azərbaycanda o qədər də hiss olunmur. Yəni insanlar normal yaşayır, müəssisələr işləyir, maaşlar, pensiyalar vaxtlı-vaxtında verilir, bütün infrastruktur, sənaye obyektlərinin tikintisi uğurla gedir.

Bu gün dünyada böyük müəssisələr dayanır, ən inkişaf etmiş ölkələrdə böhran bank sistemində, xidmət sektorunda, xüsusilə sənaye istehsalında özünü büruzə verir. Müəssisələr dayanır, işsizlik yaranır və çox xoşagəlməz hadisələr baş verə bilər. Azərbaycanda isə biz bunun əksini görürük, hətta bu böhranlı günlərdə, aylarda yeni müəssisələr, yeni tibb məntəqələri, məktəblər, zavodlar, fabriklər açılır, sosial obyektlərin tikintisi davam edir.

Mən sizin hamınıza bundan sonra da yeni-yeni uğurlar arzulayıram. Arzu edirəm ki, Bərdə sakinləri həmişə olduğu kimi, yenə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində öz rolunu oynamağa davam etsinlər. Bir daha demək istəyirəm

ki, Bərdə Azərbaycanın qədim torpağıdır, strateji şəhəridir və onun strateji əhəmiyyəti getdikcə artacaqdır.

Sizə bütün işlərinizdə uğurlar, cansağlığı, həkimlərə isə xəstələrə yaxşı baxmaq arzulayıram. Əminəm ki, siz bu gözəl şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz.

## Musiqi məktəbinin binasının açılışı

*Martın 2-də prezident İlham Əliyev Bərdə şəhərində musiqi məktəbinin binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və bina ilə tanış oldu.*

*Prezident İlham Əliyevin göstərişi və Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən 400 şagird yerlik dördmərtəbəli binanın tikintisinə 2008-ci ilin mayında başlanılmış, inşaat-tərtibat işləri 8 aya başa çatdırılmışdır. Bu, Bərdə rayonunda 7-ci musiqi məktəbidir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənətə diqqət və qayğısını əks etdirən guşəyə, məktəbin lazımi avadanlıq və əyani vəsaitlərlə təmin edilmiş otaqlarına baxdılar. Məktəbin akt salonunda müxtəlif konsertlərin təşkili üçün xüsusi səs avadanlığı quraşdırılmışdır.*

*Prezident İlham Əliyev və xanımı akt salonunda gənc musiqiçilərin ifasında «Heyratı» muğamını dinlədilər və uşaqların ifasını yüksək qiymətləndirərək onlara uğurlar arzuladılar.*

## Tarix- Diyarşünaslıq Muzeyinin açılışı

*Martın 2-də Bərdə şəhərində Tarix-Diyarşünaslıq Muzeyinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı muzeyin açılışını bildirən lenti kəsdi.*

*Muzeylə tanış olan prezidentə məlumat verildi ki, iki salonda Bərdənin tarixini, mədəniyyətini əks etdirən 2200 eksponat, o cümlədən qədim şəhərin maketi nümayiş etdirilir. Eksponatların bir çoxu şəhərdə aparılmış arxeoloji qazıntılar zamanı tapılmışdır. Muzeydəki eksponatlar Qarabağın tarixini saxtalaşdırmağa çalışanlara tutarlı cavabdır. V əsrdə Albaniyanın paytaxtı Qəbələdən Bərdəyə köçürüldükdən sonra bu şəhər nəinki qədim Azərbaycanın, eləcə də Yaxın Şərqin siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrilmişdi. Bu barədə məlumatlar yazılı mənbələrdə əksini tapmışdır.*

*Muzeyin yaxınlığında tikinti işləri aparılarkən şəhər qalıqları aşkarlanmışdır. Bu barədə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutuna məlumat verildikdən sonra başlanılan qazıntılar zamanı qədim qızıl və gümüş pullar tapılmışdır. AMEA-nın arxeoloji ekspedisiyasının tədqiqatları Bərdənin yaşının 3 min il olduğunu göstərir. Bununla əlaqədar AMEA bu il elmi-praktiki konfrans keçirəcəkdir. Bunlar Azərbaycan torpaqlarına göz dikən ermənilərin təbliğatının saxtakarlığını bir daha təsdiqləyir.*

*Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev Azərbaycanın tarixi və mədəniyyətinə həssas münasibətin bariz nümunəsi olan Bərdə Tarix-Diyarşünaslıq Muzeyinin daha da zənginləşdirilməsi barədə tapşırıq və tövsiyələrini verdi, kollektivə uğurlar arzuladı.*

## Yeni Azərbaycan Partiyası Bərdə Rayon Təşkilatının inzibati binası ilə tanışlıq

*Martın 2-də prezident İlham Əliyev Bərdəyə səfəri çərçivəsində Yeni Azərbaycan Partiyası Bərdə Rayon Təşkilatının inzibati binası ilə tanış olmuşdur.*

*Ümumi sahəsi 506,8 kvadratmetr olan ikimərtəbəli binanın lazımi avadanlıqla təmin edilmiş iş otaqları və 60 yerlik konfrans salonu vardır. Rayon təşkilatının Gənclər Birliyi və Qadınlar Şurası da burada yerləşir.*

*Binanın Heydər Əliyev guşəsində ulu öndərin Azərbaycanın müasir tarixindəki müstəsna rolunu əks etdirən materiallar toplanmışdır.*

*Bina ilə tanış olan prezident İlham Əliyev burada yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi, təşkilatın üzvlərinə uğurlar arzuladı.*

## Daxili Qoşunların «N» hərbi hissəsində

*Martın 2-də Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Bərdə rayonuna səfəri çərçivəsində Daxili Qoşunların «N» hərbi hissəsi üçün inşa olunmuş şəhərcikdə olmuşdur.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Ali Baş Komandana raport verdi.*

*Şəhərcikdə əsgərlərin hərbi hazırlığı, məişəti, istirahət vaxtlarını mənalı keçirmələri üçün lazımi şərait yaradılmışdır. Bu barədə Ali Baş Komandana məlumat verildi.*

*Dövlətimizin başçısı əsgər yataqxanası ilə də tanış oldu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX RAYONUNA SƏFƏRİ

*2 mart 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev Bərdəyə səfərini başa çatdıraraq, martın 2-də Yevlax şəhərinə gəlmişdir.*

*Son 5 ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Yevlaxda da mühüm işlər görülmüşdür. Şəhərdə abadlıq-quruculuq, tikinti işləri aparılmış, infrastrukturun yaxşılaşdırılması, sosial problemlərin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Bu dövrdə ümumi daxili məhsulun həcmi 344,1 milyon manat olmuş, bunda özəl sektorun payı 93,7 faiz təşkil etmişdir. Ötən illər ərzində Yevlaxda rəqabətədavamlı məhsul buraxan iri istehsal müəssisələri yaradılmışdı. 2008-ci ildə istehsal edilmiş 12 milyon 300 min manatlıq sənaye məhsulunun 6,6 milyon manatlığı ixrac olunmuşdur. 67 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Son 5 ildə 12 mindən çox, o cümlədən 6272 daimi iş yeri açılmışdır. 2008-ci ildə bütün maliyyə mənbələri hesabına kapital qoyuluşunun həcmi 151,9 milyon manat olmuşdur.*

*2004–2008-ci illərdə 954 layihə həyata keçirilmiş, əhalinin təbii qaz və elektrik enerjisinə olan tələbatını ödəmək istiqamətində mühüm işlər görülmüş, təhsil və səhiyyə obyektləri tikilmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Parkda Azərbaycanın Dövlət bayrağı ucaldılmışdır.*

## Uşaq xəstəxanasının açılışı

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Yevlax şəhərində uşaq xəstəxanasının açılışında iştirak etmişdir.*

*Xəstəxananın kollektivi dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və xəstəxana ilə tanış oldu.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, smeta dəyəri 4 milyon manata yaxın olan xəstəxana kompleksi dövlət vəsaiti hesabına tikilmişdir. Kompleks üçmərtəbəli əsas korpusdan, yoluxucu xəstəliklər korpusundan və yardımçı binalardan ibarətdir.*

*Əsas korpusun sahəsi 2976 kavdratmetrdir. Burada 86 otaq vardır. 760 kvadratmetr sahəsi olan yoluxucu xəstəliklər korpusunda isə 33 otaq yerləşir.*

*Xəstəxananın mərkəzləşdirilmiş istilik sistemi var.*

*Uşaq xəstəxanası poliklinika, qəbul, reanimasiya, somatik və laboratoriya şöbələrindən ibarətdir.*

*Burada ən müasir rentgen, ultrasəs müayinə aparatları quraşdırılmış, göz və burun-boğaz xəstəlikləri, cərrahiyyə, stomatoloji kabinetlər yaradılmışdır.*

*Dövlətimizin başçısı və xanımı peyvənd otağı, ultrasəs müayinəsi, rentgen, kardioloji kabinetlərə, oyun zalına, palatalara baxdılar.*

*Prezident İlham Əliyev tibb işçilərinə xəstəxanada uğurlu fəaliyyət arzulayaraq dedi ki, gözəl xəstəxanadır, həm uşaqların müalicəsi üçün çox gözəl şərait yaradılıb, həm də həkimlər üçün iş şəraiti çox yaxşıdır. Sizi təbrik edirəm və arzulayıram ki, burada siz uşaqlara yaxşı baxasınız, onları yaxşı müalicə edəsiniz.*

**K ə m a l ə  M ə m m ə d o v a** (*həkim):* Möhtərəm Prezident, respublikamızın bütün bölgələrində olduğu kimi,

Yevlaxda da insanlar Sizin gəlişinizi çox böyük səbirsizliklə, çox böyük sevinclə gözləyirlər.

Cənab Prezident, burada ucalan əzəmətli binanın yerində 1934-cü ildə inşa olunmuş köhnə, tam təmirsiz bir bina var idi. Şəhərimizin 53 min balaca sakininə xidmət göstərmək, qan xəstəliklərinin, infeksion xəstəliklərin müalicəsi üçün lazımi tibbi şərait yox idi. Bu səbəbdən də valideynlər xəstə uşaqlarını müalicə etdirmək üçün Bakıya, digər şəhərlərə üz tutmaq məcburiyyətində qalırdılar. İndi isə Sizin diqqət və qayğınız sayəsində ucaldılan möhtəşəm sağlamlıq ocağı bu və ya digər xəstəliklərin müalicəsinə ən böyük töhfəsini verəcəkdir.

Bizim xəstəxananın «Uşaq İli» elan olunan 2009-cu ildə istifadəyə verilməsi körpələr üçün, balacalar üçün ən böyük töhfədir. 2008-ci ildə doğulan uşaqların sayı 2089 nəfər olmuşdur.

Möhtərəm Prezident, 2007-ci ilin oktyabr ayında Yevlağa səfəriniz zamanı Siz Yevlağın Azərbaycanın ən inkişaf etmiş şəhərləri sırasında olduğunu demişdiniz. Həqiqətən də, Sizin sayənizdə şəhərimiz günü-gündən gözəlləşir, simasını dəyişir. Bu gözəl, yaraşıqlı şəhərimizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Mən hər dəfə Yevlaxda olanda, buradakı yenilikləri görəndə çox sevinirəm. Müxtəlif vaxtlarda Yevlaxda dəfələrlə olmuşam. Son 5 ildə bu, Yevlağa üçüncü səfərimdir. Burada son dəfə 2007-ci ildə olmuşam və o vaxt dediyim sözlər bu gün də qüvvədədir. Yevlax getdikcə daha da gözəlləşir, daha da müasirləşir, çox gözəl binalar tikilir, abadlıq işləri aparılır. Bax, bu meydan, Heydər Əliyev prospektinin abadlaşdırılması, binaların təmiri – bütün bunlar yəqin ki, sizi də sevindirir, məni də sevindirir. Son 5 ildə Yevlax iqtisadi inkişaf baxımından Azərbaycanda ən sürətlə inkişaf edən rayonlardan biridir. Ümumi daxili məhsul 5 ildə 3-4 dəfə artıbdır. Bu onu göstərir ki, görülən işlər, aparılan islahatlar, quruculuq çox yüksək səviyyədədir. Azərbaycanın hərtərəfli inkişafı üçün iqtisadiyyatın bütün sahələri inkişaf etməlidir. Son

5 ildə bizimlə bu sahədə rəqabət aparmaq qabiliyyətində olan başqa ölkə yoxdur. Çünki hər bir bölgəmiz və bütövlükdə Azərbaycan durmadan inkişaf edir. Məsələn, Yevlax rayonunun iqtisadi artımı 3-4 dəfə olubdur, digər rayonlarda da buna bənzər mənzərə müşahidə edilir.

Siz də Yevlaxda yaşayırsınız, yevlaxlısınız və şəhərin sürətli inkişaf dinamikasını sizdən yaxşı bilən yoxdur. Çox şadam ki, Yevlax Azərbaycanın ən qabaqcıl rayonlarından biridir. Yerli icra orqanlarının fəaliyyətini, xüsusilə icra hakimiyyəti başçısının fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Belə yüksək səviyyəli tibbi müəssisənin yaradılması da bugünkü Azərbaycanın reallığıdır. Baxmayaraq ki, dünyada indi çox böyük iqtisadi və maliyyə böhranı hökm sürür, Azərbaycanda bunu yəqin ki, çox adam hiss etmir. Vətəndaşlar, büdcə təşkilatlarında işləyən insanlar, əminəm ki, bunu hiss etmirlər. Əksinə, bəzi hallarda qiymətlərin düşməsi hesabına yaşayış səviyyəsi daha da yaxşılaşır. Biz növbəti illərdə də sosial məsələlərin həlli, insanların yaxşı yaşaması, tibbi xidmətin daha da yüksək səviyyəyə qaldırılması üçün səylərimizi əsirgəməyəcəyik, Azərbaycanda bütün bölgələrdə çox güclü tibbi xidmət göstərilməlidir. Bu gün günorta Bərdə şəhərində müasir Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak edirdim, indi isə burada uşaq xəstəxanasının açılışındayam. Bir müddətdən sonra biz Yevlaxda böyük xəstəxananın açılışında iştirak edəcəyik, onun da tikilməsi haqqında göstərişlər verilibdir.

Yəni, bir sözlə, biz öz sosial siyasətimizi bundan sonra da davam etdirəcəyik və Yevlağın timsalında biz bu gözəl nailiyyətləri görürük. Mən ümid edirəm ki, növbəti dəfə Yevlağa gələndə burada daha yeni gözəl işləri görəcəyəm. Sizə, bütün yevlaxlılara bu işlərdə yeni uğurlar arzulayıram. Bir daha sizi təbrik edirəm.

## Yevlax Xalq Teatrı binasının açılışı

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Yevlax Xalq Teatrı binasının açılışında iştirak etmişdir.*

*Şəhərin Heydər Əliyev prospektində daxili imkanlar hesabına tikilmiş ikimərtəbəli binanın birinci mərtəbəsində xidməti otaqlar, ikinci mərtəbəsində isə qrim otaqları, 174 yerlik tamaşa salonu yerləşir. Klassik memarlıq üslubunda 12 sütun binanın fasadına xüsusi yaraşıq verir.*

*Binada istilik, müasir işıqlandırma və akustika sistemləri quraşdırılmışdır. Teatrın qarşısındakı meydanda yaşıllıq salınmış, yaraşıqlı fəvvarə yaradılmışdır. Fəvvarədə heykəllərdən ibarət kompozisiya, binanın yanındakı hasarda Azərbaycanın klassik yazıçılarının əsərlərinin personajları diqqəti cəlb edir.*

*Dövlətimizin başçısı açılışı bildirən rəmzi lenti kəsdi. Prezident və xanımı foyedə ümummilli lider Heydər Əliyevin milli mədəniyyətimizin və incəsənətimizin inkişafına diqqət və qayğısını əks etdirən guşə ilə tanış oldular.*

*Prezident İlham Əliyev kollektivin üzvləri ilə söhbət etdi.*

**Eldəniz Mustafayev** (Yevlax *Şəhər Mədəniyyət Evinin direktoru*): Xoş gəlmisiniz, möhtərəm Prezident! Yevlağın çoxsaylı mədəniyyət işçiləri adından Sizi salamlayırıq. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımızı bildiririk. Çox iftixar hissi keçiririk ki, bizim Yevlax şəhəri respublikamızda tanınmış mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Əlbəttə, Sizin diqqətiniz, qayğınız sayəsində. Möhtərəm Prezidentimiz, teatrımıza dövlət statusunun verilməsini bütün mədəniyyət işçiləri Sizdən xahiş edir.

Mehriban xanım, Azərbaycan mədəniyyətinə göstərdiyiniz bütün qayğıya və diqqətə görə sizə də minnətdarlığımızı bildiririk, çox sağ olun.

**İlham Əliyev:** Teatrın açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Yevlax şəhəri üçün də böyük hadisədir və onu göstərir ki, hətta dünyanı bürümüş maliyyə böhranı zamanı da Azərbaycanda mədəniyyət məsələlərinə diqqət həmişə

olduğu kimi, yüksək səviyyədədir. Azərbaycanda məktəblər, xəstəxanalar tikilir, neft-qaz kəmərləri çəkilir, infrastruktur layihələri həyata keçirilir. Yevlax şəhərində teatr yox idi və ya da nə vaxtsa olmuşdu, yalnız fəaliyyət göstərmirdi. Bina böyük zövqlə tikilib, memarlıq baxımından da şəhərə əlavə yaraşıq verir, yeri də çox gözəldir, mərkəzi meydanın yanındadır və daxili dizaynı da yaxşıdır. Statusa gəldikdə, ona biz baxarıq, nə lazımdırsa, kömək göstərəcəyik.

## Şahmat məktəbinin açılışı

*Prezident İlham Əliyev martın 2-də Yevlağa səfəri çərçivəsində şəhərin Heydər Əliyev prospektindəki binaların ansamblını tamamlayan daha bir obyektin – Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı burada hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən rəmzi lenti kəsdi.*

*Məktəbin direktoru Vaqif Quliyev məlumat verdi ki, binanın tikintisinə 2008-ci ilin martında başlanılmış və inşaat işləri oktyabr ayında başa çatdırılmışdır. Smeta dəyəri 597,5 min manat olan ikimərtəbəli bina dövlət vəsaiti hesabına tikilmişdir. Birinci mərtəbədə 182 yerlik akt salonu, uşaq kitabxanası, ikinci mərtəbədə 8 sinif otağı, müəllimlər otağı və xidməti otaqlar, 178 kvadratmetrlik şahmat oyunları salonu yerləşir. Binada müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılmışdır. Fasadı şahmat fiqurları bəzəyir. Dəhlizlər və pilləkənlər mərmərlə üzlənmişdir. Məktəb müasir inventar və avadanlıqlarla təchiz olunmuşdur.*

*Foyedə ulu öndər Heydər Əliyevin idmançılara, o cümlədən şahmatçılara göstərdiyi diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır.*

*Dövlətimizin başçısı məktəbin kitabxanası, akt və oyun salonları, sinif otaqları ilə tanış oldu, şahmat taxtası arxasında əyləşmiş gənclərlə görüşdü. Prezident İlham Əliyev dedi ki,*

*məktəbdə şahmatın inkişafı, bu qədim oyunun gənclərə öyrədilməsi üçün hər cür şərait yaradılmışdır. Bu cür şəraitdən sonra çempionlarımız da çox olmalıdır.*

*Şahmat üzrə respublika çempionatının bürünc mükafatçısı Jalə Məhərrəmli dövlət başçısına təqdim olundu. Prezident onu təbrik etdi, uğurlar arzuladı.*

## «EL-TV» regional televiziya şirkətinin açılışı

*Azərbaycan prezidenti İlham Əliyev martın 2-də Yevlaxda «EL-TV» regional televiziya şirkətinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı burada səmimiyyətlə qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, regional teleşirkətin üçmərtəbəli binasında 40 iş otağı, 2 studiya və 576 kvadratmetrlik çəkiliş pavilyonu vardır. Teleşirkət ən müasir rəqəmsal çəkiliş avadanlığı və lazımi inventarla təmin olunmuşdur. Televiziyanın yayımı Gəncəbasar ərazisindən tutmuş, Ağdaş, Göyçay, Ağsu, Bərdə, Tərtər, Ağdam, Şəki rayonlarını və Mingəçevir şəhərini əhatə edir.*

*Şirkətə sutkada 15-16 saat efir vaxtı ayrılmışdır. Gün ərzində 2 dəfə «Xəbərlər» proqramı yayımlanacaqdır. Burada 55 nəfər işlə təmin olunmuşdur. Gələcəkdə işçilərin sayı artırılacaqdır.*

*Teleşirkətin transformator yardımçı stansiyası, generatoru, havalandırma qurğuları, qazanxanası var.*

*Prezident İlham Əliyev açılışı bildirən rəmzi lenti kəsdi, şirkətin binası ilə tanış oldu.*

*Dövlətimizin başçısı studiyalar və pavilyonla tanış oldu, görülmüş işləri yüksək qiymətləndirdi, şirkətin kollektivinə uğurlar arzuladı.*

## Şəhərin giriş qapılarında aparılmış abadlıq və yenidənqurma işləri ilə tanışlıq

*Martın 3-də prezident İlham Əliyev Yevlaxdan Mingəçevirə gedərkən Yuxarı Qarxun kəndi tərəfdən Yevlax şəhərinə girişdə aparılmış abadlıq və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Burada avtomobil yolunun eni 16 metrə çatdırılmış, daş hasar hörülmüş, 30 ədəd müasir formalı işıq dirəkləri, 10 projektor quraşdırılmışdır. İki təpə üzərində dekorativ gül kollarından və digər tikinti materiallarından istifadə olunmaqla, Azərbaycan Respublikasının simvolik xəritəsi təsvir edilmişdir. Burada eni 16 metr, hündürlüyü 10 metr olan iki alaqapı tikilmişdir.*

*Ərazidə yaşıllıq salınmış, 10 minə yaxın müxtəlif ağac əkilmiş, ulu öndər Heydər Əliyevin böyük portreti olan lövhə quraşdırılmış, Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏRİ

*3 mart 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev regionlara səfəri çərçivəsində martın 3-də Mingəçevir şəhərinə gəlmişdir.*

*Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı Mingəçevir şəhərinin timsalında da özünü göstərir. Şəhər getdikcə abadlaşır, sənaye potensialı artır. 2003-cü ilə nisbətən 2008-ci ildə ümumi məhsul istehsalının həcmi 1,7 dəfə artaraq 275 milyon manata, o cümlədən sənaye məhsulunun həcmi 1,3 dəfə artaraq 192 milyon manata çatmışdır. Əsas kapitala yönəldilən investisiyalar 29 dəfə artaraq 41,3 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi 26 dəfə artaraq 34,2 milyon manat təşkil etmişdir.*

*Şəhərdə ulu öndərin adını daşıyan muzey tikilmiş, parklar salınmış, yeni istehsal müəssisələri fəaliyyətə başlamışdır. 2003–2008-ci illərdə Mingəçevir şəhərində 191 müəssisə yaradılmış və 6421 daimi olmaqla, 7215 yeni iş yeri açılmışdır.*

*Dövlət başçısının «Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında» sərəncamının icrasına uyğun olaraq, su problemi olan yaşayış massivlərinə yeni su kəməri çəkilmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin Heydər Əliyev meydanında ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Energetiklər şəhərinin mərkəzi meydanında geniş abadlıq-quruculuq işləri aparılmış, sakinlərin istirahəti üçün lazımi şərait yaradılmışdır. Burada musiqili fəvvarə quraşdırılmış, yaşıllıq zolağı salınmış, 10 minə qədər müxtəlif növ ağac və gül kolları əkilmiş, gediş-gəlişi asanlaşdırmaq üçün yerüstü piyada keçidi tikilmişdir.*

## Ulu öndər Heydər Əliyev Muzeyinin açılışı

*Martın 3-də Mingəçevirdə Heydər Əliyev Muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etdilər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*2006-cı ildə inşa olunmuş muzeyin binası ötən il yenidən qurulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Muzeydə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən çoxsaylı fotoşəkillər arasında 1981-ci ildə Mingəçevirə ilk səfəri ilə bağlı fotolar xüsusi yer tutur. Ümummilli lider o vaxt Azərbaycan DRES-in birinci enerji blokunun işə salınmasında iştirak etmişdi.*

*Muzeyin kompyuter otağında məşğələlər keçirilir. Kompyuterlər internetə qoşulmuşdur, yaxın vaxtlarda muzeyin saytının yaradılması da nəzərdə tutulmuşdur. Məktəblilər və tələbələr burada Heydər Əliyev irsini öyrənirlər. Yaradıcılıq otağında məktəblilərin 100-dək rəsm əsəri, heykəltəraşlıq işləri nümayiş etdirilir. Kitabxana fondunda 600-ə yaxın ədəbiyyat vardır. Muzeydə müxtəlif tədbirlərin keçirilməsi üçün akt salonu da vardır. Burada «Heydər Əliyev məktəbi»nin məşğələləri keçirilir.*

*Muzeylə tanışlıqdan sonra prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı muzeyin qarşısında şəhər ictimaiyyətinin nümayəndələri ilə söhbət etdi.*

**İlham Əliyev:** Sizi ürəkdən salamlayıram və muzeyin açılışı münasibətilə təbrik etmək istəyirəm. Şəhərdə gedən bütün abadlıq-quruculuq işləri məni çox sevindirir. Mingəçevir doğrudan da gözəl, müasir şəhərə çevrilibdir. Burada həm abadlıq işləri aparılır, həm də yeni müəssisələr, zavodlar, fabriklər açılır və bu, şəhərin sənaye potensialını möhkəmləndirir. Mingəçeviri gözəl turizm zonasına çevirmək

üçün lazımi addımlar atılır və gələcəkdə daha böyük tədbirlər görüləcəkdir. Mənə verilən məlumata görə, burada inşa edilən yeni mehmanxanalar yüksək standartlara cavab verir, onların biri ilə bu gün tanış olacağam. Kür avarçəkmə bazasının tikintisi uğurla gedir. Bilirsiniz ki, bu, vaxtilə sovet məkanında nadir bir baza idi. Yəni onun analoqu yox idi və bu gün də yoxdur. Amma uzun illər istifadəsiz qalmışdı. Vaxtilə bazanın yenidən qurulması ilə əlaqədar beynəlxalq idman qurumlarına bizim müraciətlərimiz cavabsız qalmışdı və ancaq Azərbaycanın öz daxili imkanları hesabına bu bazanın yenidən qurulmasına nail olduq. İndi orada ən yüksək səviyyədə tikinti işləri aparılır. Həm idmanla məşğul olmaq üçün, həm də ki, şəhərin turizm imkanlarını genişləndirmək üçün bu gözəl bazanın böyük əhəmiyyəti var.

Hər bir şəhərin inkişafı insanların yaşayış səviyyəsi ilə ölçülür. Mən çox istəyirəm ki, burada insanların yaxşı yaşaması üçün bütün lazımi şərait yaradılsın. Təmir edilmiş binalar, salınan yollar, abadlıq işləri, gözəl xiyabanlar və sair – bu şəhərdə insanların yaşaması üçün lazım olan tədbirlər görülür və gələcəkdə Azərbaycanın iqtisadi imkanları genişləndikcə, əlbəttə ki, siz bunu daha da yüksək dərəcədə görəcəksiniz. Siz – Mingəçevir sakinləri yəqin ki, bu gün şəhərdə baş verən dəyişiklikləri görürsünüz, bunlar Azərbaycanda aparılan islahatlarla bağlıdır. Bizim iqtisadi gücümüz artır, büdcə xərcləri artır, bölgələrə ayrılan xərclərin miqdarı artır və bunun hesabına biz gözəl işlər görürük. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci hissəsi başa çatıbdır. Bu yaxınlarda proqramın yekunları geniş müzakirə edilib. Gələcəkdə bizi böyük işlər gözləyir. Növbəti 5 ildə bu vaxta qədər həll edilməmiş problemlərin əksəriyyəti həll olunmalıdır. Biz bu məsələləri həll etmək üçün bölgələrdən bütün lazımi məlumatı əldə etmişik, o cümlədən Mingəçevir şəhərinin növbəti 5 il ərzindəki inkişafı ilə bağlı təkliflər verilibdir. Bu təkliflər ölkəmizin beşillik inkişaf proqramına daxil edilib, növbəti 5 ildə plan üzrə konkret tədbirlər görüləcəkdir.

Əlbəttə ki, Mingəçevir şəhərinin tarixini, Azərbaycan üçün strateji şəhər olduğunu nəzərə alaraq, ona xüsusi diqqət göstəriləcəkdir.

**Təhmasib Hüseynov**: Möhtərəm Prezident, icazənizlə Sizin və Mehriban xanımın Mingəçevir şəhərinə gəlişiniz münasibətilə mingəçevirlilər adından sizə «Xoş gəlmisiniz!» deyim. Mingəçevir Azərbaycanın energetika mərkəzi sayılır. Şəhərin və energetikamızın inkişafı da ümummilli liderimizin adı ilə bağlıdır. Mingəçevir şəhərində fəaliyyət göstərən və Azərbaycanın elektrik enerjisinin 50 faizindən çoxunu verən Azərbaycan İstilik Elektrik Stansiyası o vaxt layihələndirilən zaman başqa respublikalarda tikilməsinə cəhdlər olanda ulu öndərimizin təkidi və qətiyyəti nəticəsində stansiya şəhərimizdə tikilmişdir. 1981-ci il oktyabrın 20-də həmin stansiyanın birinci enerji blokunun açılışında ulu öndərimiz iştirak etmişdi.

Möhtərəm Prezident, Siz hakimiyyətə gəldikdən sonra Azərbaycan İstilik Elektrik Stansiyasına yeni bir nəfəs verdiniz. Belə ki, 2005-ci ildə beşinci enerji blokunun yenidən qurulması nəticəsində onun gücü 180 meqavatdan 330 meqavata çatdırıldı. Sizin tapşırığınızla hazırda digər enerji blokunda yenidənqurma işləri müvəffəqiyyətlə gedir.

Cənab Prezident, yeri gəlmişkən, ölkəmizin təhsilinin, səhiyyəsinin və mədəniyyətinin inkişafında böyük işlər görmüş Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya mingəçevirlilər adından öz dərin minnətdarlığımızı bildirmək istəyirəm.

**İlham Əliyev:** Sağ olun, sizi bu yaxınlarda qeyd etdiyiniz şəhərin yubileyi münasibətilə təbrik etmək istəyirəm. Mingəçevir son 60 il ərzində böyük, gözəl şəhərə çevrilibdir. Heydər Əliyev Muzeyində nümayiş etdirilən şəkillər dediyiniz məqamları əks etdirir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində Mingəçevirin energetika mərkəzinə çevrilməsi baş tutdu. Bildiyiniz kimi, o vaxt müxtəlif təkliflər var idi, stansiyanı başqa qonşu respublikalarda tikmək, bu işləri orada

görmək planları var idi. Həmişə olduğu kimi, o vaxt da ulu öndərin respublika üçün lazım olan sənaye obyektlərini Azərbaycana gətirmək cəhdləri baş tutdu. Bu, təkcə elektrik stansiyası ilə bağlı deyil. Məsələn, o vaxt Bakı Dərin özüllər zavodunun Rusiyanın bir şəhərində quraşdırılması nəzərdə tutulurdu. Əgər o vaxt Heydər Əliyevin təkidi ilə bu zavod məhz Bakıda tikilməsəydi, bu, son illər ərzində uğurla aparılan neft strategiyamızı ən azı 5–10 il dala salacaqdı. Məhz bu platformaların tikintisi bizə bu gözəl şəraiti yaratdı. Neftayırma zavodunun yenidən qurulması – əgər vaxtında bu məsələ həll olunmasaydı, bu gün biz yəqin ki, ölkəmizi neft məhsulları ilə təmin edə bilməzdik. O cümlədən Mingəçevirdə elektrik stansiyasının tikintisi və ondan sonrakı dövrlərdə onun gücünün artırılması Azərbaycanın bugünkü inkişafı üçün çox böyük əhəmiyyətə malik məsələdir. Əgər o vaxt stansiya tikilməsəydi, bizim enerji təhlükəsizliyimiz təmin olunmazdı.

Bu gün energetika sahəsinə xüsusi diqqət göstərilir. Deyə bilərəm ki, Mingəçevirin bu işlərdə yükü bir az azalıbdır. Çünki son illər ərzində ölkəmizin müxtəlif yerlərində tikilmiş yeni stansiyalar bu gücü öz üzərinə götürür, itkilər azalır və beləliklə, ölkənin elektrik enerjisi ilə təminatı daha da dayanıqlı olur. Mingəçevir, əlbəttə, energetika şəhəri, energetiklər şəhəri kimi yarandı. Amma çox istəyirəm ki, Mingəçevir başqa sahələrdə də energetika sahəsində əldə edilmiş uğurlar səviyyəsində fərqlənsin və bunun üçün bütün imkanlar var. Şəhərin sənaye potensialının yaradılması – bax, bu gün bir neçə sənaye müəssisələri ilə tanış olacağıq: «İnterenerji», İzolit, kompyuter zavodu – yəni bütün bunlar Azərbaycanın bugünkü reallıqlarıdır. Kompyuter zavodunun burada açılması Azərbaycanın texnoloji tərəqqisinə xidmət edir.

Bir sözlə, şəhərdə həm abadlıq-quruculuq sahəsində, həm də sənaye potensialının inkişafı istiqamətində görülən işlər məni çox qane edir. Bundan sonrakı illərdə elektrik enerjisinin istehsalı ilə bağlı tədbirlər görüləcək, sənaye potensialının möhkəmlənməsi üçün əlavə bütün lazımi tədbirlər görüləcəkdir.

Mingəçeviri gözəl turizm mərkəzinə çevirmək üçün də yaxşı imkanlar var. Həmişə olduğu kimi, Mingəçevirə xüsusi diqqət göstəriləcəkdir. Bütün bu işlərdə sizə uğurlar, bütün Mingəçevir sakinlərinə cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

## «KÜR» elektron avadanlıqları istehsalı MMC-nin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 3-də «KÜR» elektron avadanlıqları istehsalı MMC-nin fəaliyyəti ilə tanış olmuşdur.*

*Mingəçevirin yeni sənaye müəssisələrindən olan «KÜR» elektron avadanlıqları istehsalı MMC regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2005-ci ilin sentyabrında fəaliyyətə başlamışdır. Müəssisədə rəqabətədavamlı yüksək texnologiyalı məhsullar istehsal olunur. Bu məhsullar Mərkəzi və Şərqi Avropa ölkələrinin təşkil etdiyi «Keyfiyyət turnirinin» qalibi olmuş, beynəlxalq İSO 9001:2000 sertifikatına layiq görülmüş, müxtəlif beynəlxalq sərgilərdə diplomlar almışdır.*

*Bu müəssisə respublikada ümumtəhsil məktəblərinin kompyuterləşdirilməsində mühüm rol oynamışdır. Təhsil Nazirliyinin sifarişi ilə 27217 ədəd kompyuter istehsal edilərək, ümumtəhsil məktəblərinə verilmişdir. «KÜR» kompyuterləri Moldova və Gürcüstana da ixrac olunur, Türkmənistanla isə bu istiqamətdə danışıqlar aparılır.*

*Müəssisənin istehsalı olan informasiya köşkündə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən məlumatlar yerləşdirilmişdir.*

*Dövlətimizin başçısı müəssisənin istehsal sexi ilə tanış oldu.*

*Bildirildi ki, konveyerdə gün ərzində 140 kompyuter avadanlığı yığılır. «KÜR» ticarət markası altında 22 konfiqurasiyada, 5 modeldə informasiya köşkləri, 2 modeldə stasionar telefon aparatları da buraxılır. 2005–2008-ci illərdə 29 min ədəddən çox fərdi kompyuter, 127 ədəd informasiya köşkü, 22*

*min telefon aparatı istehsal edilmişdir. Hazırda müəssisədə 62 nəfər işləyir.*

*Azərbaycanda bu qəbildən olan ilk müəssisədə quraşdırılmış avadanlıq Almaniya və İsrail şirkətlərindən alınmışdır. Yığılan kompyuterlər termonəzarət kamerasında sınaqdan keçirilir. Testdən uğurla keçən kompyuter 140–250 volt gərginlik intervalında yoxlanılır və qablaşdırılır. İstehsal edilən kompyuterlərə 3 il zəmanət verilir, bu müddətdə həm stasionar, həm də səyyar servis xidmətləri göstərilir.*

*Prezident İlham Əliyev müəssisənin istehsal etdiyi məhsulların sərgisinə də baxdı.*

*Burada internet xarakterli köşklər də istehsal olunur. İnsanlar müəyyən yerlərdə quraşdırılan bu köşklər vasitəsilə pulsuz internetdən istifadə edərək, lazımi informasiya ala bilərlər. Köşkdə xüsusi proqramın köməyi ilə kommunal xidmətlərə görə borcların ödənilməsini həyata keçirmək, avtobus və təyyarə reyslərinin cədvəlini öyrənmək, dövlət orqanlarının internet səhifəsindən istifadə etmək olar.*

*Prezident İlham Əliyev müəssisənin işini yüksək qiymətləndirdi.*

## «Mingəçevir İZOLİT» ASC ilə tanışlıq

*Prezident İlham Əliyev martın 3-də «Mingəçevir İZOLİT» ASC-də olmuşdur.*

*Mingəçevirdə son illər əsaslı şəkildə yenidən qurulmuş müəssisələrdən olan «Mingəçevir İZOLİT» ASC «Azərelektroizolit» zavodunun bazasında yaradılmışdır.*

*Müəssisəyə xammal əsasən Rusiya, Ukrayna və Səudiyyə Ərəbistanından gətirilir. 2008-ci ilin aprelindən tam özəlləşdirilən müəssisədə şüşə-plastikdən müxtəlif ölçülü ümumi təyinatlı borular, elektrotexnikada istifadə edilən xüsusi təyinatlı borular və silindirlər, güc transformatorları üçün izolyatorlar, neft-qaz quyularının qazılmasında və istismarında istifadə olunan borular və digər məhsullar buraxılır. Hazırda burada 155 nəfər işlə təmin olunmuşdur. Onların orta aylıq əmək haqqı 206 manatdır. Yaxın*

*gələcəkdə müəssisə tam gücü ilə işləyəndə iş yerlərinin sayı 400-ə çatdırılacaqdır.*

*Prezident İlham Əliyev plastik boru istehsalı sexinin işə düşməsini bildirən düyməni basdı, müəssisənin sexlərində işin gedişini izlədi, istehsal olunan məhsulların nümunələrinə baxdı.*

*Dövlətimizin başçısı regionlarda bu cür müəssisələrin fəaliyyət göstərməsinin əhəmiyyətini vurğuladı, kollektivə uğurlar arzuladı.*

## «İnterenerji» MMC-nin fəaliyyəti ilə tanışlıq

*Prezident İlham Əliyev martın 3-də Mingəçevirə səfəri çərçivəsində «İnterenerji» MMC-nin fəaliyyəti ilə tanış olmuşdur. «Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, MDB-də analoqu olmayan bu müəssisə 2006-cı ildən işləyir.*

*Prezident İlham Əliyev müəssisənin sexlərini gəzdi, iş şəraiti ilə yaxından tanış oldu.*

*Ötən il «İnterenerji» MMC 35 milyon 480 min manat dəyərində tikinti-quraşdırma, 1 milyon 403,5 min manat dəyərində təmir-tikinti işlərini yerinə yetirmişdir. Müəssisənin 1400 işçisi var. Üçnövbəli rejimdə işləyən Dəmir-beton məmulatları zavodunda 640 nəfər çalışır. İşçilərin orta aylıq əməkhaqqı 460 manatdır. Ötən il 8200 kubmetr dəmir-beton konstruksiyalar, o cümlədən yüksək gərginlikli elektrikötürmə xətləri üçün dayaqlar istehsal olunmuşdur. Keçən il zavodda mexaniki yığma və metal dayaqlar sexi istifadəyə verilmişdir. Müəssisə 10, 220, 400 kilovoltluq elektrik xətləri üçün dəmir-beton dayaqların istehsalına lazım olan xammalın bir hissəsini Ukrayna və Rusiyadan alır.*

*Dövlət başçısının tapşırıqlarına əsasən, müəssisə Azərbaycan İstilik Elektrik Stansiyasında ehtiyat mazut çənləri quraşdırır. Hər birinin tutumu 20 min kubmetr, diametri 40, hündürlüyü 23 metr olan çənlər ölkədə ilk dəfə olaraq bilavasitə təyinat yerində quraşdırılır.*

*Prezident İlham Əliyev müəssisənin işini yüksək qiymətləndirdi.*

## «River Side» mehmanxanasının açılışı

*Prezident İlham Əliyev martın 3-də Mingəçevirdə «River Side» mehmanxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və mehmanxana ilə tanış oldu.*

*4 ulduzlu «River Side» mehmanxanası şəhərin memarlıq ansamblına yaraşıq verir. Kürün sahilində yerləşən və ümumi sahəsi 7000 kvadratmetr olan beşmərtəbəli binada 30 otaq, 60 nəfərlik konfrans salonu, yay restoranı, 120 nəfərlik restoran, kafe-bar, idman salonu, trenajor və sair var. Turistlər üçün 80 yerlik avtomobil dayanacağı da yaradılmışdır.*

*Beynəlxalq standartlara uyğun olan bu mehmanxana yüksək xidmət səviyyəsi ilə fərqlənir. Burada turistlərin vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılmış, ovçuluq və balıqçılıq həvəskarlarının da marağı nəzərə alınmışdır.*

*Qonaqlara Azərbaycan və Avropa mətbəxinin nümunələri təklif olunur. Onlar Kürdə gəmi gəzintisinə də çıxa biləcəklər.*

*Ölkəmizdə turizm sektorunun inkişafının əhəmiyyətini vurğulayan prezident İlham Əliyev mehmanxanada yaradılmış şəraitdən razılığını bildirdi.*

## «Kür» Olimpiya tədris-idman mərkəzinin tikintisi ilə tanışlıq

*Prezident İlham Əliyev martın 3-də Mingəçevirdə «Kür» Olimpiya tədris-idman mərkəzinin tikintisi ilə tanış olmuşdur.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, inşaat işlərini nazirliyin sifarişi əsasında Serbiya–Azərbaycan birgə müəssisəsi – «Serbaz layihə və tikinti» MMC həyata keçirir. Burada Avropada, o cümlədən MDB məkanında bənzəri olmayan avarçəkmə bazası yaradılacaqdır.*

*2004-cü ildə prezident İlham Əliyev Mingəçevirə səfəri zamanı keçmiş «Kür» avarçəkmə bazasında olmuş, onun ən müasir şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlarını vermişdi. Bazanın layihəsi hazırlandıqdan sonra, 2007-ci ildə tikinti işlərinə başlanılmışdır. Tikintidə 240 nəfər çalışır, onlardan 120-si Serbiyadan gəlmişdir.*

*Layihəyə əsasən kompleksə inzibati bina, üzgüçülük hovuzu, gəmini xatırladan 6 mərtəbəli 250 yerlik mehmanxana, idman salonu, avarçəkmə klubu, kotteclər, tennis kortu, qayıqların saxlanması üçün ellinq daxildir.*

*Prezident İlham Əliyev tikinti sahələrinin layihələrinə baxdı. Məlumat verildi ki, inzibati korpusda inşaat işləri başa çatır, mehmanxana və üzgüçülük hovuzunun tikintisi isə davam etdirilir. Obyektin ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev burada məşq edən idmançılarla və onların məşqçiləri ilə söhbət etdi.*

*Dövlətimizin başçısı Mərkəzin tikintisinin yüksək keyfiyyətlə və vaxtında başa çatdırılması barədə tapşırıqlarını verdi.*

## Şəhər stadionunda aparılan yenidənqurma işləri ilə tanışlıq

*Prezident İlham Əliyev martın 3-də Mingəçevirə səfəri çərçivəsində Rəşad Məmmədzadə adına şəhər stadionunda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son vaxtlar ölkəmizin bütün regionlarında olduğu kimi, Mingəçevirdə də idmanın müxtəlif növlərinin inkişafına diqqət artmışdır. Şəhər stadionu 1953-cü ildə inşa olunmuşdu və müasir tələblərə cavab vermirdi. 2008-ci ilin iyunundan burada yenidənqurma işlərinə başlanılmışdır. Tribunalarda indiyədək 2 min plastik oturacaq quraşdırılmışdır. Üçüncü və dördüncü sektorlarda işlər tamamlandıqdan sonra tamaşaçı yerlərinin sayı 5 minə çatdırılacaqdır.*

*Dövlətimizin başçısı stadionun müasir tələblər səviyyəsində istifadəyə verilməsi, idmançılar və tamaşaçılar üçün lazımi şəraitin yaradılması ilə bağlı tapşırıqlarını verdi.*

*Bununla da prezident İlham Əliyevin Mingəçevir şəhərinə səfəri başa çatdı.*

## İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ALFREDO MANTİKA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də İtaliya Xarici İşlər nazirinin müavini, senator Alfredo Mantikanı qəbul etmişdir.*

*Alfredo Mantika İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin salamlarını prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycan prezidentinin İtaliyaya səfəri zamanı hökumət başçısı ilə keçirdiyi görüşün və aparılan səmərəli danışıqların iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətini vurğuladı.*

*Görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Prezident İlham Əliyev İtaliya Nazirlər Şurası sədrinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunisin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Tunis münasibətlərinin inkişafı daim xalqlarımız arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tunis xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2009-cu il*

**İRLANDİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost İrlandiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2009-cu il*

## BMT-nin AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ VƏ BMT-nin İNKİŞAF PROQRAMININ RƏHBƏRİ BRUNO PUEZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rəhbəri Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizlə BMT arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı və tərəfdaşlıq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Bruno Pueza Azərbaycanın BMT-nin İnsan Hüquqları Komissiyasına təqdim etdiyi hesabatın yüksək qiymətləndirildiyini və bunun davamlı inkişafın nəticəsi kimi dəyərləndirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycanın BMT ilə əməkdaşlığının perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN YENİ HƏRBİ HİSSƏSİNİN AÇILIŞI

*6 mart 2009-cu il*

*Martın 6-da Dövlət Sərhəd Xidmətinin (DSX) «N» hərbi hissəsinin açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Ali Baş Komandana raport verdi.*

*Son illərdə Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazasının gücləndirilməsi, yeni sərhəd dəstələri və zastavalarında müasir şəraitin yaradılması sərhəd qoşunlarının inkişafına göstərilən diqqət və qayğının təzahürüdür. Prezident, Ali Baş Komandan İlham Əliyev ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqətdə saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. DSX-nin yeni hərbi hissəsi də prezidentin sərəncamına əsasən yaradılmışdır.*

*Hərbi hissənin ərazisi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, buradakı şəxsi heyət relyefdən asılı olmayaraq, hər yerdə, habelə dənizdə bütün əməliyyatlarda iştirak etməyə həmişə hazırdır.*

*Prezident İlham Əliyev hərbi hissənin idman salonuna baxdı. Burada sərhədçilər üçün xüsusi əhəmiyyəti olan fiziki hazırlıq üçün hər cür şərait yaradılmışdır. Dövlət başçısı akt salonunda da oldu. Salonda hərbi hissənin həyatı ilə bağlı tədbirlər keçirilir.*

*Sonra təlim zalına gələn Ali Baş Komandana şəxsi heyətin müxtəlif silah növlərindən istifadə qaydalarını öyrənmələri haqda məlumat verildi. Ali Baş Komandan Dövlət Sərhəd Xidmətinin fəaliyyəti ilə bağlı fotoşəkillərə baxdı. Burada müxtəlif vaxtlarda prezidentin iştirakı ilə sərhəd dəstələrinin açılışlarını, Azərbaycan sərhədçilərinin orden və medallarla təltif olunmasını, onların sosial şəraitinin yaxşılaşdırılmasını əks etdirən fotoşəkillər toplanmışdır.*

*Prezident İlham Əliyev pnevmatik atıcılıq otağında pnevmatik tapançadan hədəfə atəş açdı. İnteraktiv atıcılıq otağında isə sərhədçilər müasir silahlardan istifadə vərdişlərini təkmilləşdirirlər.*

*Sonra dövlətimizin başçısı əsgərlərlə görüşdü.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Ali Baş Komandan İlham Əliyevə məruzə edərək dedi ki, Sizin şəxsi heyətə gündəlik qayğınız dövlət sərhədlərinin mühafizəsində yüksək etibarlılığın təmin edilməsinə, bu sahədə ən müasir texnikaların tətbiqinə şərait yaratmışdır. Hər bir Azərbaycan sərhədçisi Vətəninə və prezidentinə sədaqətlə, qürurla xidmət edir. Bu gün açılışında olduğunuz bu hərbi hissə sərhədlərimizin etibarlı qorunmasına öz töhfəsini verməkdədir. Burada şəxsi heyətin peşəkar səviyyədə formalaşması, Vətənə sədaqətlə xidmət etməsi üçün bütün şərait var. Qürurla bildirmək istəyirəm ki, bu hərbi hissə dünya standartlarına cavab verir. Cənab Prezident, biz də çalışırıq ki, qarşımıza qoyulmuş bütün tapşırıqları şərəflə yerinə yetirək. Sizə bütün Azərbaycan sərhədçiləri adından dərin minnətdarlığımızı bildiririk.*

**İlham Əliyev**: Sağ olun, mən bütün sərhədçiləri bu gözəl hərbi hissənin açılışı münasibətilə təbrik edirəm, sizə Vətən uğrunda xidmətinizdə uğurlar arzulayıram.

Son illər ərzində sərhəd xidmətinin təşkil olunması, infrastrukturun yaradılması istiqamətində çox böyük işlər görülübdür. Bu hərbi hissənin yaradılması da görülmüş işlərin bariz nümunəsidir. Sərhədlərimizdə müasir zastavalar,

ölkəmizin müxtəlif yerlərində ən müasir standartlara cavab verən hərbi hissələr yaradılır və müasir avadanlıqla təchiz edilir.

Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Xüsusilə Azərbaycan kimi daxili sabitliyi ilə fərqlənən ölkələrin təhlükəsizliyi sərhədin möhkəm olmasından asılıdır. Azərbaycanda ictimai-siyasi sabitlik, təhlükəsizlik, əmin-amanlıq ölkəmizin inkişafı üçün əsas şərtdir. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun. Dostlarımız üçün qapılar açıq, düşmənlər üçün bağlı olmalıdır. Sərhəd mühafizəsinin təşkili nəticəsində Azərbaycanda daxili təhlükəsizliyin təmin edilməsi daha da yüksək səviyyədə təşkil olunur.

Azərbaycanın yerləşdiyi bölgə təhlükələrlə, risklərlə doludur və biz bunları qonşuluqda gündəlik həyatda görürük. Azərbaycanda təhlükəsizlik tədbirlərinin görülməsi, əmin-amanlığın, ictimai-siyasi sabitliyin qorunması Azərbaycan xalqının rahat yaşaması üçün şərait yaradır, bizim iqtisadi inkişafımıza təkan verir.

Azərbaycan dünyada sabitlik məkanı kimi tanınır. Həm son aylar ərzində qonşuluqda yaşanan siyasi və hərbi böhranlar, həm də bu gün dünyada yaşanan iqtisadi və maliyyə böhranları Azərbaycandan yan keçibdir. Nəyə görə? Ona görə ki, bizim məqsədyönlü, düşünülmüş siyasətimiz, görülən tədbirlər, vaxtında atılmış addımlar Azərbaycanı hərtərəfli qoruyur. Biz dövlət müstəqilliyimizi qorumalıyıq, möhkəmləndirməliyik, dönməz etməliyik. Elə etməliyik ki, Azərbaycan həmişə çiçəklənsin, inkişaf etsin.

Bu baxımdan sərhəd xidməti əməkdaşlarının fəaliyyəti çox önəmli, çox vacibdir. Məhz bu məqsədlə sərhəd xidmətinin, sərhəd infrastrukturunun möhkəmlənməsi üçün son illər ərzində böyük vəsait ayrılıb, bundan səmərəli istifadə olunubdur. Mən Azərbaycanın müxtəlif bölgələrində yerləşən sərhəd hərbi hissələrində olarkən bunu öz gözümlə görmüşəm. Bu gözəl hərbi hissənin yaradılması da görülən tədbirlərin, işlərin nəticəsidir. Burada xidmət etmək üçün bütün şərait var, şəxsi heyətin öz peşəkarlığını artırması üçün bütün şərait yaradılıbdır. Mən şübhə

etmirəm ki, sərhədçilər bu gözəl şəraitdən səmərəli istifadə edəcək və həmişə olduğu kimi, Vətənin keşiyində möhkəm dayanacaqlar.

Sizə işlərinizdə uğurlar arzulayıram. Sağ olun!

*Sonra atıcılıq poliqonu ilə tanış olan Ali Baş Komandana məlumat verildi ki, burada müxtəlif məsafələrə – 10, 25, 75 və 100 metr məsafələrə atəş açmaq üçün ən yüksək standartlara uyğun şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev hərbi hissədəki yeni texnikalara baxdı. Bildirildi ki, digərləri kimi, yeni hərbi hissə də müasir tipli texnikalarla təchiz olunmuşdur.*

*Dövlətimizin başçısı şəxsi heyətin hərbi təlimlərini izlədi, qərargah binasında yaradılan şəraitlə, yeməkxana ilə tanış oldu. Yeməkxanada əsgər və zabit heyətinin qidalanması üçün yüksək standartlar tətbiq edilir.*

*Ali Baş Komandan hərbi hissənin muzeyində də oldu. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin sərhəd qoşunlarının inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoşəkillər və kitablar toplanmışdır.*

*Dövlətimizin başçısı gizir və zabitlər üçün yataqxana ilə tanış oldu, hərbi hissənin təchiz olunduğu müasir silah növlərinə baxdı. Müxtəlif əməliyyatların keçirilməsi üçün nəzərdə tutulan bu silahlar dünya standartlarına cavab verir.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin yüksək tələblərə cavab verməsi üçün görülmüş işlərdən razılığını bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını Beynəlxalq qadınlar günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi, əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq, bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir.

1918-ci ildə seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını XX əsrdə qısa müddət ərzində bir neçə əsrə bərabər inkişaf yolu keçmişdir. Xalqın maariflənməsi, mədəniyyətimizin yüksəlişi və müasir iqtisadiyyatımızın qurulmasında o, daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirmişdir. Cəmiyyətimizdə qadınlara göstərilən yüksək ehtiram mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə onlara bilik və bacarıqlarını gerçəkləşdirmək üçün əlverişli zəmin yaratmışdır. Qadınlarımız bu gün də müxtəlif sahələrdə, o cümlədən vətəndaş cəmiyyəti quruculuğunda və

mədəniyyətlərarası dialoqun formalaşdırılmasında öz intellektual potensiallarını əsirgəmirlər.

Ümidvaram ki, «Uşaq İli» elan olunan 2009-cu ildə qadınlarımız gələcək nəsillərin milli-mədəni irsə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyəsində var qüvvələrini sərf edəcək, daim yeniləşən ölkəmizin daha da çiçəklənməsi prosesinə layiqincə xidmət edəcəklər.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2009-cu il*

## ALMANİYANIN «RWE» ENERGETİKA ŞİRKƏTİNİN PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Almaniyanın «RWE» energetika şirkətinin prezidenti və İdarə Heyətinin sədri Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Yurgen Qrossman Azərbaycanda nümayəndəliyini yaradan «RWE» energetika şirkətinin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi və ölkəmizdə xarici şirkətlərin sərbəst və azad fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirdi. Gələcəkdə Azərbaycanla neft-qaz sektorunda əməkdaşlıq etmək istədiklərini deyən qonaq, ölkəmizlə etibarlı tərəfdaş kimi fəaliyyət göstərmək əzmində olduqlarını vurğuladı.*

*Prezident İlham Əliyev «RWE» şirkətinin nümayəndə heyətinin Azərbaycanda görüşlərinin və apardığı danışıqların səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə «RWE» energetika şirkəti ilə Azərbaycanın əlaqədar qurumları arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİ KOMANDANI, ORDU GENERALI ATİLLA İŞIK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Respublikasının Jandarm Qüvvələri Komandanı, ordu generalı Atilla İşıkı qəbul etmişdir.*

*Atilla İşık bu vəzifəyə təyin olunandan sonra ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluq duyduğunu dedi. O, ümummilli lider Heydər Əliyevin «Bir millət, iki dövlət» kəlamını xatırladaraq, Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf etdiyini vurğuladı. Türkiyə Jandarm Qüvvələri ilə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın genişləndiyini deyən Atilla İşık bunun iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Atilla İşıkın Türkiyə Jandarm Qüvvələri Komandanı kimi ilk səfərini Azərbaycana etməsinin əhəmiyyətli olduğunu dedi, ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd etdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Atilla İşıkın Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlər Türkiyə Jandarm Qüvvələri ilə Azərbaycanın əlaqədar qurumları arasında əməkdaşlığın genişlənməsinə xidmət edəcəkdir.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*10 mart 2009-cu il*

*Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportundan Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Martın 10-da Azərbaycan prezidenti İlham Əliyev İrana rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İranın dövlət bayraqları ilə bəzədilmiş Tehranın «Mehrabad» hava limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İranın Xarici İşlər naziri Mənuçehr Muttəki və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar dövlətimizin başçısına gül dəstəsi təqdim etdilər.*

## PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tehran*

*10 mart 2009-cu il*

*Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və İranın dövlət bayraqlarının asıldığı Prezident sarayının qarşısındakı meydanda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran prezidenti Mahmud Əhmədinejad Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və İranın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər. Azərbaycan prezidenti İlham Əliyev İran əsgərlərini salamladı.*

*İranın rəsmi şəxsləri Azərbaycan prezidentinə, Azərbaycan nümayəndə heyətinin üzvləri İran prezidentinə təqdim olundular.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Tehran*

*10 mart 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Azərbaycan prezidentinin İrana rəsmi səfərinin əhəmiyyətinə toxunan prezidentlər bu səfərin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirdilər.*

*Görüşdə Azərbaycan–İran münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Tehran*

*10 mart 2009-cu il*

*Martın 10-da təkbətək görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf səviyyəsindən məmnunluq ifadə edildi, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi. İran ilə Azərbaycanın müxtəlif bölgələri, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişaf etdiyi vurğulandı və bildirildi ki, bunun daha da genişlənməsi üçün yaxşı imkanlar var.*

*İki ölkə arasında iqtisadiyyat və energetika sahələrində həyata keçirilən konkret layihələrin əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti qeyd olundu. Azərbaycan prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyi bildirildi.*

*Görüşdə Azərbaycan və İran xalqları arasında mədəni əlaqələrin zəngin tarixi olduğu xatırladıldı, humanitar əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olundu, iki ölkə arasında münasibətlərin inkişafının regional əməkdaşlığa da töhfə verdiyi vurğulandı.*

*Bildirildi ki, Azərbaycan prezidenti İlham Əliyevin İrana rəsmi səfəri çərçivəsində imzalanacaq sənədlər ikitərəfli əlaqələrin hüquqi bazasını daha da genişləndirəcəkdir.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 mart 2009-cu il*

*Martın 10-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Mahmud Əhmədinejadın iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən İqtisadiyyat və Maliyyə naziri Şəmsəddin Hüseyni imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında İqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair protokolu Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Şahin Mustafayev, İran tərəfindən Ticarət naziri Məsud Mirkazımi imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Turizm sahəsində əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən prezidentin birinci müavini vəzifəsini icra edən Həmid Dəqai imzaladılar.*

*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının Mədəni İrs, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı arasında Mədəni irs sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən prezidentin birinci müavini vəzifəsini icra edən Həmid Dəqai imzaladılar.*

*Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi arasında Əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən prezidentin Mədəniyyət məsələləri üzrə müşaviri, Milli Kitabxana və Arxivin sədri Əliəkbər Əşəri imzaladılar.*

*Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair anlaşma memorandumunu Azərbaycan tərəfindən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, İran tərəfindən Statistika Mərkəzinin sədri Məhəmməd Mədəd imzaladılar.*

*Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Poçt məsələləri üzrə əməkdaşlıq haqqında anlaşma memorandumunu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən Xarici İşlər naziri Mənuçehr Muttəki imzaladılar.*

## İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT

*10 mart 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 10-da İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarət etmişdir.*

*Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi.*

*Azərbaycan prezidenti İran inqilabı rəhbərinin məqbərəsinə əklil qoydu.*

*Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.*

## İRANIN ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*10 mart 2009-cu il*

*Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Ali Dini rəhbəri Seyid Əli Xameneinin görüşü olmuşdur.*

*İranın Ali Dini rəhbəri qeyd etdi ki, Azərbaycan ilə qonşuluq və qardaşlıq münasibətləri müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə uğurla inkişaf edir.*

*Seyid Əli Xamenei Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladaraq, qarşılıqlı əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğunu bildirdi.*

*Prezident İlham Əliyev İrana uğurla keçən rəsmi səfərinin iki ölkə arasında müxtəlif sahələrdə inkişaf edən əlaqələrin perspektivinin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan–İran münasibətlərinin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.*

# İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ X ZİRVƏ GÖRÜŞÜ*

*Tehran*

*11 mart 2009-cu il*

*Martın 11-də Tehranın «Hafiziyə» sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının X zirvə görüşü keçirilmişdir.*

*Görüşdə təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri iştirak etmişlər.*

*2006-cı ilin mayında Bakıda keçirilmiş X zirvə görüşündən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə görüşünü açıq elan edərək dedi:*

– Hörmətli İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejad!

Hörmətli dövlət başçıları!

Hörmətli nümayəndə heyətlərinin başçıları!

Əziz dostlar!

---

* Игтисади Ямякдашлыг Тяшкилатынын Х зирвя эюрцшцндя Иранын Хариъи Ишляр назири Мянучещр Муттяки, ИЯТ-ин Баш катиби Хуршид Янвяр, Пакистан prezidenti Асиф Яли Зярдари, Таъикистан рrезиденти Емомяли Рящмон, Тцркийя рrезиденти Абдуллащ Эцл, Тцркмянистан рrезиденти Гурбангулу Бердымящяммядов, Газахыстанын Ваш назири Кярим Мясимов вя зирвя эюрцшцндя гонаг гисминдя иштирак едян бир сыра дювлят вя щюкумят башчылары чыхыш етдиляр.

Mən sizin hamınızı ürəkdən salamlayıram və İqtisadi Əməkdaşlıq Təşkilatının X zirvə görüşünü açıq elan edirəm.

Bu zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə görə əziz dostumuz, İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada böyük məmnuniyyətlə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın sədrliyi ilə bizim təşkilatımız IX zirvə görüşündən sonra çox uğurlu bir yol keçmişdir. Təşkilat daha da inkişaf etmiş, dünyada öz mövqelərini möhkəmləndirə bilmişdir. Bir sıra çox önəmli təşəbbüslər irəli sürülmüşdür və bu gün deyə bilərəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı həm bölgədə, həm də dünyada çox böyük nüfuza malikdir. .

Mən bu gün bizim zirvə görüşümüzdə qonaq qismində iştirak edən dövlət başçılarını böyük məmnuniyyətlə salamlayır, onlara öz ehtiramımı bildirmək istəyirəm.

Son illər ərzində İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində bir sıra mühüm məsələlər müzakirə olunmuş və öz həllini tapmışdır. Regional əməkdaşlıq məsələləri öz həllini tapır, bizim aramızda həm ikitərəfli, həm çoxtərəfli formatda inteqrasiya prosesləri güclənir və bu, hər bir üzv ölkənin inkişafı üçün əlavə imkanlar yaradır. Energetika sahəsində görülmüş işlər enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini vermişdir. Nəqliyyat sahəsində, humanitar sahədə, bütün başqa sahələrdə gələcək inkişaf üçün çox gözəl perspektivlər, çox gözəl imkanlar var.

Mən xüsusilə təşkilatın Katibliyinin son 3 il ərzindəki fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm.

Gündəliyə uyğun olaraq, biz indi İqtisadi Əməkdaşlıq Təşkilatının 10-cu zirvə görüşünün sədrini seçməliyik və mən böyük məmnuniyyətlə İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejadın X zirvə görüşünün sədri seçilməsini təklif edirəm.

Sizin mövqeyinizi bu təklifə dəstək kimi qiymətləndirirəm. Hörmətli cənab Prezident, mən Sizi X zirvə görüşünün sədri seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm, Sizə ən xoş arzularımı bildirmək istəyirəm və sədrliyi Sizə təqdim edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab sədr!

Əziz dostlar!

Bir daha sizin hamınızı ürəkdən salamlayır və bildirmək istəyirəm ki, son 3 ildə Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafı üçün öz səylərini göstərmişdir. Biz təşkilatdakı fəaliyyətimizə çox böyük önəm veririk. Hesab edirik ki, təşkilatın güclənməsi, bölgədə və dünyada mövqelərinin möhkəmlənməsi hər bir üzv ölkə üçün əlavə fayda gətirə bilər.

İqtisadi Əməkdaşlıq Təşkilatında təmsil olunan ölkələri birgə tarix birləşdirir, mədəniyyət birləşdirir. Bizim aramızda ənənəvi güclü əlaqələr mövcud olmuşdur və indiki mərhələdə, xüsusilə dünyanı iqtisadi və maliyyə böhranı bürüdüyü bir vaxtda regional əməkdaşlıq, iqtisadi təşəbbüslər, inteqrasiya məsələləri xüsusi önəm daşıyır. Biz öz tərəfimizdən bu istiqamətdə addımlarımızı davam etdirməyə hazırıq və xüsusilə siyasi və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsində maraqlıyıq. Azərbaycan öz tərəfindən bu istiqamətdə önəmli addımlar atır. Son 3 il ərzində bizim sədrliyimiz altında İqtisadi Əməkdaşlıq Təşkilatında müxtəlif təşəbbüslər irəli sürülmüşdür. Azərbaycanın təşəbbüsü ilə bölgədə enerji, nəqliyyat və digər sahələrdə çox önəmli addımlar atılmışdır. Azərbaycan enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdə davam edir. Bu baxımdan biz həm neft-qaz kəmərlərini sadalaya bilərik, həm də elektrik enerjisi sahəsində qonşu ölkələrlə çox uğurlu və qarşılıqlı surətdə faydalı layihələrin gerçəkləşməsini qeyd edə bilərik. Enerji məsələləri bu gün dünya miqyasında gündəliyin ön sıralarındadır. Ölkələrimizdə mövcud olan böyük təbii enerji resursları dövlətlərimizin milli maraqlarına xidmət göstərməlidir, ölkələrimizin milli maraqlarını müdafiə etməlidir və əlbəttə ki, regional əməkdaşlıq məsələlərinə də bunun çox böyük təsiri olmalıdır.

Nəqliyyat sahəsində Azərbaycanın və bizimlə qonşu ölkələrin təşəbbüsü ilə çox önəmli dəmir yolu layihəsi icra olunur. Tikilən bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcəkdir. Hazırda Türkiyə, Gürcüstan və Azərbaycan birlikdə bu layihəni icra edir. Şübhə etmirəm ki, Bakı–Tbilisi– Qars dəmir yolu işə başlayandan sonra regionun digər ölkələri də bu imkanlardan istifadə edəcəklər. Çünki bu həm iqtisadi cəhətdən çox sərfəlidir, həm də aramızda olan dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcəkdir.

Deyə bilərəm ki, ölkəmiz son 5 il ərzində iqtisadi inkişaf baxımından çox uğurla addımlamışdır. Son 5 ildə Azərbaycanda ümumi daxili məhsul 2,6 dəfə, sənaye istehsalı isə 2,5 dəfə artmışdır. Bu nailiyyətlər bizə imkan verib ki, yoxsulluğun səviyyəsini kəskin şəkildə aşağı salaq. 5 il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə enmişdir. Biz növbəti illərdə də çalışacağıq ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal rolumuzu davam etdirək və əminəm ki, gələcəkdə biz bunun gözəl nəticələrini görəcəyik.

Vacib olan investisiya, inteqrasiya, iqtisadi əməkdaşlıq, regional əməkdaşlıq məsələlərini daha da uğurla həll etmək üçün bölgədə sülh, əmin-amanlıq olmalıdır. Əfsuslar olsun ki, biz bunu hələ ki, görmürük. Müxtəlif təhlükələr, müxtəlif risklər, çağırışlar mövcuddur. Azərbaycanın son 20 il ərzində üzləşdiyi böyük problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətidir. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından qovularaq, qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altına düşmüşdür və bu işğal indi də davam edir. Bu həm Azərbaycan üçün böyük problemdir, həm də bölgədə təhlükəsizlik tədbirlərinin güclənməsinə böyük maneçilik törədir. Düzdür, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi müdafiə olunur, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycan

torpaqlarından qeyd-şərtsiz çıxarılması haqqında 4 qətnamə qəbul edilmişdir. Ancaq Ermənistan buna məhəl qoymur. Bir il əvvəl BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı qətnamə qəbul edilmişdir. İslam Konfransı Təşkilatı çərçivəsində çox mühüm və ədalətli qərarlar qəbul olunmuşdur. Həmçinin digər təşkilatlarda da. Ancaq əfsuslar olsun ki, bu diplomatik səylər hələ ki, bir nəticəyə gətirib çıxarmır. Mən xüsusilə bütün səsvermələrdə Azərbaycan mövqeyini, haqq-ədaləti dəstəkləyən ölkələrə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu münaqişə öz həllini tapandan sonra bölgədə tamamilə yeni vəziyyət yaranacaq, əməkdaşlıq üçün, işbirliyi üçün yeni imkanlar açılacaqdır.

Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan digər ölkələrin üzləşdiyi problemlərə də çox fəal münasibətimizi bildirməliyik. Azərbaycan beynəlxalq tədbirlərdə üzv-ölkələrin milli maraqlarının müdafiəsi üçün həmişə öz səsini ucaldıb, səsvermədə həmişə həmrəylik göstəribdir. Həm İqtisadi Əməkdaşlıq Təşkilatı, həm də İslam Konfransı Təşkilatı çərçivəsində həmrəylik məsələlərinə həmişə böyük həssaslıqla yanaşıbdır.

Mən bu fürsətdən istifadə edərək, bütün üzv-ölkələrin dövlət, hökumət başçılarına, nümayəndə heyətlərinin başçılarına bir daha hörmət və ehtiramımı bildirmək istəyirəm. Əziz dostum, qardaşım, İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejada növbəti illərdə təşkilatın idarə edilməsində uğurlar arzulayıram. Əminəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı gələcək illərdə öz mövqelərini daha da möhkəmləndirəcəkdir və bu bilavasitə hər bir üzv- ölkənin milli maraqlarına cavab verir.

Sağ olun.

*Zirvə görüşünün yekunlarına dair Tehran Bəyannaməsi qəbul olundu.*

*Bununla da Tehran zirvə görüşü başa çatmışdır.*

* * *

*Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının X zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev martın 11-də Vətənə qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Yunanıstan münasibətləri geniş inkişaf yolundadır. Keçən ay ölkənizə dövlət səfərim, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və müzakirələr, ölkələrimizin müxtəlif qurumları arasında imzalanmış sənədlər bunun bariz ifadəsidir.

Fürsətdən istifadə edərək, dost ölkənizə səfərim zamanı mənə və bütün nümayəndə heyətimə göstərdiyiniz yüksək diqqət və qonaqpərvərliyə görə bir daha Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional qurumlar çərçivəsində, xüsusən Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlığımızı bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Prezident, bir daha Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edir və əmin olduğumu bildirirəm ki, bu səfəriniz dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2009-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Pakistan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin hərtərəfli genişlənməsi, dostluq və əməkdaşlığımızın daha da möhkəmlənməsi istiqamətində bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh, sabitlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2009-cu il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Banqladeş xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 mart 2009-cu il*

## RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Rusiya Federasiyasının Xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı iki ölkənin rəhbərlikləri, habelə digər qurumları, o cümlədən Xarici işlər nazirlikləri arasında olan yüksək səviyyəli qarşılıqlı anlaşmanın, fəal əməkdaşlığın ikitərəfli əlaqələrin dinamik inkişafına xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, bunların nəticəsində ikitərəfli münasibətlər möhkəmlənir, ticarət dövriyyəsi artır, regional əməkdaşlığın müxtəlif istiqamətlərdə təmin olunması baxımından birgə səylər daha da güclənir. Azərbaycan prezidenti ümidvar olduğunu bildirdi ki, Rusiya Xarici İşlər nazirinin indiki səfəri və onun gedişində aparılan müzakirələr ötən il Rusiya prezidentinin Azərbaycana səfəri zamanı dövlət başçılarının müəyyən etdikləri kimi, qarşılıqlı əməkdaşlığın dostluq, strateji tərəfdaşlıq prinsipləri əsasında daha da inkişafına xidmət edəcəkdir.*

*Sergey Lavrov səfəri zamanı iki ölkə prezidentlərinin müəyyən etdikləri istiqamətlər üzrə səmərəli müzakirələr keçirildiyini vurğuladı. O dedi ki, biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtında, sonra isə İlham Əliyevin prezidentliyi dövründə Rusiya və Azərbaycan rəhbərlikləri arasında yaranmış qarşılıqlı anlaşma ruhuna uyğun olaraq fəaliyyət göstərməyə çalışırıq. Sergey Lavrov iki ölkə arasında münasibətlərin bundan sonra da dərinləşəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu bildirdi.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**

Hörmətli cənab Federal Prezident!

Vinnenden şəhərində baş vermiş dəhşətli hadisə barədə xəbəri sarsıntı və kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Almaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 mart 2009-cu il*

## AMEA-nın NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 mart 2009-cu il*

*Martın 14-də prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Muzeyin direktoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Rafael Hüseynov dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı qarşıladı.*

*Paytaxtın mərkəzində, gediş-gəlişin ən gur olduğu yerdəki Ədəbiyyat Muzeyi də əsaslı təmir və yenidənqurmadan sonra tamamilə təzə görkəm almışdır.*

*Prezident İlham Əliyev əvvəlcə birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına diqqət və qayğısını əks etdirən fotoguşəyə baxdı. Burada ulu öndərin büstü qoyulmuş, onun* «Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi nadir bir binadır, unikal bir muzeydir. Oranı qorumaq, saxlamaq lazımdır» *sözləri yazılmış lövhə asılmışdır. Eyni zamanda, bu mədəniyyət ocağının Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü ilə əsaslı təmir edilməsi və yenidən qurulmasını bildirən lövhə də vardır.*

*Muzeylə yaxından tanışlıq zamanı məlumat verildi ki, 1850-ci ildə birmərtəbəli karvansara kimi tikilmiş bina 1915-ci ildə ikinci mərtəbə artırılaraq mehmanxana kimi fəaliyyət göstərmişdir. 1918–20-ci illərdə burada Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabineti, 1920–30-cu illərdə Azərbaycan Həmkarlar İttifaqı yerləşmişdir. 1939-cu ilin*

*noyabrında Azərbaycanın dahi şairi Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Nizami Muzeyi yaradılmışdır. Muzeyin həmin binada yerləşdirilməsi məqsədi ilə memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynovun layihəsinə əsasən burada yenidənqurma işləri aparılmış, fasadda heykəllər qoyulmuş, daha iki mərtəbə əlavə edilmişdir. O vaxtdan sonra binada yalnız cari təmir işləri görülmüşdür. 2004-cü ilin sonunda prezident İlham Əliyevin muzeyə gəlişindən sonra onun tapşırığına əsasən hazırlanan layihələr əsasında burada əsaslı yenidənqurma və təmir-bərpa işləri başlanmışdır.*

*Rəfael Hüseynov dövlətimizin başçısına və xanımına məlumat verdi ki, uçmaq təhlükəsi olan binanın təməli və bütün divarları möhkəmləndirilmişdir. Bütün naxış, bəzək və mürəkkəb yapma elementləri təzədən hazırlanmış, 4500 kvadratmetrə qədər sahəyə parket (o cümlədən naxışlı) döşənmiş, qapı və pəncərələr dəyişdirilmiş, dam yenidən qurulmuşdur. Bina üçün ayrıca transformator qoyulmuş, generator, qazanxana, müasir havalandırma, isitmə və soyutma sistemləri quraşdırılmışdır.*

*Yenidənqurmadan əvvəl 800 kvadratmetr olan ekspozisiya sahəsi 2500 kvadratmetrə çatdırılmışdır. Hazırda ekspozisiya 30 əsas və 10 köməkçi salonda yerləşir. Müxtəlif tədbirlərin keçirilməsi üçün 270 və 75 yerlik iki salon əsaslı şəkildə yenidən qurularaq, lazımi avadanlıqla təchiz edilmişdir.*

*Yenidənqurmadan öncə muzeyin 120 mindən artıq eksponatından ekspozisiyada 1000-i göstərilirdisə, yeni ekspozisiyada 25 mindən çox eksponat var. Bütün ekspozisiya salonları kompyuterləşdirilmiş, tamaşaçıların müstəqil işləmələri üçün monitorlar quraşdırılmış, Azərbaycan, ingilis və rus dillərində informasiya bazası yaradılmış, audio-video materialları seyr etmək üçün 14 monitor və dinləmə qurğuları olan xüsusi böyük salon təşkil edilmişdir. Muzeyin fondları zəruri texnika və avadanlıqla təmin olunmuşdur.*

*1000 kvadratmetr sahəni əhatə edən inzibati otaqlar zövqlə təmir edilmiş, rahat mebel və avadanlıqla, zəruri texnika ilə təchiz edilmişdir. Binanın daxili və xarici işıqlandırılması, bütün ekspozisiya salonlarının və inzibati otaqların daimi video-nəzarət sistemi yaradılmışdır. Muzeydə keçirilən müxtəlif tədbirlərlə, mədəniyyət tariximizlə bağlı süjetləri şəhər sakinlərinə mütəmadi çatdırmaq üçün binanın xaricində xüsusi səsli monitor quraşdırılmışdır. Birinci mərtəbədəki vitrinlər ədəbiyyatımızın klassiklərini və onların seçmə fikirlərini əks etdirən və qonaqlar tərəfindən maraqla qarşılanan dekorativ banerlərlə bəzənmişdir.*

*Dövlətimizin başçısı Yaxın və Orta Şərqdə, eləcə də Avropada yeganə Ədəbiyyat Muzeyi olan bu mədəniyyət ocağının böyük konfrans salonunu, «Qədim dövr», «Dədə Qorqud», «Nizami Gəncəvi», «Məhsəti Gəncəvi», «Xaqani Şirvani», «İmadəddin Nəsimi», «Məhəmməd Füzuli», «Şah İsmayıl Xətai» salonlarını gəzdi.*

*Muzeyin ekspozisiyası qədim zamanlardan müasir dövrə kimi, Azərbaycan ədəbiyyatının keçdiyi tarixi yol haqqında məlumat verir. Burada Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin nadir əlyazmaları, məşhur xəttatların yazı nümunələri, klassiklərin əsərlərinə çəkilən miniatürlər, illüstrasiyalar, müxtəlif kitablar, qəzet və jurnallar, müasir Azərbaycan yazıçılarının əsərləri, təsviri sənət nümunələri və sənədli fotoşəkillər, xalq yaradıcılığı nümunələri, Azərbaycan ərazisindən tapılan və müxtəlif dövrlərə aid sikkələrin kolleksiyası, bədii xalçalar, saxsı və bürünc qablar, digər maddi mədəniyyət abidələri nümayiş olunur.*

*Üçüncü mərtəbədə nümayiş olunan maraqlı eksponatlar arasında Pənah xana məxsus, üzərində «Qurani-Kərim» ayələri yazılmış «gülləbatmaz» köynək, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Cəfər Cabbarlının, Məmməd Səid Ordubadinin, Abdulla Şaiqin, Mir Cəlal Paşayevin, Nigar Rəfibəylinin və başqalarının şəxsi əşyaları, şəkilləri, habelə ötən əsrin 30-cu illərində repressiya qurbanı olmuş şair və yazıçıların sənədlərinin surətləri vardır.*

*Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Əlimərdan bəy Topçubaşovun prezident İlham Əliyevin təşəbbüsü ilə Parisdən Bakıya gətirilmiş qəbirdaşı da muzeydə nümayiş olunur. Əlimərdan bəy Topçubaşovun məzarı üstündə isə abidə qoyulmuşdur.*

*Muzeylə tanışlıqdan sonra direktor Rəfael Hüseynov dövlətimizin başçısına bürüncdən hazırlanmış və ulu öndər Heydər Əliyevin həyat və mübarizələr yoluna həsr olunmuş heykəltəraşlıq kompozisiyasını hədiyyə etdi.*

*Muzeydə görülmüş işlərdən razı qalan prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı:*

«Nizami adına Azərbaycan Milli Ədəbiyyatı Muzeyinin təmirdən sonra yenidən fəaliyyətə başlaması müasir Azərbaycan tarixində çox əlamətdar hadisədir. Muzeydə nümayiş etdirilən eksponatlar və sənət əsərləri Azərbaycan xalqının nə qədər zəngin mədəniyyətə malik olduğunu göstərir. Muzeyin bütün əməkdaşlarına yeni uğurlar arzulayıram».

## MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN MƏDƏNİYYƏT MƏRKƏZİNİN ƏSASLI TƏMİR EDİLMİŞ BİNASI İLƏ TANIŞLIQ

*14 mart 2009-cu il*

*Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzinin və həmin Mərkəzin nəzdində fəaliyyət göstərən musiqi məktəbinin əsaslı təmir edilmiş binaları ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısını burada Milli Təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov qarşıladı.*

*Prezident İlham Əliyev Azərbaycanın xalq rəssamı, dünya şöhrətli firça ustası Tahir Salahovla səmimi görüşdü.*

*Mərkəzin binasının yerləşdiyi ərazidə 1912-ci ildə polyak kilsəsi (kostyol) tikilmişdi. Layihənin müəllifi tanınmış polyak memarı Yozef Ploşko idi. Onun layihəsi əsasında tikilmiş binalar indi də Azərbaycan paytaxtını bəzəyir. 1931-ci ildə bolşeviklərin göstərişi ilə kostyol dağıdılmış, 1938-ci ildə isə onun yerində F.Dzerjinski adına klubun təməli qoyulmuşdu. Lakin Böyük Vətən müharibəsinin başlaması ilə əlaqədar tikinti işləri dayandırılmışdı. Memar Hüseyn Məcidovun layihəsi əsasında tikilən bina 1953-cü ildə istifadəyə verilmiş və uzun müddət dövlət əhəmiyyətli müxtəlif tədbirlərin keçirildiyi yer olmuşdur. O vaxtdan bəri binada əsaslı təmir aparılmamışdı. Respublika Nazirlər Kabinetinin 2008-ci il 31 yanvar tarixli Qərarı ilə həmin bina Milli Təhlükəsizlik Nazirliyinin balansına verilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin binanın foyesində qoyulmuş büstünə baxdı, Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyində oldu. Milli Təhlükəsizlik Nazirliyinin arxivlərindən və dövlət arxivindən götürülmüş, çoxu ilk dəfə nümayiş etdirilən fotoşəkillərlə tanış oldu.*

*Dövlətimizin başçısı Mərkəzin 352 tamaşaçı yeri olan, ən müasir avadanlıqla təchiz edilmiş konsert salonuna, VİP-otağa, fəxri qonaqlar üçün lojalara baxdı.*

*Prezident İlham Əliyev binanın əvvəlki vəziyyətini əks etdirən kiçik fotoekspozisiya ilə də tanış oldu. Mərkəzin 100 yerlik kiçik salonunda ümummilli lider Heydər Əliyevin ölkənin milli təhlükəsizlik sisteminin təşəkkülündə rolundan bəhs edən sənədli filmə baxdı.*

*Binanın dördüncü mərtəbəsində 80 yerlik restoran və Azərbaycan təbiətinin bənzərsiz gözəlliklərini əks etdirən rəngkarlıq əsərlərinin nümayiş etdirildiyi Qış bağı yerləşir.*

*Sonra dövlətimizin başçısı Mərkəzin binasına bitişik, uşaq vaxtı özünün oxuduğu musiqi məktəbinə gəldi. Məktəbin direktoru, vaxtilə gənc İlham Əliyevin müəllimi olmuş Nailə Kərimova 1969/1970-ci tədris ilinə aid qiymət cədvəlini prezidentə təqdim etdi. Bu sənəddən görünür ki, fortepiano sinfində oxuyan İlham Əliyev yalnız əla qiymətlər almışdır.*

*Prezident İlham Əliyev musiqi məktəbi şagirdlərinin çıxışlarını dinlədi, daha sonra fotoekspozisiya ilə tanış oldu.*

## MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN «N» HƏRBİ HİSSƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI VƏ HƏRBİ HİSSƏYƏ DÖYÜŞ BAYRAĞININ TƏQDİM EDİLMƏSİ

*14 mart 2009-cu il*

*Martın 14-də Milli Təhlükəsizlik Nazirliyinin «N» hərbi hissəsində ümummilli lider Heydər Əliyevin abidəsinin açılışı və hərbi hissəyə döyüş bayrağının təqdim edilməsi mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini açdı, önünə gül dəstəsi qoydu.*

*Hərbi hissə ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada hərbi xidmətin nümunəvi səviyyədə təşkili üçün hər cür şərait var. Əsgər yataqxanası yüksək standartlar səviyyəsində qurulmuş, şəxsi heyətin istirahətinin təşkili üçün də lazımi işlər görülmüşdür.*

*Ali Baş Komandan ümummilli lider Heydər Əliyevin Azərbaycanda ordu quruculuğu, milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı sahəsində gördüyü işləri əks etdirən fotoguşəyə baxdı.*

*Hərbi hissə ilə tanışlıq zamanı prezident İlham Əliyev əsgər yeməkxanasında yaradılan şəraitlə də tanış oldu. Bildirildi ki, şəxsi heyətin yüksək standartlar tətbiq olunmaqla qidalanması diqqət mərkəzində saxlanılır.*

*Hərbi hissənin klubunda müxtəlif tədbirlərin keçirilməsi üçün akt salonu var, kitabxana latın qrafikası ilə nəşr olunmuş ədəbiyyatla təchiz edilmişdir. Burada əsgərlər Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatına dair nəşrlər, habelə vətənpərvərlik mövzusunda kitablar əldə edə bilərlər.*

*Dövlətimizin başçısı hərbi hissənin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə də baxdı.*

*Daha sonra hərbi hissəyə döyüş bayrağının təqdim olunması ilə bağlı təntənəli mərasim keçirildi.*

*Prezident İlham Əliyev əsgərləri salamladı.*

*Milli Təhlükəsizlik Nazirliyinin «N» hərbi hissəsinin döyüş bayrağı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi hissəyə döyüş bayrağını təqdim etdi, şəxsi heyəti bu münasibətlə təbrik etdi. Şəxsi heyət əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını göz bəbəyi kimi qoruyacağına, Vətənə, xalqa sədaqətlə xidmət edəcəyinə, Ali Baş Komandanın əmrlərinin icrasına daim hazır olacağına and içdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın qarşısından keçdi.*

## MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «RADİOQURAŞDIRMA» ZAVODUNUN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI

*16 mart 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 16-da Müdafiə Sənayesi Nazirliyinin «Cihaz» İstehsalat Birliyinin əsaslı şəkildə yenidən qurulmuş «Radioquraşdırma» zavodunun və nazirliyin Elmi-Tədqiqat İnstitutunun, həmçinin Hesablayan elektron maşınlar (HEM) zavodunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Müdafiə Sənayesi Nazirliyi yaranana qədər zavodun cəmi bir neçə sexi qismən fəaliyyət göstərir, təsadüfi sifarişlər əsasında ildə 60–70 min manatlıq məhsul buraxılırdı. 2006-cı ilə qədər burada işçilərin sayı tamamilə azalmış, müəssisə tam bərbad vəziyyətə düşmüşdü. Dövlət başçısının tapşırığına əsasən Müdafiə Sənayesi Nazirliyinin yaradılmasından sonra bu müəssisədə də köklü dəyişikliklər baş vermişdir. Qısa müddət ərzində ölkənin qabaqcıl sənaye müəssisələrindən birinə çevrilmişdir.*

*«Radioquraşdırma» zavodunun açılışına gələn prezident İlham Əliyev əvvəlcə ulu öndər Heydər Əliyevin həyatdə ucaldılmış büstünün önünə gül dəstəsi qoydu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov prezident İlham Əliyevə bu müəssisə və ümumilikdə respublikanın müdafiə sənayesində 2006-cı ildən bəri görülən işlər barədə geniş məlumat verdi. Bildirdi ki, vaxtilə zavodun bərbad vəziyyətdə olan ərazisində də geniş abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. İnzibati binalar əsaslı şəkildə təmir olunaraq, səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Müəssisədə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən*

*fotoguşə yaradılmış, 250 yerlik akt salonu da yenidən qurularaq müasir görkəm almışdır.*

*Dövlətimizin başçısı açılışı bildirən qırmızı lenti kəsdi və zavodla tanış oldu.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti sayəsində qısa müddətdə ölkənin müdafiə sənayesinin formalaşdırılması məqsədi ilə mühüm tədbirlər həyata keçirilmişdir. Ötən müddətdə nazirliyin tabeliyindəki müəssisələrdə 16 istehsal sahəsi istismara verilmiş, ən müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsulların kütləvi istehsalına başlanılmışdır. Dövlət başçısının tapşırıqlarına əsasən, 2009-cu il üçün investisiya proqramı çərçivəsində 17 obyekt üzrə tikinti və yenidənqurma işlərinə başlanması nəzərdə tutulmuşdur.*

*Bildirildi ki, 2007–2008-ci illərdə dövlət müdafiə sifarişi proqramında nəzərdə tutulan işlər başa çatdırılmış və buraxılan məhsullar silahlanmaya qəbul edilmişdir. 2009-cu ildə bu işlərin proqramı daha genişdir. Atıcı silahların, yaxın məsafəli döyüş vasitələrinin, artilleriya silahlarının kiçik seriyalarla istehsalı da mənimsənilmiş və proqrama uyğun istehsal edilmişdir. Müdafiə sənayesi müəssisələrində mühəndis texnikası, döyüş və təlim sursatları, mühəndis xidməti və kəşfiyyat vasitələrinin istehsalı da təmin edilmişdir. 2008-ci ildə sifarişçilərə təhvil verilən müdafiə təyinatlı məhsulların həcmi 2005-ci illə müqayisədə 6,1 dəfə artmışdır. Cari ildə isə 435 adda müdafiə təyinatlı məhsulların və onların ehtiyat hissələrinin istehsalı nəzərdə tutulmuşdur. Əvvəlki illərə nisbətən istehsalın həcmi əhəmiyyətli dərəcədə artırılacaqdır. Nazirliyin müəssisələrində buraxılmağa başlanacaq 7 növ müdafiə təyinatlı məhsulun istehsal sahəsinin yaradılması üçün texnoloji avadanlığın alınıb quraşdırılması 2009-cu ildə başa çatdırılacaqdır. Cari ildə müdafiə sənayesi müəssisələrində mülki məhsulların istehsalını da genişləndirmək üçün silsilə tədbirlər nəzərdə tutulmuşdur.*

## Elmi-Tədqiqat İnstitutunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev martın 16-da Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunun açılış mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin institutun həyətindəki büstü önünə gül dəstəsi qoydu.*

*İnstitutun yerləşdiyi ərazi və bina bir vaxtlar yararsız vəziyyətə düşmüşdü. Buradakı avadanlıq da sıradan çıxmışdı. Prezident İlham Əliyevin milli mənafelərə xidmət edən siyasəti sayəsində institutun binası, demək olar ki, tam yenidən qurulmuşdur.*

*Dövlət başçısına institut barədə ətraflı məlumat verildi. Azərbaycan prezidenti binanın təmirdən əvvəlki vəziyyətini əks etdirən videokadrlara baxdı. Bildirildi ki, indi burada informasiya-kommunikasiya texnologiyaları, ən son texnoloji avadanlıq geniş tətbiq olunmuşdur. Kadrların ixtisasının artırılması da diqqət mərkəzindədir. 2007-ci ilin mart ayının 16-dan fəaliyyət göstərən institutun mühəndis-laboratoriya korpusu, təcrübə zavodu, sınaq sahəsi, atıcılıq tiri və hərbi texnika saxlamaqdan ötrü xüsusi ərazisi var. İnstitutun fəaliyyət istiqamətləri genişdir, onlarca sahəni əhatə edir.*

*Dövlət başçısı burada yaradılan Heydər Əliyev güşəsi ilə tanış oldu. Burada ulu öndərin və prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin ən müasir standartlar səviyyəsində yenidən qurulması və ölkənin müdafiə sənayesinin yaradılması istiqamətində gördükləri ardıcıl və kompleks tədbirlər əksini tapmışdır.*

*Sonra prezident İlham Əliyev institutun eksperimental zavodu ilə tanış oldu.*

*Dövlətimizin başçısına zavod barədə ətraflı məlumat verildi. Bildirildi ki, buradakı stendlərdə institut barədə müfəssəl məlumat yerləşdirilmişdir.*

*Zavodda mexaniki emal, dəqiq mexanika, yığma, sazlama, qaynaq, termiki emal, sınaq sahələri və sair fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev burada istehsal edilən məhsulların sınaqdan keçirilməsi zamanı çəkilmiş kadrlara baxdı.*

*Ali Baş Komandana istehsal prosesi və buraxılan məhsullar barədə ətraflı məlumat verildi.*

*Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda yaradılan şəraitdən məmnun qaldı.*

## Hesablayan elektron maşınlar (HEM) zavodunun yenidənqurmadan sonra açılışı

*Azərbaycan prezidenti İlham Əliyev martın 16-da Müdafiə Sənayesi Nazirliyinin Hesablayan elektron maşınlar (HEM) zavodunun yenidənqurmadan sonra açılış mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı zavodun yenidənqurmadan əvvəlki vəziyyətini əks etdirən videokadrlara baxdı, müəssisədə yaradılan Heydər Əliyev Muzeyi ilə tanış oldu. Muzeydə ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə tikilən müəssisələrin açılışlarını, ümumən, respublikanın inkişafı istiqamətində həyata keçirdiyi tədbirləri əks etdirən fotoşəkillər toplanmışdır.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov prezidentə məlumat verdi ki, 1972-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində əsası qoyulan bu zavod tezliklə o dövrün qabaqcıl müəssisələrindən birinə çevrilmişdi. Həmin illərdə burada müxtəlif növ mülki təyinatlı elektron tipli cihazlar istehsal edilir və İttifaqın 100-dən çox müəssisəsinə göndərilirdi. Zavodun yaradılması respublikamızda elektronikanın inkişafının təməlini qoymuş və bu sahədə yüksək ixtisaslı kadrların hazırlanmasına zəmin yaratmışdı. Sovet İttifaqının dağılmasından sonra zavodun tənəzzül dövrü başlanmış və istehsal tamamilə dayanmışdı. Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında*

*fərmanının icrası ilə bağlı görülən tədbirlər zavoda ikinci həyat verdi.*

*Dövlətimizin başçısı müəssisədə istehsal olunan məhsulların sərgisinə baxdı.*

*Müdafiə Sənayesi Nazirliyinin digər müəssisələrində olduğu kimi, HEM zavodunda da əsaslı yenidənqurma işləri aparılmış, inkişaf etmiş ölkələrin ən müasir və dünya standartlarına cavab verən yüksək texnologiyaları quraşdırılmışdır.*

*Prezident İlham Əliyev zirehli maşınların istehsalı sexində olan «Matador» maşınının göstəriciləri ilə tanış oldu. Cənubi Afrika Respublikasının «Paramount Group» şirkəti ilə müqaviləyə əsasən zavodda yığılan bu maşınlar texniki göstəricilərinə görə dünya standartlarına cavab verir. Azərbaycan MDB məkanında bu zirehli texnikanı buraxan yeganə ölkədir. «Paramount Group»un prezidenti məlumat verdi ki, 14 nəfərlik «Matador»un yükgötürmə qabiliyyəti 4500 kiloqramdır. Uzunluğu 6,57 metr, eni 2,47 metr olan «Matador» mailliyi 60 dərəcə olan yoxuşu qalxa bilir.*

*Dövlətimizin başçısına xatirə hədiyyəsi olaraq «Matador»un maketi təqdim olundu.*

*Zavod istehsalın həcmini ildən-ilə 25–30 faiz artırmaqla yeni növ məhsulların buraxılmasını qarşıya məqsəd qoymuşdur. Bu məhsulların xaricə ixracı da nəzərdə tutulmuşdur. Son 2 ildə müəssisə öz məhsullarını beynəlxalq sərgilərdə uğurla nümayiş etdirir.*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULAY VADA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Seneqal arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri, beynəlxalq qurumlar çərçivəsində birgə səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Seneqal xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 mart 2009-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERMİŞDİR

*18 mart 2009-cu il*

*Martın 18-də ümumxalq səsverməsinə çıxarılan Referendum Aktında Konstitusiyanın 29 maddəsinə təklif olunan əlavələr və dəyişikliklər insan hüquqları ilə bağlı təminatları daha da genişləndirir, dəqiqləşdirir və beynəlxalq müqavilələrdə əksini tapmış təminatları özündə əks etdirir.*

*Müstəqil Azərbaycan Respublikasının tarixində Konstitusiyaya əlavə və dəyişiklik edilməsi üçün ikinci dəfə keçirilən referendumda seçici siyahılarına 4,8 milyondan çox seçici daxil olunmuşdur.*

*Avropa standartlarına cavab verən yeni Seçki Məcəlləsi əsasında vətəndaşların öz iradələrini sərbəst ifadə etmələri üçün bütün tədbirlər görülmüş, seçkilərin gedişini izləmək üçün xarici ölkələrdən beynəlxalq müşahidəçilər dəvət edilmişdir.*

*Səsvermə günü səhərdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin Tofiq İsmayılov adına «İntellekt» liseyində yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səhər saat 11-də ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəldi. Prezident İlham Əliyev səsvermə otağına gəlib, səsvermə bülleteni alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı respublikamızın və xarici ölkələrin onlarca mətbuat orqanının, televiziya kanallarının nümayəndələri izləyirdilər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da bu məntəqədə səs verdilər.*

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Svetlana Orlova ölkəmizdə referenduma hazırlığın yüksək səviyyədə təşkil olunduğunu, bir çox məntəqədə veb-kameraların quraşdırıldığını, dairələrin texniki vasitələrlə tam təchiz edildiyini vurğuladı. O, 40-dan artıq seçki məntəqəsində müşahidələr apardıqlarını bildirərək dedi ki, saat 12-yə qədər həmin məntəqələrdə seçicilərin 43 faizdən çoxunun referendumda iştirak etməsi yüksək göstəricidir.*

*Qonaq ölkəmizə səfəri müddətində ümumilikdə Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olduqlarını söylədi.*

*Dövlətimizin başçısı ölkəmizdə referenduma hazırlıq işlərinin yüksək səviyyədə təşkil edildiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə sürətli inkişafa nail olunduğunu vurğuladı.*

*Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində də uğurla inkişaf etdiyi bildirildi, Rusiya nümayəndə heyətinin səfərinin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi xalqımızın ən əziz bayramı – Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Təbiətin insanlara töhfəsi olan Novruz bayramının hər gəlişi Azərbaycanda bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü kimi qəbul edilmişdir. Gecə ilə gündüzün bərabərləşdiyi ilk bahar günündə yurdumuza qədəm qoyan bu bayram insanları sülhə və əmin-amanlığa səsləyir.

Milli təfəkkürümüzün və mədəni-mənəvi dəyərlərimizin parlaq təcəssümü sayılan Novruz bayramı suveren Azərbaycanın rəsmi bayramı olaraq ölkəmizin hər yerində kütləvi şənliklərlə qeyd edilir. Bu bayramın insanlarımızda yaratdığı qurub-yaratmaq əzmi ən müxtəlif sahələrdə ürəkaçan nailiyyətlərlə, paytaxtda və bölgələrdə geniş miqyasda aparılan quruculuq-abadlıq işləri ilə ümumi ahəng təşkil edir. Builki Novruz bayramı özünün yeni dövrünü yaşayan Azərbaycan muğamının da bayramıdır və Beynəlxalq Muğam Festivalının keçirilməsi ilə əlamətdardır.

Doğma Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması naminə canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bu əziz gündə ehtiramla yad olunur. Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan soydaşlarımız da bizimlə bərabər Bahar bayramını böyük sevinclə qarşılayırlar. İnanıram ki, milli həmrəyliyimizin rəmzinə çevrilmiş bu el bayramı azərbaycançılıq məfkurəsi ətrafında onların müqəddəs Vətənə bağlılıq duyğularını daha da möhkəmləndirəcəkdir.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 19 mart 2009-cu il*

## YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 mart 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.*

*YUNESKO-nun rəhbəri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Beynəlxalq Muğam Festivalının rəsmi açılış mərasimində iştirak etmək üçün ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərinə toxunan Koişiro Matsuura ölkəmizdə mədəniyyət sahəsində də böyük işlərin görüldüyünü söylədi.*

*Azərbaycan prezidenti dünyadakı maliyyə böhranına baxmayaraq, ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində sürətli inkişafa nail olunduğunu bildirdi. Azərbaycanda mədəniyyətlə bağlı həyata keçirilən layihələrdən danışan dövlətimizin başçısı bu baxımdan Bakıda Beynəlxalq Muğam Festivalının keçirilməsinin əhəmiyyətini xüsusi vurğuladı. Prezident İlham Əliyev Koişiro Matsuuranın ölkəmizə bu səfərinin Azərbaycanla YUNESKO arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ

*20 mart 2009-cu il*

*Xalqımızın ən əziz bayramı olan Novruz münasibətilə martın 20-də Bakıda izdihamlı bayram şənliyi keçirilmişdir. Qədim İçərişəhərin qoşa qala qapıları qarşısındakı meydanda böyük mərasim təşkil olunmuş, ətrafdakı binalar, əsrlərin şahidi olan qədim qala divarları al-əlvan plakatlarla bəzədilmişdi.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla novruz şənliklərində iştirak etmək üçün meydana gəldilər. Buraya toplaşmış minlərlə şəhər sakini, paytaxtın qonaqları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev burada «Muğam aləmi» Beynəlxalq festivalında iştirak etmək üçün ölkəmizdə səfərdə olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə salamlaşdı.*

*Azərbaycan prezidentinin Novruz bayramı münasibətilə xalqımıza təbrikində deyildiyi kimi, milli təfəkkürümüzün və mədəni-mənəvi dəyərlərimizin parlaq təcəssümü sayılan Novruz bayramı suveren Azərbaycan dövlətinin rəsmi bayramı kimi, müstəqil respublikamızın hər bir guşəsində kütləvi şənliklərlə qeyd edilir. Yaz bayramının insanlarımızda qurub-yaratmaq əzmini artıran yeniləşdirici ovqatı ölkəmizin dinamik inkişafla əlamətdar həyatında son illər ən müxtəlif sahələrdə ürəkaçan nailiyyətlərlə, paytaxtda və bölgələrdə geniş miqyasda aparılan quruculuq-abadlıq işləri ilə ümumi ahəng təşkil edir.*

*İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Dədə Qorqud xeyir-dua verərək, Bahar bayramının millətimizə ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinə gələnlərdə daha xoş ovqat doğururdu.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramlarından biri olan Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Azərbaycan xalqı bu gözəl bayramı əsrlər boyu qəlbində yaşatmışdır. Bütün dövrlərdə Novruz bayramı Azərbaycanda qeyd olunurdu. Ancaq biz dövlət müstəqilliyimizi bərpa edəndən sonra bu bayram dövlət bayramı kimi qeyd olunur, rəsmi bayramdır. Son bir neçə il ərzində isə bu bayram Azərbaycanda bir neçə gün qeyd edilir. Builki bayram günləri bir həftədən çox olacaqdır. Bu, bir tərəfdən, Azərbaycan xalqının, Azərbaycan dövlətinin bu bayrama olan münasibətidir, digər tərəfdən, bu, imkan verir ki, Azərbaycanın bütün bölgələrində hər bir ailə bir həftədən çox birlikdə olsun, istirahət etsin, dincəlsin və xoş günlər keçirsin.

Azərbaycan bu gün müasirləşir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra çox uğurlu yol keçmişdir, çox böyük sınaqlardan şərəflə çıxmışdır. Biz müasir dövləti köklü, əsaslı, milli dəyərlər üzərində qururuq. Milli dəyərlər, ənənələr Azərbaycan xalqı üçün həmişə əziz olubdur. Bu gün də bu möhkəm zəmin əsasında müasir Azərbaycanın qurulması prosesi uğurla davam edir. Azərbaycan öz imkanlarını artırır. İqtisadi inkişaf baxımından son 5 il ərzində Azərbaycan dünya miqyasında lider ölkə olmuşdur. Əminəm ki, bu liderliyi bundan sonra da əldən verməyəcəkdir. Ölkədə aparılan geniş

siyasi və iqtisadi islahatlar, quruculuq, abadlıq işləri ölkəmizin hərtərəfli inkişafına çox böyük töhfə vermişdir. Həm Bakı şəhərinin gözəlləşməsi, həm də bütün bölgələrdə gedən abadlıq-quruculuq işləri hər birimizi çox sevindirir.

Biz son 5 il ərzində ölkə qarşısında duran çoxlu məsələləri, problemləri həll edə bilmişik, qarşıda duran bütün vəzifələr icra olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı vaxtından əvvəl və daha da böyük həcmdə icra edilmişdir. Azərbaycanda növbəti illər üçün lazım olan əsas infrastruktur layihələri son 5 il ərzində, demək olar ki, öz həllini tapıbdır. Növbəti 5 ildə biz bu siyasəti davam etdirəcəyik. Əlbəttə ki, əminəm, növbəti 5 ildə bu vaxta qədər həll olunmamış problemlər də öz həllini tapacaqdır.

İqtisadiyyatımız 5 ildə 2,6 dəfə artıb, yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə düşmüşdür. Bütün bu göstəricilər insanların gündəlik həyatında öz əksini tapır. Azərbaycan iqtisadiyyatı bölgədə artıq sabitləşdirici amilə çevrilibdir.

Bütövlükdə Azərbaycanın artan nüfuzu, daxili siyasi sabitlik, bölgədəki vəziyyətə təsir imkanlarının artması və regional layihələrin təşəbbüsü nəticəsində biz beynəlxalq mövqelərimizi də xeyli dərəcədə möhkəmləndirə bilmişik. Bu gün Azərbaycan dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır və dünya üçün bir çox mühüm layihələrin həyata keçirilməsində Azərbaycanın iştirakı başlıca şərtdir. Biz nəinki böyük layihələrin iştirakçıları, eyni zamanda, bu layihələrin təşəbbüskarıyıq. Bizim təşəbbüsümüzlə bölgədə enerji sahəsində köklü dəyişikliklər baş vermişdir. Demək olar ki, bu layihələr bölgənin geosiyasi vəziyyətinə çox böyük müsbət təsir göstərmişdir. Bu gün biz bu imkanlardan ölkəmizin hərtərəfli inkişafı üçün və beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi üçün istifadə edirik və bu da təbiidir.

Əlbəttə, bizim qarşımızda duran ən önəmli, ən əsas problem Dağlıq Qarabağ probleminin həllidir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Yüz minlərlə azərbaycanlı etnik

təmizləmə siyasəti nəticəsində öz doğma torpağından didərgin salınmış, qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Biz bütün imkanlardan istifadə edirik ki, bu məsələni ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək. Həm iqtisadi imkanlarımızı, diplomatik səylərimizi, həm də hərbi gücümüzü artırırıq. Ötən il Azərbaycanda keçirilmiş hərbi parad bizim nə qədər güclü ordu potensialına malik olduğumuzu bütün dünyaya sübut etdi. Biz çalışırıq ki, məsələ sülh yolu ilə beynəlxalq hüquq normalarına uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilsin. Qondarma Dağlıq Qarabağ rejiminə heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan öz torpaqlarının itirilməsi ilə heç vaxt barışmayacaqdır. Biz nə qədər güclü olsaq, məsələnin həlli bir o qədər yaxın olacaqdır.

Bu gün bölgədə vəziyyət tamamilə başqadır. Xüsusilə dünyanı bürümüş və bölgəyə çox böyük təsiri olan iqtisadi böhran açıq-aydın göstərir ki, kim nəyə qadirdir, kim kimdir və kimin imkanları nədən ibarətdir. Azərbaycan bu böhrandan ən az əziyyət çəkən ölkələrdəndir. Əgər bölgəyə və bütövlükdə postsovet məkanına nəzər salsaq görərik ki, çoxlu problemlər var. Bəzi ölkələr öz hesabına yaşaya bilmirlər, bəzi ölkələr xarici maliyyə yardımı olmadan öz iqtisadiyyatını inkişaf etdirə bilmirlər və hətta sosial problemlərin həllində də çətinlik çəkirlər. Müəssisələr dayanır, insanların alıcılıq qabiliyyəti azalır və beləliklə, sosial gərginlik yaranır.

Biz bölgədə baş verən hadisələrə, əlbəttə ki, həmişə diqqət yetiririk və görürük ki, vəziyyət hansı istiqamətdə inkişaf edir. Bu gün nəinki, sadəcə olaraq, müşahidə aparmaq imkanlarımız var, bölgədəki mövcud vəziyyətə təsir imkanlarımız da xeyli artıbdır. Bütün bunlar bizim məqsədyönlü siyasətimiz nəticəsində mümkün olmuşdur, Azərbaycanın öz imkanlarından çox məharətlə istifadə etməsindən irəli gəlir.

Keçən ilin yayında bölgədə yaranmış hərbi, siyasi böhran Azərbaycanda hiss olunmadı. Bu gün dünyanı bürümüş, ən böyük ölkələrə təsir göstərən və bölgədə çox böyük prob-

lemlərlə nəticələnən iqtisadi böhran da Azərbaycanda hiss olunmur.

Biz gələcəyə nikbinliklə baxırıq. Bu vaxta qədər verilmiş bütün sözlər icra olunub, qarşıda duran bütün vəzifələr yerinə yetirilmişdir. Ancaq hələ çoxlu problemlər var, gələcəkdə biz onları həll etməliyik. Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməlidir və görüləcəkdir. İqtisadi inkişaf strategiyamız davam etdiriləcəkdir. Baxmayaraq ki, dünyada neftin qiyməti 3-4 dəfə azalıb, bu il və növbəti illərdə investisiya layihələrinin tam əksəriyyəti, bütün sosial proqramlar icra olunacaqdır. Bu il və növbəti illərdə məktəblərin, xəstəxanaların mədəniyyət ocaqlarının tikintisi, bərpası davam etdiriləcəkdir. Yəni ki, bizim planlarımızda heç bir dəyişiklik olmayacaqdır. Bu yaxınlarda növbəti 5 ili əhatə edən müfəssəl iqtisadi inkişaf proqramı təsdiq olunacaqdır. Əminəm ki, bu proqramın icrası nəticəsində 5 ildən sonra Azərbaycan daha da qüdrətli, daha da imkanlı olacaq və bizim təsir dairəmiz daha da genişlənəcəkdir.

Azərbaycan xalqı bir daha öz həmrəyliyini nümayiş etdirdi, görülən işlərə öz münasibətini bildirdi, öz dəstəyini ifadə etdi. Bu dəstək bizə güc verir, bu dəstəyin nəticəsində bütün islahatları aparmaq daha asan olacaqdır. Həm siyasi islahatların aparılması, demokratik prosesin təkmilləşdirilməsi davam etdirilməlidir, həm də biz iqtisadi sahədə əldə olunmuş uğurlarla kifayətlənməməliyik. Baxmayaraq ki, bu gün dünya Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıyır, biz gələcəyə yenə də eyni fəallıqla yanaşmalıyıq. Gələcək işlərimizi elə qurmalıyıq ki, Azərbaycanın hərtərəfli, dayanıqlı, uzunmüddətli inkişafı davam etsin.

Bu gün bizimlə bərabər bu bayram şənliklərində YUNESKO-nun Baş direktoru Koişiro Matsuura iştirak edir. Mən onu səmimiyyətlə salamlayıram. Qeyd etmək istəyirəm ki, cənab Matsuura Azərbaycanın dostudur, ölkəmizdə dəfələrlə olmuşdur və Azərbaycanda, Bakıda bir neçə mədəniyyət ocağının təməlinin qoyulması mərasimlərində iştirak etmişdir.

Bu gün biz yenə də təzə muzeyin açılışında birlikdə olacağıq. YUNESKO ilə Azərbaycan arasında əlaqələr çox yaxşıdır, çox işgüzardır. Bu əlaqələr, ilk növbədə, bizə imkan verir ki, öz mədəniyyətimizi, öz zəngin tarixi irsimizi dünyaya çatdıraq, özümüzü tanıtdıraq. Eyni zamanda, icra olunan birgə layihələr, birgə proqramlar Azərbaycanda mədəni irsin qorunması, elmin, təhsilin inkişafı, təkmilləşməsi sahəsində əlavə işlərin görülməsi üçün də çox vacibdir.

Mən bu gözəl bayram günündə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik və cansağlığı arzulayıram.

Bayramınız mübarək olsun!

* * *

*Sonra prezident İlham Əliyev İçərişəhərdə keçirilən novruz şənliklərində də iştirak etdi. Şənliyə toplaşanlar dövlətimizin başçısını hərarətlə salamladılar. İncəsənət ustaları, bədii özfəaliyyət kollektivləri xalqımızın adət-ənənələrini, qədim el sənətlərini nümayiş etdirdilər, «Kosa və Keçəl» tamaşasını göstərdilər, rəngarəng konsert proqramı ilə çıxış etdilər. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Şənlik iştirakçıları qədim xalq mahnılarını, aşıq havalarını və muğam dəstgahlarını ifa edir, milli musiqinin sədaları altında rəqs edirdilər.*

*Novruz şənliklərinin əsas personajları olan Kosa və Keçəl prezident İlham Əliyevlə və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə yumurta döyüşdürdülər.*

*Dövlətimizin başçısı şənliyə toplaşanlarla səmimiyyətlə görüşərək hal-əhval tutdu, onları bayram münasibətilə təbrik etdi.*

*Dünya memarlığının gözəl nümunələrindən olan qədim Qız qalası ətrafında folklor və rəqs qruplarının çıxışı da maraqla qarşılandı. Burada Azərbaycanın qədim el sənətləri nümunələrindən ibarət sərgi də açılmışdı.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura sərgiyə çıxarılmış və Azərbaycan xalqının milli varlığını, ulu baba və nənələrimizin mənəvi aləminin zənginliyini, sənətkarlığın ən incə çalarlarını nümayiş etdirən xalı-xalçalara, kilimlərə, geyim dəstlərinə, müxtəlif sənətkarlıq nümunələrinə baxdılar.*

*Dövlətimizin başçısına, Mehriban xanıma, Leylaya və Koişiro Matsuuraya milli hədiyyələr təqdim olundu.*

*Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

## MÜASİR İNCƏSƏNƏT MUZEYİNİN AÇILIŞI

*20 mart 2009-cu il*

*Martın 20-də Azərbaycan paytaxtında Müasir İncəsənət Muzeyinin açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*YUNESKO-nun Baş direktoru Koişiro Matsuura və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da mərasimdə iştirak edirdilər.*

*Prezident İlham Əliyev, Koişiro Matsuura və Mehriban xanım Əliyeva muzeyin açılışını bildirən rəmzi qırmızı lenti kəsdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev və Koişiro Matsuura YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etdilər.*

*Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işi toplanmışdır. Buraya gələnlər Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltəraşların işləri ilə tanış ola biləcəklər. Qərbi Avropa incəsənəti salonunda isə ümummilli lider Heydər Əliyevə, habelə prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir.*

*Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan yeni mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərəcəkdir.*

*Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev və YUNESKO-nun Baş direktoru Koişiro Matsuura çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, sizin hamınızı bu gözəl Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək, hər birinizə və bütün Azərbaycan xalqına xoşbəxtlik və əmin-amanlıq arzulamaq istəyirəm.

Novruz bayramı xalqımızın qəlbində daim yaşamışdır və bu gün Azərbaycanda çox geniş qeyd olunur. Bir həftədən çox istirahət günləri əminəm ki, hər bir Azərbaycan vətəndaşı üçün xoş keçəcəkdir.

Bu bayram günündə Azərbaycanın mədəni həyatında çox əlamətdar tarixi bir hadisə baş verir. Bu gün biz Azərbaycanda Müasir İncəsənət Muzeyinin açılışını qeyd edirik. Həqiqətən, çox böyük və əlamətdar hadisədir. Burada qeyd edildi ki, bəlkə də ilk dəfə olaraq, Azərbaycanın görkəmli, tanınmış, bəzən unudulmuş rəssamlarının gözəl əsərləri zövqlə yaradılmış bu muzeydə nümayiş etdirilir. Hesab edirəm ki, bu, tarixi ədalətin bərpasıdır. Hər bir rəssamın əsəri onun üçün əzizdir və hər bir rəssamın əsəri ancaq haradasa nümayiş etdiriləndə yaşayır. Əlbəttə ki, şəxsi kolleksiyalar da var, müxtəlif digər formatlar mövcuddur. Ancaq mən hesab edirəm və yəqin rəssamlar mənimlə razılaşarlar, o əsərlər ki, nümayiş etdirilir, insanların diqqətinə təqdim olunur, o əsərlər yaşayır və əsərlər yaşadıqca, rəssamlar da yaşayır və əbədiləşdirilir. Azərbaycanın çox zəngin rəssamlıq məktəbi var və artıq bunu dünyada kifayət qədər bilirlər.

Əvvəllər, biz Sovet İttifaqının tərkibində yaşayanda Azərbaycan rəssamlarının əsərləri ümumi Sovet İttifaqının rəssamlıq məktəbinin məhsulları kimi qəbul edilirdi. Bu gün isə həm həyatda olmayanların əsərləri ilə fəxr etmək olar, həm də bu gün bizimlə olan rəssamlar və xüsusilə gənc nəslin

nümayəndələri öz əsərləri ilə, Azərbaycan xalqı isə öz rəssamlıq məktəbi ilə fəxr edə bilər. Bu muzeyin xüsusiyyətləri çoxdur. Yenə də demək istəyirəm ki, burada nümayiş etdirilən əsərlərin böyük əksəriyyəti ya evlərdə saxlanılırdı, ya anbarlarda, yaxud da haradasa yararsız yerlərdə saxlanılırdı. İndi bu əsərlərin burada nümayiş etdirilməsi, əslində onlara yeni həyat verir. Əminəm ki, əsərlərin müəlliflərinə yeni qüvvə verir, ruh yüksəkliyi, inam verir. Eyni zamanda, Azərbaycan vətəndaşları üçün gözəl imkanlar yaranır ki, onlar Azərbaycanın rəssamlıq məktəbinin nümayəndələrinin nə qədər yüksək peşəkarlığa, zövqə malik olduqlarını öz gözləri ilə burada görsünlər.

Şübhə etmirəm ki, muzeyə maraq getdikcə daha da artacaqdır. Kənardan baxanda yəqin heç kim təsəvvür edə bilməzdi ki, bu müasir binanın birinci və ikinci mərtəbələrində muzey yaradılır. Adətən, gözəl binaların birinci, ikinci mərtəbələrində ya kommersiya müəssisələri, ya restoranlar, ya dükanlar yerləşir, yaxud da daha çox biznesyönümlü məsələlər həll olunur, bu da yəqin ki, zəmanənin əlamətidir. Hesab edirəm ki, bu muzeyin belə böyük bir sahədə yaradılması Azərbaycanda yeni ənənənin təməlini qoyacaq və mən bütün imkanlı adamları bir daha Azərbaycanın mədəni irsinin qorunmasına, zəngin mədəniyyətinin inkişafına çağırıram. Azərbaycan dövləti bundan sonra da mədəniyyət ocaqlarının inkişafına, onların bərpasına, qorunmasına və təbliğinə böyük maliyyə, siyasi və inzibati dəstəyini verəcək və mən ümid etmək istəyirəm ki, bu ənənə yaşayacaqdır.

Mən bu gün bizim dostumuz cənab Matsuuranın Azərbaycana olan münasibətini xüsusilə qeyd etmək istəyirəm. Cənab Matsuura Azərbaycanın böyük dostudur və hər dəfə ölkəmizdə olanda biz birlikdə ölkəmiz üçün mühüm olan hansısa mədəni ocağın ya açılışında, ya da təməlinin qoyulmasında iştirak edirik. Əvvəlki illərdə də belə olub və bu gün də mən çox şadam ki, bu bayram günündə cənab Matsuura bizimlə bərabərdir və birlikdə bu gözəl muzeyin açılışını qeyd edirik.

Mən bütün Azərbaycan rəssamlarına, mədəniyyət xadimlərinə uğurlar arzulayıram. Biz onlardan yeni əsərlər gözləyirik. Bu fürsətdən istifadə edib, hamınızı həm muzeyin açılışı münasibətilə, həm də bizim üçün ən əziz, doğma olan Novruz bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

**YUNESKO-nun Baş direktoru**
**Koişiro Matsuuranın çıxışı**

Cənab Azərbaycan Respublikasının Prezidenti!

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva!

Xanımlar və cənablar!

Bu gün, Novruz bayramında Bakı Müasir İncəsənət Muzeyinin açılış mərasimində sizinlə birlikdə olmağımdan çox məmnunam.

Cənab Prezident, icazə verin, ötən ilin payızında yenidən prezident seçilməyiniz münasibətilə Sizi təbrik edim. Mən təbrikimi Sizə bildirmişdim, lakin bunu Sizin qarşınızda çıxışımda bir daha təkrarlayıram. Əminəm ki, Siz ölkənin inkişaf etdirilməsi sahəsində göstərdiyiniz məharəti, bacarığı ikinci mandatınız dövründə daha da gücləndirəcəksiniz. Hazırda, dünyada böhran vəziyyətinin olduğu şəraitdə bu cür keyfiyyətlər çox vacibdir. Bu, imkan verəcək ki, biz Azərbaycanla YUNESKO arasında olan gözəl əməkdaşlığı daha da gücləndirək. Xüsusilə də təhsil və mədəniyyət sahəsində. Çünki bu bizim, hər iki tərəfin ən üstün prioritetləridir. Azərbaycan və YUNESKO təhsil və mədəniyyət sahələrində gözəl əməkdaşlıq edir.

Mən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya öz dərin minnətdarlığımı bildirirəm. Xanım Əliyeva Azərbaycanın Milli Məclisinin hörmətli deputatıdır və YUNESKO-nun Xoşməramlı səfiridir. 2004-cü ildən etibarən Siz Azərbaycan ilə YUNESKO arasında ikitərəfli əməkdaşlığın qurulması

sahəsində böyük nailiyyətin əldə edilməsində mühüm rol oynamısınız. Siz həm də mədəni irsin qorunması, xüsusən də şifahi mədəni irsin, nəinki Azərbaycanın, o cümlədən dünyanın digər yerlərində mədəni irsin qorunması işində çox mühüm tərəfdaş olmusunuz. Buna görə də mən xanım Mehriban Əliyevaya minnətdaram.

Mən eyni zamanda, muzeyin qalereyasında nümayiş etdirilmək üçün 800-dən artıq incəsənət əsərinin və heykəltəraşlıq nümunələrinin seçilməsi və qorunması kimi mürəkkəb işin öhdəsindən gələn hörmətli Altay Sadıqzadəni, tanınmış rəssamı təbrik etmək istəyirəm. O bu işin öhdəsindən ustalıqla gəlmişdir.

Məmnunluqla demək istəyirəm ki, bu gün bizim aramızda çoxlu Azərbaycan rəssamları var. Biz burada çox tanınmış rəssam Səttar Bəhlulzadənin işlərini də gördük. YUNESKO bu il onun anadan olmasının ildönümünü rəsmi şəkildə qeyd edəcək və bundan fərəh hissi duyur.

Müasir incəsənətə aid olan belə əsərlərin burada nümayiş olunması ilə yanaşı, YUNESKO-nun ideallarının bütün dünyada təşviq olunmasında muzeylərin oynadığı mühüm rolu bir daha vurğulayaq. Bunlar bizim üçün çox vacibdir və xanım Əliyevanın çıxışında qeyd edildi. Hesab edirik ki, bu cür işlər hazırkı sürətli dəyişiklik, kütləvi miqrasiya və iqtisadi böhran şəraitində xüsusi əhəmiyyət daşıyır.

Cənab Prezident!

Hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Mən yekunda Bakının mədəni ab-havasını bu cür muzeylə, Müasir İncəsənət Muzeyinin açılışı ilə daha da zənginləşdirən bu tədbir münasibətilə Azərbaycan hökumətinə, hörmətli cənab Prezidentə, Azərbaycan xalqına bir daha təbriklərimi çatdırıram. Əminəm ki, biz bəşəriyyətin bu cür ən mühüm resurslarının təşviqinə nail olacağıq.

Çox sağ olun.

* * *

**F ə r h a d  X ə l i l o v** (*Rəssamlar İttifaqının sədri*): – Hörmətli cənab Prezident!

Azərbaycanın birinci xanımı hörmətli Mehriban Əliyeva!

Azərbaycanın böyük dostu cənab Matsuura!

Əziz dostlar!

Bu gün Azərbaycanın ən sevimli bayramını qeyd edirik və mən bütün Azərbaycan rəssamları adından hamınızı bu gözəl bayram münasibətilə təbrik edirəm. Amma Azərbaycan rəssamları bu günlər ikiqat bayram keçirir. Azərbaycanda elə bir mühit yaranıb ki, mədəniyyətə böyük qayğı, diqqət göstərilir. Çox vaxt bunlardan danışanda bizə inanmırlar.

Cənab Prezident, mən Mehriban xanıma bu böyük təşəbbüsünə görə dərin təşəkkürümü bildirirəm. Burada çox böyük, maraqlı bir əsər yaranıb. Muzeyin interyeri özlüyündə bir əsərdir. Mən burada Azərbaycanın çox gözəl rəssamı Altay Sadıqzadəni mütləq qeyd etməliyəm. Ona görə ki, o, bu bir ilin ərzində burada böyük iş görübdür. Mən bunun şahidi olmuşam, görmüşəm ki, nə qədər əziyyət çəkibdir. Bunu da açıq deməliyəm ki, o, Azərbaycanın ən tanınmış və ən dəyərli rəssamlarındandır. Azərbaycan rəssamlarının buradakı əsərləri ilk dəfədir layiqincə göstərilir, nümayiş olunur. Onların arasında elə rəssamlar var ki, sovet dövründə heç vaxt sərgi üzünü görməyibdir. Burada dahi Əşrəf Murad var, tam məsuliyyətlə deyirəm ki, onun əsərləri dünyanın hər bir muzeyində asıla bilər. Yenə demək istəyirəm, bu muzeyin mühüm cəhəti odur ki, buradakı bir çox əsərləri tamaşaçı ilk dəfə görür.

## BAKIDA «MUĞAM ALƏMİ» BEYNƏLXALQ FESTİVALININ RƏSMİ AÇILIŞI

*20 mart 2009-cu il*

*Martın 20-də Beynəlxalq Muğam Mərkəzində «Muğam aləmi» Beynəlxalq festivalının rəsmi açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla, YUNESKO-nun Baş direktoru Koişiro Matsuura, habelə dünyanın 17 ölkəsindən festivala gəlmiş çoxsaylı qonaqlar mərasimdə iştirak etmişlər.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülür. Azərbaycan muğamının YUNESKO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması da bilavasitə bunun nəticəsidir.*

*YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanımın təşəbbüsü ilə keçirilən Beynəlxalq Muğam Festivalı da Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması, təbliği və sevilməsi istiqamətində mühüm tədbirlərdən biridir. Festivalın təşkilatçıları Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqıdır. Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Mədəniyyətinin Dostları Fondu festivala dəstək verir. Beynəlxalq festivalın prezidenti Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.*

*Martın 25-dək davam edəcək «Muğam aləmi» festivalında Azərbaycan ilə yanaşı, ABŞ, Fransa, İtaliya, Almaniya, Suriya, İraq, Mərakeş, Özbəkistan, İran, Misir, Hindistan və digər ölkələr də təmsil olunur. Festival çərçivəsində elmi simpozium*

*keçirilmişdir. Bundan başqa, muğam ifaçılarının beynəlxalq müsabiqəsi keçiriləcək, müxtəlif konsertlər də təşkil ediləcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, YUNESKO-nun Baş direktoru Koişiro Matsuura və digər qonaqlar Mərkəzdə təşkil edilmiş qədim musiqi alətləri sərgisi ilə tanış oldular. Burada Beynəlxalq Muğam Festivalında iştirak edən ölkələrin musiqi alətləri nümayiş etdirilir ki, bu da həmin ölkələrin mədəniyyəti, o cümlədən muğam sənəti barədə geniş təsəvvür yaratmağa imkan verir.*

*Sonra festivalın rəsmi açılış mərasimi oldu. Salona toplaşanlar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik və cansağlığı arzulayıram.

Bu gözəl bayram günündə biz Azərbaycanda muğam festivalının açılışında bərabər iştirak edirik. Çox əlamətdar hadisədir, demək olar ki, Azərbaycanda bu günlərdə muğam həftəsi yaşanır. İki gün bundan əvvəl muğam üzrə elmi simpozium öz işinə başlamışdır, bu gün muğam festivalının açılışıdır. Azərbaycanda Beynəlxalq muğam müsabiqəsi də keçiriləcəkdir. Müxtəlif ölkələrdən gəlmiş çoxsaylı qonaqları səmimiyyətlə salamlayıram və əminəm ki, həm elmi simpoziumda, həm də müsabiqədə, festivalda bizim qonaqlarımız öz istedadlarını, öz məharətlərini göstərəcəklər.

Muğam Azərbaycanın milli sərvətidir. Azərbaycan xalqı əsrlər boyu bu gözəl sənəti öz həyatında uca tutmuşdur, öz qəlbində saxlamışdır. Nəsildən-nəslə keçən muğam sənəti bu gün də Azərbaycanda yaşayır, qorunur, inkişaf edir. Bizim görkəmli muğam ustalarımız öz məharətlərini, biliklərini gənc

nəslə ötürürlər. Azərbaycanda ənənəvi olaraq keçirilən muğam müsabiqələri də bu işdə çox mühüm rol oynayır. Azərbaycanı muğamsız və muğamı Azərbaycansız təsəvvür etmək mümkün deyildir. Təsadüfi deyil ki, birinci Beynəlxalq Muğam Festivalı məhz Azərbaycanda, bu gözəl Muğam Mərkəzində keçirilir. Bu, Muğam Mərkəzində keçirilən ilk beynəlxalq tədbirdir. Əminəm ki, milli üslubda tikilən bu möhtəşəm sənət məbədi uzun illər muğamsevərləri sevindirəcək, sözün əsl mənasında, muğam evinə çevriləcək. Bu festivalın və Azərbaycanda keçirilən muğam həftəsinin timsalında görürük ki, muğam insanları, xalqları birləşdirir. 17 ölkədən gəlmiş 150-dən çox qonaq bu tədbirlərdə fəal iştirak edəcəkdir. Muğam məhəbbət, dostluq, qardaşlıq sənətidir. Ümid edirəm ki, bu günlərdə qoyulan yeni ənənə yaşayacaq və Azərbaycanda muğam festivallarının keçirilməsi ənənəyə çevriləcəkdir.

Bu binanın tarixini siz yaxşı bilirsiniz, Muğam Mərkəzinin yaradılması ilə əlaqədar qərar veriləndə şəhərin ən gözəl yeri seçilməliydi. Dənizkənarı bulvar isə Bakının belə yerlərindən biridir və məhz burada Muğam Mərkəzi tikilməliydi.

Bu gün bizimlə bərabər bu tədbirdə YUNESKO-nun Baş direktoru cənab Matsuura iştirak edir. Qeyd etmək istəyirəm ki, məhz cənab Matsuuranın iştirakı ilə 2005-ci ildə bu binanın təməli qoyulmuşdur və mən o günü çox yaxşı xatırlayıram. O gözəl gündə bizim görkəmli incəsənət xadimlərimiz iştirak edirdi. Biz birlikdə təməl daşını qoyduq və indi bu möhtəşəm tədbirdə iştirak edirik. Ondan sonra, 2008-ci ildə cənab Matsuura Bakıda olarkən tikinti ilə tanış oldu və yenə də biz birlikdə Muğam Mərkəzinin yanında yerləşəcək yeni, müasir Xalça Muzeyinin təməlini qoyduq və artıq tikinti başlanmışdır. Ümid edirəm ki, yaxın zamanlarda Azərbaycanda Bakı şəhərinin yaraşığı ola biləcək müasir Xalça Muzeyi tikilib istifadəyə veriləcəkdir.

Bu gün biz bütün günü birlikdəyik. Cənab Matsuura Azərbaycanda əziz qonaqdır, Azərbaycanın böyük dostudur, YUNESKO ilə Azərbaycan arasında əlaqələrin inkişafında onun

çox böyük rolu var. Bu gün biz Novruz bayramı şənliklərində bərabər iştirak etmişik. Onu da vurğulamaq istəyirəm ki, bu gün Azərbaycanın mədəni həyatında çox əlamətdar və tarixi hadisə baş vermişdir. Azərbaycanda yeni, çox gözəl Müasir İncəsənət Muzeyi açılmışdır və o muzeydə bizim görkəmli rəssamlarımızın əsərləri nümayiş etdirilir. O əsərlər ki, onlar illərlə hansısa anbarlarda, yaxud da ki, evlərdə, yararsız yerlərdə saxlanılırdı. İndi bu əsərlərə yeni həyat verilib və Müasir İncəsənət Muzeyi də öz zövqlü tərtibatı ilə fərqlənir. Əminəm ki, müasir üslubda, dizaynda yaradılmış, eyni zamanda, böyük milli məna daşıyan muzey Bakı sakinlərinin diqqətini cəlb edəcəkdir.

Muğam Mərkəzi də eyni üslubdadır – müasirlik, yenilik və eyni zamanda, milli dəyərlərə münasibət, milli köklərə bağlılıq üslubunda. Əslində bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir və çox aydındır. Biz köklü əsaslar üzərində – tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü, dünyəvi, qüdrətli Azərbaycan qururuq və bu işdə artıq böyük nailiyyətlərə çatmışıq. Azərbaycan inkişaf edir, Azərbaycan çiçəklənir, iqtisadi, siyasi islahatlarla yanaşı, mədəniyyətlə bağlı məsələlərə də çox böyük diqqət göstərilir. İndiki böhranlı günlərdə mədəniyyət sahəsinə vəsaitin ayrılması və onun prioritet kimi, dövlətin diqqət mərkəzində qalması çox şey deyir, çox şey ifadə edir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Azərbaycanın bu dəyərlərinin qorunub saxlanması üçün, gələcək nəsillərə etibar olunması və inkişaf etdirilməsi üçün, əlbəttə ki, öz potensialımızı biz hərtərəfli gücləndirməliyik. Güclü iqtisadiyyat, güclü sosial siyasət, zəngin tarixi irsimizə bağlılığımız və müasir dünyada ən yüksək standartlara çatmağımız – mən hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı bu fikirləri bölüşür.

Əziz dostlar, əziz qonaqlar, mən sizi bu gözəl bayramlar münasibətilə bir daha təbrik etmək istəyirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın çıxışı

Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli birinci xanım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə Novruz bayramı münasibətilə Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaq istəyirəm. Novruz bayramınız mübarək!

Prezident Əliyev və birinci xanım Əliyeva ilə bərabər sizinlə birlikdə Beynəlxalq Muğam Festivalının açılış mərasimində iştirak etmək mənim üçün böyük şərəfdir. Bu açılış mərasimi Novruz bayramı ilə üst-üstə düşür. Buraya gələndə ilk səfərim yadıma düşür. Prezident Əliyevin qeyd etdiyi kimi, mən buraya 2005-ci ildə səfər etmişəm. O vaxt biz prezident Əliyev və birinci xanım Əliyeva ilə birlikdə Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etdik. Ondan sonra mən buraya bir daha səfər etdim, tikinti işləri ilə tanış oldum. O vaxt interyer işləri tamamlanmamışdı. İndi görürəm ki, işlərin hamısı başa çatdırılmışdır.

Azərbaycana səfərlərim zamanı mən bir daha şahid oldum ki, prezident Əliyev və xanım Əliyeva qeyri-maddi mədəni irsin qorunmasına xüsusi diqqət yetirirlər. Azərbaycan xalqının mənəvi dəyərlərinin yaşamasına böyük qayğı göstərirlər. Mən buna görə prezident Əliyevə və birinci xanım Əliyevaya öz dərin minnətdarlığımı bildirirəm. Mən ölkənizə hər səfərimdə sizin zəngin mədəniyyətinizin şahidi olmuşam, burada musiqinizi dinləmişəm, rəqslərinizi görmüşəm. Bütün bunlar qeyri-maddi mədəni irsin tərkib hissələridir.

Hörmətli prezident Əliyev!

Hörmətli xanım Əliyeva!

Hörmətli dostlar, xanımlar və cənablar!

2003-cü ildə Azərbaycan muğamı YUNESKO tərəfindən bəşəriyyətin dəyəri kimi elan edilmiş və ümumi mədəni irs

siyahısına salınmışdır. 2006-cı ildə YUNESKO qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyanı qəbul etdikdən sonra bu sahədə ölkəniz bir çox səylər göstərmişdir.

Mən çox şadam ki, Azərbaycan özünün zəngin mədəni irsinin qorunması istiqamətində aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunduğu şah əsərlərin siyahısına daxil olunmasını təklif etmişdir. Mən bununla bağlı bildirmək istəyirəm ki, YUNESKO-nun qeyri-maddi mədəni irs Komitəsinin 2009-cu ilin sentyabrında Əbu-Dabidə keçiriləcək iclasında bu təklifə baxılacaqdır. Ümidvaram ki, Azərbaycan bu sahədə uğura nail olacaqdır.

Azərbaycan Qırğızıstan, Pakistan, Türkiyə, Hindistan və Özbəkistan kimi, Novruz bayramını qeyd edir. Bahar bayramı bu xalqların, ölkələrin mədəniyyətinin vacib bir hissəsi hesab olunur və bu bayram hazırda ekspertlər tərəfindən öyrənilməkdədir.

Xanımlar və cənablar!

YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyası bizim bu sahədə gördüyümüz işi özündə əks etdirir. Bildirmək istəyirəm ki, bu cür mühüm Konvensiya YUNESKO-ya üzv olan bir çox ölkələr tərəfindən ratifikasiya ediləndən sonra ölkələr arasında bu sahədə dialoqu daha da gücləndirəcək, qeyri-maddi mədəni irsin qorunmasında səyləri birləşdirəcək və sərhədləri siləcəkdir. Ona görə də beynəlxalq ictimaiyyət arzulayır ki, bu sahədə səylər birləşdirilsin və bütün ölkələr davamlı şəkildə birgə işləsinlər. Bütün bəşəri mədəni irsin qorunması, mədəniyyətin müxtəlifliyinin mühafizəsi üçün çalışsınlar. Bu baxımdan bizim təşkilat bu ölkələrin, o cümlədən sizin ölkənizin dəyərli səylərini alqışlayır və istəyir ki, nəinki gənc muğam istedadlarının, digər incəsənət nümayəndələrinin də işinin, fəaliyyətinin daha da yaxşı şəkildə təşviq olunması üçün əlavə işlər görülsün. Bu baxımdan təşkilatımız öz yardımını göstərməyə hazırdır.

Mən bu Mərkəzin yaradılmasında zəhməti olan bütün şəxslərə öz minnətdarlığımı bildirirəm. Sizi festivalın açılışı münasibətilə bir daha təbrik edirəm.

* * *

*Sonra gənc muğam ifaçıları konsert proqramı ilə çıxış etdilər. Konsertin gedişində Xalq şairi Bəxtiyar Vahabzadənin «Muğam» poemasından parçalar səsləndi.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Byutt şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində insan tələfatı xəbərindən olduqca kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Amerika xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 mart 2009-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli milli təhlükəsizlik orqanlarının əməkdaşları və veteranları!

Sizi Azərbaycanın milli təhlükəsizlik orqanlarının yaradılmasının 90 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Dövlətçiliyimizin əsas dayaqlarından biri olan Milli Təhlükəsizlik Nazirliyi 90 illik mürəkkəb və şərəfli inkişaf yolu keçmişdir. 1919-cu il martın 28-də Azərbaycan Demokratik Respublikasının kəşfiyyat və əks-kəşfiyyat qurumu kimi yaradılan xüsusi bölmə öz fəaliyyətinə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və azərbaycanlılara qarşı soyqırımı siyasətinin, ölkə daxilində müxtəlif təxribatların qarşısının alınması ilə başladı. Sonrakı dövrdə Sovet İttifaqının dövlət siyasətini həyata keçirən təhlükəsizlik orqanları milli dəyərlərə və bu dəyərləri daşıyan insanlara qarşı repressiv qurum kimi çıxış etdi.

Ümummilli liderimiz Heydər Əliyev təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrdə xüsusi xidmət orqanlarının Azərbaycanın gələcəyinə hesablanmış milli təməllər üzərində formalaşdırılması, xalqımızın milli maraqlarının qorunması və özünüdərkinin dirçəldilməsi məqsədi ilə bir sıra mühüm tədbirlər həyata keçirdi.

1991-ci ildə dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Ermənistanın hərbi təcavüzü, separatizm və dövlətçiliyin itirilməsi təhlükəsi ilə, dərin siyasi-iqtisadi böhranla, qanunsuz silahlı dəstələrin və cinayətkar qrupların tüğyan etməsi ilə, ölkəyə rəhbərlik edən şəxslərin səriştəsizliyinin doğurduğu problemlərlə üzləşdi. Məhz belə ağır şəraitdə

xalqın təkidi ilə siyasi rəhbərliyə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəni vətəndaş müharibəsindən xilas etdi, qanunçuluğun və ictimai-siyasi sabitliyin bərpasına nail oldu, demokratik, hüquqi dövlətin möhkəm bünövrəsini qoydu.

Milli maraqların qorunmasında təhlükəsizlik orqanlarının əhəmiyyətini nəzərə alaraq, onların fəaliyyətinə daim xüsusi diqqət və qayğı ilə yanaşan ulu öndərimiz müstəqil Azərbaycanın milli təhlükəsizlik siyasətinin əsas prioritetlərini müəyyən etdi, xüsusi xidmət orqanlarının fəaliyyətində köklü islahatlar həyata keçirdi, kadr potensialının daim yeniləşdirilməsi və gücləndirilməsi üçün Milli Təhlükəsizlik Akademiyasını təsis etdi.

Bu gün təhlükəsizlik orqanları Azərbaycanın siyasi-iqtisadi maraqlarının təmin olunmasında, konstitusiya quruluşunun qorunmasında, kəşfiyyat və əks-kəşfiyyat, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Xarici xüsusi xidmət orqanlarının və ayrı-ayrı şəxslərin Azərbaycanın həyati maraqlarına qarşı yönəlmiş destruktiv fəaliyyətinin qarşısının alınması, ölkəmizin daxili və xarici siyasətini həyata keçirmək üçün əlverişli şərait yaradılması məqsədi ilə təhlükəsizlik orqanlarının gördükləri tədbirlər, qlobal informasiya məkanında erməni təcavüzünə qarşı apardıqları işlər, terrorçuluqla, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə daha səmərəli və sistemli xarakter almışdır.

Qloballaşma proseslərinin ümumi sülh və təhlükəsizlik üçün doğurduğu təhlükələr milli təhlükəsizlik orqanları qarşısında Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini və demokratik sabitliyi təmin etmək, terrorçuluğa, dini ekstremizmə və separatçılığa qarşı mübarizə sahəsində fəaliyyəti daha səmərəli şəkildə təşkil etmək kimi mühüm vəzifələr qoyur.

XXI əsrin çağırışlarına vaxtında və effektiv cavab vermək məqsədi ilə Milli Təhlükəsizlik Nazirliyinin maddi-texniki bazasının müasirləşdirilməsi, əməkdaşların sosial müdafiəsinin

gücləndirilməsi, onların peşəkarlığının artırılması üçün xeyli iş görülmüşdür və dövlətin xüsusi xidmət orqanlarına qayğısı bundan sonra da davam edəcəkdir. Bu isə öz növbəsində milli təhlükəsizlik orqanlarının məsuliyyətini daha da artırır.

Əminəm ki, təhlükəsizlik orqanları bütün vəzifələrin öhdəsindən layiqincə gələcək, milli dövlətçilik ruhunda tərbiyə edilən zabitlərimiz vətənimizə hədsiz sədaqət, vətənpərvərlik, igidlik nümayiş etdirəcəklər.

Sizi bir daha 90 illik yubileyiniz münasibətilə təbrik edir, dövlətimizin təhlükəsizliyinin təmin olunması və qüdrətlənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 mart 2009-cu il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ**

Hörmətli xanım Prezident!

Argentinanın keçmiş prezidenti, görkəmli dövlət xadimi Raul Rikardo Alfonsin Fulkesin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, mərhumun ailəsinə və bütün Argentina xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 aprel 2009-cu il*

## XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Xəzəryanı dövlətlərin Nəqliyyat nazirlərinin birinci görüşündə iştirak edən Rusiya Federasiyasının Nəqliyyat naziri İqor Levitini, Qazaxıstan Respublikasının Nəqliyyat və Kommunikasiya naziri Əbilqazi Kusainovu və Türkmənistanın Dəmiryol Nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquliyevi qəbul etmişdir.*

*Rusiya Federasiyasının Nəqliyyat naziri Bakıda Xəzəryanı dövlətlərin Nəqliyyat nazirlərinin birinci görüşünün yüksək səviyyədə təşkil edildiyini bildirdi, Azərbaycana sonuncu səfərindən ötən dövr ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu xüsusi vurğuladı.*

*Xəzəryanı dövlətlərin nəqliyyat nazirlərinin ilk görüşünün Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayan prezident İlham Əliyev nəqliyyat sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu, bu sahədə ölkəmizdə mühüm infrastruktur layihələrinin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı bu tədbirin Xəzəryanı ölkələrin əməkdaşlığının daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini söylədi.*

# MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARININ 90 İLLİK YUBİLEYİ İLƏ BAĞLI BAKIYA GƏLƏN XARİCİ ÖLKƏLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARININ YÜKSƏK VƏZİFƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də milli təhlükəsizlik orqanlarının 90 illik yubileyi ilə bağlı keçirilən mərasimdə iştirak etmək üçün Bakıya gələn xarici ölkələrin xüsusi xidmət orqanlarının yüksək vəzifəli nümayəndələrini qəbul etmişdir.*

**İlham Əliyev**: Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Bu gün Azərbaycanda təhlükəsizlik orqanlarının 90 illik yubileyi qeyd olunur. Çox gözəl tarixdir və müstəqil ölkə kimi, Azərbaycanın hərtərəfli uğurlu inkişafında təhlükəsizlik orqanlarının çox böyük rolu vardır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təhlükəsizlik orqanlarının formalaşmasında çox böyük rolu olmuşdur. Yəqin ki, siz bilirsiniz, onun həyatının böyük bir hissəsi təhlükəsizlik orqanları ilə bağlı olmuşdur və ən kiçik vəzifədən ən yüksək vəzifəyə – general rütbəsinə yüksəlmişdir. Müstəqillik əldə etdikdən sonra ölkədə gedən xoşagəlməz proseslər, daxili qarşıdurma, vətəndaş müharibəsi və bütövlükdə Azərbaycanın müstəqil ölkə kimi yaşaması məsələləri bütün xalqı düşündürürdü və Azərbaycan xalqı çox böyük nigarançılıq içində yaşayırdı. Ölkəmiz üçün bu mühüm tarixi məqamda yenə

də Heydər Əliyevin Azərbaycanın – müstəqil ölkəmizin rəhbərliyinə gəlməsi və aparılan siyasi və iqtisadi islahatlar respublikamızı o çətin vəziyyətdən çıxartdı. Bu gün Azərbaycan ən uğurla və çox dinamik şəkildə inkişaf edən ölkədir.

Bir də onu demək istəyirəm ki – Azərbaycan xalqı bunu yaxşı bilir – əldə edilmiş bütün uğurların təməlində ölkədə 1993-cü ildən sonra yaradılmış daxili ictimai-siyasi sabitlik dayanmışdır. Bütün qanunsuz silahlı birləşmələr tərk-silah edildi, zərərsizləşdirildi. Cinayətkarlığa qarşı çox ciddi mübarizə aparıldı. Azərbaycanda daxili vəziyyətin sabitləşdirilməsi nəticəsində ölkəmizə çoxlu xarici və daxili investisiyalar qoyulmağa başlanmışdır. İqtisadi islahatlar, siyasi islahatlar aparılmağa başlanmışdır. Bu gün biz qürur hissi ilə deyə bilərik ki, müstəqil ölkə kimi, Azərbaycan dünyada öz yerini tuta bilmişdir, öz mövqelərini möhkəmləndirir, regionda və dünyada ölkəmizin müxtəlif sahələrdəki rolu artmaqdadır.

Əlbəttə, indi bütün bu tarixə nəzər salaraq bir daha görürük və yəqin heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafında təhlükəsizlik, sabitlik çox mühüm rol oynayır. O cümlədən Azərbaycanda. Sabitliyin, təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizənin düzgün və ciddi şəkildə aparılması hər bir ölkənin, o cümlədən Azərbaycanın inkişafına çox böyük töhfə verən amillərdir.

Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, Azərbaycan xalqı sülh şəraitində yaşasın, təhlükəsizlik şəraitində yaşasın, ictimai-siyasi vəziyyət həmişə olduğu kimi sabit qalsın, ictimai asayış pozulmasın və insanlar rahat yaşasınlar. Bu gün belədir və mən hesab edirəm ki, bu, ölkəmiz üçün böyük nailiyyətdir, böyük nəticədir. Biz əldə edilmiş uğurları bundan sonra daha da möhkəmləndirəcəyik.

İndi beynəlxalq əməkdaşlıq bütün sahələrdə mühüm rol oynayır. Dünyanı bürümüş iqtisadi və maliyyə böhranı həm də onu göstərir ki, bütün ölkələr bir-birinə nə qədər bağlıdır. Beynəlxalq cinayətkarlığa qarşı mübarizənin düzgün təşkil edilməsi üçün mütləq ciddi əlaqələndirmə işləri aparılmalıdır.

Region çərçivəsində və geniş mənada dünyada təhlükəsizlik orqanlarının əlaqələndirilmiş şəkildə fəaliyyətinin aparılması, əminəm ki, hər bir ölkənin daxili təhlükəsizliyinə müsbət təsir göstərəcəkdir.

Mən çox şadam ki, Azərbaycanın təhlükəsizlik orqanları, Milli Təhlükəsizlik Nazirliyi bu istiqamətdə çox vacib addımlar atmışdır. Beynəlxalq əməkdaşlığımız inkişaf edir, dost ölkələrlə informasiya mübadiləsi aparılır, bəzi hallarda birgə tədbirlər görülür və bu istiqamətdə beynəlxalq səviyyədə əməkdaşlıq daha da yüksək pilləyə qalxmışdır.

Dünyada müxtəlif vaxtlarda baş vermiş dəhşətli terror hadisələri göstərir ki, nə qədər güclü olmasına baxmayaraq, heç bir ölkə təkbaşına öz təhlükəsizliyini təmin edə bilməz. Terrorçuluğa, beynəlxalq cinayətkarlığa və digər xoşagəlməz hadisələrə ancaq o təqdirdə təsir etmək olar ki, bütün ölkələr bu işdə birgə fəaliyyət göstərsin. Beynəlxalq terrorçuluğa qarşı mübarizənin gücləndirilməsi ancaq bütün ölkələrin birgə səyləri nəticəsində baş verə bilər. İndi cinayətkarlığın yeni növləri üzə çıxır. Əfsuslar olsun ki, cinayətkar aləm də müəyyən dərəcədə elmi-texniki tərəqqinin imkanlarından istifadə edərək, cinayətkarlığın yeni üsullarını ortaya qoyur və biz buna hazır olmalıyıq. Ancaq biz birgə, əlaqələndirilmiş səylərlə, fikir mübadiləsi ilə, informasiya mübadiləsi yolu ilə və bəzi hallarda birgə keçirilən əməliyyatlar nəticəsində uğur qazana bilərik.

Azərbaycan bu istiqamətdə, beynəlxalq müstəvidə təhlükəsizliyin təmin olunması işinə öz töhfəsini verir, ölkə daxilində, demək olar, əksər ciddi cinayətlərin qarşısı alınır, yaxud da ki, baş vermiş cinayətləri törətmiş ünsürlər zərərsizləşdirilir, həbs edilir. Bu, Azərbaycanın təhlükəsizlik, bütövlükdə hüquq mühafizə orqanlarının səmərəli fəaliyyətinin nəticəsidir. Azərbaycan xalqı əmindir ki, onun təhlükəsizliyi lazımi şəkildə qorunur və xalqın rahat yaşaması üçün bütün şərait vardır.

Mən çox şadam ki, bu gün bizim yubiley tədbirlərimizə gələn qonaqlar Bakı ilə tanış olmaq imkanı əldə ediblər. Bildi-

yimə görə, bəzi qonaqlar Azərbaycana ilk dəfə səfər edirlər. Bu eyni zamanda, ölkəmizlə tanışlıq üçün çox yaxşı imkan yaradır. Bununla bərabər, mən əminəm ki, siz bu fürsətdən səmərəli şəkildə istifadə edəcək və azərbaycanlı həmkarlarınızla işgüzar qaydada fikir mübadiləsi aparacaqsınız.

Mən bir daha sizin hamınızı Azərbaycanda salamlayıram. Çox şadam ki, Azərbaycanın milli təhlükəsizlik orqanlarının yubileyinə müxtəlif ölkələrdən yüksək vəzifəli şəxslər gəlmişlər və bu bayram tədbirlərində bizimlə bərabər iştirak edəcəklər. Bu fürsətdən istifadə edərək, sizə işinizdə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox gözəl əməkdaşlığı vardır və bu əməkdaşlıq müxtəlif formatda – həm siyasi, həm iqtisadi sahədə, humanitar sahədə davam edir. Bir daha demək istəyirəm ki, xaricdən gələn qonaqların təmsil etdiyi ölkələrlə Azərbaycanın çox uğurlu, səmərəli əməkdaşlığı davam edir. Bu dostluq əlaqələrinin inkişaf etdirilməsi üçün mütləq bütün sahələrdə, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlıq daha da geniş olmalıdır.

Mən həm də istərdim ki, siz Bakıda olduğunuz zaman şəhərimizlə tanış olasınız və əminəm ki, vətəninizə xoş təəssüratlarla qayıdacaqsınız. Bir daha sizi salamlayıram. Azərbaycanın milli təhlükəsizlik orqanlarının bütün şəxsi heyətini bu gözəl yubiley münasibətilə təbrik etmək istəyirəm. Şəxsi heyətə işlərində uğurlar arzulayıram. Görülən işlərə Azərbaycan dövləti çox böyük qiymət verir. Mən Azərbaycanın hərtərəfli inkişafı üçün, təhlükəsizliyin təmin edilməsi üçün milli təhlükəsizlik orqanlarının fəaliyyətini yüksək qiymətləndirirəm. Əminəm ki, onlar gələcəkdə də Vətən uğrunda şərəfli işlərdə böyük fədakarlıqla çalışmaqda davam edəcəklər.

**Aleksandr Bortnikov** (*Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktoru, ordu generalı*): Cənab Prezident, əvvələn, icazə verin, dost Azərbaycana gəlmək və Azərbaycanın xüsusi xidmət orqanlarının yubiley şənliklərində iştirak etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü

bildirim. Bizim münasibətlərimizin dinamik inkişaf etdiyini vurğulamaq çox xoşdur. Uzun müddətdir ki, biz Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə səmərəli əməkdaşlıq edirik. Çox rəmzi haldır ki, bu yubileyin bayram edilməsi ilə əlaqədar təntənəli tədbirlər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin məzarının ziyarətindən başlanmışdır. Vaxtilə nəinki Azərbaycanın xüsusi xidmət orqanlarının və bütövlükdə Azərbaycan xalqının, həm də birlikdə yaşadığımız keçmiş böyük ölkəmizin təşəkkülü və inkişafı üçün çox böyük işlər görmüş bu insanı biz hamımız yüksək qiymətləndirir, ona ehtiram bəsləyirdik. Biz bu böyük insanı xatırlayırıq və onun xatirəsini əziz tuturuq. Əlbəttə, çox yaxşı haldır ki, ənənələrə ehtiram göstərilir və təhlükəsizlik orqanlarında işləməyə gələn xüsusi xidmət əməkdaşlarının gənc nəsli bu ənənələr əsasında tərbiyə edilir.

Siz çox düzgün vurğuladınız ki, bütün dünya birliyinin qlobal təhdid və təhlükələrlə üzləşdiyi dövrdə terrorizm böyük narahatlıq doğurur. Lakin biz hamımız çox yaxşı başa düşürük ki, yalnız birgə səylərlə, işimizi əlaqələndirməklə, bu terror həmlələrinə qarşı birgə mübarizə aparmaqla bu fəaliyyəti daha səmərəli və keyfiyyətli həyata keçirə bilərik.

Qeyd etmək lazımdır ki, Birlik ölkələrinin xüsusi xidmət orqanlarının çoxu MDB məkanında həm ikitərəfli əməkdaşlıq formatında, həm də çoxtərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırlar. Mən Birlik ölkələri təhlükəsizlik orqanları rəhbərləri Şurasının işini nəzərdə tuturam. Yeri gəlmişkən, Şuranın 26-cı müşavirəsi yaxın vaxtlarda – may ayında Minskdə keçirilməlidir. Biz həmin tədbirə çıxarılacaq məsələləri artıq Təhlükəsizlik naziri ilə müzakirə etmişik.

Bizim əməkdaşlığımızın geniş formatı təkcə bu salondakıların deyil, həm də bizim işlədiyimiz, ünsiyyətdə olduğumuz qurumların mənafelərini əhatə edir. Mən MDB ölkələrinin xüsusi xidmət orqanlarının İrkutskda keçiriləcək VIII beynəlxalq müşavirəsini nəzərdə tuturam. Həmin müşavirədə terrorizmə qarşı mübarizə məsələləri müzakirə olunacaqdır. Biz

bu müşavirəyə marağı olan bütün tərəfləri, o cümlədən bugünkü tədbirin iştirakçılarını həmin forumun işində fəal iştiraka dəvət etmişik.

Mən onu da xüsusi vurğulamaq istəyirəm ki, Federal Təhlükəsizlik Xidməti xətti ilə biz Milli Təhlükəsizlik Nazirliyi ilə çox fəal qarşılıqlı əlaqə saxlayırıq, bizim üçün ümumi maraq doğuran regionumuzda terrorçuların fəaliyyətinin lokallaşdırılması ilə bağlı konkret birgə tədbirlər həyata keçiririk.

Əməkdaşlığımızın üçüncü sahəsinə gəldikdə, əlbəttə, Xəzəryanı dövlətlərin regional təhlükəsizliyi çərçivəsində bu işin inkişaf etdirilməsinin zəruriliyini də vurğulamalıyıq. Biz bu məsələni müzakirə etmişik, birgə fəaliyyət planı nəzərdə tutmuşuq və mən tamamilə əminəm ki, bizim səmərəli qarşılıqlı fəaliyyətimiz üçün çox yaxşı perspektiv var.

Mən fürsətdən istifadə edib həmkarlarımızı yubiley münasibətilə təbrik etmək, onların işinin hər cəhətdən səmərəli olmasını arzulamaq istəyirəm. Təbii ki, biz əməkdaşlığımızın inkişaf etdirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Hesab edirəm ki, ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli, regional əsasda əməkdaşlığın daha da genişləndirilməsi barədə sizin dedikləriniz çox vacibdir. Əlbəttə, Qafqaz regionu və Xəzər hövzəsi regionu dünyada baş verən proseslər baxımından getdikcə daha çox maraq doğurur. Təbii ki, bu maraq, diqqət artdıqca təhlükəsizlik orqanları öz ölkələrinin milli təhlükəsizliyini təmin etməyə bir o qədər hazır olmalıdırlar.

Rusiya və Azərbaycanın xüsusi xidmət orqanları arasında əməkdaşlığın necə inkişaf etməsi bütövlükdə iki ölkə arasında münasibətlərin inkişafının göstəricisidir. Burada səmərəli qarşılıqlı əlaqələrin konkret nümunələri də var. Buna görə də biz, əlbəttə, çoxtərəfli əməkdaşlıq formatını genişləndirməkdə maraqlıyıq. Bu istiqamətdə, biz bütün qonşu dövlətlərlə səmərəli qarşılıqlı fəaliyyət göstəririk və digər hüquq mühafizə strukturları

istiqamətində də yaxşı qarşılıqlı əlaqələrimiz var. Yeri gəlmişkən, dünən Bakıda Xəzər hövzəsi ölkələrinin Nəqliyyat nazirlərinin birinci konfransı keçirilmişdir. Xəzəryanı ölkələrin sammitində qəbul edilmiş qərarların yekunlarına əsasən, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi qərara alınmışdır. Nəqliyyatçılar birinci olaraq toplaşmışlar. Biz başqa sahələrdə də eyni münasibəti görmək istəyirik. Ola bilsin ki, müəyyən mərhələdə bu cür çoxtərəfli görüş keçirmək mümkün olacaqdır. Biz təhdidlərin qarşısını almağa hazır olmalıyıq. Siz bunu başqalarından daha yaxşı bilirsiniz ki, burada nəinki bir gün, hətta bir saat, bir dəqiqə də əhəmiyyətlidir. Buna görə də ölkələrimizin təhlükəsizliyi bizim səmərəli qarşılıqlı fəaliyyətimizdən, bu cür sıx ünsiyyətdən, informasiya mübadiləsindən, məsləhətləşmələrdən, əlaqələndirmədən asılıdır. Mən əminəm ki, gələcəkdə bu istiqamətdə əməkdaşlıq genişlənəcəkdir.

**B r u n o  B r a n ç i f o r t e** (*İtaliya Xarici Kəşfiyyat və Təhlükəsizlik Agentliyinin Baş direktoru, vitse-admiral)*: Cənab Prezident, mərasimdə iştirak edən ölkələrin təhlükəsizlik orqanlarından birinin təmsilçisi kimi, mən həmkarlarımızla görüşmək imkanını yaratdığınıza və ölkənizdə, gözəl şəhərinizdə bizə göstərilmiş qonaqpərvərliyə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Hesab edirəm ki, bu sayda təhlükəsizlik orqanlarının rəhbərlərinin, Azərbaycan dostlarının burada olması beynəlxaq təhlükəsizlik və sülh naminə yeni qlobal çağırışlara qarşı birgə olmağımızın bariz nümunəsidir. Həmin çağırışları dedikdə, mən beynəlxalq terrorçuluq və transmilli cinayətkarlığı nəzərdə tuturam. Sizin məsləhətlərinizi tam dəstəkləyərək, mən öz həmkarlarım adından bildirmək istəyirəm ki, hamımıza yaxşı məlum olan hədələrə qarşı birgə mübarizə olmasa, heç kəs onların qarşısını ala bilməz. Əminəm ki, biz buna nail olacağıq.

Yekun olaraq, icazə verin, Sizə və nazirinizə gələcək işlərinizdə ən böyük uğurlar arzulayaraq bildirim ki, siyasətçilərin «Küləklər şəhəri» adlandırdığı Bakıda olmağımızdan çox şadıq. Sizə qarşıda uğurlu yol arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Əvvəldə qeyd etdiyim kimi, mən çox şadam ki, bu tədbirdə çoxsaylı qonaqlar iştirak edirlər. Bu nəinki nəzakət rəmzi, həm də ölkələrimiz arasında real əməkdaşlığın əsl göstəricisidir. Bunlar bizi çox həvəsləndirir, çünki biz milli təhlükəsizlik sahəsində əməkdaşlığımızın genişləndirilməsində çox maraqlıyıq. Əminəm ki, bu tədbir fikir mübadiləsi aparmaq və ölkələrimiz arasında daha sıx əlaqələr qurmaq üçün fürsət yaradacaqdır. Bu gün burada təmsil olunmuş ölkələrin hamısı Azərbaycan üçün dost ölkələrdir. Biz tərəfdaşlığın genişləndirilməsində və bütün sahələrdə əlaqələrin qurulmasında maraqlıyıq. Bu proses uğurla davam edir.

Hamımız bilirik ki, məqsədlərimizə nail olmaq və xalqlarımız üçün daha rahat həyat və inkişafı təmin etmək üçün biz sülhü və sabitliyi, o cümlədən proqnozlaşdırılan vəziyyəti bərqərar etməliyik.

Əfsuslar olsun ki, Azərbaycan beynəlxalq terrorçuluqdan çox əziyyət çəkmiş ölkələr arasındadır. Bu hadisələr xüsusən keçən əsrin 90-cı illərinin əvvəlində, 1994-cü ilə qədər baş vermişdir. Həmin vaxt ölkədə bir çox terror aktları törədilmişdi, minlərlə insan qətlə yetirilmişdi. Siyasi sabitlik bərqərar olandan dərhal sonra terrorçuluğa və cinayətkar ünsürlərə qarşı ciddi mübarizə başlandı. Biz bunun müsbət nəticələrini gördük. Bu gün isə Azərbaycan dünyada ən təhlükəsiz yerlərdən biri hesab edilir. Yəni, burada insanlar gecə-gündüz rahat hərəkət edə bilir, cinayətkarlığın səviyyəsi çox aşağıdır. Ölkəmizdə törədilmiş cinayətlərin əksər hissəsi açılır, cinayətkarların tam əksəriyyəti məsuliyyətə cəlb olunur.

Təbii ki, belə nəticələrə biz öz səylərimizlə nail olmuşuq. Lakin beynəlxalq əməkdaşlıqdan da çox məsələlər asılıdır. Beynəlxalq əməkdaşlığın vacibliyi bütün sahələrdə aydın görünür. Bu xüsusən milli təhlükəsizlik sahəsinə, beynəlxalq cinayətkarlığa və terrorçuluğa qarşı mübarizəyə aiddir. Bu mübarizə ölkələrimizi birləşdirir və əminəm ki, bütün dünyanı birləşdirməlidir. Vacibdir ki, təhlükəli terrorçu qruplar arasında heç bir fərq qoyulmasın. Terrorçu terrorçudur, onların milliyyəti

və ya dini, yaxud da ölkəsi yoxdur. Dünyadakı bütün terror təşkilatlarına qarşı birgə səylərlə mübarizə aparılmalıdır. Yaxşı və ya pis terrorçu ola bilməz. Əgər bir ölkəyə qarşı terror aktı törədilirsə, bu, həmçinin bütün digər ölkələrə, xüsusən də qonşuluqda olan ölkələrə qarşı törədilən akt kimi qəbul edilməlidir. Çünki biz bir-birimizə sıx bağlıyıq. Ona görə də qonşunuzun təhlükəsizliyi sizin təhlükəsizliyinizdir.

Mən sizin hamınıza uğurlar arzulayıram və ümidvaram ki, şəhərimizə səfərinizdən razı qalacaqsınız.

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İtaliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2009-cu il*

## DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan–Danimarka münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2009-cu il*

**ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROBERT QABRİEL MUQABEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Zimbabve arasında təşəkkül tapmaqda olan münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 aprel 2009-cu il*

## BAKI ŞƏHƏRİNDƏ NƏQLİYYAT ƏMƏLİYYATLARININ İNTELLEKTUAL İDARƏ EDİLMƏSİ SİSTEMİNİN İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*6 aprel 2009-cu il*

*Aprelin 6-da Bakı şəhərində Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin inzibati binasının təməli qoyulmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı Koreya Respublikasına rəsmi səfəri zamanı əldə olunan razılaşmaya əsasən, 2007-ci ilin aprelində Azərbaycan Nəqliyyat Nazirliyi ilə Cənubi Koreyanın Tikinti və Nəqliyyat Nazirliyi arasında intellektual nəqliyyat sistemi sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır. 2008-ci ilin mayında isə Nəqliyyat Nazirliyi və Koreya Respublikasının «SK C & C Co.Ltd» şirkəti Bakı şəhərində Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin (İNS) yaradılması haqqında satınalma müqaviləsi bağlamışdır. Həmin sənədlərə əsasən, şirkət İNS-in layihəsini hazırlayaraq, Azərbaycan tərəfinə təqdim etmişdir. Müasir texnologiyanın ən son nailiyyətlərinin tətbiqi nəzərdə tutulan İNS vasitəsilə paytaxtda və Abşeron yarımadasının bir hissəsində avtonəqliyyat vasitələrinin, o cümlədən marşrut xətlərində avtobusların, taksilərin hərəkətinin idarə olunmasına nəzarət, tıxacların aradan qaldırılmasına yardım və digər məsələlər həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyev əvvəlcə inzibati binanın maketinə baxdı. Sonra dövlətimizin başçısına binanın layihəsi haqqında ətraflı məlumat verildi. Bildirildi ki, tikinti sahəsi 2500*

*kvadratmetr olacaq beşmərtəbəli binada qəbul, mühafizə, avadanlığı idarəetmə, elektrik təchizatı, UPS, nəqliyyat əməliyyatlarına nəzarət, server, serverləri idarəetmə, təlim və konfrans, media yayım otaqları və yeməkxana yerləşəcəkdir. Prezident İlham Əliyevə İNS-in funksiyaları haqqında da ətraflı məlumat verildi. Bildirildi ki, layihənin əsas funksiyalarına ictimai nəqliyyatı idarəetmə sistemi, tıxacların qarşısının alınması, nəqliyyatın hərəkəti üzrə məlumat mənbələri, elektron kart ödəmə sisteminin, elektron naviqasiya sisteminin tətbiqi, parklamanın, fövqəladə hallar zamanı şəhər nəqliyyatının idarə olunmasının təşkili, nəqliyyatın hərəkəti üzrə informasiyanın yığılması, təhlili, məlumatların ötürülməsi və göstərişlərin verilməsi sistemi daxildir.*

*İNS-in gələcəkdə Abşeron yarımadası, daha sonra respublikanın digər regionları istiqamətində genişləndirilməsi məqsədi ilə Xırdalan, Binəqədi qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu, Zığ və Lökbatan dairələrində komutasiya çıxışlarının yaradılması planlaşdırılır. Dövlətimizin başçısı nəqliyyatın axını barədə məlumatı əks etdirəcək tablonun seqmenti, avtobus dayanacaqlarındakı informasiya terminalı və avtobusların daxilində quraşdırılacaq CPS qəbuledicisinin nümunələri ilə tanış oldu.*

*Bildirildi ki, birinci mərhələsinin 2011-ci ilin aprelinədək həyata keçirilməsi nəzərdə tutulan layihənin ilkin dəyəri 76,5 milyon ABŞ dollarına bərabərdir. Azərbaycanda tətbiq ediləcək İNS istifadə olunacaq texnologiyaların və texniki vasitələrin müasirliyi baxımından Koreya Respublikasındakı sistemləri üstələyəcəkdir.*

*Prezident İlham Əliyev gilizi təmələ qoydu və beton qarışığını tökdü.*

*Yeni yaradılacaq sistemin paytaxtın nəqliyyat sahəsindəki problemlərinin aradan qaldırılmasına müsbət təsir edəcəyini bildirən dövlətimizin başçısı tikinti ilə əlaqədar tapşırıq və tövsiyələrini verdi, inşaatçılara uğurlar arzuladı.*

## PAYTAXTIN MÜXTƏLİF YERLƏRİNDƏ YOLÖTÜRÜCÜ, KÖRPÜ-TUNEL VƏ YERALTI PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI

*6 aprel 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 6-da paytaxtın müxtəlif yerlərində yolötürücü, körpü-tunel və əsaslı şəkildə yenidən qurulmuş yeraltı piyada keçidlərinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə Heydər Əliyev prospekti ilə Ağa Nemətulla küçəsinin kəsişməsində yerləşən tunel tipli yolötürücünün açılışına gəldi.*

*Prezident İlham Əliyev açılışı bildirən qırmızı lenti kəsdi və ötürücü ilə yaxından tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, ötürücünün inşasına ötən ilin iyulunda başlanılmışdır. Nəqliyyat Nazirliyinin «Azəryolservis» ASC-nin sifarişi əsasında «Sanur Holdinq» şirkətinin inşa etdiyi ötürücünün uzunluğu 300 poqonometr, qapalı hissəsinin uzunluğu 67 poqonometr, hündürlüyü 5,05 metr, eni 10 metrdir. Əks istiqamətli iki hərəkət zolağının ümumi eni isə 9,2 metrdir.*

*Tikinti zamanı yerli, habelə İtaliya, İspaniya, Türkiyə və Hindistandan gətirilmiş materiallardan istifadə olunmuşdur. Yağış və qrunt sularının axıdılması üçün drenaj xətləri çəkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmış, sağda və solda yardımçı yollar da salınmışdır.*

*Ötürücü Ağa Nemətulla küçəsinin bu hissəsində nəqliyyat vasitələrinin Heydər Əliyev prospekti ilə kəsişmədən hərəkətini davam etdirmələrinə imkan yaradır.*

* * *

*Prezident İlham Əliyev paytaxtın Heydər Əliyev prospektindəki dəmiryol körpüsünün yanındakı ikinci yardımçı körpü-tunelin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və körpü-tunellə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, bir istiqamətli, hər birinin eni 3,5 metr olan iki hərəkət zolaqlı körpü-tunelin eni 7 metr, ümumi uzunluğu 400 metr, qapalı hissənin uzunluğu 88 metrdir. Səkilərlə birlikdə tunelin eni 8 metrə çatır. İşlərin qızğın vaxtında tikintidə 400–450 nəfər çalışmışdır. Burada əsasən milli memarlıq elementlərindən istifadə olunmuşdur.*

*Heydər Əliyev prospektində aparılmış yenidənqurma işlərindən sonra yol 12 zolaqlı olmuşdu.*

* * *

*Prezident İlham Əliyevin açılışında iştirak etdiyi növbəti obyekt paytaxtın Heydər Əliyev prospektində əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş yeraltı piyada keçidi idi.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi tədbirləri çərçivəsində əsaslı şəkildə yenidən qurulmuş piyada keçidində görülmüş işlər barədə məlumat verdi. Bildirildi ki, paytaxtda nəqliyyatın hərəkətinin sıx olduğu ərazidə yerləşən bu keçid yararsız vəziyyətdə idi və piyadalar buradan çox az istifadə edirdilər.*

*Yenidənqurma və təmir işlərini Nəqliyyat Nazirliyinin «Azəryolservis» ASC-nin sifarişi ilə «Sanur Holdinq» şirkəti həyata keçirmişdir. Dörd çıxışı olan keçiddə çıxışların hər birinin üstü sınmayan şüşə ilə örtülmüşdür. Uzunluğu 57,5 metr, eni 6 metr, hündürlüyü isə 2,2 metr olan keçidin pilləkənlərində əlil arabaları üçün panduslar da vardır. Keçiddə istifadə olunan mərmər İtaliya, İspaniya, Türkiyə və Hindistandan gətirilmişdir. Müasir işıqlandırma sistemi hava qaralanda avtomatik olaraq işə düşür.*

* * *

*Prezident İlham Əliyev həmin gün Heydər Əliyev adına İdman-Konsert Kompleksinin qarşısındakı yeraltı piyada keçidində aparılmış yenidənqurma işləri ilə də tanış olmuşdur.*

*Nəqliyyatın hərəkətinin sıx olduğu ərazidəki keçiddə yenidənqurma işlərinə «SanurHoldinq» şirkəti ötən ilin oktyabrında başlamışdı. Burada 100-ə yaxın işçi çalışmışdır.*

*Uzunluğu 120 metr, eni 4 metr olan keçidin girişlərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmanla bağlı fikirləri, Olimpiya oyunlarının emblemi əksini tapmışdır.*

*Yeraltı keçiddə əlil arabaları üçün panduslar düzəldilmişdir. Prezident əlil insanların hərəkətinin asanlaşdırılması üçün bunun əhəmiyyətini vurğuladı və yeraltı keçiddə görülən işləri yüksək qiymətləndirdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 6-da paytaxtın mərkəzində – Azərbaycan prospektində, Daxili İşlər Nazirliyinin binası qarşısında yenidən qurulmuş yeraltı piyada keçidi ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, bu yeraltı keçiddə təmir və yenidənqurma işlərinə dörd ay əvvəl başlanılmışdı. «Sanur Holdinq» şirkəti yenidənqurma işlərini ən müasir səviyyədə başa çatdırmışdır.*

*Uzunluğu 28 metr olan keçidin divarları, döşəməsi, işıq sistemi tamamilə yeniləşdirilmişdir. Dörd giriş-çıxışı olan keçiddə yenidənqurma işləri zamanı yerli və xarici materiallardan istifadə olunmuş, xidməti otaqda yeni ventilyasiya sistemi quraşdırılmışdır. Keçidin pilləkənlərində əlil arabaları üçün panduslar da düzəldilmişdir.*

*Dövlətimizin başçısı yeraltı keçidi gəzdi və burada görülmüş işlərdən razılığını bildirdi.*

## TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASI

*6 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 6-da Təhlükəsizlik Şurasının iclası keçirilmişdir. Dövlətimizin başçısı iclasda nitq söyləmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

2009-cu ildə ölkəmizin uğurlu inkişafı davam edir, bütün sahələrdə müsbət meyillər daha da güclənir, Azərbaycanın uzunmüddətli inkişaf strategiyası icra olunur. Bütün bunlar bir daha göstərir ki, bizim seçdiyimiz yol düzgün yoldur. Azərbaycan müxtəlif zamanlarda çətin sınaqlardan şərəflə çıxa bilmişdir və indi ölkəmiz həm siyasi, həm də iqtisadi cəhətdən çox uğurla inkişaf edir.

2009-cu ildə qarşıda duran bütün vəzifələr, konkret proqramlar icra edilməli, nəzərdə tutduğumuz bütün məsələlər həyatda öz əksini tapmalıdır. Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət mövcuddur. Uzun illərdir ki, ölkədə sabitlik, əmin-amanlıq hökm sürür və bu amillər hər bir ölkə, o cümlədən Azərbaycan üçün, hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

Bu yaxınlarda keçirilmiş ümumxalq səsverməsi – referendum və Azərbaycan xalqının qoyulan məsələlərə münasibəti bir də onu göstərir ki, Azərbaycanda xalqla iqtidar arasında vəhdət möhkəmlənib, güclənib və bu da çox sevindirici haldır.

Azərbaycan öz müstəqil siyasətini milli maraqlar üzərində qurubdur. Milli maraqların qorunması bizim üçün ən başlıca, ən ümdə vəzifədir və bu istiqamətdə ölkəmiz böyük nailiyyətlər əldə edibdir. Müstəqil siyasət aparmaq imkanlarımız Azərbaycanın hərtərəfli inkişafına çox böyük töhfə verir. Biz istər ölkədaxili, istər xarici siyasətlə bağlı məsələlərdə müstəqil

qərar qəbul etməklə Azərbaycan xalqının milli maraqlarını maksimum dərəcədə müdafiə edirik və bundan sonra da bu siyasət davam etdiriləcəkdir.

Artıq həm region müstəvisində, həm də dünyada bəllidir ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan öz müstəqil siyasətini davam etdirir. Bu siyasət həm ölkəmizin inkişafına xidmət göstərir, həm də digər ölkələrlə münasibətlərimiz uzunmüddətli əsaslarla çox düzgün qurulur. Azərbaycanın siyasəti proqnozlaşdırıla bilən siyasətdir, Azərbaycanın siyasəti bölgədə sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasına yönəldilibdir.

Regional məsələlərə gəldikdə, artıq həyat göstərib ki, bizim təşəbbüsümüzlə irəli sürülən nəhəng transmilli enerji, nəqliyyat layihələri və siyasi təşəbbüslər uğurla icra olunur. Azərbaycanın iştirakı olmadan, əlbəttə ki, bu böyük geosiyasi əhəmiyyətə malik olan təşəbbüslər heç vaxt icra oluna bilməzdi. Bizim iradəmiz, siyasi yanaşmamız, o cümlədən bizim ciddi iştirakımızla yaranmış uğurlu regional əməkdaşlıq meyilləri – bütün bunlar regionda yeni reallıqları mümkün edibdir. Regional məsələlərdə Azərbaycan siyasəti həmişə, bütün zamanlarda çox açıq, aydın olub və bölgənin bütün ölkələrinə xeyir gətirən siyasət olubdur. Əlbəttə, biz regionda baş verən və baş verə biləcək hadisələri izləyirik. Regionda mümkün olan geosiyasi dəyişikliklər bizim tərəfimizdən izlənilir və lazımi tədbirlər görülür. Bir də demək istəyirəm ki, bu istiqamətdə Azərbaycan öz prinsipial mövqeyindən heç vaxt əl çəkməyəcəkdir.

Bizim ölkəmiz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmayıb, qarışmır və gələcəkdə də bizim belə niyyətimiz yoxdur. Azərbaycan başqa ölkələr arasındakı ikitərəfli münasibətlərə heç vaxt müdaxilə etməyib və etməyəcəkdir. Ancaq bununla bərabər, regionda yaranan, yaxud da yarana biləcək vəziyyətə uyğun şəkildə öz siyasətimizi aparmaq bizim təbii hüququmuzdur və bu hüquqdan istənilən formada istifadə edəcəyik.

Azərbaycan bölgədə sabitləşdirici rolunu oynayır. Bunu artıq həyat göstəribdir. Keçən il Cənubi Qafqazda yaşanan siyasi və hərbi böhran Azərbaycana öz mənfi təsirini göstərməmişdir. Düzdür, qısa müddət ərzində bizim enerji və nəqliyyat imkanlarımız məhdudlaşdı, ancaq biz çevik siyasət aparmaqla, qısa vaxt ərzində yeni nəqliyyat istiqamətlərini işə sala bildik. Beləliklə, ən az itkilər verməklə o vəziyyətdən şərəflə çıxdıq, iqtisadi maraqları qoruduq. Onu da deyə bilərəm ki, Azərbaycan bir daha etibarlı tərəfdaş və sabitləşdirici amil kimi öz rolunu göstərə bilmişdir.

Hazırda dünyanı qlobal maliyyə və iqtisadi böhran bürüyübdür. Hamımız yaxşı bilirik ki, müxtəlif ölkələrdə iqtisadi və sənaye tənəzzülü 20, 30, 50 faizlə ölçülür.

Ölkələrin milli valyutaları qiymətdən düşür. O cümlədən MDB məkanında, bizim regionumuzda milli valyutalar 10, 20, 30, 50 faiz səviyyəsində qiymətdən düşür. Bu o deməkdir ki, milli pul qiymətdən düşdükcə, alıcılıq qabiliyyəti də azalır və beləliklə, insanlar bundan birbaşa əziyyət çəkirlər. Azərbaycanda isə vəziyyət tam başqadır. Bizim milli valyutamız – manatımız sabitdir və sabit olaraq qalacaqdır. Dünyada 2009-cu ilin birinci rübündə iqtisadi tənəzzül müşahidə edilir, Azərbaycanda isə iqtisadi artım müşahidə olunur.

Bəzi bədxahlar – Azərbaycana paxıllıqla yanaşan və bizim uğurlarımızı qəbul etmək istəməyən dairələr Azərbaycanın uğurlu iqtisadi inkişafını neft amili ilə bağlayırlar. İndi neftin qiyməti 3-4 dəfə aşağı düşübdür. Bu il müəyyən səbəblərə görə Azərbaycanda neft hasilatı aşağı düşübdür. Buna baxmayaraq, Azərbaycanın iqtisadiyyatı artır. Birinci rübün ilkin rəqəmləri artıq mənə çatdırılıb, indi tam təhlil aparılır. Rəqəmlər göstərir ki, birinci rübdə Azərbaycanda qeyri-neft sektorunda 14 faiz artım var. Budur bizim iqtisadi və siyasi islahatlarımızın nəticəsi, real iqtisadiyyatı şaxələndirmə siyasətinin nəticəsi. Biz buna nail ola bilmişik. Daxili istehsalı təşviq etməklə, kreditlərin verilməsini təmin etməklə, özəl sektorun maraqlarını müdafiə etməklə və digər tədbirlər nəticəsində neft amilindən

asılılığımızı xeyli dərəcədə azalda bilmişik. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha böyük addımlar atılacaqdır.

Yəni nə siyasi, nə hərbi, nə iqtisadi böhran müstəqil Azərbaycan dövlətinə təsir etmir və biz çalışmalıyıq ki, mümkün olan təsiri maksimum dərəcədə azaldaq. Əlbəttə ki, bu müddət ərzində biz müəyyən çətinliklər çəkən müəssisələrə əlavə yardımlar etməliyik, o cümlədən onları maliyyə resursları ilə təmin etməliyik. Sosial cəhətdən ən az təmin olunmuş insanlara ünvanlı sosial yardımın məbləği gələcəkdə daha da artırılmalıdır. Sosial müdafiə məsələləri həmişəki kimi diqqət mərkəzində olacaqdır. Beləliklə, mən əminəm ki, Azərbaycan bu çətin, qlobal maliyyə və iqtisadi böhrandan şərəflə, üzüağ çıxacaqdır.

Qeyd etdiyim kimi, biz nəzərdə tutulmuş bütün proqramları uğurla icra etməliyik. Növbəti aylarda da iqtisadiyyatın real sektorunun inkişafı üçün əlavə tədbirlər görülməlidir. Sosial məsələlərin, iqtisadi məsələlərin həllinə, ordu quruculuğu işinə daha da böyük diqqət göstərilməlidir. Baxmayaraq ki, son illərdə hərbi potensialımız böyük dərəcədə güclənmişdir, ancaq biz hələ də müharibə şəraitində yaşayırıq və belə olan halda, hərbi sahəyə, ordu quruculuğuna daim ən böyük diqqəti göstərməliyik. Əlbəttə, biz ümid edirik ki, nəhayət, Ermənistan tərəfi reallıqlarla hesablaşmalı olacaq və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Biz bunun tərəfdarıyıq, atəşkəs rejimi başlanandan sonra 15 il ərzində konstruktiv mövqe nümayiş etdiririk. Sülh danışıqlarında konstruktiv iştirak etməklə bu danışıqlara sadiqliyimizi göstəririk. Ancaq qarşı tərəf də konstruktivlik nümayiş etdirməlidir. Qarşı tərəf də bilməlidir ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır. Azərbaycan xalqı və Azərbaycan dövləti bu işğalla, etnik təmizləmə siyasəti ilə, torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacaqdır. Öz torpaqlarımızı azad etmək üçün bizim tam əsaslarımız var, beynəlxalq hüquq bunu təsdiq edir. Bu

yaxınlarda beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də müzakirə olunan və qəbul edilmiş qərarlar bir daha bizim haqlı olduğumuzu göstərir.

Bütün bu məsələlər indiki zamanədə daha da ciddi diqqət tələb edir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, dünyada, bölgədə gedən proseslər, yeniliklər, bəzi məlumatlar, təhlillər, mülahizələr – bütün bunlar, təbii ki, bizim tərəfimizdən ciddi izlənilir və Azərbaycan dövləti öz siyasətini möhkəm əsaslar üzərində qurmaqla bərabər, onu bölgədə gedən dəyişikliklərə uyğunlaşdırır və belə də olmalıdır.

Biz bu gün bu məsələləri müzakirə edəcəyik və bir daha demək istəyirəm ki, bu vaxta qədər görülmüş işlər məni çox qane edir. Xüsusilə indiki böhran şəraitində ölkə iqtisadiyyatına və ümumiyyətlə, ölkəyə dəyə biləcək zərərin minimuma endirilməsi işində atılan addımlar bir daha bizim ölkəmizin real gücünü göstərir. Həm Azərbaycan xalqı, həm də ki, bütün dünya Azərbaycanın hansı ölkə olduğunu bir daha açıq-aydın görür.

* * *

*İclasda Azərbaycanda mövcud olan daxili ictimai-siyasi sabitlik, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regional vəziyyət, qonşu ölkələrlə münasibətlər və digər məsələlər müzakirə edilmişdir.*

## GÜLƏŞ ÜZRƏ MİLLİ KOMANDANIN ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də güləş üzrə milli komandanın üzvlərini və məşqçilərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram və hamınızı bu böyük tarixi qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu doğrudan da tarixi qələbədir. Azərbaycan güləşçiləri Avropa çempionatında belə, böyük qələbə qazanırlar – 5 qızıl medal, 2 gümüş medal, 2 bürünc medal – doğrudan da böyük zəfərdir. Siz Azərbaycan xalqını sevindirmisiniz. Bu gözəl qələbə ilə hamımızı ruhlandırmısınız. Sübut etmisiniz ki, Azərbaycanın idman şöhrəti çox yüksək zirvədədir. Azərbaycan sözün əsl mənasında, idman dövlətidir. Ölkəmizdə idmanın inkişafının çox gözəl nəticələri vardır. Onu da qeyd etmək istəyirəm ki, Avropa çempionatından bir qədər əvvəl İranda keçirilmiş Dünya kuboku yarışında da güləşçilərimiz tarixi qələbə qazanmışlar. Dünya kubokunun sahibi olmuşlar, çox gərgin mübarizədə, çox çətin şəraitdə öz məharətlərini göstərmişlər. Avropa çempionatında əldə edilmiş qələbə və yenə də komanda hesabında birinci yeri tutması onu göstərir ki, Dünya kubokundakı qələbə heç də təsadüfi xarakter daşımırdı. Bu, Azərbaycanda idmanın güləş növündə son illər görülən işlərin praktik nəticəsidir.

Mən xüsusilə Güləş Federasiyasının fəaliyyətini qeyd etmək istəyirəm. Hesab edirəm ki, qısa müddət ərzində bu idman növündə çox böyük və ümidverici dəyişikliklər baş vermişdir.

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, sərbəst güləş üzrə Azərbaycan dünya miqyasında birinci ölkədir.

Mən məşqçilərin fəaliyyətini xüsusi vurğulamaq istəyirəm. Güləş Federasiyasının işinin təkmilləşməsində, əlbəttə ki, məşqçilərin rolunu xüsusilə qeyd edirəm və onlara öz minnətdarlığımı bildirmək istəyirəm. İdmançılar öz zəhməti, öz peşəkarlığı ilə bu böyük qələbəni qazanmışlar, xalqımızı sevindirmişlər. Keçən il Yay Olimpiya oyunlarında Yunan-Roma güləşçilərimiz daha böyük nəticələr göstərmişdilər. Bu dəfə sərbəst güləş üzrə komanda daha güclü çıxış etmişdir. Çünki hər dövrün öz hökmü var və bu onu göstərir ki, hər iki güləşdə Azərbaycanın potensialı çox böyükdür və biz bu qələbə ruhunu Azərbaycanda daha da geniş təbliğ etməliyik. Bu, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında da çox böyük amildir. Litvada 5 dəfə Azərbaycanın Dövlət himni səslənmiş, Dövlət bayrağı qaldırılmışdır. Bu yarışları izləyən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirirdi.

*Dövlətimizin başçısı bir daha Avropa çempionatında qazanılan qələbənin Azərbaycanın idman tarixində bənzəri olmadığını, bu uğurun Avropanın və Azərbaycanın idman tarixinə həmişəlik daxil olduğunu bildirdi. .*

*Güləş Federasiyasında aparılan işləri və məşqçilərin fəaliyyətini bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, mən idmançılarımıza da, məşqçilərimizə də inanırdım və Litvada qazanılan qələbə bu inamın əsaslı olduğunu göstərdi.*

*Prezident bildirdi ki, ölkəmiz kimi, idmanımız da çoxmillətlidir. Ölkəmizdə bir çox millətlərə mənsub insanların bir ailə kimi, dostluq və qardaşlıq şəraitində yaşaması ilə fəxr edirik və uğurlarımızda bu amilin də böyük əhəmiyyəti vardır.*

**Firdovsi Umudov** (*Sərbəst güləş üzrə Milli komandanin böyük məşqçisi*): Cənab Prezident, Sizə öz adımızdan, məşqçilər korpusu adından, idmançılarımız adından minnətdarlığımızı bildiririk. Biz həmişə – istər dünya kuboku

yarışlarında, istərsə də Avropa çempionatında Sizin diqqət və qayğınızı hiss etmişik.

Doğrudan da son illər Azərbaycan idmanı, Azərbaycan güləşi öz yüksəliş dövrünü yaşayır. Bu da həqiqətən Sizin bizə göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Güləşçilərimiz də həmişə döşək üzərinə, xalça üzərinə çıxanda Sizin bizə olan isti münasibətinizi xatırlayırlar. Doğrudan da son illər Güləş Federasiyasının, Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin birgə səyləri nəticəsində istər təlim-məşq toplanışlarının keçirilməsi, istər bazalarımızın olması baxımından heç bir problemimiz yoxdur.

Çalışacağıq ki, qazanılan nəticələri qoruyub saxlayaq. Hədəfimiz London Olimpiya oyunlarıdır. Sizin Pekin Olimpiya oyunlarından öncə idmançılara verdiyiniz tövsiyə hər zaman yaddaşımızdadır ki, birinci növbədə siz Azərbaycanı, Azərbaycanın bayrağını, Azərbaycanın himnini fikirləşməlisiniz.

**Xetaq Qazyumov** (*Milli komandamızın kapitanı*): Cənab Prezident, Azərbaycanda idmanın, o cümlədən güləşin inkişafına verdiyiniz töhfələrə görə Güləş Federasiyası adından Sizə minnətdarlığımızı bildiririk. Heç bir dövlət başçısı idmanın inkişafına Sizin qədər diqqət yetirmir. Biz bunu yüksək qiymətləndirir və Sizə sonsuz təşəkkürümüzü bildiririk.

* * *

*«Bu qələbə gələcək uğurlarımız üçün baza olacaq», deyən prezident İlham Əliyev idmana bundan sonra da qayğı göstəriləcəyini və bunun dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu dedi.*

*Dövlətimizin başçısı komandanın üzvləri olan qızların qələbəsini xüsusi vurğuladı. Bildirdi ki, bu, əslində Güləş Federasiyasının fəaliyyətində yeni, həm də uğurlu elementdir. Prezident İlham Əliyev idmançıların hamımızın fəxri olduğunu vurğuladı və onlara yeni qələbələr arzuladı.*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Slovakiya arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluq və əməkdaşlığımızın möhkəmləndirilməsi, əlaqələrimizin əhatə dairəsinin genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Fürsətdən istifadə edərək, Sizinlə görüşmək, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün münasib bildiyiniz vaxtda Sizi ölkəmizə səfərə dəvət edirəm.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2009-cu il*

## AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa İttifaqı Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Piter Semnebi Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarı Xavyer Solananın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə keçirdiyi görüşlər barədə prezident İlham Əliyevə məlumat verdi, Azərbaycanla Avropa İttifaqı arasında sıx əlaqələrin olduğunu bildirdi.*

*Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında genişlənən əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğuladı. Prezident İlham Əliyev Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarı Xavyer Solananın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarına çatdırmağı xahiş etdi.*

## AVROPA ŞURASI MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİN VƏ XANIM YEVGENİYA JİVKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa Şurası Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkelin və xanım Yevgeniya Jivkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkəmizdə müxtəlif sahələrdə həyata keçirilən demokratik inkişaf prosesləri, Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*9 aprel 2009-cu il*

*Aprelin 9-da Azərbaycana rəsmi səfərə gələn Ukrayna prezidenti Viktor Yuşşenkonun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukrayna Respublikasının Prezidenti Viktor Yuşşenkonu və xanımı Katerina Yuşşenkonu səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Ukrayna prezidentinə raport verdi.*

*Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Ukrayna prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Viktor Yuşşenkoya, Ukrayna nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*9 aprel 2009-cu il*

*Aprelin 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan–Ukrayna əlaqələrinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu.*

*Dövlət başçıları ikitərəfli münasibətlərin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladılar. Bildirildi ki, səfər zamanı imzalanacaq sənədlər Azərbaycan ilə Ukrayna arasında əlaqələrin daha da dərinləşməsinə yaxşı zəmin yaradacaqdır.*

*Prezidentlər ölkələrimiz arasında münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliklərini söylədilər.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ İLK İCLASI

*9 aprel 2009-cu il*

*Aprelin 9-da Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü başa çatdıqdan sonra iki ölkənin Prezidentləri Şurasının ilk iclası olmuşdur. İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri də iştirak edirdilər.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Hörmətli cənab Prezident, əminəm ki, Sizin rəsmi səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişafına və möhkəmlənməsinə kömək edəcəkdir. Bu gün biz qarşılıqlı maraq doğuran ikitərəfli əməkdaşlığımızla bağlı məsələlər barəsində geniş fikir mübadiləsi aparmışıq və ölkələrimiz arasında münasibətlərdə böyük dinamika olmasını vurğulamışıq. Münasibətlərimiz çox dinamik inkişaf edir, yaxşı nəticələr əldə olunmuşdur və ümid edirik ki, bu münasibətlər gələcəkdə də inkişaf edəcək və möhkəmlənəcəkdir. Biz regional əhəmiyyətli məsələləri də müzakirə etdik. Fikrimcə, biz regionda vəziyyət barədə ümumi fikrimizi və regional əməkdaşlıq üçün perspektivləri ifadə etmişik.

Bu gün Ukrayna və Azərbaycan Prezidentləri Şurasının birinci iclası keçirilir. Bu, əvvəl əldə edilmiş razılaşmaların nəticəsidir. Şura çərçivəsində biz öz həllini tələb edən məsələləri müzakirə edəcəyik. Bunlar iqtisadi əməkdaşlıq, energetika sahəsində və hərbi-texniki sahədə əməkdaşlıq məsələləridir. Bunlar Prezidentlər Şurasının bugünkü iclasının əsas mövzularıdır, lakin biz bununla kifayətlənməyəcəyik, çünki münasibətlərin formatı və iclasın gündəliyi kifayət qədər genişdir.

Mən bir daha dərin məmnunluğumu bildirmək istəyirəm ki, bu gün Siz Azərbaycana rəsmi səfər edirsiniz. Əminəm ki, bu səfərin nəticələri əməli cəhətdən də uğurlu olacaq və biz ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsi baxımından bundan sonra da irəliyə doğru gedəcəyik.

Bir daha xoş gəlmisiniz!

**V i k t o r  Y u ş ş e n k o** (*Ukrayna prezidenti*): Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Hörmətli Şura üzvləri!

İlham Heydər oğlu ilə biz bir məsələdə həmrəyik ki, əgər ikitərəfli münasibətlərimizə qiymət verməli olsaq, bu münasibətlər ən yüksək statusa malikdir, bunlar siyasi əlaqələrin, nazirliklər və idarələr səviyyəsində əlaqələrin çox yüksək dinamikasına malik olan strateji tərəfdaşlıq münasibətləridir. Başqa sözlə desək, biz ikitərəfli münasibətlərin inkişafından tam razıyıq. Bu münasibətlərin çox yaxşı dinamikası var. Bu münasibətlər yaxşı nəticələr verir.

İqtisadi böhranın həm ticarətə, həm də iqtisadi əməkdaşlığa təsir göstərdiyi indiki vaxtda rəqəmlər bəlkə də ciddi şəkildə azalmışdır. Lakin bu, bizim münasibətlərin problemlərinin təsiri deyildir. Burada bizim iradəmizdən, Ukrayna və Azərbaycan tərəflərindən asılı olmayan amillər təsir göstərir. Buna görə də mən Prezidentlər Şurasının iclasının əvvəlində həm siyasi, həm iqtisadi, həm də işgüzar münasibətlərimizi yüksək qiymətləndirmək istərdim.

İkincisi. Əvvəlki görüşlərimizdə də dediyimiz kimi, münasibətlərimizin aydın inkişaf planının olması çox vacibdir. Ona görə də bu gün imzalanacaq «Tədbirlər planı» 2009-2010-cu illərdə münasibətlərimizin perspektivini, özü də təkcə Prezidentlər Şurası çərçivəsində deyil, həm də nazirliklərin, idarələrin və biznes dairələrinin qarşılıqlı münasibətləri çərçivəsində bu perspektivləri necə təsəvvür etməyimiz barədə suala ən aydın və dəqiq cavab olacaqdır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Aprelin 9-da Azərbaycan və Ukrayna Prezidentləri Şurasının ilk iclasından sonra ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.*

*«2009–2010-cu illər üçün Azərbaycan–Ukrayna əməkdaşlığına dair tədbirlər planı»nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Respublikasının Prezidenti Viktor Yuşşenko imzaladılar.*

*Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volınsk vilayətinin Dövlət administrasiyası arasında ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında sazişi Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Volınsk vilayəti Dövlət administrasiyasının rəhbəri Nikolay Romanyuk imzaladılar.*

*Azərbaycan və Ukrayna Xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009–2010-cu illər üçün məsləhətləşmələr planını Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri vəzifəsini icra edən Vladimir Xondogi imzaladılar.*

*Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair sazişi Azərbaycanın Milli Təhlükəsizlik naziri Eldar Mahmudov və Ukraynanın Xarici Kəşfiyyat Xidmətinin rəisi Nikolay Malomuj imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında kosmik məkanın sülh məqsədləri üçün tədqiqi və istifadəsi sahəsində əməkdaşlıq haqqında çərçivə sazişini Azərbaycanın Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və Ukrayna Milli Kosmik Agentliyi Baş direktorunun birinci müavini Valeri Komarov imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi, texniki əməkdaşlığa dair sazişə dəyişikliklərin edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında protokolu Azərbaycanın Müdafiə naziri Səfər Əbiyev və Ukraynanın Müdafiə naziri Yuri Yexanurov imzaladılar.*

*Azərbaycan və Ukrayna Prezidentləri Şurasının iclasının protokolunu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri vəzifəsini icra edən Vladimir Xondogi imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*9 aprel 2009-cu il*

*Aprelin 9-da ikitərəfli sənədlərin imzalanma mərasimindən sonra Azərbaycan və Ukrayna prezidentləri mətbuat nümayəndələri üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Viktor Andreyeviç, hörmətli qonaqlar, xanımlar və cənablar!

Ukrayna prezidenti başda olmaqla, bu ölkənin nümayəndə heyətini Azərbaycanda bir daha səmimi salamlamaq istəyirəm. Mən Ukrayna prezidentinin Azərbaycana səfərinin nəticələrindən, aparılmış danışıqlardan, fikir mübadiləsindən çox razıyam. Biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox geniş fikir mübadiləsi apardıq. Ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlər dərindən təhlil edildi. Biz regional problemlərə toxunduq, regional əməkdaşlıq məsələlərini, Avropa İttifaqı çərçivəsində nəzərdə tutulan «Şərq tərəfdaşlığı» layihəsi üzrə əməkdaşlığın perspektivlərini geniş müzakirə etdik.

Bu gün Prezidentlər Şurasının ilk iclası keçirildi. Biz əsas diqqəti qarşılıqlı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sahələrində və hərbi-texniki əməkdaşlıq məsələləri üzərində cəmləşdirdik. Diskussiyalarda və fikir mübadilələrində biz vahid mövqedən çıxış edirdik. Bu münasibətlər Azərbaycanın milli maraqlarına uyğundur və biz Ukraynanı dünyada ən etibarlı tərəfdaşlarımızdan biri hesab edirik. Biz beynəlxalq təşkilatlarda, o cümlədən Birləşmiş Millətlər

Təşkilatında hiss etdiyimiz dəstəyə görə şəxsən Ukrayna prezidentinə və Ukrayna dövlətinə minnətdarıq. Bir il əvvəl Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında məsələyə dair səsvermə zamanı Ukraynanın nümayiş etdirdiyi ədalətli mövqe Azərbaycan xalqında dərin minnətdarlıq hissi doğurdu.

Bu gün biz təkcə ölkələrimiz üçün deyil, əminəm ki, həm də region üçün, Avropa üçün əhəmiyyətli məsələləri və nəqliyyat sahəsində, Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması, enerji daşıyıcıları nəqlinin şaxələndirilməsi sahəsində nəzərdə tutduğumuz məsələləri, bu istiqamətdə Ukraynanın və Azərbaycanın rolunu hərtərəfli müzakirə etdik. Bu məsələlər çox ciddi diqqət yetirilməsini tələb edir. Bizim iştirakımızla, Ukrayna və Azərbaycan prezidentlərinin və dost ölkələrdən olan həmkarlarımızın iştirakı ilə enerji sammitləri keçirilmişdir. Bunlardan axırıncısı, ötən ilin noyabrında Bakıda keçirilmiş zirvə görüşü bir daha nümayiş etdirdi ki, biz enerji sahəsində geniş əməkdaşlığa sadiqik. Bakı sammitinin və Bakı Bəyannaməsinin nəticələri – indi regionda praktik olaraq, bütün enerji layihələri üçün, yəni həm mövcud layihələrin, həm də birgə səylərimizlə həyata keçirilməli layihələr üçün təməldir.

Bu gün mən ölkələrimiz arasında əməkdaşlıq ruhunu da vurğulamaq istəyirəm. Bəli, biz siyasi və iqtisadi maraq doğuran, regional vəziyyətdə öz əksini tapacaq mühüm məsələləri müzakirə etdik. Bu müzakirələr dostluq şəraitində, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək şəraitində keçmişdir. Bizim münasibətlərimizdə heç də az əhəmiyyəti olmayan sahəni – humanitar əməkdaşlıq məsələsini də qeyd etmək istərdim. Biz buna çox diqqət yetiririk və bu əməkdaşlığın yaxşı nəticələri vardır. Viktor Andreyeviç Azərbaycana bir səfərində bu istiqamətdə tərəqqi olduğunu və çox mühüm tədbirlərdə birgə iştirak etdiyimizi vurğulamışdır.

Mən bizim dəvətimizi qəbul edərək yenidən buraya səfər etdiyinə görə Ukrayna prezidentinə bir daha təşəkkürümü bildirmək, aparılmış danışıqlardan məmnunluğumu ifadə etmək

və ümidvar olduğumu bildirmək istəyirəm. Bizim müzakirə etdiyimiz və razılığa gəldiyimiz bütün məsələlər, əvvəlki illərdə olduğu kimi, dəqiq yerinə yetiriləcəkdir. Biz nəzərdə tutduqlarımızın hamısını yerinə yetirmişik. Bir daha xoş gəlmisiniz və ümid edirəm ki, Azərbaycan torpağında olmağınız Sizə çox xoş təsir bağışlayacaqdır.

## Ukrayna prezidenti Viktor Yuşşenkonun bəyanatı

Hörmətli İlham Heydər oğlu!
Hörmətli azərbaycanlı dostlar!
Xanımlar və cənablar!

Bugünkü danışıqların mahiyyətini İlham Heydər oğlu artıq şərh etdi. Mən mühüm və aktual hesab etdiyim bəzi məqamları xüsusi vurğulamaq istərdim.

Hər şeydən əvvəl, bu gün biz münasibətlərimizin strateji xarakter daşımasını bir daha təsdiqləyirik. 2009–2010-cu illər üçün Ukrayna–Azərbaycan əməkdaşlığına dair tədbirlər planının imzalanmasından başlayaraq bu gün nəzərdən keçirdiyimiz bütün məsələlər onu göstərir ki, bizim ikitərəfli münasibətlərimiz əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Biz indiyə qədər 27 müqavilə, rəsmi məlumat, memorandum imzalamışıq. Bu gün onların sırasına daha 8 ikitərəfli müqavilə və saziş əlavə etdik. Strateji xarakterli münasibətlərimiz daha geniş normativ-hüquqi baza əldə etdi.

Xüsusi vurğulamaq istəyirəm ki, münasibətlərimiz qarşılıqlı etimada əsaslanan konkret münasibətlərdir, buna görə də prezidentlərin hər bir görüşünün aktivində konkret nailiyyətlər olur. Biz dörd məsələyə xüsusi diqqət yetirdik. Birincisi ticarət-iqtisadi və energetika sahəsində münasibətlər blokudur. Energetika blokunu xüsusi vurğulamaq istərdim.

Bu gün biz bildiririk ki, AANND (Avrasiya Neft Nəqli Dəhlizi) barədə – Xəzər neftinin Avropa İttifaqı ölkələrinə nəqlini nəzərdə tutan layihəyə dair təqribən 2 il əvvəl başlanmış dialoqumuz əslində final mərhələsindədir. Aprelin 24-də Varşavada «Sarmatiya» birgə müəssisəsi idarə heyətinin işçi

iclasında Xəzər neftinin bütün marşrut üzrə nəql edilməsinin texniki-iqtisadi əsaslandırılması qəbul olunacaqdır. Biz bildiririk ki, çoxsaylı maneələrlə üzləşmiş bu layihə bu gün öz məntiqi sonuna yaxınlaşır.

Biz Azərbaycan qazının Avropa İttifaqı ölkələrinə göndərilməsi məsələsinin müzakirəsinə xüsusi diqqət yetirdik. Bu məsələdə Azərbaycan və Ukrayna ortaq mövqe ifadə edə bilərdi. Biz razılaşdıq ki, bu məsələyə dair müvafiq məsləhətləşmələr Xarici işlər nazirlikləri səviyyəsində aparılacaqdır.

Ticarət əlaqələri bizim münasibətlərimizdə mühüm məsələdir. Biz bu əlaqələrin dinamik inkişaf etməsini vurğulayırıq. Ticarət münasibətlərimiz azad rejimə əsaslanır. Hazırda qlobal iqtisadi böhranla əlaqədar baş verən proseslər, əlbəttə, ikitərəfli ticarət münasibətlərimizə də təsir göstərmişdir. Lakin biz hamımız başa düşürük ki, bu, müvəqqəti haldır. Ona görə də ticarət münasibətlərinin, o cümlədən 2009-cu ildə də inkişafına nikbin baxırıq.

Biz nəqliyyat və tranzit sahəsində əməkdaşlıq kimi məsələlərə də xüsusi diqqət yetirdik. Cənab Prezidentlə biz hazırda ikitərəfli ekspertlər səviyyəsində perspektivli layihə kimi müzakirə olunan bir variantı nəzərdən keçirdik. Söhbət hazırda Klaypedadan İliçevskə qədər işləyən «Vikinq» konteyner daşımaları marşrutunun İliçevskdən gəmi-bərə vasitəsilə Potiyə və Batumiyə qədər uzadılmasından gedir. Bu il biz Kerç–Poti–Batumi gəmi-bərə yolunu açacağıq. Beləliklə, bu konteyner daşımaları marşrutunun və hazırda Qara dəniz limanlarından Bakıya, oradan Almatıya və Mərkəzi Asiya ölkələrinə qədər işləyən marşrutun uyğunlaşdırılması məsələsinə baxılması iqtisadi cəhətdən məqsədəuyğun olardı.

Biz bu layihənin həyata keçirilməsində marağı olan ölkələrin müvafiq Nəqliyyat nazirlərinin himayəsi altında birgə təşəbbüslə çıxış edirik.

Biz «Şərq tərəfdaşlığı» və lap yaxın vaxtlarda, mayın 7-də Praqada keçiriləcək zirvə toplantısı məsələlərinə xeyli diqqət yetirdik. Biz bunu əsas götürürük ki, həmin zirvə toplantısının

vəzifəsi perspektivdə təkcə 6 ölkə ilə dialoq rejimini dürüst ifadə etmək deyil, həm də bu layihənin aydın məqsəd və vəzifələrini müəyyən etməkdir. Hesab edirik ki, bu layihə qarşıya elə vəzifə qoymalıdır ki, həmin 6 ölkəyə əvvəlcə ümumi sahəvi, regional layihələrə dair yaxınlaşma və inteqrasiya perspektivlərini görmək imkanı versin.

Biz İlham Heydər oğluna, Azərbaycan tərəfinə minnətdarıq ki, humanitar sahədə əməkdaşlığın zəruri olmasını bu cür aydın və həssaslıqla qəbul edirlər. İlham Heydər oğlunun Ukraynaya səfərləri kimi, mənim də Azərbaycana səfərlərimin, demək olar ki, hər biri təhsil, mədəniyyət sahələrində və bütövlükdə humanitar sahədə müxtəlif layihələrlə əlamətdar olur. Budəfəki rəsmi səfər çərçivəsində biz Ukraynanın Azərbaycandakı səfirliyinin bir müddət yerləşmiş olduğu binada xatirə lövhəsini açacağıq. Bu bizim tarixi münasibətlərimizin mühüm səhifəsidir. 1932–33-cü illərdəki Qolodomor barədə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin müvafiq qətnamələrini Azərbaycanın dəstəkləməsi bizim üçün çox vacibdir, prinsipial əhəmiyyəti vardır.

Bu gün bizim rəsmi nümayəndə heyətimizin tərkibində Təhsil Nazirliyinin nümayəndələri, ali məktəblərin rəhbərləri var. Sabah biz günün xeyli hissəsini bu məsələlərə həsr edəcəyik.

Danışıqlarımızın ayrıca bir bölməsi kosmos sahəsində əməkdaşlığa və hərbi-texniki əməkdaşlığa həsr edilmişdir. Qarşılıqlı hörmət şəraitinə, konstruktivliyə və ikitərəfli münasibətlərimizə xas olan ənənəvi etimada görə cənab prezident İlham Heydər oğluna, rəsmi danışıqlarda, Prezident Şurasının birinci iclasında Azərbaycan tərəfindən təmsil olunmuş əziz dostlara bir daha təşəkkür etmək istəyirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*«Gülüstan» sarayı*

*9 aprel 2009-cu il*

*Aprelin 9-da «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Ukrayna Respublikasının Prezidenti Viktor Yuşşenkonun və xanımı Katerina Yuşşenkonun şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident, hörmətli Ukraynanın birinci xanımı, əziz qonaqlar!

Mən dostum Viktor Andreyeviç Yuşşenkonu yenidən salamlamaqdan çox şadam. Bu gün biz ikitərəfli münasibətlərin inkişaf yolları haqqında çox geniş müzakirələr apardıq və belə bir ümumi qənaətə gəldik ki, ölkələrimiz arasında ikitərəfli strateji tərəfdaşlığın potensialını fəal surətdə inkişaf etdirməli və artırmalıyıq. Tarixdə bizim xalqlarımızı birləşdirən məqamlar çoxdur. Ukrayna və Azərbaycan xalqları əsrlər boyu dostluq və mehribanlıq şəraitində yaşamışlar. Xalqlarımızın mədəniyyətlərinin bir-birinə qarşılıqlı təsirinin xalqlarımızı, ölkələrimizi zənginləşdirməsinə aid çox misallar göstərmək olar. Çox fərəhli haldır ki, ölkələrimizin müstəqil suveren dövlətlər kimi inkişaf etdiyi dövrdə dostluq münasibətlərimiz möhkəmlənir, çox fəal siyasi dialoq aparılır. Təkcə Ukrayna və Azərbaycan prezidentlərinin səfərlərinin statistikasına nəzər salsaq görərik ki, bu münasibətlər ən dinamik münasibətlərdən biridir. Bu gün bizim fəal müzakirə etdiyimiz məsələlər

arasında qarşılıqlı siyasi əlaqələr, bu əlaqələrin dərinləşdirilməsi, iqtisadi kooperasiya, enerji təhlükəsizliyi, nəqliyyat məsələləri, sənayenin inkişafı, hərbi-texniki əməkdaşlıq və humanitar sahə ilə bağlı məsələlər vardır. Yəni, bizim gündəliyimiz çox genişdir. Hər bir istiqamət üzrə konkret fəaliyyət planı var və bu gün artıq o, qarşıdakı 2 ildə Ukrayna ilə Azərbaycan arasında birgə tədbirlər planının, «yol xəritəsinin» imzalanması ilə hüquqi cəhətdən rəsmiləşdirildi. Orada bizim fəal əməkdaşlıq edəcəyimiz bütün istiqamətlər, qərarların yerinə yetirilməsinin konkret müddətləri, konkret qrafiki göstərilmişdir.

Mənim bəhs etdiyim məsələlərin hər birinin böyük əhəmiyyəti vardır. Lakin regiondakı vəziyyət, enerji təhlükəsizliyi məsələləri təkcə bizim ölkələrimizdə deyil, bütövlükdə Avropa qitəsində daha çox maraq doğurur. İndi iqtisadi əməkdaşlıq məsələlərini enerji sahəsində əməkdaşlıqdan təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyildir. Hər bir ölkənin enerji təhlükəsizliyi yüksək diqqət yetirilən məsələdir. Azərbaycan regionun, Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə çalışır və inanıram ki, ötən illərdə bizim irəli sürdüyümüz və hazırda uğurla həyata keçirilən təşəbbüslər, habelə indi münasibətlərimizin ikitərəfli formatında fəal müzakirə etdiyimiz təşəbbüslər həyata keçirildiyi təqdirdə enerji bazarında vəziyyətin proqnozlaşdırılmasına, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların uzunmüddətli əməkdaşlığa əmin olmasına kömək edəcəkdir.

Bu gün biz enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsi baxımından ölkələrimiz üçün müstəsna əhəmiyyəti olan Odessa–Brodı–Plotsk–Qdansk layihəsini ətraflı müzakirə etdik. Təbii ki, neft və qaz hasil edən ölkə kimi, Azərbaycan bazarların şaxələndirilməsində öz maraqlarını görür. Buna görə də Odessa–Brodı–Plotsk–Qdansk layihəsi bizim üçün böyük maraq doğurur. Əlbəttə, tranzit ölkələr və istehlakçı ölkələr xammal mənbələrinin şaxələndirilməsinin müsbət cəhətlərini

görürlər və bu da tamamilə məntiqə uyğundur. Ona görə də bu istiqamətdə səylərin birləşdirilməsi və əlaqələndirilməsi, maraqların birləşdirilməsi uğurun rəhnidir. Deməliyəm ki, bu baxımdan Ukrayna və Azərbaycan rəhbərliyi arasında gələcəkdə bu istiqamətdə necə əməkdaşlıq etməli olduğumuz, bu əməkdaşlığın formatının nə dərəcədə geniş olması və iri beynəlxalq qurumların bu əməkdaşlıqda necə iştirak edə bilməsi, zəruri hallarda buna necə kömək edə bilməsi məsələlərində tam anlaşma var.

Energetika bizi yaxınlaşdıran yeganə sahə deyildir. Bu gün gündəlikdə duran çox geniş məsələləri də nəzərdən keçirdik. Onların arasında humanitar əməkdaşlıq məsələsini xüsusi qeyd etmək istərdim, çünki insanlar səviyyəsində əlaqələr olmasa, mədəni mübadilə olmasa gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın müsbət ruhunu qoruyub saxlamaq çətin olacaqdır. Bu gün mən də, Viktor Andreyeviç də mətbuat üçün bəyanatda bildirdik ki, bizim Ukraynaya və Azərbaycana səfərlərimizin, demək olar, hər biri ölkələrimizin və xalqlarımızın mədəni həyatında çox mühüm hadisələrlə bağlı olur. Mən Ukrayna xalqının böyük oğlu Taras Şevçenkonun Bakıda abidəsini birlikdə açdığımız günü çox səmimi hisslərlə xatırlayıram. Bu abidənin qoyulduğu bağça indi Bakının ən gözəl guşələrindən birinə, Ukrayna diasporu nümayəndələrinin və Bakı sakinlərinin toplaşdığı yerə çevrilmişdir. Bu cür misallardan çox göstərmək olar. Başlıcası odur ki, gələcəkdə biz bu sahəni heç vaxt unutmayaq.

Mən dəvətimi qəbul etdiyinə və bu gün buraya gəldiyinə görə Ukrayna prezidentinə dərin minnətdarlığımı bildirmək, aparılmış danışıqlardan, qəbul edilmiş qərarlardan məmnunluğumu ifadə etmək istəyirəm. Əminəm ki, bizim münasibətlərimizin praktikasında dəfələrlə olduğu kimi, bu qərarların da hamısı həyata keçiriləcəkdir.

Mən bu badəni Ukrayna prezidentinin, onun xanımının sağlığına, qardaş Ukrayna xalqının sağlığı və firavanlığı şərəfinə qaldırmaq istəyirəm!

## Ukrayna prezidenti Viktor Yuşşenkonun çıxışı

Çox hörmətli İlham Heydər oğlu!

Ölkənin çox hörmətli birinci xanımı!

Xanımlar və cənablar!

İlham Heydər oğlu keçirdiyimiz bu günü, münasibətlərimizin xüsusiyyətlərini o qədər ətraflı səciyyələndirdi ki, mən öz çıxışımı prinsipcə aşağıdakı kimi qura bilərdim: «Sonda demək istəyirəm ki, gəlin bu badəni böyük xalqlarımızın şərəfinə, Azərbaycan Respublikasının şərəfinə, Ukrayna dövlətinin şərəfinə qaldıraq». Bu daha düzgün olardı.

Ancaq hər halda, mən deyilənlərin davamı olaraq bir neçə kəlmə bəzi fikirlərimi söyləmək istəyirəm.

Mən fəxr edirəm ki, 2 il tamam olmamış biz AANND adlanan layihənin sonuncu mərhələsinə çatmışıq. 18 ay əvvəl 5 prezident ilk addım kimi, siyasi saziş imzalamışdı. İndi isə deyirik ki, 12 gündən sonra «Novaya Sarmatiya» müştərək müəssisəsinin Varşavada keçiriləcək iclasında bu layihəyə dair texniki-iqtisadi əsaslandırma qəbul ediləcəkdir. Beləliklə, asan olmayan layihənin siyasi niyyətdən reallaşdırılmayadək yolunda nöqtə qoyulur. Ona görə asan layihə deyil ki, siyasət olmasaydı, bu layihə çoxdan həyata keçirilərdi.

Lakin təəssüf ki, energetika sahəsində münasibətlərdən danışanda çox sərtləşən siyasət bu layihənin həyata keçirilməsində tez-tez ciddi, bizdən asılı olmayan əngələ çevrilirdi. Biz cənab Prezidentlə başa düşürük ki, bu cür layihə bir aya və hətta bir ilə də ərsəyə gəlmir. Düşünürəm, 24 ay ərzində bu layihənin reallaşdırılmasına yaxınlaşa bilməmiz gözəl nəticədir.

Biz danışmışıq və Klaypedadan İliçevskə konteyner daşımalarını uğurla təmin edən «Vikinq» layihəsi üzrə təşəbbüsü əslində dürüstləşdirmişik. İnişil İliçevskdən bu marşrutu Potiyədək, Batumiyədək davam etdirdik, bu il də Kerçdən Potiyə, Batumiyədək davam etdirəcəyik. Bu gün biz razılığa gəldik ki, bu tranzit layihəsi Gürcüstan–Azərbaycan–

Qazaxıstan, Poti–Batumi–Bakı–Almatı tranzit layihəsi ilə ahəngdarlığını tapacaqdır.

Şübhə etmirəm ki, az vaxt ötəcək və biz müvafiq nazirliklər, idarələr səviyyəsində tariflərin də, sığorta ödənişlərinin də, gömrük ödənişlərinin də, anbar xərclərinin də, yükləmə-boşaltmanın da idarə olunmasının uyğunlaşdırılmasına nail ola biləcəyik, bu marşrut ahəngdar şəkil alacaq və o, «Vikinq» layihəsi kimi səmərəli olacaqdır.

Bizim bu gün çox diqqət yetirdiyimiz hərbi-texniki əməkdaşlıqdan danışmaq olar. Artıq deyildiyi kimi, humanitar sahədə əməkdaşlıqdan danışmaq olar. Düşünürəm ki, biz 17-18 ildir müstəqillik şəraitində yaşayan ölkələrimiz üçün ən mühüm layihələrdən danışırıq. 18 il ərzində təkcə dövlətə deyil, həm də regional münasibətlərə xas olan münasibətlər sistemini qurmaq çətindir. 18 il az vaxtdır. 18 il ərzində insanı tərbiyə etmək olmaz, biz isə dövlətin təşəkkülündən danışırıq.

İlham Heydər oğlu, ona görə də bu gün Sizinlə haqqında çox danışdığımız məsələlər – razılığa gəldiyimiz məsələlərə qarşılıqlı surətdə sadiq qalmağın və onlara görə məsuliyyət daşımağın nə qədər vacib olması mənim üçün çox həssas məqamdır. Bizim siyasətçilərimiz arasında, biznesmenlərimiz arasında, insanlarımız arasında münasibətlərin gözəl tarixi var və buna görə də biz əlaqələrimizdə insani səviyyədə münasibətlərə xüsusi yer veririk. Biz təhsildən danışırıq, mədəniyyət sahəsində münasibətlərdən danışırıq, biz hər iki ölkədə abidələr qoyulması, milli mədəniyyət günləri və ya illəri mübadiləsi haqqında danışırıq.

Əminəm ki, əsl münasibətlər bu zəmində qurulur. Sonra iqtisadiyyat, ticarət və bütün başqa şeylər gəlir. İnsanlarımız arasında, xalqlarımız arasında münasibətlərin gözəl ənənəsi var. Bəlkə bugünkü əhval-ruhiyyəni, ab-havanı bu ənənə müəyyənləşdirir. Çünki bugünkü gün bizə dəqiq və aydın şəkildə deyir: biz bir-birimizə sadiqik, qarşımızda çox böyük ümumi məqsədlər durur, bizim aramızda ciddi ziddiyyətlər, fikir ayrılığı yoxdur. Aramızdakı etimad elə səviyyədədir ki,

qarşılıqlı milli dövlət siyasətini – bu və digər millət üçün səciyyəvi olan həssas məsələlərə çox həssaslıqla reaksiya verən siyasəti qurmağa imkan verir. Mən nəyi nəzərdə tuturam? Onu nəzərdə tuturam ki, Dağlıq Qarabağda siyasətdən, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində qəbul olunan məsələlərdən söhbət gedəndə, Ukrayna dost Azərbaycanı bu məsələdə dəstəkləməkdən başqa, ayrı bir variantın olması barədə heç düşünmədi də.

Zənnimcə, siz sadəlövh deyilsiniz və başa düşürsünüz ki, Ukraynanın mövqeyinin başqa cür olmasını arzulayanlar nə qədər idi. Mən qəti əminəm ki, bu, Azərbaycanın dostları kimi, bizim öz dostlarımıza – respublikanın prezidentinə də, respublikanın xalqına da göndərməli olduğumuz işarədir.

Hörmətli İlham Heydər oğlu, Baş Məclisdə mənim millətim, mənim xalqım üçün heç də az həssas olmayan məsələ – 1932–33-cü illər Qolodomoru barədə məsələ qaldırılanda Sizin də, Azərbaycanın da münasibətini biz bu cür hörmətlə qarşılayırıq. Bu isə, insani səviyyədə, mən heç siyasi səviyyədə demirəm, çox yüksək qiymətləndirilir.

Ona görə də çıxışımın sonunda demək istəyirəm, mən fəxr edirəm ki, Azərbaycanın inkişafı, möhkəmlənməsi üçün bu mühüm, nadir bir vaxtda ölkəsini daim müsbət qiymətləndiriləcək bir yolla aparan Azərbaycan prezidenti İlham Heydər oğlu kimi dostum vardır. Fəxr edirəm ki, Ukrayna xalqının Azərbaycan xalqı kimi dostu vardır. Şadam ki, bizim hökumətlərimiz, nazirliklərimiz, idarələrimiz, regional hakimiyyətlərimiz arasında da səmimi dostluq münasibətləri vardır.

Buna görə də sonda nitqimin əvvəlində söylədiyim sözləri təkrar etmək istəyirəm. Demək istəyirəm ki, biz Azərbaycanın şərəfinə, Azərbaycan prezidentinin şərəfinə, Ukraynanın şərəfinə və dostluğumuzun şərəfinə badə qaldırırıq!

## 1919–20-ci İLLƏRDƏ UKRAYNANIN AZƏRBAYCANDAKI XÜSUSİ DİPLOMATİK MİSSİYASININ YERLƏŞDİYİ BİNADA XATİRƏ LÖVHƏSİNİN AÇILIŞI

*10 aprel 2009-cu il*

*Aprelin 10-da Bakıda 1919–20-ci illərdə Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki xüsusi diplomatik missiyasının yerləşdiyi binada – İstiqlaliyyət küçəsi, 31 ünvanında xatirə lövhəsinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Ukrayna prezidenti Viktor Yuşşenkonu binanın önündə qarşıladı və ali qonağa şəhərin bu hissəsində yerləşən binalar, o cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin binası, metronun «İçərişəhər» stansiyası, habelə qala divarları haqqında məlumat verdi.*

*Prezidentlər Ukrayna heykəltəraşı İqor Qreçanikin müəllifi olduğu və üzərində Azərbaycan və Ukrayna dillərində* «1919–1920-ci illərdə bu binada Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki xüsusi diplomatik missiyası yerləşmişdir» *sözləri yazılmış lövhənin üstündən örtüyü götürdülər.*

*Xatirə lövhəsinin üzərində Azərbaycanın və Ukraynanın dövlət gerblərinin təsviri əks olunmuşdur.*

*Ukrayna Xalq Respublikasının Bakıdakı ilk xüsusi diplomatik missiyasının rəhbəri İvan Kraskovski 1919-cu il fevralın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, eyni zamanda, Xarici İşlər naziri olan Fətəli xan Xoyskiyə etimadnaməsini təqdim etmişdi.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Kamen-Pomorski şəhərindəki sosial sığınacaqda baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, bütün Polşa xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 aprel 2009-cu il*

## *bp*–AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ BİLL ŞREDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də bp – Azərbaycan şirkətinin prezidenti Bill Şrederin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*bp-nin 100 illik yubileyi münasibətilə təbriklərini çatdıran prezident İlham Əliyev bu tarixi günü təkcə bp-nin həyatında deyil, bütövlükdə neft sənayesinin tarixində əlamətdar gün kimi dəyərləndirdi. Dövlətimizin başçısı bildirdi ki, ötən dövr ərzində bp dünyanın aparıcı şirkətlərindən birinə çevrilmiş və özünü səriştəli şirkət kimi göstərmişdir. Azərbaycanın bp şirkəti ilə 15 illik uğurlu əməkdaşlığına toxunan prezident İlham Əliyev qarşılıqlı fayda verən bu tərəfdaşlığın ümumilikdə Xəzər regionunda əməkdaşlıq üçün geniş imkanlar açdığını dedi. Dövlətimizin başçısı Azərbaycanın bp şirkəti ilə əməkdaşlığını dünyanın nüfuzlu şirkəti ilə dövlət arasında əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Prezident dedi ki, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan yalnız müstəqillik əldə etdikdən sonra öz sərvətlərinin sahibi kimi, bu sərvətləri xalqımızın və ölkəmizin rifahı istiqamətinə yönəldə bildi, ölkəmiz regionda və eləcə də dünyada enerji sahəsində əməkdaşlığa öz töhfəsini verdi. Dövlətimizin başçısı neft gəlirlərindən səmərəli istifadə etməklə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə nail olunduğunu və regionlarda mühüm infrastruktur layihələrinin reallaşdırıldığını vurğuladı. Ölkəmizdə bütün sahələrdə uğurlu islahatların*

*həyata keçirildiyini xatırladan prezident İlham Əliyev bu islahatların 1994-cü ilin sentyabrın 20-də imzalanmış «Əsrin müqaviləsi» ilə başlandığını bildirdi. Yubiley münasibətilə bir daha təbriklərini çatdıran prezident İlham Əliyev Azərbaycanın dövlət strukturları və şirkətləri ilə bp arasında olan yaxşı tərəfdaşlıq ruhunun gələcəkdə də qarşılıqlı maraqlara xidmət edəcəyinə əminliyini söylədi.*

*Bill Şreder bp-nin yubileyi münasibətilə Azərbaycan prezidenti İlham Əliyevlə görüşlərindən məmnun olduqlarını dedi. O, Azərbaycanın neft sənayesinin böyük tarixinin olduğunu, ölkəmizin bu sahədə son 15 ildə mühüm nailiyyətlər qazandığını və bp şirkətinin də bu inkişafda payı olmasından böyük şərəf duyduqlarını qeyd etdi. Bill Şreder bildirdi ki, Azərbaycan bp şirkəti ilə əməkdaşlıq edən elə ölkələrdəndir ki, şirkətin icraçı direktoru Toni Heyvard və icraçı vitse-prezidenti Endryu İnqlis həmişə Azərbaycanı dünyada əsl uğur modeli kimi dəyərləndirmişlər. O, bp şirkətinin Azərbaycanla uğurlu əməkdaşlığının bundan sonra da davam edəcəyinə əminliyini bildirdi.*

# GƏNC TAMAŞAÇILAR TEATRININ BİNASINDA APARILMIŞ BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*13 aprel 2009-cu il*

*Aprelin 13-də Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının binasında aparılmış bərpa və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə teatrın binasının əvvəlki və indiki görünüşünü, eləcə də bərpa işlərinin gedişini əks etdirən şəkillərə baxdılar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, ölkəmizin teatr tarixində özünəməxsus yeri olan Gənc Tamaşaçılar Teatrının binasında bərpa və yenidənqurma işlərinə 2006-cı ilin noyabrında başlanılmış, prezidentin 2007-ci il 19 fevral tarixli müvafiq Sərəncamından sonra geniş vüsət almışdır. Sərəncama uyğun olaraq yeni layihə, təklif və eskizlər hazırlanmışdır. Dövlətimizin başçısının 2007-ci il avqustun 15-də burada vəziyyətlə tanış olmasından sonra işlər xüsusilə sürətlənmişdir.*

*Binanın bütün elektrik və su xətləri, istilik və havalandırma sistemləri tamamilə yeniləşdirilmişdir. 360 yerlik əsas tamaşa salonu tamamilə yeni görkəm almışdır. Teatrda əlavə 40 yerlik kiçik tamaşa salonu və 2 məşq salonu da yaradılmışdır. Təmir-bərpa işlərindən sonra teatrda eyni vaxtda 82 nəfərə xidmət edəcək 21 qrim otağı fəaliyyət göstərəcəkdir. Bütün otaqlar internet, kompyuter şəbəkələri, telefon rabitəsi və digər kommunikasiya sistemi ilə təchiz edilmişdir.*

*Quraşdırılmış 4 kameradan ibarət videoçəkiliş sistemi tamaşaların lentə alınmasına və canlı yayımına imkan verəcəkdir.*

*Dövlət başçısına teatrda quraşdırılmış avadanlığın imkanları nümayiş etdirildi. Səhnədəki monitorda Azərbaycanın turizm potensialını əks etdirən videokadrlar nümayiş olundu.*

*Spayder sistemində xüsusi şüşə və metal konstruksiyadan yığılan altıncı mərtəbədə qış bağı, kafe və çayxana fəaliyyət göstərəcəkdir. Binanın baş fasadı da spayder sistemi əsasında qurulmuşdur. Yenidənqurma işləri zamanı ABŞ, Böyük Britaniya, İtaliya, İsrail, Çexiya, Türkiyə, Rusiya və digər ölkələrin avadanlıq və sistemlərindən, ən son texnologiyalarından istifadə olunmuşdur.*

*Bildirilmişdir ki, bundan sonra Azərbaycan Dövlət Gənclər Teatrı və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrlarının kollektivləri birləşərək, yeni binada bir kollektiv kimi çalışacaqlar. Bu il 80 yaşı tamam olan Gənc Tamaşaçılar Teatrı cari ilin yayında Kazan şəhərində türkdilli xalqların beynəlxalq teatr festivalında Ə.Haqverdiyevin «Pəri cadu» tamaşası ilə çıxış edəcəkdir. Cari mövsümdə teatr «Şeyx Sənan», «Aydın», «Hekayəti-xırs quldurbasan» və sair tamaşaları, uşaqlar üçün «Yatmış gözəl» nağıl-tamaşasını göstərəcəkdir.*

*Prezident İlham Əliyev teatrın binasından paytaxtın mənzərəsini seyr etdi, yenidənqurma işlərini yüksək səviyyədə həyata keçirən inşaatçılarla görüşdü və onlara minnətdarlığını bildirdi.*

## DÖVLƏT FİLM FONDUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ

*13 aprel 2009-cu il*

*Aprelin 13-də Azərbaycan prezidenti İlham Əliyev Dövlət Film Fondunun yeni binası ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə binanın foyesində ulu öndər Heydər Əliyevin Azərbaycanda mədəniyyətin, o cümlədən kino sənətinin inkişafındakı xidmətlərini əks etdirən fotoguşəyə, habelə Dövlət Film Fondunun tikintisi ilə bağlı şəkillərə baxdılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ümumi sahəsi təxminən 6,6 min kvadratmetr olan binanın birinci mərtəbəsində texniki avadanlıqla təchiz edilmiş inzibati otaqlar, laboratoriya, 120 yerlik salon və yardımçı otaqlar yerləşir. Bu mərtəbədə dünya kinosunun tarixini özündə əks etdirən kinokameralar, o cümlədən 1902-ci ilin istehsalı olan «Edisson» kinoproyektoru, 1910-cu ildə istehsal olunan «Debri» kinokamerası, habelə «Kaspi» qəzetinin Azərbaycan kinosunun tarixi baxımından qiymətli yazının dərc olunduğu nadir nüsxəsi və sair nümayiş etdirilir.*

*Dövlət Film Fondunda ümumilikdə 64 min 373 ədəd saxlanma vahidi, 10 mindən çox müxtəlif arxiv sənədləri, Azərbaycanda istehsal edilmiş filmlər saxlanılır. Burada xüsusi temperatur rejimi tətbiq olunur. Mənfi 5 dərəcədə qorunub saxlanan filmlərin təhlükəsizliyi də diqqətdə saxlanılır. Fondda siqnalizasiya və videomüşahidə sistemi qurulmuşdur. Ən qədim tarixi olan filmlərin qorunması məqsədi ilə xüsusi boks yaradılmışdır. Onların sayı təxminən 1000 ədəddir. Bundan əlavə, indiyə qədər Rusiya arxivlərində saxlanılan 30-a qədər*

*Azərbaycan filminin nüsxələri Bakıya gətirilmiş və onlar fondun arxivinə daxil edilmişdir.*

*Fondda kino tarixi ilə bağlı 12 mindən çox foto qorunur. Fotoarxivə dünyanın müxtəlif yerlərində istehsal edilən filmlərin fotoşəkilləri də daxil edilmişdir. Fondun əməkdaşları bu şəkilləri 2 ilə yaxın müddətdə şəxsi arxivlərdən yığmışlar. Ötən əsrin 60-cı illərindən 90-cı illərin ortalarınadək istehsal edilən 3500 ekran əsərindən çıxarılan fotolar üzərində bərpa işləri aparılmışdır. Bu arxivə Avropa və Amerikada istehsal edilən filmlərlə yanaşı, Baltikyanı ölkələrdə çəkilən filmlərin fotoşəkilləri də daxil edilmişdir.*

*Prezident İlham Əliyev videomontaj və bərpa otaqlarında yaradılmış şəraitlə tanış oldu.*

*Fondda 60 əməkdaş çalışır. Burada onların işinin daha səmərəli qurulması üçün yeni texnikalar alınmışdır.*

*Dövlət Film Fondunda görülən işlər Azərbaycan kinosu incilərinin daha mükəmməl və etibarlı qorunmasına imkan verir. Burada kino tarixi ilə bağlı tədqiqatların aparılması üçün də lazımi şərait vardır.*

*Yaxın gələcəkdə «Azərbaycanfilm»in binasında və çəkiliş pavilyonlarında təmir və yenidənqurma işlərinin aparılması, kinostudiyanın texniki avadanlıqlarla təchiz olunması planlaşdırılır.*

# İSVEÇRƏNİN HOLSİM GROUP ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ DİREKTORU MARKUS AKERMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də İsveçrənin nüfuzlu Holsim Group şirkətinin İdarə Heyətinin sədri və Baş direktoru Markus Akermanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı dünyadakı maliyyə böhranına baxmayaraq, Azərbaycanda sürətli iqtisadi inkişaf proseslərinin davam etdiyini, ölkəmizdə yeni iş yerlərinin açılması, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl tədbirlərin görüldüyünü bildirdi. Prezident İlham Əliyev xarici sərmayənin cəlb olunması və xarici şirkətlərin fəaliyyəti üçün ölkəmizdə əlverişli şəraitin yaradıldığını dedi. Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayan dövlətimizin başçısı Holsim şirkəti ilə tərəfdaşlığın da böyük əhəmiyyət daşıdığını qeyd etdi və bunun Azərbaycan–İsveçrə iqtisadi əlaqələrinin genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*Dünyanın 70-dən çox ölkəsində çalışdıqlarını xatırladan Holsim Group şirkətinin İdarə Heyətinin sədri və Baş direktoru Markus Akerman Azərbaycandakı fəaliyyətlərindən məmnunluğunu bildirdi. O dedi ki, Holsim Group şirkəti yeni texnologiyalar gətirmək, ətraf mühitin mühafizəsi işinə sərmayə qoymaq və yüksək keyfiyyətli məhsul istehsal etməklə Azərbaycandakı sürətli inkişafı dəstəkləmək arzusundadır. Azərbaycanda əlverişli investisiya mühitinin olduğunu deyən Markus Akerman rəhbərlik etdiyi şirkətin ölkəmizdə gələcəkdə də fəaliyyət göstərəcəyinə əminliyini bildirdi.*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Əlcəzair arasında tarixən təşəkkül tapmış dostluq ənənələrini qoruyub yaşatmaq, əməkdaşlığımızı bütün sahələrdə inkişaf etdirmək istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Əlcəzair xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2009-cu il*

## «QARADAĞ SEMENT» ASC-də YENİDƏNQURMA LAYİHƏSİNİN TƏQDİMATI VƏ YENİ SOBANIN TƏMƏLQOYMA MƏRASİMİ

*14 aprel 2009-cu il*

*Aprelin 14-də «Qaradağ Sement» ASC-də müəssisənin yenidənqurma layihəsinin təqdimatı və yeni texnologiya əsasında işləyəcək sobanın təməlqoyma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyevə əvvəlcə müəssisə və onun yenidən qurulması layihəsi haqqında ətraflı məlumat verildi. Bildirildi ki, «Qaradağ Sement» ASC 1951-ci ildə istifadəyə verilmiş və 1999-cu ildə özəlləşdirilmiş Qaradağ sement zavodunun bazasında yaradılmışdır. Hazırda müəssisənin səhmlərinin 69,4 faizi İsveçrənin Holsim şirkətinə, 10 faizi Azərbaycan İnvestisiya Şirkətinə, 10 faizi Avropa Yenidənqurma və İnkişaf Bankına, 10,6 faizi isə minə yaxın fiziki şəxsə məxsusdur.*

*Son 10 ildə görülmüş modernləşdirmə işləri nəticəsində «Qaradağ Sement» Azərbaycanda yüksək keyfiyyətli, həm yerli, həm də beynəlxalq standartlara cavab verən məhsul və xidmətlər təklif edən müəssisəyə çevrilmişdir. Daxili tələbatın əksər hissəsini ödəyir. Burada istehsal edilən sementdən irimiqyaslı tikinti işlərində istifadə olunur. Müəssisə ildə 1,3 milyon ton sement istehsal edir.*

*«Qaradağ Sement» ASC yeni texnologiyaların tətbiqi, ətraf mühitə təsirin azaldılması və istehsalı artırmaq istiqamətində tədbirlər görür. Yeni texnologiyalı sobanın inşası da belə*

*layihələrdəndir. Layihə çərçivəsində əsas tikinti işlərinə başlanılmışdır. Quru istehsal texnologiyası müasir dövrdə sement sənayesində ən qabaqcıl texnologiya hesab olunur. Yanacağa qənaətə və ətraf mühitə minimum təsirinə görə Avropa məkanında məhz bu texnologiyaya üstünlük verilir. Ümumi dəyəri təqribən 400 milyon dollar olan bu layihə Azərbaycanın qeyri-neft sektorunda ən böyük layihələrdən biri olacaqdır. Müəssisədə yenidənqurma işləri 2011-ci ildə başa çatacaqdır. Yeni sobada gündə 4 min ton klinker istehsal ediləcəkdir. Yenidənqurmadan sonra klinker istehsalı ildə 0,8 milyon tondan 1,2 milyon tona, sement istehsalı isə 1,3 milyon tondan 1,7 milyon tona çatdırılacaqdır. Bütövlükdə zavodun illik istehsal gücü təxminən 31 faiz artacaqdır. Yeni texnologiya atmosferə buraxılan tullantıların əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaq və müəssisənin fəaliyyətinin ətraf mühitə təsirini azaldacaqdır. Eyni zamanda, elektrik enerjisi sərfinin 50 faizdən azalacağı gözlənilir.*

*Prezident İlham Əliyev zavodun yenidənqurmadan sonrakı vəziyyətini əks etdirən maketə baxdı.*

*Sonra yeni sobanın təməlqoyma mərasimi oldu. Dövlətimizin başçısı gilizi təmələ qoydu, özülə beton qarışığı töküldü.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Bu gün biz yeni, böyük sement zavodunun təməl daşını qoyduq və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu əlamətdar hadisə bir də onu göstərir ki, Azərbaycan çox uğurla inkişaf edir, ölkəmizdə bütün sahələrdə iqtisadiyyat güclənir. Xüsusilə indiki böhran şəraitində Azərbaycanda xarici sərmayələrlə yeni, böyük, 300 milyon avrodan artıq dəyəri olan sement zavodunun təməlinin qoyulması çox böyük hadisədir. Bu onu göstərir ki, Azərbaycan dövləti xarici investisiyaların cəlb edilməsi üçün əlavə tədbirlər görür. Bu həm də onun göstəricisidir

ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün çox gözəl imkanlar var və tikiləcək sement zavodunun timsalında biz bunu görürük.

Azərbaycan etibarlı tərəfdaşdır. Bu layihədə əsas rolu oynayan İsveçrənin tanınmış Holsim şirkəti artıq 10 ilə yaxındır ki, Azərbaycanda işləyir, fəaliyyət göstərir. 10 ildən sonra yeni layihənin həyata keçirilməsi üçün görülən işlər onu göstərir ki, Azərbaycan xarici sərmayələrin qoyuluşu üçün, sözün əsl mənasında, çox gözəl bir yerdir. Bu layihə müştərək layihədir. Qeyd etdiyim kimi, burada əsas aparıcı rolu Holsim şirkəti oynayır. Avropa Yenidənqurma və İnkişaf Bankı layihədə həm investor, həm də maliyyə mənbəyinin təşkili ilə bağlı çıxış edən qurum kimi fəaliyyət göstərir. Azərbaycan İnvestisiya Şirkəti layihədə öz payına malikdir və bu da çox gözəl əlamətdir. Bir müddət əvvəl yaradılmış Azərbaycan İnvestisiya Şirkəti məhz belə layihələrin həyata keçirilməsi üçündür və Azərbaycana lazım olan sahələrə investisiyaların cəlb edilməsi ilə məşğuldur. Əminəm ki, Azərbaycan İnvestisiya Şirkətinin belə böyük layihədə iştirak etməsi onun gələcək fəaliyyəti üçün də çox yaxşı təcrübə olacaqdır.

Bir sözlə, bütün bu gözəl mənzərə – yəni həm xarici şirkətlərin marağı, beynəlxalq maliyyə qurumlarının Azərbaycana böyük məbləğdə kreditlər ayırması, həm də yerli şirkətlərin bu işlərdə iştirakı – bu zavodun tikintisində podratçı şəklində çoxsaylı yerli şirkətlər də iştirak edəcəkdir – bir də onu göstərir ki, Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar, sənayeləşdirmə siyasəti və inkişafla bağlı bütün görülən tədbirlər öz nəticəsini verməkdədir.

Bu ən müasir texnologiyalara malik olacaq zavodda çoxsaylı yerli vətəndaşlar işləyəcəklər. Həm zavodun tikintisində, həm də sonra istismarında Azərbaycan vətəndaşları işləyəcək . Bildiyiniz kimi, son 5 il ərzində Azərbaycanda 766 min yeni iş yerləri açılmışdır ki, onların 547 mini daimi iş yerləridir. Azərbaycanda qeyri-neft sektorunun inkişafında bu zavodun böyük rolu olacaqdır.

Böyük qürur hissi ilə deyə bilərəm ki, böhrana baxmayaraq, bu ilin birinci rübündə Azərbaycanda qeyri-neft sektoru 14 faiz artıbdır.

Dünyada iqtisadiyyat tənəzzülə uğrayır, sənaye istehsalı aşağı düşür. Ölkələr çətin vəziyyətə düşür, xarici maliyyə yardımına ehtiyacları artır. Ancaq Azərbaycan həm maliyyə baxımından, həm də yerli resurslar baxımından özünü təmin edən ölkədir. İqtisadi inkişaf baxımından birinci rübdəki artım bir daha göstərir ki, bizim ölkəmiz uzunmüddətli inkişaf strategiyasını düzgün seçibdir. Aparılan iqtisadi islahatlar Azərbaycana böyük mənfəət gətiribdir.

2008-ci ilin yekunlarına görə Dünya Bankı Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi təqdim edibdir. Bu, Azərbaycanda görülən işlərin bariz nümunəsidir. Ən gözəl nümunə görülən işlər, tikilən zavodlar, fabriklər, açılan iş yerləridir. Bir daha demək istəyirəm ki, bizim bütün səylərimiz buna yönəldilibdir. Əgər əvvəlki illərdə bəziləri bizim uğurlarımızı daha çox enerji amili ilə, neft amili ilə bağlayırdısa, artıq bu gün hər kəsə bəllidir ki, uğurların əsas səbəbi düşünülmüş siyasət, iqtisadi islahatlar, siyasi islahatlar, xarici şirkətlərlə uğurlu əməkdaşlığımızdır.

Bir daha demək istəyirəm ki, bu zavodun tikintisinin çox böyük mənası var. Hər bir müəssisənin tikintisi məni sevindirir, ancaq belə nəhəng – həm maliyyə baxımından, həm istehsal gücü baxımından nəhəng, dünya miqyaslı zavodun tikintisi, özü də böhranlı bir durumda xüsusi məna daşıyır. Əminəm ki, siz də mənim fikirlərimə şəriksiniz.

Biz artıq sübut etmişik ki, öz gücümüzlə yaşaya və sürətlə inkişaf edə bilərik. Son 5 il ərzində – 2004–2008-ci ildə Azərbaycandakı iqtisadi inkişaf heç bir başqa ölkədə olmamışdır. 5 ildə iqtisadiyyat 2,6 dəfə artıb, büdcə xərcləri 10 dəfədən çox artıbdır. Yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşübdür. İşsizliklə bağlı problemlərin böyük əksəriyyəti öz həllini tapıbdır. Azərbaycanda böyük infrastruktur layihələri icra olunur.

Bu zavodun tikintisi onu göstərir ki, Azərbaycanın gələcəyinə, iqtisadiyyatın inkişafına xarici investorlar tərəfindən böyük inam var. Biz elə etməliyik ki, sement istehsalı da Azərbaycanın tam tələbatını ödəsin. İndi biz idxaldan asılıyıq, amma bu zavodun tikintisi, digər

zavodların tikintisi bu asılılığı azaldacaq və  vaxt gələcək, sement istehsalı ölkənin bütün tələbatını təmin edəcəkdir.

Hazırda illik tələbat, istehlak olunan sementin həcmi 3,7 milyon tondur. Gələcəkdə bu artacaq və biz bu artıma hazır olmalıyıq. Bugünkü gün həm də ona görə əlamətdardır ki, Azərbaycanda həyata keçirilən nəhəng tikinti-quraşdırma, infrastruktur layihələri artıq bütün iqtisadiyyata təkan veribdir. Daha çox dövlət investisiyaları hesabına tikilən yollar, körpülər, binalar, müəssisələr tikinti sektorunun inkişafına böyük təkan verir, tələbat artır. Əgər bu infrastruktur layihələri olmasaydı, Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etməsəydi, bəlkə də bu zavod tikilməzdi. Yaxud da ki, 10 ildən sonra tikilərdi. Bu gün isə buna tələbat var. Xarici şirkətlər hər şeyi düzgün ölçüb-biçirlər. Onlar öz maliyyə proqramlarını çox böyük təhlildən sonra icra edirlər. Holsim kimi transmilli şirkətin müxtəlif ölkələrdə zavodları da var, fəaliyyəti də var. Azərbaycanın bir prioritet ölkə kimi onlar tərəfindən seçilməsi göstərir ki, Azərbaycana inam böyükdür. Mən çox şadam ki, bu gözəl gündə biz zavodun təməlinin qoyulmasında bərabər iştirak edirik. Əminəm ki, bu, Azərbaycanın dünya birliyinə, dünya iqtisadiyyatına inteqrasiya proseslərinə güclü təkan verəcəkdir.

Əziz dostlar, mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Layihədə iştirak edən bütün şirkətlərə uğurlar arzulayıram. Mənə verilən məlumata görə, zavodun  fəaliyyətə başlaması 2 ildən sonra nəzərdə tutulur. Əminəm ki, zavod yüksək keyfiyyətlə və vaxtında tikiləcək və biz sizinlə bərabər onun açılışında iştirak edəcəyik.

Bir daha sizi təbrik edir, sizə yeni-yeni uğurlar arzulayıram.

## İRAQIN TURİZM VƏ TARİXİ ABİDƏLƏR NAZİRİ KAHTAN ABBAS NOMAN ƏL-CUBURİ ALAVADİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də İraqın Turizm və Tarixi Abidələr naziri Kahtan Abbas Noman əl-Cuburi Alavadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın İraqla münasibətlərin inkişaf etdirilməsində və fəal əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirdi. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan prezident İlham Əliyev əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, İraqın Turizm və Tarixi Abidələr nazirinin başçılıq etdiyi nümayəndə heyətinin səfəri iki ölkənin müvafiq qurumları arasında əməkdaşlıq imkanlarını nəzərdən keçirmək və Azərbaycanla tanışlıq baxımından əhəmiyyətli olacaqdır.*

*İraqın Turizm və Tarixi Abidələr naziri Kahtan Abbas Noman əl-Cuburi Alavadi İraq prezidenti Cəlal Təlabaninin və Baş nazir Nuri əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq İraqın çətin vaxtlarında Azərbaycan xalqının göstərdiyi dəstəyi minnətdarlıq hissi ilə xatırlatdı. Kahtan Abbas Noman əl-Cuburi Alavadi Azərbaycanın və İraqın*

*turizm və tarixi abidələr sahəsində əməkdaşlığını müzakirə etmək üçün bu səfərin yaxşı imkan yaratdığını söylədi.*

*Dövlətimizin başçısı İraq prezidenti Cəlal Tələbaninin və Baş nazir Nuri əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KQALEMA PETRUS MOTLANTEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Azadlıq günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2009-cu il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2009-cu il*

## ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma gününüz münasibətilə şəxsən öz adımdan və Azərbaycan xalqı adından Sizə ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Vatikan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim ümumbəşəri dəyərlərin, insanlar arasında qarşılıqlı anlaşmanın və həmrəyliyin bərqərar olmasına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali xidmətinizdə uğurlar, həmməzhəblərinizə sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2009-cu il*

## NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

Ülyahəzrət!

Niderlandın milli bayramı – Kraliça günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Niderland münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, əlaqələrimizi hərtərəfli inkişaf etdirmək, dostluq və əməkdaşlığımızı möhkəmləndirmək istiqamətində bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 aprel 2009-cu il*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də ABŞ Dövlət katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə müşaviri, ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

*16 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Moskvaya işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Aprelin 16-da Azərbaycan prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Moskvanın «Vnukovo-2» hava limanında Azərbaycan dövlətinin başçısını və onun xanımı Mehriban Əliyevanı Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*Moskva*

*17 aprel 2009-cu il*

*Aprelin 17-də Rusiya prezidentinin Moskva ətrafındakı Barvixa iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.*

**Dmitri Medvedev** (*RF Prezidenti*): Hörmətli İlham Heydər oğlu, Sizi bir daha salamlayıram. Bizim aramızda yaxşı münasibətlər yaranmışdır: müntəzəm görüşürük, ən müxtəlif məsələləri müzakirə edirik ki, bu da heç şübhəsiz, ölkələrimiz arasında hərtərəfli əlaqələrin inkişafı üçün çox vacibdir.

Sizi rəqəmlərlə yormaq fikrində deyiləm, özünüz onları yaxşı bilirsiniz. Lakin hər halda, biz keçən ili ticarət-iqtisadi baxımından çox yaxşı göstəricilərlə başa vurmuşuq. Əmtəə dövriyyəsinin həcmi 40 faiz artmışdır. Əlbəttə, bu il vəziyyət xeyli mürəkkəb olacaqdır. Bizim vəzifəmiz əldə edilən uğurları saxlamağa çalışmaqdır. Xüsusən ona görə ki, biz bu uğurlara təkcə enerji daşıyıcılarının mübadiləsi hesabına nail olmamışıq. Əmtəə dövriyyəsinin keyfiyyətcə artması xüsusilə əhəmiyyətlidir. Biz müsbət iqtisadi dinamikanı hətta iqtisadi böhran şəraitində də qoruyub saxlamağa çalışacağıq.

Mədəniyyət və humanitar sahələrdə də bir sıra sevindirici hadisələr olmuşdur. Bu yaxınlarda Bakıda İnformasiya-Mədəniyyət Mərkəzi, Moskva Dövlət Universitetinin filialı açılmışdır. Bizim Linqvistika Universiteti nəzdində xüsusi

Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılmışdır. Əlbəttə, bunlar münasibətlərimizə çox yaxşı təsir göstərir, bizi daha sıx birləşdirir.

Moskvaya xoş gəlmisiniz! Sizi görməyə çox şadam.

**İ l h a m   Ə l i y e v**: Bu Sizinlə görüşmək və Sizin qeyd etdiyiniz kimi, çox yaxşı inkişaf etməkdə olan ikitərəfli münasibətlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Zənnimcə, bizim şəxsi dostluq münasibətlərimiz də burada az rol oynamır.

Bizim münasibətlərimizin dinamik inkişafı həm iqtisadiyyatda, həm də qarşılıqlı siyasi əlaqələrdə öz səmərəsini verir. Əlbəttə, qlobal böhran əmtəə dövriyyəsinin həcminə təsir göstərmişdir, lakin 2009-cu ilə qədər əmtəə dövriyyəsinin dinamikası çox xoş təsir bağışlayırdı. Biz artıq real surətdə 3 milyard dollar səviyyəsinə yaxınlaşırıq. Əminəm ki, bütün çətinliklərə baxmayaraq, 2009-cu il bu mənada çox müsbət olacaq, çünki həm əməkdaşlıq sahələri genişlənir, həm də əmtəə dövriyyəsinin strukturu yaxşılaşır. Bu, ölkələrimiz arasında olan möhkəm siyasi münasibətlərin nəticələridir və bütün başqa sahələrə də təsir göstərir. Bakıda həm Moskva Dövlət Universitetinin filialının, həm də Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin açılması – bu hadisələr bizim axırıncı görüşümüzdən sonra baş vermişdir – onu göstərir ki, bizim razılığa gəldiyimiz hər bir məsələ praktikada həyata keçirilir. Əlbəttə, biz bütün sahələrdə əməkdaşlığın daha da genişlənəcəyinə ümid edirik. Rusiya Azərbaycanın dostu, qonşusu, strateji tərəfdaşıdır. Biz əməkdaşlığımızı strateji tərəfdaşlıq ruhunda davam etdirmək niyyətindəyik.

**D m i t r i   M e d v e d e v:** Belə də edəcəyik.

# AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*17 aprel 2009-cu il*

*Aprelin 17-də Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin görüşündən sonra dövlət başçılarının mətbuat konfransı olmuşdur. Prezidentlər əvvəlcə bəyanatlarla çıxış etmişlər.*

## Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Hər vaxtınız xeyir, hörmətli xanımlar və cənablar!

Mən bugünkü görüşümüzün əvvəlində bir neçə kəlmə demək istəyirəm. Əlbəttə, mən İlham Heydər oğlu ilə Moskvada yenidən keçirilən görüşümüzdən çox şadam. Bu gün artıq bu barədə danışmışıq, bizim aramızda həqiqətən səmimi dostluq münasibətlərimiz var və bu, heç şübhəsiz, ölkələrimizin dolğun, tamformatlı, strateji tərəfdaşlıq münasibətləri qurmasına kömək edir. Bu indi belədir və ümid edirəm ki, gələcəkdə də belə olacaqdır.

Biz ikitərəfli əməkdaşlığımızın əsas məsələləri, ticarət-iqtisadi əlaqələr barədə söhbət etmişik. Əlbəttə, son vaxtlar biz, belə deyək, nəyəsə nail olmuşuq və bu tamamilə konkret rəqəmlərlə ifadə olunur. Müxtəlif hesablamalara görə, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi 3 milyard dollara yaxındır. Əmtəə dövriyyəsinin strukturu da vacibdir. Buraya təkcə son illərdə qiyməti müntəzəm qalxan enerji daşıyıcıları daxil deyil – bunun hesabına əmtəə dövriyyəsinin həcmi artırdı. Bu həm də başqa rəqəmləri, ən müxtəlif istiqamətlərdə görülən işləri, texnoloji təyinatlı məhsulların göndərilməsini, nəqliyyatı, kağız-sellüloz sənayesini, bir sözlə,

ən müxtəlif istiqamətləri əhatə edir. Əlbəttə, indi ən başlıcası əldə edilmiş tempi qoruyub saxlamaq, iqtisadi problemlər nəticəsində əmtəə dövriyyəsinin azalmasına yol verməməkdir. Hərçənd, təbii ki, bu problemlər bizim iqtisadiyyatlara təsir göstərir.

Həm adlarını çəkdiyim sahələrdə, həm də energetika sahəsində, qaz nəqli sahəsində əməkdaşlıq, Azərbaycan neftinin ixracı, Bakı–Novorossiysk boru kəməri vasitəsilə nəqli kimi ənənəvi məsələlərdə yaxşı perspektiv imkanlar var. Bir sözlə, artıq işlədiyimiz və gələcəkdə işləyə biləcəyimiz bütün istiqamətlərdə perspektivlər var.

Lakin bizim humanitar əlaqələrimiz də az əhəmiyyət kəsb etmir və son illərdə bu sahədə çox iş görülmüşdür. Mən açıq demək istəyirəm, bu sahədə Azərbaycan prezidentinin birbaşa xidmətləri var və biz görülən işləri çox yüksək qiymətləndiririk, başa düşürük ki, bu həm Rusiyanın, həm də Azərbaycanın maraqlarına uyğundur.

Əlbəttə, Bakıda İnformasiya-Mədəniyyət Mərkəzinin və Moskva Universitetinin filialının açılması da xalqlarımız arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək edir və ən başlıcası, onu göstərir ki, bizi birləşdirən, bütün istiqamətlər üzrə əlaqələrin inkişafına kömək edən ümumi dəyərlərə sadiqik. Ona görə də bu hansısa mühafizəkar təmaslar, sadəcə, diplomatik protokola hörmət deyil ki, biz mədəni əlaqələri inkişaf etdiririk. Bu, həqiqətən əməkdaşlığın çox mühüm sahələridir. Bir neçə il əvvəl Azərbaycanda «Rusiya İli» və Rusiyada «Azərbaycan İli» keçirilmişdir. O vaxt mən hökumətdə işləyəndə bununla məxsusi məşğul olmuşdum. Hesab edirəm ki, bu hadisələr uğurlu olmuşdur və biz bundan sonra da humanitar, mədəni əlaqələrin möhkəmləndirilməsi ilə məşğul olmalıyıq.

Əlbəttə, biz beynəlxalq vəziyyət, regional problemlər barədə də danışdıq. Dağlıq Qarabağ probleminin həlli haqqında, əvvəllər müzakirə etdiyimiz yanaşmalar haqqında, o cümlədən burada, bizim təmaslarımızın gedişində, keçən il noyabrın 2-də

Moskva Bəyannaməsinin imzalanması gedişində yaranmış fikirlərin həyata keçirilməsinin zəruri olması, cari perspektivlər barədə danışdıq.

Biz vaxtımızın bir hissəsini beynəlxalq məsələlərin müzakirəsinə, iqtisadi böhranın aradan qaldırılması yollarına, bir sözlə, hazırda, demək olar ki, bütün dövlətlərin gündəliyində olan məsələlərə həsr etdik. Mən çox məzmunlu dialoqa görə İlham Heydər oğluna bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu dialoq həqiqətən çox səmimi ahəngi ilə səciyyələnir, biz asanlıqla dil tapırıq, haqqında söhbət etdiyimiz məsələlərin, demək olar, hamısı barədə mövqelərimiz çox yaxındır. Bu isə ölkələrimizi bir-birinə bağlayan xüsusi strateji münasibətlərin davam etdirilməsinə təminatdır.

Sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, Dmitri Anatolyeviç! Əvvələn, məni Moskvaya səfərə dəvət etdiyinizə görə, Sizinlə ünsiyyətdə olmaq və həm ikitərəfli münasibətlərə, həm də regional problemlərə aid mühüm məsələləri müzakirə etmək imkanına görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Siz artıq qeyd etdiniz ki, biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox səmimi, açıq fikir mübadiləsi apardıq.

Rəhbərlər arasında münasibətlər xeyli dərəcədə ölkələr arasında münasibətləri də müəyyən edir. Çox fərəhli haldır ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri prezidentlər arasındakı münasibətlərdə də müşahidə olunur. Biz hər bir görüşdən maksimum səmərəli istifadə edib, müzakirəsi tələb olunan bütün məsələləri çox səmimi şəraitdə müzakirə edirik. Hər dəfə də əmin oluruq ki, hansısa şəkildə operativ müdaxilə tələb edə biləcək məsələlərin sayı getdikcə azalır. Bizim ölkələr arasında heç bir problem yoxdur, müzakirəsi və həlli tələb olunan məsələlər isə operativ şəkildə həll edilir.

Dmitri Anatolyeviç bizim bu gün müzakirələrimizin gündəliyində duran məsələləri qeyd etdi, gündəliyimiz isə kifayət qədər geniş idi. Həm ikitərəfli əməkdaşlıqda, həm də regional məsələlərdə Rusiyanın və Azərbaycanın baxışları bir çox cəhətdən üst-üstə düşür.

Ölkələrimiz arasında münasibətlərin necə inkişaf etməsi bizi çox sevindirir. Çox möhkəm siyasi və müqavilə-hüquqi baza mövcuddur və keçən ilin yayında Bakıda imzalanmış «Dostluq və strateji tərəfdaşlıq haqqında» müqavilə fəaliyyətin və əməkdaşlığın bütün sahələrini əhatə edir.

Bizim münasibətlərimizi məhz strateji tərəfdaşlıq termini ilə ifadə etmək olar. Biz iqtisadiyyatda da yaxşı nəticələr olduğunu görürük. Böhrana baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsi çox cüzi həcmdə azalmışdır. Ümid edirəm ki, gələcəkdə, böhran aradan qaldırılandan sonra iqtisadi münasibətlərimizin uğurlu inkişafı davam edəcəkdir.

Biz energetika sahəsində qarşılıqlı əlaqələrə dair məsələləri çox ətraflı müzakirə etdik. Əlbəttə, neft və qaz hasilatçısı və ixracçısı kimi, həm Rusiya, həm də Azərbaycan öz enerji təhlükəsizliyini və enerji maraqlarını maksimum dərəcədə təmin etməyə çalışır. Təbii ki, hasilatçılar kimi, bu istiqamətdə bizim məqsədlərimiz ümumidir.

Biz Dağlıq Qarabağ münaqişəsinin həlli məsələlərini ətraflı müzakirə etdik və ümid edirik ki, Ermənistanla Azərbaycan arasında danışıqların davam etdirilməsi regionumuzda sülhün bərqərar olmasına gətirib çıxaracaq, bu münaqişə ATƏT-in qərarlarına və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq, beynəlxalq hüququn prinsipləri və normaları əsasında həll ediləcəkdir.

Humanitar əməkdaşlıq münasibətlərimizin çox mühüm sahəsidir və biz bu sahədəki mövcud dinamikanı böyük razılıq hissi ilə qeyd edirik, ən başlıcası isə odur ki, qəbul olunan bütün qərarlar yerinə yetirilir. Dmitri Anatolyeviç qeyd etdi ki, Bakıda MDU-nun filialının, Rusiya Mədəniyyəti Mərkəzinin açılması həm bizim ölkə üçün və əminəm, həm də Rusiya üçün və

ümumiyyətlə, xalqlarımız arasında daha artıq qarşılıqlı anlaşma üçün mühüm hadisələrdir.

Onu da deməliyəm ki, bir qədər əvvəl Bakıdakı Rus Dram Teatrı, demək olar, təzədən tikilmişdir. Bu teatrın çox böyük ənənələri və ölkəmizdə çox sadiq pərəstişkarları var. Ümumiyyətlə, tədrisin rus dilində olduğu məktəblərin sayı humanitar sahədə münasibətləri yəqin ki, hər şeydən yaxşı səciyyələndirə bilər. Azərbaycanda yüzlərlə belə məktəb var. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə münasibət həmişə çox xeyirxah, çox səmimi olmuşdur və biz şadıq ki, bu, indi də davam edir. Xalqlarımız arasında münasibətlər ölkələrimiz arasında münasibətlərin ayrılmaz tərkib hissəsidir.

Ümumən, sözümü yekunlaşdıraraq, bugünkü fikir mübadiləsindən çox məmnun qaldığımı bildirmək istəyirəm. Əminəm ki, bu görüş münasibətlərimizin daha da inkişafına, yaxınlaşmasına kömək edəcəkdir. Rusiya və Azərbaycan prezidentləri arasında görüşlər müntəzəm xarakter daşıyır və bu bizim münasibətlərimizin inkişafında dinamikanın saxlanmasına daim imkan yaradır.

Dmitri Anatolyeviç, qonaqpərvərliyə görə, səmimi qəbula görə, dəvətə görə Sizə bir daha çox minnətdaram. Ümid edirəm ki, yenidən həm Azərbaycanda, həm də Rusiyada görüşəcəyik.

* * *

*Dövlət başçıları bəyanatlarla çıxış etdikdən sonra mətbuat konfransında jurnalistlərin suallarına cavab verdilər*

**AzərTAc-ın m ü x b i r i: Rusiya danışıqlar prosesinin fəal iştirakçısıdır. Sizin təşəbbüsünüzlə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmiş, Moskva Bəyannaməsi imzalanmışdır. Rusiya gələcəkdə hansı addımları atmağı planlaşdırır? Rusiya tərəfindən hansısa yeni təşəbbüslər gözləmək olarmı?**

**D m i t r i  M e d v e d e v**: Bəli, biz həqiqətən çox istərdik ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda maksimum irəliləyiş olsun. Noyabr ayında məhz burada, bu binada görüş keçirilməsi, Moskva Bəyannaməsinin imzalanması ən azı onu göstərir ki, biz irəliləyə bilərik, tərəflər bir-birinin dəlillərini eşidir və perspektivlər var. Azərbaycan prezidentinin indicə dediyi kimi, problemin həllində beynəlxalq hüquq normalarına, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, ATƏT çərçivəsində qəbul edilmiş qətnamələrə istinad etmək lazımdır. Mənim fikrimcə, hər halda, prinsipcə irəliləyiş var və ən başlıcası odur ki, bu proseslərə hansısa üçüncü dərəcəli, lakin bəzən çox-çox mürəkkəb olan amillər təsir göstərməsin. Tərəflər hökmən təmkinlilik nümayiş etdirsin və perspektivləri görsünlər. Mənim fikrimcə, daha mühüm bir məqam Azərbaycan və Ermənistan prezidentləri arasında görüşlərin müntəzəm xarakter daşımasıdır. Rusiya bu məsələdə öz mandatını yerinə yetirməyə hazırdır. Biz həmişə bu proseslərə kömək etməyə çalışmışıq və əgər bu cür təmaslar davam edərsə – bunun isə heç bir alternativi yoxdur – əminəm ki, bu problemi məhz hər iki xalqın maraqlarını əsas tutmaqla, əvvəllər hazırlanmış təklifləri nəzərə almaqla həll etmək olar. Ola bilsin ki, mən müəyyən yeni ideyaları da nəzərdə tuturam.

Hər halda, biz çox ağır, lakin həlli mümkün olan bu problemin tənzimlənməsinə nail olmaq üçün bizdən, Rusiya Federasiyasından asılı olan hər şeyi edəcəyik.

**İ l h a m  Ə l i y e v :** Mən demək istərdim ki, bu münaqişənin həlli məsələləri ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiya çox müsbət rol oynayır və biz tərəflərin mövqelərini yaxınlaşdırmaq cəhdlərinə görə ona təşəkkür edirik.

Əlbəttə, nəticənin olmaması bizi sevindirə bilməz, lakin biz ona da göz yuma bilmərik ki, danışıqlar prosesində müəyyən irəliləyiş vardır. Məhz bu irəliləyiş bizə ümid verir ki, münaqişə kifayət qədər tezliklə həll olunacaqdır. Son vaxtlar tərəflərin mövqeləri müəyyən dərəcədə yaxınlaşmış, əvvəllər çətin

görünən bəzi məsələlər razılaşdırılmışdır. Fikrimcə, danışıqların davam etdirilməsi üçün yaxşı bazadır. Elə məsələlər də var ki, tərəflər razılığa gələ bilmirlər.

Bizim cəhdlərimiz həmişə konstruktiv yanaşmaya, beynəlxalq hüquqa, tarixi ədalətin bərpa edilməsinə əsaslanır. Heç kəs üçün sirr deyil ki, təqribən 20 ildir Azərbaycanın ərazisi işğal altındadır və aparıcı beynəlxalq təşkilatlar da daxil olmaqla, bütün dünya birliyi bu faktı təsdiq etmişdir. Biz ümid edirik ki, yaxın aylarda münaqişənin tənzimlənməsi prosesini irəlilədə və bütün tərəflərin maraqlarına cavab verəcək, Azərbaycanın ərazi bütövlüyünün bərpasını, regionumuzda beynəlxalq hüququn normaları və prinsiplərinin bərpasını təmin edəcək həlli tapmağa nail olacağıq. Bu hamının xeyrinə olardı və bu halda biz Cənubi Qafqaz regionunda tammiqyaslı regional əməkdaşlıq haqqında danışa bilərdik.

Bir daha demək istəyirəm ki, danışıqlar prosesindəki irəliləyiş müəyyən nikbinlik doğurur, nəticənin olmaması isə, əlbəttə, bizi məyus edir.

**İnterfaksın müxbiri: Xahiş edirəm deyin, sizin danışıqlarınız zamanı qazın nəqli, qaz sahəsində əməkdaşlıq barədə hansısa yeni razılaşmalar əldə edildimi? Bu sualım isə Dmitri Anatoleviçədir. Dünən məlum olmuşdur ki, NATO Qafqazda, yəni Gürcüstanda hərbi təlimlər keçirməyi qərara almışdır. Həmin regiondakı vəziyyəti nəzərə almaqla, NATO-nun bu qərarı ilə əlaqədar Sizin fikriniz necədir?**

**İlham Əliyev**: Təbii ki, biz qaz sahəsində əməkdaşlıq məsələlərini müzakirə etmişik. Deməliyəm ki, bütövlükdə, energetika sahəsində ölkələrimiz arasında əməkdaşlıq çox müsbət xarakter daşıyır. Bakı–Novorossiysk neft kəməri uzun illərdir ki, fəaliyyət göstərir və biz gələcəkdə bu kəmərlə nəql edilən neftin həcmini artırmaq fikrindəyik. Elektrik energetikası sahəsində də səmərəli əməkdaşlıq var və biz bu əməkdaşlığı da genişləndirmək üzərində ciddi işləyirik. Bunlar qarşılıqlı faydası olan məsələlərdir. Qaz sahəsində bu mövzu

nisbətən təzədir, çünki yaxın vaxtlarda müzakirə olunmağa başlamışdır. Fikrimcə, müzakirələrin o qədər də çox vaxt aparmadığını nəzərə alsaq, bu istiqamətdə kifayət qədər irəliləyiş olduğunu deyə bilərik. «Qazprom» və Azərbaycan Dövlət Neft Şirkəti arasında saziş barədə danışıqlar aparılır. Bildiyiniz kimi, bir müddət əvvəl bu məsələyə dair memorandum imzalanmışdır və o, qarşılıqlı maraqların olduğunu təsdiq edir. Qaz sahəsində əməkdaşlığa bizim tərəfimizdən heç bir məhdudiyyət yoxdur və ola da bilməz. Bu istiqamətdə əməkdaşlıq Azərbaycan üçün həm də qaz ixracının şaxələndirilməsi elementidir, çünki hazırda Azərbaycan qazı Qərb istiqamətində nəql edilir. İxracın şaxələndirilməsi və yeni bazarlara çıxmaq imkanı hər bir başqa ölkə üçün olduğu kimi, bizim üçün də böyük maraq doğurur. Mən ümid edirəm ki, şirkətlər arasında aparılan danışıqlar uğurla başa çatacaqdır. Təbii ki, həmin danışıqlar beynəlxalq praktikanı əks etdirməli, qarşılıqlı surətdə faydalı, mehriban qonşuluq və tərəfdaşlıq ruhunda olmalıdır. Zənnimcə, biz bu prosesləri çox səmərəli şəkildə irəlilədə biləcəyik. Xüsusən ona görə ki, Rusiya və Azərbaycan qonşudur. Bizim aramızda heç bir tranzit ölkə yoxdur. Artıq kifayət qədər səmərəli nəqliyyat infrastrukturu vardır. Qaz kəmərinin çəkilməsi üçün əlavə investisiyalara ehtiyac yoxdur. Kəmər mövcuddur. Ona görə də bütün bu ilkin amillər çox sərfəli görünür. Şirkətlərin xoş məramla razılığa gəlməsi lazımdır və mənim fikrimcə, bu halda Azərbaycan ilə Rusiya arasında qaz sahəsində əməkdaşlıq ölkələrimiz arasında əməkdaşlığın ümumi mənzərəsinə üzvi şəkildə daxil olacaqdır.

**Dmitri Medvedev**: Mənə o qalır ki, əvvəla, Rusiya və Azərbaycanı bir-birinə bağlayan energetika sahəsində əməkdaşlığın dəyərləndirilməsi ilə razılaşım. Son illər biz belə əməkdaşlığı irəlilətmişik. Xatırladılan neftin nəqli kimi, ənənəvi sahələr var. Yeni sahələr var. Məsələn, haqqında sual verilən qaz sahəsi var. Bu, hər iki ölkə üçün maraqlı sahədir. Şirkətlər birbaşa danışıqlar aparır və bu, bir müddətdir davam edir. Mən İlham Heydər oğlu ilə tam razıyam ki, əlbəttə, dövlətlərimizin

maraqlarını, şirkətlərin kommersiya maraqlarını əsas tutaraq bizim mükəmməl sazişə çıxmaq üçün çox böyük imkanlarımız var. Bu, energetika sahəsində əməkdaşlıqda yeni səhifə aça bilər. Əgər belə saziş hazırlanarsa – bir daha deyirəm ki, bu məsələdə irəliləyişə nail olmaq imkanı çox-çox yüksəkdir – bu zaman onun imzalanması mümkün olardı. Bu isə özlüyündə ölkələrimiz arasında münasibətlərdə çox mühüm hadisə olardı. Digər tərəfdən, bu, energetika sahəsində şaxələndirmə barədə və bütövlükdə dünyada xeyli dərəcədə narahatlıq yaradan enerji təhlükəsizliyi probleminin həlli haqqında danışmağa imkan verərdi. Hətta iqtisadi böhrana baxmayaraq, biz gələcəkdə enerji təhlükəsizliyinin hansı şəkildə təmin olunması barədə düşünməliyik. Biz dəfələrlə bildirmişik ki, bu mövzuda yetərli konvensiyaların imzalanması, ölkələr və onların şirkətləri arasında düzgün beynəlxalq rejimlərin və qarşılıqlı surətdə faydalı olan hərtərəfli münasibətlərin yaradılmasına tərəfdarıq. Rusiya və Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq da belə ola bilər.

Gürcüstanda NATO-nun təlimlərinə dair sualınıza cavab olaraq, hesab edirəm ki, bu, düzgün qərar deyil, təhlükəli qərardır. Çünki bu və ya başqa hərbi blok lap bu yaxınlarda gərginliyin çox yüksək olduğu və indinin özündə də heç də hər şeyin sadə olmadığı ərazilərin yaxınlığında təlim keçirirsə, bu hər cür mürəkkəb vəziyyətə gətirib çıxara bilər. Bu cür təlimlər, məsələn, Yaxın Şərqdə, Şimali Koreya yaxınlığında, yüksək gərginlik müşahidə olunan hər hansı digər yerdə keçirilərsə, hansı vəziyyətin yaranacağını təsəvvür edə bilərik. Təbii ki, bu, vəziyyəti gərginliklə izləyənlər üçün problem yaradır. Mən əminəm ki, bu, Cənubi Osetiya və Abxaziya xalqlarına müsbət emosiyalar gətirməyəcək. Çünki belə hərəkətlər açıq-aşkar güc nümayişinə, hərbi komponentlərin artırılmasına yönəldilmişdir. Qafqazda onsuz da hamının kifayət qədər gərgin vəziyyətdə olduğu bir şəraitdə bu qərar, əgər məsələn, Rusiya ilə Şimali Atlantika alyansı arasında münasibətlərdən danışsaq, düşünülməmiş, tərəfdaşlığa yaraşmayan hərəkətdir. Belə

qərarlar təəssüf doğurur və Rusiya Federasiyası ilə NATO arasında yetərli təmasların bərpa olunmasına kömək etmir. Biz orada baş verənləri ən ciddi şəkildə izləyəcəyik və lazım gəldikdə bu və ya başqa qərar qəbul edəcəyik.

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda tarixən mövcud olmuş tolerantlıq mühiti, etnik-mədəni müxtəliflik, xalqlar arasında mehriban dostluq və qardaşlıq münasibətləri cəmiyyətimizdə mütərəqqi əxlaqi-mənəvi dəyərlər sistemini formalaşdırmış və bu üstün keyfiyyətlər ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir. Biz haqlı olaraq bunu xalqımızın tarixi nailiyyəti hesab edir, ölkədə sülhün, əmin-amanlığın, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsi və dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində səylərimizi davam etdiririk.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan çoxminli pravoslav xristian icması milli-mənəvi dəyərlərini və adət-ənənələrini qoruyub saxlamaqla, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edir, vətəndaş cəmiyyəti quruculuğunda yüksək fəallıq göstərir.

Pasxa bayramı əmin-amanlıq, həmrəylik, mərhəmət və şəfqət rəmzi kimi hər il Azərbaycanda geniş qeyd edilir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2009-cu il*

## RUSİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*18 aprel 2009-cu il*

*Rusiyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 18-də İTAR-TASS agentliyində Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüşlər.*

*İTAR-TASS agentliyinin Baş direktoru Vitali İqnatenko bu görüşün prezident İlham Əliyevin müxtəlif məsələlərə dair fikirlərini bilavasitə özündən eşitmək üçün yaxşı imkan olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan–Rusiya ikitərəfli münasibətləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın beynəlxalq energetika layihələrində iştirakı, dünyadakı iqtisadi və maliyyə böhranı şəraitində ölkəmizin iqtisadi inkişafı, regional məsələlər, Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu və digər məsələlər barədə suallara ətraflı cavab verdi.*

*Maraqlı keçən söhbətdə Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Baş direktoru Oleq Dobrodeyev, Rusiyanın Birinci kanalının Baş direktoru Konstantin Ernst, «RİA Novosti» agentliyinin Baş redaktoru Svetlana Mironyuk, «Exo Moskvı» radiostansiyasının Baş redaktoru Aleksey Venediktov, Rusiyanın aparıcı qəzet və jurnallarının rəhbərləri iştirak etmişlər.*

## RUSİYANIN «VESTİ» KANALINA VƏ İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏ

*18 aprel 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Moskvaya işgüzar səfəri çərçivəsində Rusiyanın «Vesti» kanalına və İTAR-TASS agentliyinə müsahibə vermişdir.*

**– İlham Heydər oğlu, bu müsahibəni götürmək imkanına görə çox sağ olun. Birinci sual yəqin ki, başlanğıc üçün bir qədər gözlənilməz ola bilər. Bununla belə, güman edirik ki, bu, maraqlı olacaqdır. Mən bu müsahibəyə hazırlaşanda gördüm ki, həm Siz, həm də Dmitri Anatoleviç Medvedev tez-tez deyirsiniz ki, aranızda çox yaxın, dostluq münasibətləri yaranmışdır. Maraqlıdır, bu münasibətlər nəyə əsaslanır, sizi bu qədər yaxınlaşdıran nədir?**

– Bu həqiqətən belədir. Mən çox şadam ki, Rusiya prezidenti ilə mənim doğrudan da çox yaxın, dostluq münasibətlərimiz var. Yəqin ki, burada bir neçə amil rol oynayır. Bəlkə də ona görədir ki, biz eyni nəslin nümayəndələriyik, praktik olaraq qonşu şəhərlərdə təxminən eyni təhsil almışıq, gənc yaşlarımızdan siyasətdəyik və prezident olmazdan əvvəl də ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edən müxtəlif məsələlərlə fəal məşğul olmuşuq. Əlbəttə, ölkələr arasında münasibətlərdə şəxsi rəğbət hissi də az rol oynamır və mənə çox xoşdur ki, Rusiya prezidenti ilə mənim münasibətlərim ölkələrimiz arasında dolğun münasibətlərin genişləndirilməsi üçün çox yaxşı zəmin yaradır.

Bizim müzakirə etməyimiz üçün mövzular çoxdur. Bu dəfə mənim Dmitri Anatoleviçlə iki dəfə görüşmək imkanım oldu – birinci, axşam ailə çərçivəsində, ertəsi gün rəsmi danışıqlarda.

Biz təkcə siyasətdən deyil, çox müxtəlif mövzular barədə söhbət etdik. Buna görə də həmin amil mənim üçün həqiqətən çox mühümdür. Bu cür münasibətlərin mövcud olması çox xoşdur və ümid edirəm ki, gələcəkdə onlar daha da möhkəmlənəcəkdir.

**– Gəlin siyasətə qayıdaq. Dünən rəsmi danışıqlar aparılmışdır. Siz həmin danışıqların hansı əsas məqamlarını vurğulamaq istərdiniz?**

– Ölkələrimiz arasında münasibətlərin gündəliyi kifayət qədər genişdir, buna görə də biz prioritet məsələləri əhatə etməyə, təhlil etməyə və onlar barədə fikir mübadiləsi aparmağa çalışdıq. Çünki hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirilir və münasibətlərimiz çox səmərəli, dinamik inkişaf edir.

Təbii ki, biz qarşılıqlı siyasi əlaqələr, siyasi əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələləri müzakirə etdik. Bunun üçün çox yaxşı müqavilə – hüquqi baza, keçən ilin yayında Bakıda imzalanmış Dostluq və strateji tərəfdaşlıq haqqında müqavilə var. Müqavilə bütün sahələri əhatə edir. Biz gündəlikdə duran iqtisadi məsələləri ətraflı nəzərdən keçirdik, məmnuniyyətlə vurğuladıq ki, keçən il əmtəə dövriyyəsinin həcmi 40 faiz artmış və 3 milyard dollara yaxınlaşmışdır. Böhrana baxmayaraq, bu il əmtəə dövriyyəsi müəyyən qədər, ancaq gözlənildiyinə nisbətən cüzi azalmışdır. Əmtəə dövriyyəsinin strukturunda keyfiyyət dəyişiklikləri baş vermişdir. Bütün bunlar ölkələrimiz arasındakı möhkəm siyasi münasibətlərin nəticəsidir.

Humanitar əməkdaşlıq barədə də razılıq hissi ilə qeyd edildi ki, mənim Moskvaya bundan əvvəlki səfərimdən sonra ötən müddətdə çox mühüm hadisələr baş vermişdir: Bakıda MDU-nun filialı, Rusiya Mədəniyyət Mərkəzi açılmışdır. Yəni bunlar o deməkdir ki, qəbul edilmiş qərarlar praktikada yerinə yetirilir, bu qərarlar operativ şəkildə həyata keçirilmişdir.

Dağlıq Qarabağ münaqişəsinin həlli və ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiyanın rolu məsələsi diqqət

mərkəzində olmuşdur. Energetika ilə bağlı dialoq davam edir və yeni-yeni sahələri əhatə edir. Neft və elektrik energetikası sahəsində ənənəvi əməkdaşlığa qaz komponenti də əlavə olunur. Bu həm ikitərəfli münasibətlərin, həm də regional inkişafın mühüm elementidir. Adlarını çəkdiyim, diqqəti daha çox cəmləşdirdiyimiz bu mövzular göstərir ki, bizim münasibətlərimiz nə qədər strateji xarakter daşıyır, müxtəlif sahələri əhatə edir və bütün bu istiqamətlər üzrə aramızda qarşılıqlı anlaşma, əməkdaşlıq və daha da irəliləmək arzusu var.

Bütün bu sahələrdə nəzərdə tutduğumuz proqramların hamısının uğurla həyata keçirilməsi, öz növbəsində, ölkələrimiz arasında, bir-biri ilə qonşu olan Rusiya və Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə doğru aparır, bizim maraqlarımıza və əminəm ki, Rusiyanın da maraqlarına tamamilə uyğundur.

**– Əlbəttə. İcazənizlə, Sizin adlarını çəkdiyiniz bir neçə mövzudan biri – qaz sahəsində əməkdaşlıq üzərində bir qədər ətraflı dayanmağınızı xahiş edərdik. Dünən mətbuat konfransında Siz və prezident Medvedev dediniz ki, qazla bağlı saziş bağlanması ehtimalı çox böyükdür. Mümkündürsə, bu istiqamətdə nə, hansı şərtlər daxilində və nə vaxt edilə biləcəyini bir qədər açıqlayardınız...**

– Bu bizim münasibətlərimizdə nisbətən yeni mövzudur. Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq əvvəllər başqa formatda həyata keçirilirdi. Təxminən 2006-cı ilə qədər biz Rusiyadan qaz alırdıq. 2007-ci ildən bu əməkdaşlıq dayandırılmışdır. İndi isə artıq Rusiyaya Azərbaycan qazının satışından söhbət gedir.

Nisbətən qısa müddət ərzində biz öz investisiya layihələrimizi, qaz hasilatına sərmayə qoyuluşunu xeyli dərəcədə həyata keçirməyə, qaz hasilatını ciddi şəkildə artırmağa və mahiyyət etibarilə qaz ixracatçısına çevrilməyə nail olmuşuq. Biz Türkiyə bazarına təqribən 7 milyard kubmetr qaz ixrac edirik, Türkiyə isə bu qazın bir hissəsini təkrar Yunanıstana ixrac edir. Beləliklə, bizim qaz fiziki mənada artıq Avropa

İttifaqına çıxmışdır. Digər qaz kəməri vasitəsilə biz Gürcüstana qaz ixrac edirik. Üçüncü qaz kəməri vasitəsilə İranla mübadilə əməliyyatları aparılır. Təəssüf ki, bizim qonşulardan təkcə Rusiya ilə qaz sahəsində hələlik praktik nəticə yoxdur. Ona görə də bu boşluğu doldurmaq üçün, habelə qaz ixracını tam şaxələndirmək imkanına malik olmaq üçün Rusiya bazarı Azərbaycan üçün, əlbəttə, çox cəlbedicidir.

Rusiya tərəfi də bu əməkdaşlıqda maraqlıdır və Rusiya tərəfindən qaz sahəsində əməkdaşlıq haqqında təklifi bir il bundan əvvəl almışdıq. Bu, Rusiya tərəfinin təşəbbüsü idi və biz bunu çox müsbət qarşıladıq. Bu yaxınlarda «Qazprom» ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında memorandum imzalanmışdır, hazırda danışıqlar gedir. Zənnimcə, bu danışıqlar müsbət nəticə ilə yekunlaşa bilər və yekunlaşmalıdır. Təbii ki, şirkətlər bütün şərtləri – kommersiya, texniki, zəmanət məsələlərini, yəni şirkətlər səviyyəsində həll edilməli olan məsələlərin bütün kompleksini razılaşdırırlar.

Qaz sahəsində əməkdaşlıq üçün hər iki dövlətin siyasi iradəsi var. Buna görə də danışıqlar uğurlu gedərsə, təbii ki, saziş imzalana bilər. Bu sazişin nədən ibarət olacağı, hansı həcmdə qaz ixrac edilməsinin nəzərdə tutulması – bütün bunlar yəqin ki, şirkətlər səviyyəsində müzakirə olunacaqdır. Mənim fikrimcə, bu sazişin əhəmiyyəti məhz ondadır ki, Azərbaycan qazının ixracı üçün yeni istiqamət açılır. Rusiya Azərbaycan qazından istifadə imkanı əldə edir, beləliklə, gələcəkdə bu sahədə daha genişmiqyaslı əməkdaşlıq üçün perspektivlər açılır.

**– Mən bir məsələni dəqiqləşdirmək istərdim. Siz hazırda hasilatın artması barədə danışanda «Şahdəniz» və «Şahdəniz-2» yataqlarını nəzərdə tuturdunuz...**

– Təkcə onları yox, Azərbaycanda bir neçə yataqdan qaz çıxarılır. «Şahdəniz» layihəsi əcnəbi tərəfdaşlarımızla birgə işlənir. Bundan əlavə, biz «Azəri», «Çıraq» yataqlarından səmt qazı da alırıq, o da ümumi qaz balansına daxildir. Dövlət Neft Şirkəti özü hasilatın həcmini praktiki olaraq iki dəfə artırmış, onu təxminən 8 milyard kubmetrə çatdırmışdır. Yəni, indi

Azərbaycanın qaz hasilatı potensialı 20 milyard kubmetrdən çoxdur. Qısa müddətdə bu hasilatı artırmaq üçün potensial imkan var. Biz neft hasilatını artırmaq üçün neft yataqlarından alınan səmt qazının bir hissəsini yenidən neft laylarına vururuq. Bu qazdan ixrac üçün də istifadə edilə bilər. Siz «Şahdəniz-2» layihəsinin adını çəkdiniz, həmin layihəyə görə bugünkü hasilatın həcminə daha 12-14 milyard kubmetr əlavə edilməsi nəzərdə tutulur.

**– Bu nə vaxt baş verə bilər?**

– Yəqin ki, işin sürətinin müxtəlif olması nəzərə alınmaqla, layihə təsdiqlənəndən sonra 3-5 il müddətində baş verə bilər. Layihə hələ təsdiqlənməyib və bunun səbəbi də məhz ondan ibarətdir ki, bizim satış bazarımız yoxdur. Bizim qazın ənənəvi yollarla, əlavə həcmin tranziti vasitəsilə nəql edilməsi məsələləri hələ tənzimlənməmişdir. Potensial alıcılarla danışıqlar aparılmalıdır, çünki qaz biznesinin neft biznesindən fərqli xüsusiyyətləri var. Buna görə də «Şahdəniz-2» layihəsinin təsdiqlənməsinin və onun həyata keçirilməsinin müəyyən dərəcədə ləngiməsi bizim təqsirimiz üzündən baş verməmişdir. Əlbəttə, bizə çox ağır gəlir ki, təsdiqlənmiş minimum ehtiyatları 2 trilyon kubmetr, perspektiv ehtiyatları isə 5 trilyon kubmetr olan Azərbaycanın tranzit məsələləri həll edilmədiyinə görə malik olduğu qazı hasil etmək imkanı yoxdur.

Buna görə də mən hesab edirəm ki, əsas məsələ Rusiya ilə Azərbaycan arasında həm qazın tranziti, həm də onun alqı-satqısı barədə razılığa gəlmək və irəliyə doğru hərəkət etməkdir. Bizim münasibətlərimizdə üstünlüklərdən biri ondan ibarətdir ki, artıq nəqliyyat infrastrukturu, yəni ciddi əlavə sərmayə qoyuluşu həyata keçirilmədən indi ildə ən azı 5 milyard kubmetr qaz nəql edə biləcək kəmər mövcuddur. Bizim aramızda tranzitlə bağlı məsələlər yoxdur, çünki biz qonşuyuq və bununla da müəyyən dərəcədə mürəkkəblik doğuran məsələ aradan qalxır. Ümumiyyətlə, Rusiya da dəfələrlə bu vəziyyətlə üzləşmişdir. Demək istəyirəm ki, indiki halda bütün bunlar bizim əməkdaşlığımızın üstünlükləridir. İndi yalnız qarşılıqlı

surətdə faydalı kommersiya şərtlərini və hansısa məqamların, yaxud bazar konyunkturunun əməkdaşlığımızın sonrakı gedişinə mane olmaması üçün uzunmüddətli əməkdaşlığa zəmanət məsələlərini razılaşdırmaq lazımdır. Saziş elə olmalıdır ki, tərəflərin hər hansı biri sonradan ona düzəlişlər etməsin. Onda irəliyə doğru hərəkət etmək olar.

**– Siz boru kəmərləri, qaz kəmərləri mövzusuna toxundunuz. Bu yaxınlarda mətbuatda, o cümlədən Qərb mətbuatında xəbər verilmişdi ki, Azərbaycan şirkətlərinin Nabukko layihəsinə qoşulması mümkündür. Bu məlumat həqiqətə nə dərəcədə uyğundur və ümumiyyətlə, həmin layihə nə vəziyyətdədir?**

– Bildiyiniz kimi, Nabukko layihəsi çoxdan müzakirə edilir. Bu layihə barədə ilk dəfə təşəbbüs irəli sürüləndə Azərbaycan təchizatçı kimi nəzərdə tutulmurdu. Başqa təchizatçılar vardı və onlar layihənin iştirakçılarının fikrincə, indiyə qədər də Nabukkonun əsas təchizatçılarıdır. Biz Nabukko konsorsiumunun üzvü deyilik. Birinci mərhələdə bizi Xəzərin şərq sahillərindən çıxarılan qazın nəql edilməsi üçün tranzit ölkə kimi nəzərdə tuturdular. Müəyyən mərhələdə məhz hasilatın həcmini artırmağa başladığımıza və idxalatçıdan ixracatçıya çevrildiyimizə görə, bizi potensial təchizatçı kimi nəzərdən keçirməyə başladılar.

Əlbəttə, yeni bazarlara çıxış imkanına malik olmaq hər bir ölkə üçün böyük maraq doğurur, ona görə ki, bazarların sayı nə qədər çox olsa, rəqabət bir o qədər güclü, qiymətlər bir o qədər yaxşı olacaq, müəyyən səbəblər üzündən təchizatda fasilələr yaranmayacağına zəmanət bir o qədər çox olacaqdır. Ona görə də layihənin həyata keçiriləcəyi halda onda iştirak etməkdə maraqlıyıq.

Lakin Nabukko layihəsinin başqa layihələrdən, o cümlədən bizim həyata keçirdiyimiz layihələrdən fərqi ondadır ki, bu halda boru kəmərinin inşası ilə hasilatçılar deyil, istehlakçılar məşğul olmalıdır. Təbii ki, istehlakçılar həm maliyyə məsələləri haqqında, həm də beynəlxalq maliyyə təsisatları tərəfindən

dəstək barədə razılığa gəlməlidirlər. Əlbəttə, ciddi siyasi dəstək olmasa, bu layihəni reallaşdırmaq çox çətin olacaq, ona görə ki, texniki məsələləri həll etmək, boru kəmərləri çəkmək o qədər də asan iş deyildir. Biz son dövrdə Bakı–Tbilisi–Ceyhan boru kəmərini, Bakı–Tbilisi–Ərzurum qaz kəmərini, Bakı–Supsa boru kəmərini tikmişik. Bizim ərazinin relyefini və Qafqazın coğrafiyasını nəzərə alsaq, bunlar çox mürəkkəb texniki layihələrdir. Yəni burada mürəkkəb məqamlar olduqca çoxdur. Lakin siyasi iradə, maliyyə komponenti və layihənin bütün üzvlərinin əlaqələndirilmiş, ahəngdar işi olanda, həmin layihə həyata keçirilə bilər.

Bir daha demək istəyirəm ki, Azərbaycan Nabukko layihəsinin nə təşəbbüsçüsü, nə də onun iştirakçısıdır. Lakin əgər tranzit ölkə qismində tranziti təmin etmək üçün bizə müraciət olunsa, biz, əlbəttə, bunu məmnuniyyətlə edərik. Çünki hər bir başqa ölkə kimi, biz də maraqlıyıq ki, karbohidrogenlər də daxil olmaqla, istənilən yüklər bizim ərazidən keçməklə nəql edilsin. Bundan əlavə, biz tranzit ölkənin bu cür mövqeyini nəzərdə tutan Enerji Xartiyasını imzalamışıq. Əgər Nabukko boru kəməri tikilsə, təbii ki, biz yaxşı şərtlər daxilində öz qazımızın bir hissəsini bu istiqamətdə nəql edə bilərik.

Lakin indiki anda elə vəziyyət yaranmışdır ki, bu layihənin durğunluq nöqtəsindən nə vaxt tərpədiləcəyini və bunu kimin edəcəyini söyləmək çətindir.

**– Onda icazə verin, indi daha bir çox mühüm mövzuya keçək. Mən Dağlıq Qarabağı nəzərdə tuturam. Rusiya prezidenti dünən mətbuat konfransında demişdir ki, bu məsələnin həllinə yeni yanaşmalar yarana bilər. Siz isə dediniz ki, hələlik aşkar irəliləyiş yoxdur və bu, əlbəttə, təəssüf doğurur, bununla belə, müəyyən irəliləyişlər nəzərə çarpır. Siz nəyi nəzərdə tuturdunuz və yaxın gələcəkdə bu məsələdə irəliləyiş gözləmək olarmı?**

– Mətbuat konfransında Rusiya prezidenti və mən öz şərhlərimizdə onu da qeyd etdik ki, münaqişəni beynəlxalq

hüquq normaları, ATƏT-in qərarları və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll etmək lazımdır. Yəni bunlar münaqişənin həlli üçün hüquqi əsasdır. Təbii ki, bu hüquqi əsas Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, erməni işğalçı qüvvələrinin bizim ərazimizdən çıxarılmasını və qaçqınların öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutur.

İrəliləyiş və tərəqqi barədə danışarkən mən çoxdan davam edən mürəkkəb danışıqlar prosesini nəzərdə tuturdum və son 5 ildən artıq müddətdə Azərbaycanın prezidenti kimi, mən bilavasitə bu məsələ ilə məşğulam. Bu müddətdə razılaşdırılması çox çətin görünən bir sıra məsələlər razılaşdırılmışdır. Yəni hər iki tərəf, əlbəttə, müxtəlif dərəcədə həvəs və uğur nümayiş etdirməklə çalışmışdır ki, həll oluna bilən məsələləri konstruktiv yolla həll edək. Dediyim kimi, bəzi məsələlər barədə biz prinsipial mövqelərimizi razılaşdırmışıq.

Lakin razılaşdırılmış məsələlərdən heç də az əhəmiyyət kəsb etməyən bir sıra məsələlər hələ həll edilməmiş qalır. Minsk qrupunun həmsədrləri çox kreativ, çox səmərəli işləməyə cəhd göstərirlər. Dünən mən Rusiyanın rolunu vurğuladım və hər iki tərəfə bu məsələnin həllində kömək etməyə çalışan o biri həmsədrlərin də rolunu qeyd etmək istəyirəm. Əlbəttə, biz ümid edirik ki, Ermənistan tərəfi bu məsələlərə konstruktiv ruhda, o cümlədən beynəlxalq hüquq mövqeyindən yanaşacaqdır. Ona görə ki, bu məsələni beynəlxalq hüquq çərçivəsindən kənarda həll etmək mümkün olmayacaqdır.

Bizim təklifimizdə Dağlıq Qarabağda yaşayan və gələcəkdə də yaşayacaq insanların təhlükəsizliyi öz əksini tapır; Dağlıq Qarabağın yerli özünüidarə məsələləri öz əksini tapır; Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələləri də öz əksini tapır. Dağlıq Qarabağın statusu haqqında qərar qəbul edilməsi qeyri-müəyyən vaxta təxirə salına bilər. İndiki halda biz Minsk qrupu həmsədrlərinin təklifini dəstəkləyirik. Ermənistan işğalçı qüvvələrinin Dağlıq Qarabağın inzibati sərhədindən kənarda yerləşən ərazilərdən də çıxarılmasına nail olmaq lazımdır. Biz Ermənistan ilə Dağlıq Qarabağ arasında

yerüstü əlaqəyə malik olmağın erməni tərəfi üçün vacibliyini başa düşürük və bu məsələdə problem görmürük. Laçın dəhlizi ilə bağlı məsələlər elə səmərəli həll edilə bilər ki, həm bu gün Dağlıq Qarabağda yaşayanların, həm də münaqişənin həllindən sonra oraya qayıdacaq azərbaycanlı əhalinin kommunikasiya blokadasında qalmaq baxımından narahatlığı olmasın.

Həm bizim təklifimizdə, həm də Minsk qrupu həmsədrlərinin təklifində ərazi bütövlüyünün bərpası, təhlükəsizliyə zəmanətin təmin edilməsi, bütün qaçqınların və daxili köçkünlərin Dağlıq Qarabağın ətrafındakı tarixi torpaqlarına və Dağlıq Qarabağa qaytarılması və gələcəkdə Dağlıq Qarabağın statusu barəsində hər iki tərəfi qane edən qərar qəbul olunması məsələləri əlaqələndirilir. Dağlıq Qarabağın statusu haqqında birtərəfli qərar qəbul edilə bilməz. Dağlıq Qarabağın Azərbaycandan hüquqi cəhətdən ayrılması mexanizmini nəzərdə tutan proseslərdə Azərbaycan özünün iştirakını mümkün saymır və heç vaxt bu proseslərdə iştirak etməyəcəkdir. Bu bizim birmənalı mövqeyimizdir.

Münaqişənin həlli üçün orada yaşayan insanlar özlərini təhlükəsiz şəraitdə hiss etməli, özünüidarə imkanlarına malik olmalıdırlar. Bu baxımdan bizim heç bir amirlik cəhdlərimiz və ya onların həyatına müdaxilə cəhdlərimiz yoxdur.

**– İlham Heydər oğlu, söhbətimizə qısa yekun vurmaq üçün soruşuram: Sizin fikrinizcə, Azərbaycanın fikrincə, indiki mürəkkəb şəraitdə Qafqazda həm siyasi, həm də ümumiyyətlə, iqtisadi firavanlığa necə nail olmaq mümkündür?**

– Bizim ölkəmizə gəldikdə, deməliyəm ki, qazandığımız uğurlardan razıyıq. Son 5 ildə Azərbaycanın iqtisadiyyatı 2,6 dəfə, büdcə xərcləri 10 dəfədən çox artmış, yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə düşmüş, işsizlik bir sosial hadisə kimi, praktik olaraq aradan qaldırılmışdır. Böhranlı 2009-cu ilin üç ayı ərzində ÜDM-in artımı 4,1 faiz, qeyri-neft sektorunda ÜDM-in artımı, demək olar ki, 14 faiz təşkil etmişdir.

**– Özü də neftin qiymətinin düşməsinə baxmayaraq...**

– Bəli, neftin qiymətinin düşməsinə və bizdə mövcud olan müəyyən texniki problemlər üzündən hasilatın bir qədər azalmasına baxmayaraq. Yəni bu onu göstərir ki, biz iqtisadiyyatı şaxələndirməyə, neft amilindən asılılığı aradan qaldırmağa və ölkənin davamlı inkişafını təmin etməyə nail olmuşuq.

Lakin sizin qeyd etdiyiniz kimi, regionda firavanlıq, yəni ayrılıqda götürülmüş bir ölkənin firavanlığı əməkdaşlıq, təhlükəsizlik olmadan və sabah nə olacağını bilmədən mümkün deyildir. Bu baxımdan mən söhbətimizin əvvəlinə qayıdaraq, hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər bütün Qafqaz regionunda – həm Cənubi, həm də Şimali Qafqazda sabitləşmənin mühüm amilidir. Ona görə ki, Qafqaz vahid orqanizmdir – həm Cənubi Qafqazda, həm Şimali Qafqazda məskunlaşan xalqlar arasında ənənəvi mədəni əlaqələr, qohumluq əlaqələri mövcuddur və əminəm ki, mövcud olacaqdır.

Ona görə də iki Qafqaz ölkəsi kimi, Rusiya və Azərbaycan bu regionda təhlükəsizliyin bərqərar olmasında maraqlı ölkələr kimi, əlbəttə, bundan sonra da Qafqazla bağlı məsələlərdə aparıcı rol oynamalıdırlar. Bu rolu həm ölkələrimizin tarixi, həm də onların bugünkü iqtisadi potensialı, siyasi sanbalı, proseslərə təsir göstərmək imkanı irəlicədən müəyyən etmişdir və biz regional məsələlərdə bir-birimizi çox yaxşı tamamlaya bilərik.

Mən Cənubi Qafqaz regionunda genişmiqyaslı əməkdaşlığın yaranacağı günü görməyi arzulayıram. Lakin buna yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və qaçqınların öz doğma yurdlarına qayıtması şərti ilə nail olmaq mümkündür. Onda Qafqaz regionunda əməkdaşlıq tamam başqa şəkil alacaq, bu halda indiyə qədər mühüm layihələrə cəlb edilməmiş ölkələr özlərini daha çox cəlb olunmuş hiss edə biləcək və təbii ki, onların həm iqtisadi preferensiyaları, həm təhlükəsizliyə təminatı, həm də siyasi perspektivləri olacaqdır. Mənim fikrimcə, Azərbaycanla münasibətləri tənzimləmədən

Ermənistanın böhrandan çıxması, siyasi təcriddən, enerji və nəqliyyat baxımından təcriddən çıxması asan olmayacaqdır. Biz əməkdaşlığa hazırıq, lakin təbii ki, yalnız işğala son qoyulacağı və sülhün bərqərar olacağı təqdirdə.

**– İlham Heydər oğlu, bu müsahibəyə görə və maraqlı cavablarınıza görə bir daha çox sağ olun.**

– Sağ olun.

## Səfər başa çatdı

*Aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Moskvanın «Vnukovo-2» hava limanında prezident İlham Əliyevi Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola salmışlar.*

* * *

*Azərbaycan prezidenti həmin gün Bakıya qayıtmışdır. Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşılamışlar.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Tarixin ən kütləvi insan fəlakətinə səbəb olmuş İkinci dünya müharibəsi bir çox xalqların, xüsusilə də yəhudi xalqının həyatında müdhiş qara səhifə kimi yaşamaqdadır. Bu qanlı savaş zamanı milyonlarla yəhudi əsilli insan faşizmin günahsız qurbanına çevrilərək, məqsədyönlü soyqırımı siyasətinə məruz qalmışdır.

1943-cü ilin aprelində Varşava yəhudi gettosunda saxlanan məhbuslar faşizmin qanlı cinayətlərinə, milli-dini ayrı-seçkiliyə qarşı qətiyyətli etiraz aksiyasına başlamış, qeyri-bərabər ölüm-dirim savaşında qəhrəmanlıqla həlak olsalar da, öz milli haqları və insani ləyaqəti uğrunda şərəfli mübarizə örnəyi vermişlər. Faşizmlə mübarizədə mənəvi qələbə rəmzinə çevrilmiş bu hadisə tarixə təkcə yəhudilərin müsibəti deyil, eyni zamanda, qəhrəmanlıq nümunəsi kimi daxil olmuşdur.

Təəssüflə qeyd etmək istəyirəm ki, tarixdən ibrət dərsi götürməyən ayrı-ayrı siyasi-şovinist dairələr, irticaçı rejimlər və ideologiyalar bu gün də beynəlxalq sülh və əmin-amanlıq üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır. Son 20 ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilmiş deportasiya və etnik təmizləmə siyasəti, kütləvi qətl və terror aksiyaları, nəhayət, Xocalıda azərbaycanlıların dəşhətli qətliamı zəmanəmizin acı gerçəkliyidir. Biz hansı coğrafiyada törədilməsindən asılı olmayaraq, etnik-dini düşmənçiliyin və ayrı-seçkiliyin hər cür təzahürünü bütövlükdə bəşər sivilizasiyasını təhdid edən cinayət kimi qiymətləndirir və dünya birliyini bu bəşəri təhlükəyə qarşı səfərbər olmağa dəvət edirik.

Əziz həmvətənlər!

Hər il mütərəqqi dünya ictimaiyyəti yəhudi xalqının müsibəti və qəhrəmanlığı gününü böyük ehtiramla yad edir. Bu milli hüzn gününüzdə Azərbaycan xalqı adından bir daha kədərinizə şərik olduğumu bildirir, irticanın bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2009-cu il*

## İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin konfransının keçirilməsi münasibətilə sizi təbrik edir və işinizdə uğurlar arzulayıram.

İslam sivilizasiyası sülh və tolerantlığı, bəşəri ideyaları və insan ləyaqətinə hörməti, humanizm və mərhəməti təşviq edən, milyonlarla insanı birləşdirən dəyərlər sistemidir. İslam bütün cinayətləri, xüsusilə terrorçuluğu, ekstremizmi və hər cür zorakılığı rədd edir. Belə əməllər xalqlarımızın bölüşdüyü ümumi dəyərləri nəinki təhdid edir, həm də dövlətlərin ictimai-siyasi sabitliyinə, insanların əmin-amanlığına təhlükə yaradır.

Terrorizm, separatizm, silahların və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması kimi cinayətlər transmilli xarakter daşıdığından dövlətlərin birgə dinc yanaşı yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına və inkişafına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədi ilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi vacibdir.

Son 15 il ərzində həyata keçirilən fundamental islahatlar Azərbaycanın dinamik inkişafında və müasirləşməsində zəruri faktor olmuşdur. Bununla yanaşı, Azərbaycanın qarşılaşdığı ən ağrılı problem Ermənistanın yürütdüyü təcavüzkar separatizm, etnik təmizləmə və terror siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyona yaxın soydaşımızın qaçqın

və məcburi köçkün vəziyyətinə düşməsidir. İşğal olunmuş ərazilərə Ermənistanın və qondarma separatist rejimin nəzarət etməsi narkotiklərin və silahların qanunsuz dövriyyəsinə, insan alveri, çirkli pulların yuyulması kimi cinayətlərin vüsət almasına şərait yaratmışdır. Həmin ərazilərdə törədilən cinayətlər nəinki Azərbaycan, bütövlükdə region üçün təhlükə doğurur. Bu baxımdan transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə ölkələrimizin hüquq mühafizə orqanlarının fəaliyyətinin regional və universal səviyyədə əlaqələndirilməsini tələb edir.

Əminəm ki, ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın təşviqi və dərinləşdirilməsi transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin səmərəsini artıracaq, bu sahədə qarşılıqlı razılaşdırılmış siyasətin yürüdülməsinə imkan yaradacaqdır.

Bir daha sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik naminə səylərimizi birləşdirməyə çağırıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2009-cu il*

## İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 aprel 2009-cu il*

*Aprelin 21-də prezident İlham Əliyev İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin Bakıda keçirilən konfransının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v**: Əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Bu gün Bakıda İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin hüquq mühafizə orqanları rəhbərlərinin konfransı keçirilir. Bu çox əlamətdar hadisədir. Mən ümid edirəm ki, konfrans çox maraqlı, çox uğurlu keçəcək və onun nəticələri ölkələrimiz arasında olan əməkdaşlığın dərinləşməsində öz mühüm rolunu oynayacaqdır.

Azərbaycan İslam Konfransı Təşkilatında fəal rol oynayır. Bakıda bizim təşəbbüsümüzlə İKT çərçivəsində müxtəlif tədbirlər keçirilmişdir, nazirlər və digər strukturların nümayəndələri Bakıda olmuşlar. Biz istəyirik ki, İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlıq daha da güclənsin, İslam həmrəyliyi daha da möhkəm olsun və ölkələrimiz arasında qarşılıqlı dəstək bütün beynəlxalq təşkilatlarda özünü göstərsin.

Hüquq mühafizə orqanlarının əməkdaşlığı hər bir ölkənin təhlükəsizliyi üçün önəmli rol oynayır. Çünki bugünkü dünyada beynəlxalq təhlükəsizlik tədbirlərinin görülməsi böyük

zərurətdir. Heç bir ölkə özünü tam sığortalanmış hiss edə bilməz. Ölkənin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, yalnız müştərək səylərlə biz həm bölgədə, həm dünyada təhlükəsizliyin təmin olunması işində uğurlar qazana bilərik. Beynəlxalq cinayətkarlığa qarşı məhz müştərək mübarizə uğur gətirə bilər. Beynəlxalq terrorçuluq əleyhinə görülən tədbirlər yalnız əlaqələndirilmiş şəkildə səmərəli ola bilər.

Biz Azərbaycanda təhlükəsizliyin təmin olunması üçün çox böyük işlər görürük. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndə burada vəziyyət o qədər də ürəkaçan deyildi, qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, cinayətkarlıq artmışdı. Bu gün isə Azərbaycan və ölkəmizin paytaxtı Bakı şəhəri təhlükəsizlik baxımından dünyanın, demək olar ki, ən sakit yerlərindən, şəhərlərindən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır.

Bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizdən həm təmsil etdiyiniz ölkələrin təhlükəsizliyi asılıdır, eyni zamanda, beynəlxalq əməkdaşlıq məsələləri sizin iştirakınızla həll olunur. Bu, İKT çərçivəsində əməkdaşlığın dərinləşməsinə, praktik cəhətdən hüquq mühafizə orqanları arasında əməkdaşlığın təmin olunmasına xidmət edəcəkdir. Ümid edirəm ki, konfrans zamanı ikitərəfli görüşlər də keçiriləcək, buna da böyük ehtiyac vardır. Azərbaycanla, ölkəmizin reallıqları ilə tanış olmaq, hesab edirəm ki, sizin üçün də maraqlı olacaqdır. Bir də demək istəyirəm ki, baxmayaraq, ölkəmiz müstəqil dövlət kimi gəncdir, ancaq müstəqilliyimizin ilk illərindən islam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verir.

Bu il Azərbaycanın paytaxtı Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan edilibdir. Bu bizim üçün böyük şərəfdir. Bu, bütün islam dünyasının Azərbaycana, onun tarixinə, mədəniyyətinə verdiyi qiymətdir. Biz böyük təntənəli mərasimlər keçirdik və islam ölkələrini təmsil edən mədəniyyət nümayəndələri bu tədbirlərdə fəal iştirak etmişlər. Bütün il ərzində Bakıda islam mədəniyyətinin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçiriləcəkdir. Hesab edirəm ki, ümumi işimizə bu çox

önəmli töhfədir. Ümid edirəm ki, indiki konfrans da çox uğurlu, səmərəli keçəcək, Bakıya səfəriniz sizin üçün çox xoş keçəcək, siz burada özünüzü doğma vətəninizdəki kimi hiss edəcəksiniz.

Bir daha sizi salamlayıram və sizə uğurlar arzulayıram.

**İzzət Kamal Müfti** (*İslam Konfransı Təşkilatı Baş katibinin siyasi məsələlər üzrə müavini)*: Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri cənab Prezident!

Sizi İslam Konfransı Təşkilatının hazırkı konfransında və bu mötəbər görüşdə iştirak edən həmkarlarım, qardaşlarım, nümayəndə heyətləri adından salamlamaqdan şərəf duyuram və bizi qəbul etdiyinizə görə dərin təşəkkürümüzü və minnətdarlığımızı ifadə etmək istəyirəm.

İcazə verin, əvvəlcə, mənə onların adından danışmaq şərəfini həvalə etdiklərinə görə nümayəndə heyətlərinin bütün üzvlərinə və rəhbərlərinə təşəkkürümü bildirim. Ümid edirəm ki, onların bu böyük etimadını doğruldacağam.

Mən İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunun səmimi salamlarını Sizə çatdırmaq istəyirəm. O bu konfransa böyük önəm verdiyini və onun işində iştirak etmək istəyini bildirmişdi. Təəssüf ki, əvvəlcədən planlaşdırılmış tədbirlərə görə, bu konfransda iştirak etmək şərəfini mənə həvalə etdi. Bir daha onun salamlarını Sizə çatdırmaq istəyirəm.

Cənab Prezident, bu görüşdə çox məsələlərdən, real işlərdən bəhs edildi. İcazənizlə, Bakının 2009-cu ildə islam mədəniyyətinin paytaxtı seçilməsi münasibətilə Sizi təbrik etmək istərdim.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Sizin müdrik rəhbərliyinizlə İslam Konfransı Təşkilatı ilə olan əlaqələrinə və İKT-nin bir sıra tədbirlərinə ev sahibliyi etdiyinə görə Sizə minnətdarlığımı bildirirəm. 2006-cı ildə Xarici işlər nazirlərinin konfransını, İnformasiya nazirlərinin toplantısını və Azərbaycanın birinci xanımının təşəbbüsü ilə «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda keçirilmiş iclası xatırlatmaq istəyirəm.

Bütün bu tədbirlər ölkənizin İslam Konfransı Təşkilatındakı roluna Sizin diqqətinizin bariz nümunəsidir. Bu diqqət, maraq Mərkəzi Asiya regionunda da hiss olunmaqdadır.

Bütün bunlar Azərbaycanın siyasi, iqtisadi və elmi sahələrdə əldə etdiyi nailiyyətləri ilə yanaşı, islam ölkələri ailəsində də öz layiqli yerini tutması üçün Sizin göstərdiyiniz səylərin bariz nəticəsidir.

Azərbaycanın İslam Konfransı Təşkilatının hüquq mühafizə orqanları rəhbərlərinin dünyada mütəşəkkil cinayətkarlıqla mübarizəyə, təhlükəsizliyin təmin olunmasına yönəlmiş konfransına ev sahibliyi etməsi, belə bir tədbirin Azərbaycanda keçirilməsi Sizin İslam Konfransı Təşkilatı ilə münasibətlərə verdiyiniz önəmi göstərir.

Mən burada İslam Konfransı Təşkilatının üzvü olan bütün dövlətlərin beynəlxalq səviyyələrdə daim Azərbaycanın Dağlıq Qarabağ problemi, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və Xocalı faciəsi ilə bağlı ədalətli mövqeyini dəstəklədiklərini qeyd etmək istəyirəm. İslam Konfransı Təşkilatı bu yöndə səylərini davam etdirir. Biz hamımız ümid edirik ki, Sizin müdrik siyasətiniz və səyləriniz nəticəsində və qardaş islam dövlətlərinin dəstəyi ilə Dağlıq Qarabağ, o cümlədən Xocalı tezliklə azad ediləcəkdir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlətinin bir çox islam ölkələrinin problemlərinin həllində göstərdiyi səylərə görə öz minnətdarlığımızı bildirmək istərdim. Yaşadığımız çətin dövrdə islam ölkələrinin bir-biri ilə əməkdaşlığının böyük əhəmiyyəti vardır. Buna görə biz qurum çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədi ilə bütün səylərimizi birləşdirməliyik.

Zati-aliləri cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımızı bildirir, Azərbaycan xalqına və ümumiyyətlə, islam ümmətinə xeyir, sülh və əmin-amanlıq arzulayıram.

Çox sağ olun.

**İ l h a m  Ə l i y e v**: Xoş sözlərinizə görə təşəkkür edirəm. Xahiş edirəm ki, mənim ən səmimi salamlarımı İslam Konfransı Təşkilatının Baş katibi və bütün təşkilatda işləyən dostlarımıza çatdırasınız.

Biz İslam Konfransı Təşkilatı tərəfindən həmişə xoş münasibət, dəstək görürük və qeyd etdiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli işində İslam Konfransı Təşkilatı Azərbaycanın haqlı mövqeyini daim birmənalı şəkildə müdafiə etmişdir. Təşkilat dəfələrlə bu məsələ ilə əlaqədar müvafiq qərarlar, qətnamələr qəbul etmişdir. Eyni zamanda, digər təşkilatlarla ünsiyyətdə olduğu zaman İKT daim bu məsələni qaldırmış və Azərbaycanın haqlı olduğunu dəfələrlə bəyan etmişdir.

Onu da qeyd etmək istəyirəm ki, keçən ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın işğal edilmiş torpaqlarında vəziyyətlə bağlı aparılmış müzakirələrdə bizim mövqeyimizi ən çox dəstəkləyən islam ölkələri olmuşdur və böyük səs çoxluğu ilə qəbul edilmiş qətnamədə haqq-ədalət öz əksini tapmışdır. Mən bu fürsətdən istifadə edərək, bizi dəstəkləmiş bütün ölkələrə, xüsusilə islam ölkələrinə bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm.

Bu münaqişə bölgə üçün ən böyük təhlükədir. Buna baxmayaraq, Azərbaycan son illər ərzində öz imkanlarını xeyli genişləndirə bilmişdir. Son 4 ildə Azərbaycan iqtisadi artım baxımından dünya miqyasında birinci ölkədir. Ötən 5 ildə bizim iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə artmışdır. 5 ildə yoxsulluğun səviyyəsi 49 faizdən 13 faizə düşmüşdür, 750 mindən çox yeni iş yerləri açılmışdır. Ölkəmizin bütün yerlərində böyük quruculuq, abadlıq işləri aparılır, nəhəng infrastruktur layihələri icra olunur və iqtisadiyyatın şaxələndirilməsi üçün lazımi tədbirlər görülübdür. Baxmayaraq ki, bu gün dünyanı maliyyə-iqtisadi böhranı bürüyüb, bu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatı inamla inkişaf edir və artır.

Əlbəttə ki, bölgədə sülhün təmin olunmaması, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında qalması həm bizim üçün, həm də bölgə üçün böyük təhlükədir. Artıq dünya da görür ki, dondurulmuş münaqişələr uzun müddət ərzində bu vəziyyətdə qala bilməz. Bölgədə keçən il yaşanan qanlı hadisələr bunu bir daha göstərdi. Bizim istəyimiz, tələbimiz beynəlxalq hüquq normalarına əsaslanır.

Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarını xarici qoşunlar işğal edibdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımız qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Dağlıq Qarabağın özündən 10 minlərlə azərbaycanlı qovulmuşdur. Azərbaycanın Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda yerləşən 7 rayonundan 700 mindən çox azərbaycanlı qovulmuşdur. Ermənistandan 250 mindən çox azərbaycanlı qovulmuşdur. Bu gün Azərbaycanın işğal edilmiş torpaqlarında hər şey dağıdılıbdır. Bütün binalar, məktəblər, xəstəxanalar, muzeylərimiz talan edilibdir, milli sərvətlərimiz məhv edilib, yaxud da ki, talan olunubdur. Bizim müqəddəs ocaqlarımız, məscidlərimiz ermənilər tərəfindən yerlə yeksan edilibdir. Bu gün Bakının mərkəzində hər kəs vaxtilə burada tikilmiş erməni kilsəsini görə bilər. Bu gün Azərbaycanda həm məscidlər tikilir, həm kilsələr tikilir və budur bizim tolerantlığımız, budur bizim başqa xalqların dinlərinə, mədəniyyətlərinə münasibətimiz. Baxmayaraq ki, bizim məscidlərimiz Azərbaycanın torpağında ermənilər tərəfindən dağıdılıbdır, biz erməni kilsəsini bərpa etmişik. Bax, bu bizim mədəniyyətimizin təzahürüdür. Biz sadəcə olaraq, istəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilibdir. Yəni dünya miqyasında bu qurumdan önəmli və böyük qurum yoxdur. Bu qətnamələrin qəbul edilməsindən artıq 20 ilə yaxın vaxt keçir, Ermənistan tərəfi isə buna məhəl qoymur. Danışıqlar, bizim bütün səylərimiz nəticə vermir və işğalçı qüvvələr hələ də bizim torpaqlarımızda

yerləşiblər. Ona görə bizim işimiz haqq işidir. Bizim heç bir başqa ölkənin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verməyəcəyik və heç vaxt dünya birliyi qondarma Dağlıq Qarabağ rejimini müstəqil qurum kimi tanımayacaqdır. Azərbaycan heç vaxt buna icazə verməyəcək və istənilən yollarla öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Sadəcə olaraq biz istəyirik ki, bunu sülh yolu ilə, danışıqlar yolu ilə edək. Əgər Ermənistan tərəfi konstruktivlik göstərərsə, danışıqlar masasında olan təkliflər razılaşmanın əldə edilməsi üçün yaxşı əsas ola bilər. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır: Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və tarixi ədalət bərpa olunmalıdır.

Dağlıq Qarabağ dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır və ölkəmiz müstəqil dövlət kimi, Birləşmiş Millətlər Təşkilatına üzv olduqda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü Dağlıq Qarabağ daxil olmaq şərtilə tanınıbdır. Biz sadəcə olaraq, istəyirik ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Əgər münaqişə öz həllini taparsa, Dağlıq Qarabağda yaşayan, Azərbaycanda azlıq təşkil edən erməni əhalisi gələcəkdə sülh, əmin-amanlıq şəraitində yaşayacaqdır.

Mən bir daha demək istəyirəm ki, bu məsələ təkcə bizim üçün deyil, bölgə üçün böyük təhlükədir. Bölgənin hərtərəfli inkişafı və genişmiqyaslı əməkdaşlığı bu məsələ həll olunmadan təmin edilə bilməz. Bölgədə təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi işində çox səylər göstərilir, amma Dağlıq Qarabağ münaqişəsi həll olunmadan tammiqyaslı əməkdaşlıq ola bilməz.

Mən bir daha bu məsələ ilə əlaqədar Azərbaycanın haqq işini dəstəkləyən bütün qardaşlarımıza öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilin ki, Azərbaycan xalqı bilir və yaxşı dərk edir ki, onun dostları kimlərdir. Bayaq qeyd etdiyim kimi, keçən il BMT-nin Baş Məclisində keçirilən səsvermə, əslində, həqiqət anı idi. O səsvermədə Azərbaycanın real dostları bir daha öz mövqeyini göstərdi, o səsvermə Azərbaycan xalqının

yaddaşından heç vaxt silinməyəcəkdir. Biz öz siyasətimizdə bizim üçün dost, qardaş ölkələrin bizə olan münasibətini ilk növbədə əsas tuturuq. Biz bütün ölkələrlə yaxşı əlaqələr yaratmaq fikrindəyik və bu istiqamətdə böyük addımlar atılıbdır. Azərbaycan bu gün dünya miqyasında tanınan ölkədir və bizə hörmətlə yanaşırlar. Ancaq, əlbəttə ki, hər bir ölkə üçün çətin anlarda əsas dostlar özünü göstərir.

Ona görə bir daha deyirəm, mənim üçün bugünkü konfrans da xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Bakıda bizim qardaşlarımız bizim qonaqlarımızdır. İslam Konfransı Təşkilatının üzvü olan bütün ölkələrə mənim çox böyük hörmətim var, böyük məhəbbətim var.

İstəyirəm onu da biləsiniz ki, baxmayaraq, müstəqil dövlət kimi gəncik, islam həmrəyliyinin möhkəmlənməsi üçün biz Azərbaycanda çox işlər görürük. Mən qəti əminəm ki, əgər biz bütün islam ölkələri arasında bu həmrəyliyi, qarşılıqlı dəstəyi tam şəkildə təmin edə bilsək, təşkilata üzv olan ölkələrin daxili problemləri də daha asanlıqla həll oluna bilər.

Bir sözlə, mən bir daha sizi ürəkdən salamlayıram. Ümid edirəm ki, Bakıda keçirdiyiniz günlər sizin üçün xoş olacaqdır və siz vətənə yaxşı təəssüratlarla dönəcəksiniz. Sağ olun.

## QEYDLƏR

**1. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 5,6,24,77,,104,157–170.

**2. Seyid Əli Xamenei (**d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali dini rəhbəridir. – 5,164.

**3. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. –6,77, 158,159,160–162,165,166.

**4. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 7.

**5. Valdas Adamkus** (d.1926) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının Prezidenti olmuşdur. – 7.

**6. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 8,12–19.

**7. Cabir əl-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 8,12–13,14,15,19.

**8. Bruney,** B r u n e y D ə r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 425 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 9.

**9. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 9.

**10. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 10.

**11. Toomas Hendrik İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞ PA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 10.

**12. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 11,24,40,47, 104,106,156,168,234,270.

**13. Əli Babacan** (d.1967) – Türkiyə siyasi xadimi. 2007–2009-cu illərdə Türkiyənin Xarici İşlər naziri, 2009–2015-ci illərdə Baş nazirin müavini olmuşdur. – 11.

**14. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri olmuşdur. 2002-ci

ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçildi. –11.

**15. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 11,106.

**16. Davos İqtisadi forumu,** Dünya İqtisadi forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. – 11.

**17. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 12,19,37,67,157,170, 287,312.

**18. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 12,19,37,67,157,170,287, 312.

**19. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və

bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 15,269.

**20. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə isə İqtisadiyyat və Sənaye naziri olmuşdur. – 15,16.

**21. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 15,161, 162,252.

**22. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 21,275,277.

**23. Xırdalan –** Azərbaycan Respublikasında şəhər. Abşeron rayonunun inzibati mərkəzi. Sahəsi 1702 km$^2$, əhalisi 95,2 min nəfərdir. – 21,22,233.

**24. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 94,17 km$^2$, əhalisi 332,9 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan

sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yer tutur. – 21,22,105.

**25. Ziya Məmmədov,** Z i y a  A r z u m a n  o ğ l u (d.1952) – dəmiryolçu-mühəndis. 1996–2002-ci illərdə Azərbaycan Dövlət Dəmiryol İdarəsinin rəisi, 2002-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 22,23, 234,235,236,

**26. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,1 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 24,.28–36,104,111,113–117,137,139,141,145,174,191,219,270, 288–299,301–312.

**27. Almaniya,** A l m a n i y a  F e d e r a t i v  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,1 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 24,105,155,175.

**28. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 24,144,226,229,270.

**29. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 24,104.

**30. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,548,5 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisi, dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 24.

**31. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 24,26,104,119,145,214,270,272, 286.

**32. Fransa,** F r a n s a   R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 24,109,110, 145.

**33. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016-cı illərdə). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. ABŞ-da ilk afroamerikalı prezidentdir. – 26,214.

**34. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r M a h m u d o ğ- l u (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 27.

**35. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 27,176–179.

**36. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 16 fakültəsi, 121 kafedrası, 80 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi var. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 55 ixtisas, magistr pilləsində 153 ixtisas üzrə 22500-ə yaxın, o cümlədən 12 ölkədən 400-dən artıq tələbə təhsil alır (2010/2011). Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 27.

**37. «Rossiya», Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kampaniyası** (ÜDTRVK) – Rusiya media holdinqi. 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişlərini təşkil edir. 1998-ci ildə ÜDTRVK bazası əsasında yaradılmış dövlət informasiya holdinqi yaradıldı. «Rossiya» və «Kultura» telekanallarını, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokampaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 28.

**38. İTAR-TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 28,301–312.

**39. Qusman Mixail** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 28.

**40. AzTV** – Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti. Əsası 1918-ci ildə Gəncədə ilk radiostansiya kimi qoyulmuşdur. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsi yaradılmışdır.

1991-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrilmiş, 2005-ci ildə isə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ləğv edilərək, həmin bazada AzTV QSC yaradılmışdır. – 28.

**41. Vitali İqnatenko** (d.1941) – jurnalist. 1991–2012-ci illərdə İTAR-TASS agentliyinin Baş direktoru olmuşdur. – 28,301.

**42. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan

Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi

vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya

inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 30,31,34,35,79,101,102, 103,118,119,120,132,134,136,132,139,152,156,179,180,181, 182–183,184,187,187,215,216,220,221.

**43. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Sahəsi: 2561,5 km$^2$, əhalisi 12,3 milyon nəfərdir. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 32,288–299,301–312.

**44. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 32,34,43, 54,63,73,109,145,197,240,241,264,291,293,301,304,308,310, 320,321,322,323.

**45. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə Krasnov Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35,36,46,67,75,76,113,118, 120,122,125, 130,133,134,136,190,194,200,201–206,207–213,248,259,269, 271, 287,301.

**46. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 35,80,201.

**47. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 35,193,199,200,201,204–206,207–213.

**48. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 35,68,69,70,71,75,76,201.

**49. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 37–67,171.

**50. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 37,157,170,287,312.

**51. Afina** – Yunanıstanın paytaxtı, sahəsi 412 km$^2$, əhalisi 4,1 milyon nəfərdir. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1833-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 37–67.

**52. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. –38,39, 40,41,42–44,46–49,59,171.

**53. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. – 42,43,47,48,54,246.

**54. Herakl** – qədim yunan mifologiyasında ən güclü qəhrəmanlardan biri, Zevsin və Alkmenanın oğlu, 12 qoçaqlıq göstərmiş, Nemeya şirini, Lerna hidrasını öldürmüş, amazonlara qalib gəlmişdi. Ölümündən sonra Olimpə aparılmış və əbədi gənclik ilahəsi Hevaya nişanlanmışdı. Herakla sitayiş Yunanıstanda geniş yayılmış, sonra İtaliyaya da keçmişdi. – 46.

**55. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və

qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 47,58,63,64,73,293,295, 309.

**56. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 47,109, 145,295,304,310.

**57. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 48,296,298,299.

**58. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman

dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 48.

**59. Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi** – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 48.

**60. Kostas Karamanlis** (d.1956) – Yunanıstanın siyasi xadimi. 2004–2009-cu illərdə Yunanıstanın Baş naziri olmuşdur. – 51,52–57,58.

**61. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 61,278.

**61. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 64,169,293,309, 323.

**62. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 68, 69,70,169,315–324.

**63. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2382 min $km^2$, əhalisi 40 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 68,274.

**64. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 70, 86,148,241,295,323.

**65. Mənuçehr Muttəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 77,157, 162.

**66. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 78,245.

**67. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004–2014-cü illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. – 78,245.

**68. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 79,104,168,296.

**69. «Azərenerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 81.

**70. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi

respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 81.

**71. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» istehsalat birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 81.

**72. Abşeron rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1963-cü ildə təşkil edilmişdir. Sahəsi 1,36 min $km^2$, əhalisi 203 min nəfərdir. – 81.

**73. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 82,91.

**74. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə etməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 86,94.

**75. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əhalisi 124,8 min nəfərdir. – 88.

**76. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1539 $km^2$, əhalisi 221 min nəfərdir. – 88.

**77. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 $km^2$, əhalisi 328,4 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 88.

**78. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min $km^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 88.

**79. İmişli** (1938-ci ilədək Qaradonlu rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir.

Cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1821 $km^2$, əhalisi 117,9 min nəfərdir. – 91.

**80. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib, ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 $km^2$, əhalisi 130,3 min nəfərdir. – 91,119.

**81. Beyləqan** (1989-cu ilə qədər Jdanov) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Sahəsi 1131,1 $km^2$, əhalisi 93,7 min nəfərdir. – 91,119.

**82. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. –91,119,131.

**83. Yardımlı** (1938-ci ilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Sahəsi 667 $km^2$, əhalisi 62,4 min nəfərdir. – 91.

**84. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 $km^2$, əhalisi 81 min nəfərdir. – 91.

**85. Bakı–Tbilisi–Ceyhan** –1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. –93,308.

**86. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). – 93, 308.

**87. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Compani of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (o cümlədən quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 95,110,118,119,297,305,306.

**88. Biləsuvar** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1938-ci ilədək Biləsuvar, 1938-ci ildən Puşkin rayonu adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Cəlilabad rayonu ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. SSRİ-nin süqutundan sonra – 1991-ci ildə rayona öz tarixi adı qaytarılmışdır. Sahəsi 1397 km$^2$, əhalisi 99,2 min nəfərdir. –95.

**89. Qana,** Q a n a   R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km$^2$, əhalisi 25,2 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkradır. – 98.

**90. Con Evans Atta Mills** (1944–2012) – Qana dövlət və siyasi xadimi. 2009–2012-ci illərdə Qana Respublikasının Prezidenti olmuşdur. – 98.

**91. Bolqarıstan,** Bolqarıstan Respublikası– Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. –99.

**92. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2002–2012-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 99.

**93. Ramil Usubov,** Ramil İdris oğlu (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 100,124.

**94. «Siemens» –** alman şirkəti. 1847-ci ildə Berlin şəhərində yaradılmışdır. Bakıda nümayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik məhsulları və elektrik avadanlıqlarının hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 405 min nəfərdir. – 105.

**95. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 107–108,320.

**96. Xatın** – 1943-cü ildə bir neçə alman hərbi qulluqçusunun öldürülməsini bəhanə edən cəza dəstəsi tərəfindən dinc

əhalisi tamamilə məhv edilmiş Belarus kəndi. Kəndin 149 sakini diri-diri yandırılmış və güllələnmişdi. 1969-cu ildə kəndin olduğu yerdə Memorial kompleks yaradılmışdı. Xatın dinc əhalini kütləvi surətdə məhv edən alman faşistlərinin və nasistlərinin iç üzünü göstərən simvola çevrildi. – 107.

**97. Liditsa –** Çexiyanın paytaxtı Praqanın 16 km şimal-qərbində şaxtaçı qəsəbəsi. İkinci dünya müharibəsində (1939–45) alman-faşist işğalçıları qəsəbəni yandırıb yerlə yeksan etmişdilər (1942,10 iyun). 15 yaşından yuxarı bütün kişilər güllələnmiş, qadınlar və uşaqlar həbs düşərgələrinə göndərilmiş, «L» adı ilə başlanan sözlər Çexoslovakiyanın siyahısından silinmişdir. – 107.

**98. Babi Yar faciəsi** – Kiyevin şimal-qərbində 1941–43-cü illərdə alman-faşist işğalçıları tərəfindən kütləvi surətdə dinc əhalinin, xüsusilə yəhudi və hərbi əsirlərin qətlə yetirildiyi yarğan. – 107.

**99. Oradur** (Oradur-syur-Qlan) – 1944-cü ildə Fransada alman-faşist işğalçıları tərəfindən sakinlərilə birlikdə yerlə yeksan edilmiş qəsəbə. Müharibədən sonra qəsəbə bərpa edilmədi. Qəsəbənin xarabalıqları gələcək nəsillər üçün nümunə olaraq qorunub saxlanılır. – 107.

**100. Mətyu Brayzə** (d.1964) – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–2012-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 109,145,286.

**101. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in

Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 109,145.

**103. «Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 110.

**104. Sergey Narışkin** (d.1954) – Rusiya dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011-ci ildən 2016-cı ilə qədər Rusiya Federasiyası Dövlət Dumasının sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. –111,113–117.

**105. Moskva Dövlət Universiteti**, M. V. Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 rəsədxana, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyat var. Universitetdə 38 mindən çox tələbə təhsil alır. 2009-cu ildə Bakıda filialı açılmışdır. – 111,113,288–289.

**106. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 111,113–17,288,289,294.

**107. Sadovniçi Viktor Antonoviç** (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət

mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 113–117.

**108. Nərgiz Paşayeva,** N ə r g i z  A r i f  q ı z ı (d.1962) – filologiya elmləri doktoru, professor, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru. Özəl «Üns» yaradıcılıq səhnəsinin yaradıcısı və bədii rəhbəri, «Azərbaycan mədəniyyətinin dostları» Xeyriyyə Fondunun İdarə Heyətinin üzvü, «Azərbaycan–İrs» jurnalının ədəbi şöbəsinin redaktoru, İngiltərə– Azərbaycan Cəmiyyətinin həmsədridir. – 113–117.

**109. Dmitri Medvedev** (d.1965) – Rusiya dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 116,288–299.

**110. Bərdə** – Azərbaycan Respublikasında inzibati rayon.1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 $km^2$, əhalisi 152,7 min nəfərdir. – 118–124,131.

**111. Tərtər –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1949–91-ci illərdə adı Mirbəşir olmuşdur. Sahəsi 960 $km^2$, əhalisi 102 min nəfərdir. – 119,131.

**112. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1537 $km^2$, əhalisi 123,5 min nəfərdir. – 119,125–132.

**113. Goranboy** (1991-ci ilə qədər Qasım İsmayılov) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1791 $km^2$, əhalisi 102,2 min nəfərdir. – 119.

**114. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan

şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 124.

**115. Şəki** (1968-ci ilədək N u x a r a y o n u) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 2432,8 min km$^2$, əhalisi 177,5 min nəfərdir. –131.

**116. Mingəçevir** – Azərbaycanda şəhər. Sahəsi 47 km$^2$, əhalisi 102 min nəfərdir. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir İkinci dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. – 131,133–143.

**117. Bakı Dərin özüllər zavodu** – 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Respublikada neft sənayesinin inkişafında böyük rolu vardır. – 137.

**118. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Radadır. – 140,141,248–265.

**119. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 142,224,239.

**120. Tunis,** Tunis Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 146.

**121. Zeynubabidin ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis Respublikasının Prezidenti olmuşdur. – 146.

**122. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 147.

**123. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997–2011-ci illərdə İrlandiya Respublikasının Prezidenti olmuşdur. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 147.

**124. 8 Mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 153–154.

**125. Azərbaycan Milli Kitabxanası,** (*M.F.Axundov adına*) – Azərbaycan Respublikasında ən böyük kitabxana; respublikada çap olunan əsərlərin böyük kitabsaxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. 1923-cü ildə Bakıda yaradılmışdır. Kitabxana fondunda 4528752 nüsxə ədəbiyyat saxlanılır. 26 şöbə, 47 bölmə fəaliyyət göstərir. Kitabxananın nadir kitablar bölməsində tarixi və elmi əhəmiyyətə malik 3500-dən çox qiymətli əsər, o cümlədən Sankt-Peterburqda nəşr olunmuş ilk Azərbaycan çap kitabı (1720), Azərbaycan ədəbiyyatının Nizami, Xaqani, Nəsimi, Füzuli, Saib Təbrizi, A.Bakıxanov, görkəmli şərqşünas Mirzə Kazım bəy və başqa

klassiklərin əsərlərinin nadir nüsxələri saxlanılır. Milli Kitabxana Azərbaycan haqqında yazılmış əsərləri və Azərbaycan müəlliflərinin xarici ölkələrdə nəşr olunmuş əsərlərini, dünya əhəmiyyətli digər nəşrləri toplayıb mühafizə edən milli mədəniyyət mərkəzidir. – 162.

**126. İmam Xomeyni,** R u h u l l a M u s ə v i(1903–1989) – 1979-cu ildən İran İslam Respublikasının başçısı, ayətullah. 1964-cü ildə şah rejimi tərəfindən ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, inqilaba başçılıq etmiş, şah rejimini devirməyə və İslam Respublikasını qurmağa nail olmuşdur. – 163.

**127. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İ q t i s a d i Ə m ə k -d a ş l ı q v ə İ n k i ş a f T ə ş k i l a t ı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 165–170.

**128. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 168.

**129. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. –172.

**130.Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 172.

**131. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 147,5 min $km^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dakkadır. –173.

**132. Zillur Rəhman (**1929–2013) – Banqladeş siyasi və dövlət xadimi. 2009–2013-cü illərdə Banqladeş Xalq Respublikasının Prezidenti olmuşdur. – 173.

**133. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. –174.

**134. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004–2010-cu illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. –175.

**135. Azərbaycan Ədəbiyyatı Muzeyi,** A z ə r b a y c a n R e s- p u b l i k a s ı M E A N i z a m i a d ı n a M i l l i A z ə r-b a y c a n Ə d ə b i y y a t ı M u z e y i – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitablar, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazması nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-

kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 176–179.

**136. Rafael Hüseynov,** R a f a e l  B a b a  o ğ l u (d.1955) – ədəbiyyatşünas, publisist. AMEA-nın müxbir üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri, Nizami adına Ədəbiyyat Muzeyinin direktorudur. – 176–179.

**137. Mikayıl Hüseynov,** M i k a y ı l  Ə l ə s g ə r  o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü olmuşdur. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskva, Düşənbə və s. yerlərdə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı metropoliteninin «Nərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları M.Hüseynovun ən görkəmli əsərlərindəndir. M.Hüseynov Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 177.

**138. Qurani-Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 178.

**139. Mirzə Fətəli Axundov** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist-filosof. M.F.Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə şöhrət qazanmışdır. 1850–55-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramatur-

giyanın əsasını qoymuşdur. M.F.Axundovun fəaliyyətində yeni əlifba uğrunda mübarizə mühüm yer tutur. – 178.

**140. Həsən bəy Zərdabi,** M ə l i k o v H ə s ə n b ə y S ə l i m b ə y o ğ l u (1842–1907) – Azərbaycanın maarifçi-demokratı, təbiətşünas alimi, publisist və pedaqoqu. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F. Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan mətbuatının banisi olan H. Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. –178.

**141. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. – 178.

**142. Abdulla Şaiq,** A b d u l l a M u s t a f a o ğ l u T a- l ı b z a d ə (1881–1959) – Azərbaycan yazıçısı, müəllim və ictimai xadim. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Yaradıcılığında realizm və romantizm meyilləri daha güclüdür. Abdulla Şaiq uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. – 178.

**143. Nigar Rəfibəyli,** N i g a r X u d a d a t q ı z ı (1913–1981) – Azərbaycanın Xalq şairi. N.Rəfibəyli lirik şeirlər müəllifidir. Azərbaycanın gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları yazdığı şeir və poemaların əsas mövzusudur. – 178.

**144. Mir Cəlal**, M i r  C ə l a l  Ə l i  o ğ l u  P a ş a y e v (1908–1978) – Azərbaycan yazıçısı, ədəbiyyatşünas. Elmlər doktoru, professor. Əsasən, yumoristik və satirik hekayələr ustasıdır. Ona daha çox şöhrət gətirən tarixi romanı «Bir gəncin manifesti»dir. Mir Cəlal Füzulinin, Gəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin, habelə XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən görkəmli tədqiqatçılarındandır. – 178.

**145. Azərbaycan Xalq Cümhuriyyəti** – müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batumi neft kəməri bərpa edildi. – 179,265.

**146. Tahir Salahov,** T a h i r  T e y m u r  o ğ l u (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ

Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. T.Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 180,201.

**147. Ploşko Yosef Kasperoviç** (1867–1931) – memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası üslubunda inşa edilən «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. – 180.

**148. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 61 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 180.

**149. Yavər Camalov** (d.1949) – mühəndis. «Azneft» İstehsalat Birliyinin Baş direktoru olmuşdur. Hazırda Müdafiə Sənayesi naziridir. – 184,187.

**150. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 48 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 188,282.

**151. Seneqal,** S e n e q a l  R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 196,7 min km$^2$, əhalisi 13,3 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Dakardır. – 189.

**152. Abdulay Vad** (d.1926) – 2000–2012-ci illərdə Seneqal Respublikasının Prezidenti olmuşdur. Abdulay Vad Afrika Birləşmiş Ştatları yaratmaq ideyasının tərəfdarıdır. –189.

**153. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla

Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 190,194,200–207.

**154. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 192,194,200.

**155. Koişiro Matsuura** (d.1937) – 1999–2009-cu illərdə YUNESKO-nun Baş direktoru olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 193,194, 199,200,201–206,207–213.

**156. Səttar Bəhlulzadə,** S ə t t a r B ə h l u l o ğ l u (1909–1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı. S.Bəhlulzadə yaradıcılığa «Kommunist» qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. S.Bəhlulzadənin mənzərələrində poetik əhval-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı idi. – 201,205.

**157. Böyükağa Mirzəzadə,** Böyükağa Məşədi oğlu (1921–2007) – Azərbaycanın Xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. Yaradıcılığı boyu tematik tablolar çəkmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 201.

**158. Elmira Şahtaxtinskaya,** Elmira Həbibulla qızı (1930–1996) – rəssam. Azərbaycan Respublikasının Xalq rəssamı və Əməkdar incəsənət xadimi. H.B.Şahtaxtinskinin qızıdır. Plakat və dəzgah rəsmlərinin müəllifidir. XX əsrin 70-ci illərində çəkdiyi «Azərbaycan qədim mədəniyyət diyarıdır» plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ə. Naxçıvani, S.Məhəmməd və b.), 70–80-ci illərdə isə müasir sənətkarların (Ü. Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. – 201.

**159. Ömər Eldarov,** Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 201.

**160. Nadir Əbdürrəhmanov,** Nadir Qəmbər oğlu (1925–2008) – Azərbaycan boyakarı. Azərbaycanın Xalq rəssamı, Əməkdar incəsənət xadimi. Onun müxtəlif janrlarda yaratdığı süjetli lövhələr qiymətli sənət nümunələri kimi, rəssamlıq tariximizə daxil olmuşdur. Nadir Əbdürrəhmanov Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri və Azərbaycan Ali Sovetinin deputatı kimi də fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 201.

**161. Fərhad Xəlilov,** F ə r h a d  Q u r b a n  o ğ l u (d.1946) – Xalq rəssamı. 1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 206.

**162. Argentina,** A r g e n t i n a  R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayresdir. – 218.

**163. Kristina de Kirşner** (d.1953) – 2007–2015-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 218.

**164. Corcio Napolitano** (d.1925) – İtaliya siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 229.

**165. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagendir. – 230.

**166. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarka kraliçası. Kral IX Frederikin qızıdır. – 230.

**167. Zimbabve,** Z i m b a b v e  R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 390,7 min km$^2$, əhalisi 14,2 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Hararedir. – 231.

**168. Robert Muqabe** (d.1924) – 1987-ci ildən Zimbabve Respublikasının Prezidenti. 1980–87-ci illərdə Zimbabvenin Baş naziri və Müdafiə naziri olmuşdur. 1984-cü ildən Afrika Milli Qurtuluş Partiyasının Zimbabve üzrə Birinci katibidir. – 231.

**169. AŞ PA-nın Monitorinq Komitəsi** – 1993-cü ildə yaradılmışdır. AŞ PA-nın hüquq siyasəti və İnsan hüquqları komissiyaları AŞ-a qəbul edilmiş yeni dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri necə yerinə yetirmələrini yoxlayır və hesabat verirlər. Təqdim olunan məruzələr parlament üzvləri tərəfindən müzakirə edilir. – 247.

**170. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 248–265.

**171. Odessa–Brodı–Qdansk** – Odessa, Brodı və Qdansk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tutulurdu. – 260.

**172. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 266.

**173. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 266.

**174. «*bp*–Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 267–268.

**175. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 268.

**176. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı –** XX əsrin 20-ci illərində yaranmış Azərbaycan teatrı. 1936-cı ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. Ötən müddət ərzində teatrda 513 yeni tamaşa hazırlanmış, 33505 tamaşa göstərilmişdir. – 269–270.

**177. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min $km^2$, əhalisi 8,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 270,283.

**178. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min $km^2$, əhalisi 7,9 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 273.

**179. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidenti. – 274.

**180. İraq,** İ r a q  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 435 min km$^2$, əhalisi 37 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya və 102 qəzaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 280–281.

**181. Şimon Peres** (1923–2016) – İsrail siyasətçisi və dövlət xadimi. 2007–2014-cü illərdə İsrailin prezidenti olmuşdur. . «Avoda» Partiyasının yaradıcısı və lideri idi. –283.

**182. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma Papası olmuşdur. – 284.

**183. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 284.

**184. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdamdır. – 285.

**185. II Beatriks** (d.1938) – 1980–2013-cü illərdə Niderland kraliçası. – 285.

**186. Azərbaycan Dövlət Rus Dram Teatrı –** Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. Teatrın repertuarı «Don

Karlos» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» və s. əsərlərlə zəngin olmuşdur. – 294.

**187. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olunması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 300.

**188. Oleq Dobrodeyev** (d.1959) – tarixçi. 2000-ci ildən Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinin Baş direktorudur. – 301.

**189. Konstantin Ernst** (d.1961) – Rusiya televiziya xadimi, media meneceri, prodüser, ssenarist. OAO «Pervıy kanal»ın və ORT-nin Baş direktoru. – 301.

**190. Svetlana Mironyuk (**d.1968) – 2006–2014-cü illərdə RİA «Novosti» agentliyinin Baş redaktoru, 2003–2004-cü illərdə agentliyin sədri, 2004–2006-cı illərdə isə agentliyin Baş direktoru olub. – 301.

**191. «Exo Moskvı» –** padiostansiya. 1990-cı ildə təşkil olunmuş və yarandığı vaxtdan müstəqil radiostansiya kimi fəaliyyət göstərir. – 301.

**192. Aleksey Venediktov** (d.1955) – Rusiya jurnalisti, «Exo Moskvı» radiostansiyasının Baş redaktoru, «Exo TV»-nin prezidenti. – 301.

**193. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 305.

**194. «Azəri», «Çıraq», «Günəşli»** – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. – 306.

**195. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. – 307,308.

**196. Varşava üsyanı (**1943**)** – Varşava gettosunda əsirlərin alman-faşist işğalçılarına qarşı silahlı üsyanı. Aprelin 19-da başlanmışdı. Üsyanı yəhudi döyüş təşkilatı hazırlamışdı. Üsyançıların qəhrəmancasına müqavimətinə baxmayaraq, üsyan iyulun əvvəllərində yatırıldı, hitlerçilər 7 min adamı öldürdülər, 6 min adam isə yanğınlar zamanı tələf oldu. Faşistlər gettonun sağ qalan üzvlərini Treblinkadakı ölüm düşərgəsinə göndərdilər. – 313.

## Şəxsi adlar göstəricisi


**Abbasov Əli** – 252
**Abdulla Şaiq** – 178
**Abdullayev Rövnəq** – 119
**Abutalıbov Hacıbala** – 12,19,37,67,157,170,287,312
**Adamkus Valdas** – 7
**Axundov Mirzə Fətəli** – 178
**Akerman Markus** – 273
**Alavadi Kantan** – 280-281
**Babacan Əli** – 11
**Beatriks** – 285
**Ben Əli Zeynulabidin** – 146
**Berluskoni Silvio** – 144
**XVI Benedikt** – 284
**Bəhlulzadə Səttar** – 201,205
**Bolkiah Hacı Həssən** – 9
**Brançiforte Bruno** – 226
**Brayzə Mətyu** – 109,145,286
**Buteflikay Əbdüləziz** – 274
**Cabbarlı Cəfər** – 178
**Camalov Yavər** – 184,187
**Dadaşov Sadıq** – 177
**Darrikarrer İv** – 110
**Deodor** – 46
**Dəqai Həmid** – 161
**Dobrodeyev Oleq** – 301
**Eldarov Ömər** – 201
**Endryu** – 268
**Ernst Konstantin** – 301
**Əbiyev Səfər** – 253
**Əbdürrəhmanov Nadir** – 201

**Əl-Abdullah Əhməd** – 15
**Əhmədinejad Mahmud** – 6,77,158,159,160-162,165, 166
**Əl-Xərafi Casim** – 12,17
**Əl-Maliki Nuri** – 281
**Əl-Mənnan Atta** – 69
**Əl-Tüveycri Əbdüləziz** – 69,70,75,76
**Əs-Sabah Məhəmməd** – 15
**Əs-Sabah Nasir** – 12,18
**Əs-Sabah əl-Əhməd-əl-Cabir** – 8,12-13,14,15,19
**Əş-Şimali Mustafa** – 15
**Əliyev Heydər** – 30,31,34,35,79,101,102,103, 118,119,120,132,134,136, 132,139,152,156,179,180, 181,182–183,184,187,187, 215, 216,220, 221
**Əliyeva Leyla** – 190,194,200,207-213
**Əliyeva Mehriban** – 35,36,37,46,67,75,76,113, 118,120,122,125-130,133, 134,136,190,194,200, 201-206,207-213,248,259,269, 271,287, 301
**Əliyeva Zeynəb** – 120
**Ərdoğan Rəcəb Tayyib** – 11
**Əsədov Oqtay** – 108,200
**Əşəri Əliəkbər** – 162
**Əşrəf Murad** – 206
**Əzizov Eldar** – 252
**Falsoni Ennio** – 112
**Fasye Bernar** – 109,145
**Gül Abdullah** – 11,106
**Herakl** – 46
**Herkel Andres** – 247
**Heyvard Toni** – 268
**Hüseyni Şəmsəddin** – 161

**Hüseynov Bəylər** – 102
**Hüseynov Mikayıl** – 177
**Hüseynov Rafael** – 176-179
**Xamenei Seyid Əli** – 6,164
**Xandogi Vladimir** – 252
**Xəlilov Fərhad** – 206
**İıvkova Yevgeniya** – 247
**İhsanoğlu Ekmələddin** – 319
**İqnatenko Vitali** – 28,301
**İlves Toomas** – 10
**İmam Xomeyni** – 163
**İşık Atilla** –156
**Kaçinski Lex** – 266
**Karamanlis Kostas** – 52-57,58
**Kaspirşik Anji** – 145
**Kazımova Hüsniyə** – 101
**Kərimova Nailə** – 181
**Kirşner Kristina** – 218
**Komarov Valeri** – 252
**Köler Horst** – 175
**Kusainov Əbülqazi** – 219
**Qarayev Əbülfəs** – 15,269
**Qaşparoviç İvan** – 78,245
**Qazyumov Xetaq** – 244
**Qreçanik İqor** – 265
**Qrossman Vurgen** – 155
**Quliyev Elçin** – 149
**Qusman Mixail** – 28
**Lavrov Sergey** – 174
**Levitin İqor** – 219
**Mahmudov Eldar** – 252
**Malomij Nikolay** – 252
**Makalis Meri** – 147
**II Marqret** – 230
**Matsuura Koişiro** – 193,194,199,200,201-206,

207-213
**Mantika Alfredo** – 144
**Medvedev Dmitri** – 116,288-299
**Mehdiyev Ramiz** – 37,108,157,170,200,287,312
**Merzlyakov Yuri** – 109,145
**Məcidov Hüseyn** –180
**Mədəd Məhəmməd** –162
**Məhəmmədquliyev Dəryaqulu** –219
**Məmmədov Fazil** –15
**Məmmədov Ziya** – 22,23,234,235,236
**Məmmədova Kəmalə** – 126
**Məmmədyarov Elmar** – 15,161,162,252
**Mixalos Konstantinos** – 58
**Mills Con** – 98
**Mirkazuni Məsud** – 161
**Mirzəzadə Böyükağa** – 201
**Mironyuk Svetlana** – 301
**Motlante Kqalema** – 282
**Muqabe Robert** – 231
**Mustafayev Eldəniz** – 129
**Mustafayev Şahin** – 15,161
**Muttəki Mənuçehr** – 77,157,162
**Müfti İzzət** – 319-321
**Narışkin Sergey** – 111,113-117
**Napolitano Ciorcio** – 229
**Obama Barak** – 26,214
**Ordubadi Məmməd Səid** – 178
**Orlova Svetlana** – 191
**Papandreu Georgios** – 45
**Papulyas Karolos** – 38,39,40,41,42-44,46-49,59, 171
**Paşayev Mir Cəlal** – 178
**Paşayeva Nərgiz** – 113-117
**Peres Şimon** – 283
**Pənah xan** – 178

**Pırvanov Georgi** – 99
**Ploşko Yozef** – 180
**Prometey** – 46
**Pueza Bruno** – 148
**Rasizadə Artur** – 12,19,37,67,108
**Rəfibəyli Nigar** – 178
**Rəhmon Zillur** – 173
**Romanyuk Nikolay** – 252
**Rzayev Rail** – 20
**Sadıqzadə Altay** – 205
**Sadovniçi Viktor** – 113-117
**Salahov Tahir** – 180,201
**Semnebi Piter** – 246
**Siufas Dimitris** – 65
**Solana Xavyer** – 246
**Strabon** – 46
**Şaxtaxtinskaya Elmira** – 201
**Şevçenko Taras** – 261
**Şirəliyev Oqtay** – 126
**Şreder Bill** – 267-268
**Tələbani Cəlal** – 280,281
**Todua Fridon** – 79
**Topçubaşov Əlimərdan bəy** – 179
**Umudov Firdovsi** – 243
**Usubov Ramil** – 100,124
**Vad Abdulay** – 189
**Vahabzadə Bəxtiyar** – 27
**Venediktov Aleksey** – 301
**Vəliyev Arif** – 162
**Yexanurov Yuri** – 253
**Yuşşenko Katerina** – 248,259
**Yuşşenko Viktor** – 248-265
**Zərdabi Həsən bəy** – 178
**Zərdari Asif** – 172

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abxaziya** | – 299 |
| **Abşeron (yarımada)** | – 95,232 |
| **Afina** | – 37-67 |
| **Ağcabədi** | – 91,119 |
| **Ağdam** | – 91,119,131 |
| **Ağdaş** | – 131 |
| **Ağsu** | – 131 |
| **Almaniya** | – 24,105,155,175 |
| **Almatı** | – 257 |
| **Amerika Birləşmiş Ştatları** | –24,26,104,119,145,214,270, 272,286 |
| **Amsterdam** | – 106 |
| **Araz çayı** | – 94 |
| **Argentina** | – 218 |
| **Asiya** | – 61,168 |
| **Avropa** | – 40,43,48,54,61,65,66,69,71, 82,142,168,178,201,243,244, 253,272 |
| **Bakı** | – 5,6,8,9,10,19,21,22,26,31,46, 65,68,69,75,76,78,88,95,98, 99,104,105,106,146,147,154, 171,172,173,175,179,189, 192,196,217,218,219,220, 223,229,230,231,232,245, 257,261,266,272,274,282, 283,284,285,291,294,300,312, 314,316,318 |
| **Banqladeş** | – 173 |
| **Batumi** | – 257,263 |
| **Belçika** | – 104 |
| **Beyləqan** | – 91,119 |
| **Bərdə** | – 118-124,131 |

**Biləsuvar** – 95
**Binəqədi** – 233
**Birləşmiş Ərəb Əmirlikləri** – 24
**Bolqarıstan** – 99
**Bruney** – 9
**Böyük Britaniya** – 270
**Buffalo** – 26
**Byutt** – 214
**Cənubi Afrika Respublikası** – 188,282
**Cənubi Qafqaz** – 239,246,296,311,312
**Cənubi Osetiya** – 299
**Çexiya** – 270
**Çin** – 24
**Dağlıq Qarabağ** – 32,34,43,54,63,73,109,145, 197,240,241,264,291,293, 301,304,308,310,320,321, 322,323
**Danimarka** – 230
**Davos** – 11
**Doha** – 68
**Estoniya** – 10
**Əlcəzair** – 68,274
**Fransa** – 24,109,110,145
**Füzuli** – 91
**Gəncə** – 88
**Goranboy** – 119
**Göyçay** – 131
**Gürcüstan** – 79,104,168,296
**Hindistan** – 24,234
**Horadiz** – 91
**Xankəndi** – 107
**Xatın** – 107
**Xırdalan** – 21,22,233
**Xəzər dənizi** – 31,66,88,110,219
**Xocalı** – 107-108,320

**İliçevsk** – 262
**İmişli** – 91
**İraq** – 280-281
**İran** – 5,6,24,77,104,157-170
**İrlandiya** – 147
**İsrail** – 270,283
**İsveçrə** – 24,273
**İtaliya** – 24,144,226,229,270
**Kazan** – 270
**Kerç** – 263
**Klaypeda** – 257,262
**Kür çayı** – 94
**Küveyt** – 8,12-19
**Koreya Respublikası** – 24,232
**Qafqaz** – 47,52,296,299,311,312
**Qana** – 98
**Qara dəniz** – 46,257
**Qazaxıstan** – 219
**Qətər** – 68
**Quzanlı** – 91
**Lerik** – 91
**Lənkəran** – 88
**Liditsa** – 107
**Litva** – 7
**Liviya** – 69
**London** – 244
**Lökbatan** – 233
**Mərkəzi Asiya** – 257,320
**Mingəçevir** – 131,133-143
**Minsk** – 224
**Moskva** – 32,288-299,301-312
**Naxçıvan MR** – 82,91
**Naxçıvan** – 88
**Niderland** – 285
**Oradur** – 107

**Orta Şərq** – 178
**Pakistan** – 172
**Paris** – 179
**Polşa** – 266
**Poti** – 257,263
**Rusiya** – 24,28-36,104,111,113-117, 137,139,141,145,174,191, 219,270,287-299,301-312
**Seneqal** – 189
**Səudiyyə Ərəbistanı** – 140
**Slovakiya** – 78,245
**Sumqayıt** – 21,22,105
**Şəki** – 131
**Şimali Qafqaz** – 311
**Tehran** – 157-170
**Tərtər** – 119,131
**Tripoli** – 69
**Tunis** – 146
**Türkiyə** – 11,24,40,47,104,106,156, 168, 234,270
**Türkmənistan** – 219
**Ukrayna** – 140,141,248-265
**Varşav** – 257
**Vatikan** – 284
**Vinnenden** – 175
**Yaxın Şərq** – 178
**Yaponiya** – 24,104
**Yardımlı** – 91
**Yevlax** – 118,125-132
**Yuxarı Qarxun** – 132
**Yunanıstan** – 37-67,171
**Zaqatala** – 88
**Zimbabve** – 231
**Zığ** – 233

# MÜNDƏRİCAT

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

*6 fevral 2009-cu il.......................................................................... 5*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*6 fevral 2009-cu il.......................................................................... 6*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDAS ADAMKUSA

*6 fevral 2009-cu il.......................................................................... 7*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*9 fevral 2009-cu il.......................................................................... 8*

BRUNEY DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏN AL BOLKİAHA

*9 fevral 2009-cu il.......................................................................... 9*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*9 fevral 2009-cu il.......................................................................... 10*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACAN İLƏ GÖRÜŞ

*9 fevral 2009-cu il.......................................................................... 11*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN KÜVEYTƏ RƏSMİ SƏFƏRİ

*10 fevral 2009-cu il........................................................................ 12*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHIN GÖRÜŞÜ

*10 fevral 2009-cu il*............................................................................ *14*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 fevral 2009-cu il*............................................................................ *15*

KÜVEYT TİCARƏT VƏ SƏNAYE PALATASI İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*............................................................................ *16*

KÜVEYT MİLLİ MƏCLİSİNİN SƏDRİ CASİM MƏHƏMMƏD ƏL-XƏRAFİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*............................................................................ *17*

KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

*10 fevral 2009-cu il*............................................................................ *18*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*10 fevral 2009-cu il*............................................................................ *19*

HÜQUQ MÜHAFİZƏ ORQANLARININ RƏHBƏR İŞÇİLƏRİNİN İŞTİRAKI İLƏ İCLAS

*11 fevral 2009-cu il*............................................................................ *20*

XIRDALAN DAİRƏSİNDƏ TUNEL TİPLİ YOLÖTÜRÜCÜNÜN AÇILIŞI

*12 fevral 2009-cu il*............................................................................ *21*

BAKI–QUBA–RUSİYA DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN 16-cı KİLOMETRİNDƏ YOLÖTÜRÜCÜNÜN AÇILIŞI

*12 fevral 2009-cu il........................................................................ 22*

BAKIDA BEYNƏLXALQ AVTOVAĞZAL KOMPLEKSİNİN AÇILIŞI

*12 fevral 2009-cu il........................................................................ 23*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*13 fevral 2009-cu il........................................................................ 26*

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN VİDA MƏRASİMİ

*14 fevral 2009-cu il........................................................................ 27*

«ROSSİYA» TELEKANALINDA «FORMULA VLASTİ» PROQRAMININ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ HƏSR EDİLMİŞ BURAXILIŞI

*14 fevral 2009-cu il........................................................................ 28*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YUNANISTANA DÖVLƏT SƏFƏRİ

*15 fevral 2009-cu il ....................................................................... 37*

PREZİDENT SARAYI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA

*16 fevral 2009-cu il ....................................................................... 38*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN TƏKBƏTƏK GÖRÜŞÜ

*16 fevral 2009-cu il* ........................................................................... *39*

AZƏRBAYCAN VƏ YUNANISTAN REZİDENTLƏRİNİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*16 fevral 2009-cu il*............................................................................ *40*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 fevral 2009-cu il*............................................................................ *41*

AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİNİN
BƏYANATLARLA ÇIXIŞLARI

*16 fevral 2009-cu il*............................................................................ *42*

YUNANISTAN PARLAMENTİNDƏ ƏSAS MÜXALİFƏT
PARTİYASININ SƏDRİ İLƏ
GÖRÜŞ

*16 fevral 2009-cu il* ......................................................................... *45*

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ
ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*16 fevral 2009-cu il*............................................................................ *46*

«VARDİNOYANNİS GROUP»UN İDARƏ HEYƏTİNİN
SƏDRİ VƏ «MOTOR OİL HELLAS»IN PREZİDENTİ İLƏ
GÖRÜŞ

*16 fevral 2009-cu il* ........................................................................... *50*

YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS KARAMANLİS
İLƏ GÖRÜŞ

*17 fevral 2009-cu il* ........................................................................... *51*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
YUNANISTANIN BAŞ NAZİRİ KOSTAS

KARAMANLİSİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*17 fevral 2009-cu il* ........................................................................ *52*

AZƏRBAYCAN–YUNANISTAN BİZNES- FORUMU

*17 fevral 2009-cu il* ........................................................................ *58*

YUNANISTAN PARLAMENTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ «ŞƏRƏF» MEDALININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*17 fevral 2009-cu il* ........................................................................ *65*

«BAKI– İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI–2009» MƏDƏNİYYƏT İLİNİN TƏNTƏNƏLİ AÇILIŞI

*18 fevral 2009-cu il*........................................................................ *68*

«BAKI–İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI –2009» MƏDƏNİYYƏT İLİNİN EMBLEMİNİN TƏQDİMATI MƏRASİMİ

*18 fevral 2009-cu il*........................................................................ *75*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*18 fevral 2009-cu il*........................................................................ *76*
.
İRANIN XARİCİ İŞLƏR NAZİRİ, AZƏRBAYCAN–İRAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ MƏNUÇEHR MUTTƏKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2009-cu il* ........................................................................ *77*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*23 fevral 2009-cu il*......................................................................... *79*

GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ
FRİDON TODUANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2009-cu il* ......................................................................... *79*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ
SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN
(2004–2008-ci İLLƏR) İCRASININ YEKUNLARINA HƏSR
OLUNMUŞ KONFRANS

*23 fevral 2009-cu il* ......................................................................... *80*

YEKUN NİTQİ ......................................................................... *92*

QANA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CON EVANS ATTA MİLLSƏ

*24 fevral 2009-cu il*......................................................................... *98*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ
CƏNAB GEORGİ PIRVANOVA

*24 fevral 2009-cu il*......................................................................... *99*

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HOSPİTALININ YENİ
BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ

*24 fevral 2009-cu il* ......................................................................... *100*

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN «TƏHLÜKƏSİZ ŞƏHƏR»
AVTOMATLAŞDIRILMIŞ İDARƏETMƏ MƏRKƏZİNİN
AÇILIŞI

*24 fevral 2009-cu il* ......................................................................... *103*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ

CƏNAB ABDULLAH GÜLƏ

*25 fevral 2009-cu il...................................................................... 106*

XOCALI SOYQIRIMI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2009-cu il ..................................................................... 107*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*27 fevral 2009-cu il ..................................................................... 109*

FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRER İLƏ GÖRÜŞ

*27 fevral 2009-cu il ..................................................................... 110*

RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*27 fevral 2009-cu il ..................................................................... 111*

KİKBOKSİNQ TƏŞKİLATLARI DÜNYA ASSOSİASİYASININ PREZİDENTİ ENNİO FALSONİ İLƏ GÖRÜŞ

*27 fevral 2009-cu il ..................................................................... 112*

BAKIDA M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FİLİALININ RƏSMİ AÇILIŞI

*27 fevral 2009-cu il ..................................................................... 113*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏRDƏ RAYONUNA SƏFƏRİ

*2 mart 2009-cu il* ........................................................................... *118*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
YEVLAX RAYONUNA SƏFƏRİ

*2 mart 2009-cu il* ........................................................................... *125*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏRİ

*3 mart 2009-cu il* ........................................................................... *133*

İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN
MÜAVİNİ ALFREDO MANTİKA İLƏ GÖRÜŞ

*3 mart 2009-cu il* ........................................................................... *144*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*3 mart 2009-cu il* ........................................................................... *145*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ

*5 mart 2009-cu il* ........................................................................... *146*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM MERİ MAKALİSƏ

*5 mart 2009-cu il* ........................................................................... *147*

BMT-nin AZƏRBAYCANDAKI REZİDENT
ƏLAQƏLƏNDİRİCİSİ VƏ BMT-nin İNKİŞAF
PROQRAMININ RƏHBƏRİ BRUNO PUEZANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2009-cu il* ........................................................................... *148*

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN YENİ HƏRBİ
HİSSƏSİNİN AÇILIŞI

*6 mart 2009-cu il ........................................................................ 149*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA
TƏBRİK

*7 mart 2009-cu il ........................................................................ 153*

ALMANİYANIN «RWE» ENERGETİKA ŞİRKƏTİNİN
PREZİDENTİ VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN
QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*9 mart 2009-cu il ........................................................................ 155*

TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİ KOMANDANI,
ORDU GENERALI ATİLLA İŞIK İLƏ GÖRÜŞ

*9 mart 2009-cu il ........................................................................ 156*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASINA
RƏSMİ SƏFƏRİ

*10 mart 2009-cu il ...................................................................... 157*

PREZİDENT SARAYINDA RƏSMİ QARŞILANMA
MƏRASİMİ

*10 mart 2009-cu il ...................................................................... 158*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ
MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

*10 mart 2009-cu il ...................................................................... 159*

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*10 mart 2009-cu il* ......... *160*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 mart 2009-cu il* ......... *161*

İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT

*10 mart 2009-cu il* ......... *163*

İRANIN ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*10 mart 2009-cu il* ......... *164*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
X ZİRVƏ GÖRÜŞÜ

*11 mart 2009-cu il* ......... *165*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*12 mart 2009-cu il* ......... *171*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*12 mart 2009-cu il* ......... *172*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA

*12 mart 2009-cu il* ......... *173*

RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 mart 2009-cu il* ......... *174*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HORST KÖLERƏ

*13 mart 2009-cu il* ......... *175*

AMEA-nın NİZAMİ GƏNCƏVİ ADINA AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 mart 2009-cu il* ........................................................................................ *176*

MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN MƏDƏNİYYƏT MƏRKƏZİNİN ƏSASLI TƏMİR EDİLMİŞ BİNASI İLƏ TANIŞLIQ

*14 mart 2009-cu il* ........................................................................................ *180*

MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN «N» HƏRBİ HİSSƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI VƏ HƏRBİ HİSSƏYƏ DÖYÜŞ BAYRAĞININ TƏQDİM EDİLMƏSİ

*14 mart 2009-cu il* ........................................................................................ *182*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «RADİOQURAŞDIRMA» ZAVODUNUN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI

*16 mart 2009-cu il* ........................................................................................ *184*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULAY VADA

*16 mart 2009-cu il* ........................................................................................ *189*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERMİŞDİR

*18 mart 2009-cu il* ........................................................................................ *190*

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 mart 2009-cu il* ........................................................................................ *191*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*19 mart 2009-cu il* ........................................................................................ *192*

YUNESKO-nun BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*19 mart 2009-cu il ........................................................................................ 193*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN ÜMUMXALQ
ŞƏNLİYİNDƏ

*20 mart 2009-cu il ........................................................................................ 194*

MÜASİR İNCƏSƏNƏT MUZEYİNİN AÇILIŞI

*20 mart 2009-cu il ........................................................................................ 201*

BAKIDA «MUĞAM ALƏMİ» BEYNƏLXALQ FESTİVALININ
RƏSMİ AÇILIŞI

*20 mart 2009-cu il ........................................................................................ 207*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA

*24 mart 2009-cu il ........................................................................................ 214*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK
ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

*28 mart 2009-cu il ........................................................................................ 215*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES
DE KİRŞNERƏ

*2 aprel 2009-cu il........................................................................................... 218*

XƏZƏRYANI ÖLKƏLƏRİN NƏQLİYYAT NAZİRLƏRİ İLƏ GÖRÜŞ

*2 aprel 2009-cu il........................................................................................... 219*

MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARININ
90 İLLİK YUBİLEYİ İLƏ BAĞLI BAKIYA GƏLƏN XARİCİ
ÖLKƏLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARININ YÜKSƏK
VƏZİFƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 aprel 2009-cu il........................................................................................... 220*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*6 aprel 2009-cu il........................................................................................... 229*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT
II MARQRETEYƏ

*6 aprel 2009-cu il*.......................................................................................... *230*

ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ROBERT QABRİEL MUQABEYƏ

*6 aprel 2009-cu il*.......................................................................................... *231*

BAKI ŞƏHƏRİNDƏ NƏQLİYYAT ƏMƏLİYYATLARININ
İNTELLEKTUAL İDARƏ EDİLMƏSİ SİSTEMİNİN İNZİBATİ
BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*6 aprel 2009-cu il*.......................................................................................... *232*

PAYTAXTIN MÜXTƏLİF YERLƏRİNDƏ YOLÖTÜRÜCÜ, KÖRPÜ-
TUNEL VƏ YERALTI PİYADA KEÇİDLƏRİNİN AÇILIŞI

*6 aprel 2009-cu il*.......................................................................................... *234*

TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASI

*6 aprel 2009-cu il*.......................................................................................... *237*

GÜLƏŞ ÜZRƏ MİLLİ KOMANDANIN ÜZVLƏRİ VƏ MƏŞQÇİLƏRİ
İLƏ GÖRÜŞ

*7 aprel 2009-cu il*.......................................................................................... *242*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*8 aprel 2009-cu il*.......................................................................................... *245*

AVROPA İTTİFAQI ŞURASININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2009-cu il*.......................................................................................... *246*

AVROPA ŞURASI MONİTORİNQ KOMİTƏSİNİN
HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİN VƏ XANIM
YEVGENİYA JİVKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*8 aprel 2009-cu il*.......................................................................................... *247*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR
YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*9 aprel 2009-cu il*........................................................................................ *248*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM
ƏLİYEVİN VƏ UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*9 aprel 2009-cu il*........................................................................................ *249*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ
ŞURASININ İLK İCLASI

*9 aprel 2009-cu il*........................................................................................ *250*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*9 aprel 2009-cu il*........................................................................................ *252*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT
ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*9 aprel 2009-cu il*........................................................................................ *254*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*9 aprel 2009-cu il*........................................................................................ *259*
1919–20-ci İLLƏRDƏ UKRAYNANIN AZƏRBAYCANDAKI XÜSUSİ
DİPLOMATİK MİSSİYASININ YERLƏŞDİYİ BİNADA XATİRƏ
LÖVHƏSİNİN AÇILIŞI

*10 aprel 2009-cu il*...................................................................................... *265*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*13 aprel 2009-cu il*...................................................................................... *266*

*bp*–AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ
BİLL ŞREDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*13 aprel 2009-cu il*...................................................................................... *267*

GƏNC TAMAŞAÇILAR TEATRININ BİNASINDA APARILMIŞ
BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*13 aprel 2009-cu il*...................................................................................... *269*

DÖVLƏT FİLM FONDUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ

*13 aprel 2009-cu il............................................................................................ 271*

İSVEÇRƏNİN HOLSİM GROUP ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ BAŞ DİREKTORU MARKUS AKERMAN İLƏ GÖRÜŞ

*14 aprel 2009-cu il............................................................................................ 273*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*14 aprel 2009-cu il............................................................................................ 274*

«QARADAĞ SEMENT» ASC-də YENİDƏNQURMA LAYİHƏSİNİN TƏQDİMATI VƏ YENİ SOBANIN TƏMƏLQOYMA MƏRASİMİ

*14 aprel 2009-cu il............................................................................................ 275*

İRAQIN TURİZM VƏ TARİXİ ABİDƏLƏR NAZİRİ KAHTAN ABBAS NOMAN ƏL-CUBURİ ALAVADİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 aprel 2009-cu il............................................................................................ 280*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KQALEMA PETRUS MOTLANTEYƏ

*15 aprel 2009-cu il............................................................................................ 282*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*15 aprel 2009-cu il............................................................................................ 283*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*15 aprel 2009-cu il............................................................................................ 284*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

*15 aprel 2009-cu il ........................................................................................... 285*

ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ,
ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*15 aprel 2009-cu il*............................................................................................ *286*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

*16 aprel 2009-cu il*............................................................................................ *287*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

*17 aprel 2009-cu il*............................................................................................ *288*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BƏYANATLARLA ÇIXIŞLARI

*17 aprel 2009-cu il*............................................................................................ *290*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*18 aprel 2009-cu il*............................................................................................ *300*

RUSİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*18 aprel 2009-cu il*............................................................................................ *301*

RUSİYANIN «VESTİ» KANALINA VƏ İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏ

*18 aprel 2009-cu il*............................................................................................ *302*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*20 aprel 2009-cu il*............................................................................................ *313*

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN KONFRANSININ İŞTİRAKÇILARINA

*20 aprel 2009-cu il*............................................................................................ *315*

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV OLAN DÖVLƏTLƏRİN HÜQUQ MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN BAKIDA KEÇİRİLƏN KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*21 aprel 2009-cu il*............................................................................................ *317*

QEYDLƏR ........................................................................................................ *325*

*Şəxsi adlar göstəricisi* ........................................................................................ *375*

*Coğrafi adlar göstəricisi* ..................................................................................... *379*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5.
Uçot vərəqi 26,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.